"Müasir mərhələdə Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin inkişaf etdirilməsi istiqamətləri və optimallaşdırılması yolları" adlı məqaləsində müəllif göstərmişdi ki, hər bir ölkədə gənclərlə bağlı həyata keçirilmiş olan dövlət siyasətinin hansı səviyyədə olmasından asılı olaraq həmin cəmiyyət haqqında ümumi təsəvvürə sahib olunur. Bu baxımdan məhz gənclər xüsusi sosial-demoqrafik qrup kimi ölkənin gələcək tərəqqisində mühüm rol oynayırlar. Gənclərin əhalinin digər qruplarından fərqlənməsi onların təhsili, dövlət və ictimai yeniləşmənin məqsəd və vəzifələrini bölüşməsi və qəbul etməsi, həyat perspektivləri ilə əlaqələndirilməsi, dövrümüzün qlobal çağırışlarına cavab vermək üçün zəruri keyfiyyətlərə malik olması ilə əsaslandırılır. Müəllif öz məqaləsində həmçinin, gənclərlə əlaqədar aparılan siyasətə belə tərif verir ki, o, cəmiyyətin və dövlətin, əhalinin müxtəlif qrup və təbəqələrinin, sosial institutların müstəqil demoqrafik qrup kimi gənclərə münasibəti, eləcə də gənclərin özünün əhalinin digər qruplarına, sosial institutlara və bütövlükdə cəmiyyətin dəyərlərinə münasibəti nəzərdə tutulur. Bu mürəkkəb, ziddiyyətli və çoxşaxəli vasitəçi münasibətlər sferası gənclərin sosial vəziyyətini və bununla yanaşı, sosial-iqtisadi, hüquqi, siyasi vəziyyəti, müəyyən səviyyə və həyat tərzini, son nəticədə həyat keyfiyyətini, uzunmüddətli perspektivdə isə iqtisadi fəal əhalinin konturlarını və keyfiyyət parametrlərini xarakterizə edən mühüm birlikdir. Məqalənin sonunda müəllif

tərəfindən ümumiləşdirmə aparılaraq qeyd edilir ki, müasir mərhələdə Azərbaycanda gənclər ölkənin dinamik inkişafında mühüm rol oynayır. Bu uğurların əsasında müəllifi ümummilli lider Heydər Əliyev olan dövlət gənclər siyasəti dayanır. Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, gənclər siyasətinin həyata keçirilməsində təkcə dövlət strukturları deyil, həm də gənclərin özləri də yaxından iştirak edirlər.

Açar sözlər: *"Gənclər" anlayışı, dövlətin gənclər siyasəti, Ulu Öndər Heydər Əliyev, "Gənclər siyasəti haqqında" Qanun.*

SUMMARY

In his article "Directions for the development of state youth policy in the Republic of Azerbaijan at the modern stage and ways to optimize it", the author showed that depending on the level of state policy implemented in each country regarding youth, a general idea of that society is formed. From this point of view, it is precisely young people, as a special socio-demographic group, who play an important role in the future progress of the country. The difference between young people and other groups of the population is justified by their education, sharing and accepting the goals and objectives of state and social renewal, their connection with life prospects, and the possession of the necessary qualities to respond to the global challenges of our time. In his article, the author also defines the policy carried out regarding youth in such a way that it implies the attitude of society and the state, various groups and strata of the population, social institutions to young people as an independent demographic group, as well as the attitude of young people themselves to other groups of the population, social institutions and the values of society as a whole. This complex, contradictory and multifaceted sphere of intermediary relations is an important unity that characterizes the social situation of young people, and at the same time, the socio-economic, legal, political situation, a certain level and lifestyle, ultimately the quality of life, and in the long term, the contours and quality parameters of the economically active population. At the end of the article, the author summarizes and notes that at the modern stage, young people in Azerbaijan play an important role in the dynamic development of the country. The basis of these successes is the state youth policy, the author of which is the national leader Heydar Aliyev. One of the features of the state youth policy implemented in Azerbaijan is that not only state structures, but also young people themselves are closely involved in the implementation of youth policy.

Keywords: *"Youth" concept, state youth policy, National Leader Heydar Aliyev, "Law on Youth Policy".*

UOT 327; 339.9
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.215

YAŞİL TEXNOLOGİYALAR MÜHİTİNİN BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ İNTEQRASİYA AMİLİ KİMİ AZƏRBAYCANDA İNKİŞAF İSTİQAMƏTLƏRİ

ŞÖVKƏT PƏNAHOVA
Odlar Yurdu Universiteti
E-mail: penahova.sovket@oyu.edu.az

SƏBİNƏ ƏLİYEVA
Odlar Yurdu Universiteti
E-mail:sabina.aliyeva@oyu.edu.az

Giriş

Azərbaycanın yaşıl texnologiyaya sadiqliyi onun dövlət siyasəti çərçivəsində öz əksini tapmışdır. Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bu qərar qlobal iqlim dəyişikliyi səylərində beynəlxalq həmrəyliyin gücləndirilməsinə yönəlib. Həmçinin Azərbaycan ötən il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-a ev sahibliyi edib. Respublikamızda "yaşıl enerji" siyasəti ilə bağlı bir sıra yeniliklərin olacağı gözlənilir. Şərqi Zəngəzur və Naxçıvanda bir sıra hədəflərə nail olunması qarşıda durub [bax: 8; 14].Azərbaycan hökumətinin məsələyə dayanıqlı tikinti materiallarının təşviqini, enerjiyə qənaət edən tədbirlərin həyata keçirilməsini, geniş ictimai maarifləndirmə kampaniyalarını əhatə edən çoxşaxəli yanaşması yaşıl tikinti təcrübələrinin mənimsənilməsində mühüm rol oynayır. Bu təşəbbüsləri həyata keçirməklə Azərbaycan ətraf mühitə təsiri azaltmağa, qiymətli resursları qorumağa və daha sağlam və dayanıqlı ətraf mühitin yaradılmasına nail olmağa çalışır. Bununla belə, bu siyasətin effektiv həyata keçirilməsində çətinliklər yaranır.

Azərbaycanın yaşıl texnologiyaya sadiqliyi ekoloji problemlərin azaldılması və davamlı inkişafın dəstəklənməsi istiqamətində mühüm addımdır. Siyasi strukturlar yaşıl texnologiyalar sahəsində hökumətin məqsədlərini, strategiya və təşəbbüslərini əks etdirən yol xəritəsi rolunu oynayır. Bu siyasət, bərpa olunan enerji, tullantıların idarə edilməsi, o cümlədən ekoloji cəhətdən təmiz həlləri də daxil olmaqla müxtəlif sektorları əhatə edir və ölkənin ətraf mühitin davamlılığına hərtərəfli yanaşmasını əks etdirir [bax: 2; 3; 15].

Güclü siyasət çərçivəsinə baxmayaraq, nəzəriyyədən praktikaya keçid zamanı problemlər yaranır. Yaşıl texnologiya təşəbbüslərinin effektiv həyata keçirilməsinə əngəl olan maneələri anlamaq üçün siyasətin formalaşdırılması və icrası arasındakı boşluqların araşdırılması vacibdir.

1. İnvestisiya və bərpa olunan enerji layihələri

Yaşıl texnologiyanın inkişafı çox vaxt böyük sərmayələr (investisiya) tələb edir. Azərbaycanda yaşıl startapların inkişafına kömək məqsədilə özəl investorlar üçün stimullar və beynəlxalq maliyyə institutları ilə potensial əməkdaşlıq kimi məsələlər böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, bir sıra yeni investorlarla müqavilələr imzalanıb. İmzalanan pilot layihələrlə bağlı işlər çox uğurla davam etdirilir. Azərbaycanın yaşıl energetika sahəsində beynəlxalq şirkətlərin iştirakı ilə layihələr 28 kVt-dan çox gücə çatır.

Azərbaycan həmçinin enerji istehsalını şaxələndirmək üçün yaşıl enerji layihələrini dəstəkləməkdə maraqlıdır. Son illərdə ölkədə yaşıl enerji zonalarının yaradılması və tədricən dekarbonizasiya prosesi vasitəsilə enerji sektorunda davamlı inkişaf başlanmışdır. Ölkənin bərpa olunan enerji istehsalı bərpa olunan enerji mənbələrindən daha çox elektrik enerjisi istehsal etməklə davamlı enerji gələcəyini dəstəkləməyi hədəfləyir. Bu proses elektrik enerjisi istehsalında təbii qazdan istifadənin azaldılması və onun Avropaya ixracının daha da artırılması üçün mühüm hədəf olacaq. Bununla əlaqədar Səudiyyə Ərəbistanının ACWA Power və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Masdar enerji şirkətləri ilə iki mühüm bərpa olunan enerji layihəsi imzalanıb. Masdar tərəfindən tikiləcək 230 MVt gücündə günəş elektrik stansiyası və ACWA Power tərəfindən tikiləcək 240 MVt gücündə Xızı-Abşeron külək elektrik stansiyası ölkənin davamlı enerji gələcəyinə və yaşıl enerji ixrac potensialına dəstək verəcək. Bu iki layihə 2030-cu ilə qədər ölkənin enerji sistemində bərpa olunan enerji mənbələrinin payının 30 faizə çatdırılmasında mühüm rol oynayacaq [bax: 9].

Respublikamızda *"Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında"* qanun mövcuddur və bu qanundan irəli gələn 4 alt qanunvericilik aktı təsdiq olunub. Bunların içərisində ən önəmlisi, Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq olunan *"Bərpa olunan enerji*

*mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"*nı qeyd etmək lazımdır. Həmin qayda birmənalı olaraq bütün bağlanan müqavilələr, keçiriləcək hərraclarla bağlı hüquqi çərçivəni müəyyənləşdirir və ölkənin növbəti investorlarla fəaliyyətində çox böyük önəm kəsb edir [bax: 12].

Özəl sektor investisiyalarının kifayət qədər olmaması ciddi problemlərdəndir. Özəl sektorun yaşıl texnologiyalar da daxil olmaqla layihələri maliyyələşdirməyə necə kömək edə biləcəyi ciddi araşdırılmalıdır. Ölkəmizin hazırkı planlarında olan istehsal həcmlərinin artması xaricdə, daha çox Avropada "yaşıl enerji"nin alıcılarının müəyyənləşdirilməsi istiqamətində qarşımıza çox ciddi hədəflər qoyur. Bu isə Azərbaycanın "yaşıl enerji" sahəsində investisiya cəlbediciliyini təqdim etmək üçün çox gözəl bir platformaya şərait yaradır [bax: 12].

2. Texnoloji imkanlar və Avropaya inteqrasiya

Azərbaycanın yaşıl sektorda texnoloji imkanlarını qiymətləndirmək, bərpa olunan enerji, tullantıların idarə olunması və ekoloji cəhətdən təmiz həllər sahəsində innovasiya (sərmayələr), yeni tədqiqatlar və inkişaf səviyyəsinin araşdırılması vacibdir.

Bunun üçün xarici təşkilatlarla əməkdaşlıq və texnologiya transferi kimi potensial həll yolları da nəzərdən keçirilməlidir. 1994-cü ilin sentyabrında Azərbaycan ilə 13 beynəlxalq enerji şirkəti arasında "Əsrin müqaviləsi" imzalanandan bəri Azərbaycan dünya enerji bazarlarına enerji, xüsusilə də xam neft ixrac etməyə başlayıb. Konkret olaraq, Azərbaycan təbii qazı "keçid yanacağı" kimi Avropa üçün mühüm enerji mənbəyidir, çünki o, kömür və digər qalıq yanacaqlardan daha az CO^2 emissiyasını buraxır [bax: 9].

Təbii qaz Avropanın bərpa olunan enerji təşəbbüslərini dəstəkləyir, çünki o, günəş və ya külək enerjisi təchizatındakı azalmaları tez bir zamanda kompensasiya edə və tələbatın qəfil artmasına reaksiya verə bilər. Məhz bu səbəbdəndir ki, təbii qaz, nəhayət, Avropa İttifaqının (bundan sonra - Aİ) "Yeni Yaşıl Sövdələşmə" çərçivəsində Avropa Komissiyasının təmiz enerji mənbələrinin "taksonomiyasına" daxil edilmişdir. Ona görə də Azərbaycan təbii qazının Cənub Qaz Dəhlizinin (SGC) Avropa hissəsi olan Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə Avropanın enerji bazarlarına ixracı tədarüklərin və marşrutların şaxələndirilməsi baxımından Avropanın enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edir [bax: 9; 17].

Son illər Azərbaycan təbii qazının Avropaya ixracının artırılması və yaşıl enerji sahəsində əməkdaşlıq imkanlarının araşdırılması məqsədilə Aİ ilə Azərbaycan arasında intensiv danışıqlar aparılıb. Bu məqsədlə 2022-ci il iyulun 18-də Azərbaycan və Avropa arasında imzalanmış "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" Azərbaycandan ixrac olunan təbii qazın və yaşıl enerjinin həcminin artmasına zəmin yaradıb. İmzalanan Anlaşma Memorandumuna əsasən, Azərbaycan 2027-ci ilə qədər təbii qazın Avropaya idxalını ildə ən azı 20 milyard kubmetr (mkm) artıracaq. Memorandum həmçinin region və Avropa arasında elektrik enerjisi ixracını dəstəkləmək üçün yaşıl enerjinin inkişafına yeni imkanlar yaradıb [bax: 9].

Azərbaycan bərpa olunan enerji mənbələrinin inkişaf etdirilməsində və öz elektrik enerjisinin Avropanın enerji istehlakçılarına ixracında çox maraqlıdır. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev Aİ-Azərbaycan enerji əməkdaşlığı fonunda 2022-ci il dekabrın 17-də Rumıniyada "Yaşıl enerji üzrə strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması ilə bağlı plenar iclasda iştirak edib. İmzalanmış sənəd Azərbaycandan elektrik enerjisinin Qara dənizin dibi ilə sualtı elektrik kabeli vasitəsilə Gürcüstandan cənub-şərqi Avropaya ixracını nəzərdə tutur. Rumıniya Prezidenti Klaus İohannis, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Macarıstanın Baş naziri Viktor Orban və Avropa Komissiyasının sədri Ursula fon der Leyenin iştirakı ilə Buxarestdə keçirilən plenar iclas Azərbaycan ilə tərəfdaşlar arasında möhkəm əməkdaşlığı nümayiş etdirir.

Tədbirdə Prezident İlham Əliyev vurğulayıb ki, *"Ölkəmiz Avropanın mühüm elektrik enerjisi, əsasən də yaşıl enerji təchizatçısına çevrilməyi planlaşdırır. Azərbaycanın bərpa olunan enerji potensialı quruda 27 giqavatdan çox külək və günəş enerjisi, Xəzər dənizinin Azərbaycan sektorunda isə 157 giqavat külək enerjisidir. Ölkəmizin strateji investorlarından biri ilə birlikdə 2027-ci ilə qədər 3 giqavat külək və bir giqavat günəş enerjisi istehsal etməyi planlaşdırırıq ki, bunun da 80 faizi ixrac ediləcək. 2037-ci ilə qədər biz ən azı 6 giqavat əlavə güc yaratmağı planlaşdırırıq"* [bax: 12].

Bu, onu göstərir ki, Azərbaycan yaxın gələcəkdə Avropa enerji bazarlarına təkcə təbii qaz ixracatçısı deyil, həm də yaşıl enerji ixracatçıs ı olmaq niyyətindədir.

Avropa Komissiyasının sədri Ursula fon der Leyen də qeyd edib ki, *"Bərpa olunan enerji mənbələrinin artan payını inteqrasiya etmək üçün bizə həqiqətən də daha güclü elektrik əlaqələri lazımdır. Bu səbəbdən Rumıniya, Gürcüstan və Azərbaycan arasında Qara dəniz elektrik kabeli çox vacibdir. Və yalnız deyə bilərəm: Nə qədər iddialı layihədir. O, bizi Qara dənizin hər iki tərəfində birləşdirəcək və həm rəqəmsal rabitə, həm də enerji üçün Xəzər dənizi regionuna doğru uzanacaq. Bu, bərpa olunan mənbələrdən elektrik enerjisini Rumıniya və Macarıstan vasitəsilə Avropa İttifaqına çatdırmaqla təchizat təhlükəsizliyimizi gücləndirməyə kömək edəcək"* [bax: 10].

"Azərbaycandan elektrik enerjisinin Avropaya ixracını təmin edəcək Qara dəniz sualtı kabel layihəsi qitə ölkələrinin enerji təhlükəsizliyini yüksəltmək məqsədi daşıyır". Bunu isə Enerji Siyasəti Qrupunun (EPG) Rumıniya üzrə baş elmi işçisi Andrey Kovatariu deyib. Onun sözlərinə görə, bu layihə iştirakçı ölkələrə böyük fayda gətirəcək: *"Avropa üçün bu layihə həm əlavə "yaşıl enerji" mənbəyi, həm də enerji təhlükəsizliyinin əhəmiyyətli dərəcədə artması demək olacaq"* [bax: 13].

Göründüyü kimi, Azərbaycan son illərdə öz iqtisadiyyatını modernləşdirmək və qalıq yanacaq asılılığından xilas olmaq üçün mühüm addımlar atıb. Hökumət bərpa olunan enerji, dayanıqlı kənd təsərrüfatı və ətraf mühitin mühafizəsinə sərmayələrə daha çox üstünlük verir. Texnoloji infrastruktur, tədqiqat və inkişaf (R&D) uğurları və yaşıl texnologiyaların mövcud sənayelərə inteqrasiyası baxımından yeni imkanlar yaranmaqdadır.

3. Texnologiya potensialının qiymətləndirilməsi

Azərbaycanın yaşıl sektorunda texnologiya potensialını müəyyən etmək üçün bu potensialın qabaqcıl Avropa təcrübəsinə uyğun olaraq müxtəlif cəhətlərini qiymətləndirmək lazım gəlir:

a). Tədqiqat və inkişaf infrastrukturu: Yaşıl texnologiyalara yönəlmiş elmi institutların, laboratoriyaların və innovasiya mərkəzlərinin vəziyyətinin qiymətləndirilməsi.

b) İnsan kapitalı: Davamlı inkişaf və təmiz enerji ilə bağlı sahələrdə ixtisaslı işçi qüvvəsinin və ekspertlərin mövcudluğunun qiymətləndirilməsi.

c) Texnologiyanın mənimsənilməsi: Enerji, nəqliyyat və kənd təsərrüfatı kimi əsas sektorlarda yaşıl texnologiyaların qəbulunun təhlil edilməsi.

d). İnnovasiya ekosistemi: Texnoloji innovasiyaları dəstəkləyən ekosistemi, o cümlədən tənzimləyici çərçivələr, maliyyələşdirmə mexanizmləri və sənaye tərəfdaşlıqlarının qiymətləndirilməsi.

e) Beynəlxalq əməkdaşlıq: Xarici resurslardan və təcrübədən istifadə etmək üçün Azərbaycanın beynəlxalq təşkilatlarda, elmi şəbəkələrdə və ikitərəfli tərəfdaşlıqlarda iştirakının öyrənilməsi [bax: 5].

4. İctimai maarifləndirmə və iştirak

Güclü yaşıl texnologiya ekosistemi ictimaiyyətin məlumatlı və iştirakçı olmasını tələb edir. Burada Azərbaycan əhalisi arasında ekoloji problemlər və davamlı təcrübələr haqqında məlumatlılıq səviyyəsinin araşdırılması nəzərdə tutulur. Yaşıl şüurlu bir cəmiyyət yaratmaq üçün təhsil təşəbbüsləri, media kampaniyaları və ictimaiyyətlə əlaqələrin qurulması çox vacibdir.

İctimai maarifləndirmənin hazırkı vəziyyətində insanların yaşıl texnologiyalara dair fikirləri, məlumat boşluqları, davamlı inkişaf və ətraf mühitin qorunması səyləri və digər fikirləri müzakirə olunur. Bundan əlavə, yaşıl texnologiyalar haqqında məlumatların geniş ictimaiyyətə yayılmasında mövcud kommunikasiya kanallarının və təbliğat proqramlarının effektivliyi artırılmalıdır [bax: 5].

4. Regional əməkdaşlıq və inteqrasiya

Yaşıl texnologiyanın inkişafı regional əməkdaşlıq üçün katalizator ola bilər. Azərbaycanın qonşu dövlətlərlə ətraf mühitlə bağlı münasibətlərini araşdıraraq, birgə layihələr, bilik mübadiləsi və ümumi resurslara müraciət vasitəsilə ekoloji problemlərin həll yollarının tapılması zərurəti yaranır.

Azərbaycanda yaşıl texnologiyaların inkişaf istiqamətləri və problemlərinin həllində regional əməkdaşlığın və inteqrasiyanın əhəmiyyəti əvəz edilməzdir. Mövcud regional dinamikanı, əməkdaşlıq təşəbbüslərini və inteqrasiya strategiyalarını tədqiq etməklə, yaşıl texnologiyanın qəbulu və tətbiqini inkişaf etdirmək üçün qonşu ölkələr və regional təşkilatlar arasında əməkdaşlığın genişləndirilməsi imkanlarını müəyyən etmək lazımdır.

Hazırda Azərbaycanın Naxçıvan bölgəsində Yaşıl Enerji Zonasının yaradılması ilə bağlı xüsusi konsepsiya hazırlanır. Qeyd etmək lazımdır ki, "yaşıl enerji" sahəsi ilə bağlı Naxçıvan xüsusi üstünlüklərə malikdir. Burada Günəş enerjisindən əldə olunan elektrik enerjisinin balanslaşdırılması məqsədilə istifadə edilə biləcək külək potensialı da

mövcuddur. Eyni zamanda bölgənin yaxınlığında Türkiyə kimi böyük bir bazar var və oraya ixrac imkanları nəzərdən keçirilir [bax: 7].

5. Tənzimləmənin uyğunlaşdırılması

Azərbaycanda yaşıl texnologiyaları tənzimləyən normativ baza araşdırılmalı, yerli qaydaların beynəlxalq standartlara uyğun olub-olmadığı təhlil edilməlidir. Tənzimləyicilərin uyğunlaşdırılmasının qlobal yaşıl iqtisadiyyata daha rahat inteqrasiyanı asanlaşdıra biləcəyi sahələrə diqqət yönəlməlidir.

Azərbaycanda yaşıl texnologiya layihələrinin uğurla həyata keçirilməsi üçün tənzimləyici problemlərin müəyyən edilməsi və həlli vacibdir. Burada bürokratik əngəllər, tənzimləyici qurumlar arasında koordinasiyanın olmaması və icradakı uyğunsuzluqlar kimi maneələr nəzərdə tutulur. Həmçinin siyasət dialoqu, potensialın gücləndirilməsi və beynəlxalq əməkdaşlıq vasitəsilə tənzimləyici ahəngdarlığın artırılması imkanlarını xüsusi olaraq qeyd etmək lazım gəlir [bax: 1].

Tənzimləyicilərin uyğunlaşdırılması xüsusən də Azərbaycan kimi iqtisadiyyatın şaxələndirilməsi və ekoloji davamlılığı hədəfləyən ölkələrdə yaşıl texnologiyaların qəbulu və tətbiqini asanlaşdırmaq üçün çox vacibdir. Burada inkişaf trayektoriyalarını formalaşdırmaq və Azərbaycanda yaşıl texnologiya sektorunun üzləşdiyi problemləri həll etmək üçün tənzimləyici çərçivələrin uyğunlaşdırılması çox vacibdir [bax: 5].

6. İqlim dəyişikliyinə uyğunlaşma

İqlim dəyişikliyinə uyğunlaşma Azərbaycanda yaşıl texnologiya sektorunun üzləşdiyi inkişaf trayektoriyalarının və problemlərin həllində mühüm əhəmiyyət kəsb edir. Burada riskləri azaltmaq və iqlimlə bağlı təsirlər qarşısında dayanıqlılığı artırmaq üçün iqlim dəyişikliyinə uyğunlaşma strategiyalarının yaşıl texnologiyaların inkişafı və tətbiqinə inteqrasiyasının vacibliyini xüsusi vurğulamaq lazımdır [bax: 6; 15].

Qabaqcıl Avropa ölkələrində aparılan tədqiqatlar iqlim dəyişikliyinin sosial-iqtisadi və ətraf mühit sistemlərinə mənfi təsirlərini aradan qaldırmaq üçün iqlimə davamlı texnologiyaların qəbulu və uyğunlaşma siyasətlərinin həyata keçirilməsi də daxil olmaqla, qabaqlayıcı tədbirlərin görülməsinə ehtiyac olduğunu ortaya qoyur. Azərbaycanda yaşıl texnologiyaların uğurlu tətbiqi üçün iqlim dəyişikliyi ilə bağlı problemlərin müəyyən edilməsi və həlli vacibdir. Qabaqcıl Avropa təcrübəsində bu sahədə məhdud resurslar, texnoloji məhdudiyyətlər və institusional potensial boşluqları kimi maneələr araşdırır, eyni zamanda iqlimə davamlı həllərdə innovasiya, investisiya və əməkdaşlıq imkanları müəyyənləşdirir [bax: 2; 4].

Azərbaycan iqlim dəyişikliyinin nəticələrinin aradan qaldırılması üçün tədbirlərə, o cümlədən ətraf mühitin yaxşılaşdırılmasına, yaşıl sahələrin bərpası və genişləndirilməsinə, su ehtiyatlarından səmərəli istifadəyə və dayanıqlı enerji mənbələrinə töhfə verməkdədir. Bu təşəbbüsləri həyata keçirməklə Azərbaycan ətraf mühitə təsiri azaltmağa, qiymətli resursları qorumağa və daha sağlam və dayanıqlı ətraf mühitin yaradılmasına nail olmağa çalışır.

Azərbaycan hökuməti işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında davam etməkdə olan yenidənqurma və inkişaf layihələri çərçivəsində prioritet kimi bu əraziləri "sıfır tullantılı zona"ya çevirməyi, həmçinin 2050-ci ilə qədər karbon qazı emissiyalarını 40 faiz azaltmağı planlaşdırır. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin yaşıl enerji potensialına su, günəş, külək, geotermal kimi bütün növ bərpa olunan enerji mənbələri daxildir. İşğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur regionu, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonaları elan edilib [bax: 11].

Nəticə

Nəticə olaraq, yaşıl texnologiyaların inkişafında Azərbaycanın keçdiyi yol çoxşaxəli tədqiqatdır. İrəliləyiş əldə olunsa da, siyasətin həyata keçirilməsində problemlər, maliyyə maneələri, texnoloji innovasiyalar, ictimai iştirakçılıq, regional əməkdaşlıq və tənzimləyicilərin uyğunlaşdırılması da daxil olmaqla problemlər qalmaqdadır. Bu problemlərin aradan qaldırılması Azərbaycanın ekoloji dayanıqlığını gücləndirməklə yanaşı, onun beynəlxalq əlaqələr və inteqrasiya səylərindəki yerini gücləndirəcək.

Mövcud çağırışları həll etməklə və güclü tərəflərdən istifadə etməklə Azərbaycan həm iqtisadi artıma, həm də ətraf mühitin qorunmasına töhfə verən yaşıl texnologiyalar sahəsində özünü regional lider kimi göstərə bilər. Müxtəlif enerji layihələri Azərbaycanın geosiyasi əhəmiyyətini artırır. Yaşıl enerjini dəstəkləməklə Azərbaycan elektrik enerjisi istehsalında təbii qaz və bərpa olunan mənbələrdən istifadəni balanslaşdıracaq və bu, ölkənin elektrik

enerjisi istehsalı və ixracı potensialını artıracaqdır. İnnovasiyaya sərmayə qoymaq, əməkdaşlığı inkişaf etdirmək və texnoloji inkişaf üçün əlverişli mühit yaratmaqla davamlı səylər bu vizyonun həyata keçirilməsində mühüm əhəmiyyət kəsb edəcəkdir.

Regional əməkdaşlıq və inteqrasiya da Azərbaycanda yaşıl texnologiyalar sektorunda inkişafın həlledici hərəkətverici qüvvəsidir. Regional tərəfdaşlıqları təşviq etməklə, siyasətləri uyğunlaşdırmaqla və sərhədyanı əməkdaşlığı təşviq etməklə, siyasətçilər davamlı inkişaf və yaşıl innovasiyalar üçün əlverişli mühit yarada və nəticədə ölkənin ekoloji cəhətdən daha təmiz və davamlı gələcəyə keçidinə töhfə verə bilərlər.

Sonda qeyd edək ki, Azərbaycanda yaşıl texnologiyaların inkişafına təkan vermək üçün tənzimləyicilərin uyğunlaşdırılması vacibdir. Tənzimləyici çərçivələri uyğunlaşdırmaqla, siyasətçilər yaşıl texnologiya sektorunda investisiya, innovasiya və davamlı inkişaf üçün əlverişli mühit yarada, nəticədə ölkənin daha ekoloji cəhətdən təmiz və davamlı gələcəyə keçidinə töhfə verə bilərlər.

Yekun olaraq qeyd edək ki, iqlim dəyişikliyinə uyğunlaşma Azərbaycanda yaşıl texnologiyaların inkişafı və tətbiqi üçün ayrılmazdır. Uyğunlaşma strategiyalarını yaşıl texnologiya təşəbbüslərinə inteqrasiya etməklə siyasətçilər, bizneslər və icmalar davamlılığı artıra, riskləri azalda və iqlim dəyişikliyi problemləri qarşısında dayanıqlı inkişafa töhfə verə bilərlər.

Açar sözlər: *Azərbaycan, yaşıl texnologiya, texnologiya potensialı, innovasiya, bərpa olunan enerji layihələri.*

ƏDƏBİYYAT SİYAHISI:

1. Azerbaijan moving toward more diversified, resilient, and inclusive deve-lopment (Edited by Aimee Hampel-Milagrosa, Aziz Haydarov, Kym Anderson, Jasmin Sibal, and Edimon Ginting), Augist 2020

2. Climate-resilient Infrastructure (policy perspectives), OECD Environment Policy Paper №14, December 2018

3. Elmoll A. Green technology and environmental sustainability: Benefits and challenges // September 2022. Conference: Fourth International Symposium on Materials, Electrochemistry and Environment, CIMEE22. At: Lebanese University, Lebanon.

4. Grüne Technologien für grünes Geschäft. Boston Consulting Group 2020.

5. Promoting Green Innovation Policy assessment and recommendations Azerbaijan. United Nations, Geneva (Switzerland), 2013.

6. WIPO (2022). Green Technology Book: Solutions for climate change adap-tation. Geneva: World Intellectual Property Organization. DOI: 10.34667 /tind.47093// https://www.wipo.int/edocs/pubdocs/en/wipo-pub-1080-en-green-technology-book.pdf

7. https://azertag.az/en/xeber/azerbaijan_is_a_regional_leader_in_green_energy_transition-2882830

8. https://interfax.com/newsroom/top-stories/97957/

9. https://aircenter.az/en/single/azerbaijan-and-europe-speed-up-the-green-energy-deal-1091

10. https://ec.europa.eu/commission/presscorner/detail/en/statement_22_7807 (Layden)

11. https://xalqqazeti.az/en/iqtisadiyyat/159974-new-straits-times-azerbaijan-targets

12. https://report.az/en/energy/javid-abdullayev-cop-29-will-be-a-great-platform-to-present-azerbaijan-s-investment-attractiveness-in-the-field-of-green-energy-interview/

13. https://report.az/en/energy/expert-submarine-cable-project-under-black-sea-to-increase-europe-s-energy-security/

14. https://president.az/en/articles/view/58221

15. https://www.undp.org/azerbaijan/press-releases/azerbaijan-marks-start-national-adaptation-plan-process-climate-change-resilience

Shovket Penahova, Sabina Aliyeva

Development directions of green technologies in Azerbaijan as an aspect of international relations andintegration

SUMMARY

Green technology occupies an important place in the efforts of international communities to overcome environmental problems and achieve sustainable deve-lopment. Azerbaijan, located at the crossroads of Europe and Asia, has joined this global trend. This article examines Azerbaijan's technological capabilities and inno-vation potential in the green sector. It examines the country's current technological landscape, identifies key areas of strengths and weaknesses, and discusses strategies for increasing

technological capabilities for sustainable development. Through a comprehensive analysis of existing literature, official documents, and case studies, this article provides insights into Azerbaijan's readiness for the introduction and innovation of green technologies. The presented article also discusses aspects of the development of green technologies in Azerbaijan and the challenges they face, and examines their impact on international relations and integration.

Keywords: *Azerbaijan, green technology, technology potential, innovation, renewable energy projects.*

Направления развития зеленых технологий в Азербайджане как фактора международных отношений и интеграции

РЕЗЮМЕ

Зеленые технологии занимают важное место в усилиях международного сообщества по преодолению экологических проблем и достижению устой-чивого развития. Азербайджан, расположенный на перекрестке Европы и Азии, присоединился к этой глобальной тенденции. В этой статье рассматриваются технологические возможности и инновационный потенциал Азербайджана в зеленом секторе. В ней рассматривается текущий технологический ландшафт страны, определяются ключевые области сильных и слабых сторон и обсуждаются стратегии повышения технологических возможностей для устойчивого развития. С помощью всестороннего анализа существующей литературы, официальных документов и тематических исследований эта статья дает представление о готовности Азербайджана к внедрению и инновациям зеленых технологий. В представленной статье также обсуждаются аспекты развития зеленых технологий в Азербайджане и проблемы, с которыми они сталкиваются, а также изучается их влияние на международные отношения и интеграцию.

Ключевые слова: *Азербайджан, зеленые технологии, технологический потенциал, инновации, проекты возобновляемой энергетики.*

UOT 327; 930.22
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.220

TRADE RELATIONS BETWEEN AZERBAIJAN AND ISRAEL: ECONOMIC BENEFITS AND FUTURE PERSPECTIVES

JAHANGIR HASANOV
Bakı Dövlət Universitetinin magistrantı
E-mail: hsnovcahangir978@gmail.com

Introduction

The long historical path of mankind and the rich experience gained show that the expansion of interstate economic and trade cooperation in the system of international relations, and the dominance of economic and business ideas in bilateral and multilateral relations are the main conditions for ensuring development, stability, prosperity, and security.

The relevance of the researched topic is conditioned, first of all, by the content and wide spectrum of Azerbaijan-Israel relations. These relations, which have a multifaceted scope and positive development dynamics, are expanding year by year. National Leader Heydar Aliyev's meetings with the leaders of the State of Israel at various international events, as well as the visits of the President of Israel Shimon Peres in 2009 and the Prime Minister of this country Benjamin Netanyahu in 1996 and 2016 to Baku show that there is a high-level political dialogue between the two countries. As a logical result of this dialogue, the cooperation relations in the field of economic and trade stipulate between the two countries continue today.

One of the points indicating the relevance of the topic is related to the evaluation of bilateral economic and trade relations in terms of time and their conditioning strategic and geographical factors.

Both countries continue to work towards strengthening economic and trade cooperation. Israel is among Azerbaijan's main trade partners. There is fruitful cooperation with Israel in the fields of mutual investment, as well as energy, agriculture, IT, innovation, pharmaceuticals, tourism, etc. Active work was carried out to expand relations between our business circles. Azerbaijan continues to advance joint investment projects with Israeli companies, fostering collaboration in industrial zones, agroparks, water management, and other sectors. Notably, the partnership emphasizes innovative development and the digital economy, areas of strategic importance for both nations. Azerbaijan has also rapidly strengthened its commercial and trade relations with Israel.

These factors collectively shape the evolving relationship between Azerbaijan and Israel. While there are significant areas of mutual interest and collaboration, navigating regional dynamics and international politics inevitably presents challenges. Despite this, both nations remain committed to identifying new opportunities for partnership and cooparation across diverse sectors.

Our nations enjoy strong and effective partnership across various fields, with Azerbaijan's strategic geographical location, economic stability, and the successful implementation of numerous projects fostering a favorable environment for Israeli companies to cooperate and invest. Additionally, the inauguration of the Azerbaijani embassy in Israel paves the way for elevating the relationship between our countries to an even higher level.

Trade relations between Azerbaijan and Israel: Economic benefits and future perspectives.

Israeli companies have established a notable presence in Azerbaijan's energy sector. For instance, Modcon Systems Ltd., an Israel-based provider of advanced technology solutions for the oil and gas industry, operates a branch in Azerbaijan. Despite this engagement, the overall volume of Israeli exports to Azerbaijan has remained relatively modest.

According to the Central Bureau of Statistics of Israel Foreign Trade, in 2010, Azerbaijan dwell in the 29 place among Israel's trade partners. Between 2002 and 2010, Israel ranked as the second or third largest trading partner of Azerbaijan in foreign trade, primarily driven by oil exports. The Baku-Tbilisi-Ceyhan (BTC) pipeline, co-owned by an international consortium, spans approximately 1,100 miles. It starts at the Sangachal terminal close to Baku, crosses through Azerbaijan, Georgia, and Turkey, and concludes at the Mediterranean port of Ceyhan. From there, the oil is shipped by tanker to global markets and Israel buys some of this oil directly or on the spot market and through secondary sales [3.s.1-3].

Azerbaijan and Israel share a multifaceted relationship, with a strong focus on energy security. One

of the key indicators of their growing partnership is Azerbaijan's role in supplying 40% of Israel's oil imports. High-level officials from both nations have engaged in discussions regarding the ongoing flow of Caspian oil to Israel, as well as Israel's potential for expanding its own gas fields [8.s.1-3].

Azerbaijan possesses significant expertise in hydrocarbon exploration and production, which Israel intends to leverage by engaging Azerbaijani specialists in mining operations within the Israeli sector of the Mediterranean Sea. The State Oil Company of Azerbaijan (SOCAR) had plans to provide Israel with equipment for exploratory drilling on the Mediterranean continental shelf at the offshore site "Yam-3." Shemen Energy, the investor in the project, acquired a controlling stake in July 2012. The company is chaired by Gaby Ashkenazi, a former Chief of Staff of the Israel Defense Forces.[7.s.2.]

In the same month, media outlets reported that Vagif Aliyev, head of SOCAR's investment department, confirmed that the Azerbaijani company would not only supply equipment but also operate drilling platforms to assist in exploring mineral resources off Israel's coast. SOCAR's subsidiary, Azerbaijan Caspian Drilling Company Ltd (CDC), acquired a 10-percent stake in Shemen Energy (formerly Med Ashdod), which conducts drilling operations in Israel's offshore oil fields. As reported by the Voice of Israel radio station, the initial two rigs were expected to arrive from Azerbaijan in September 2012. The reported contract with SOCAR was valued at no less than $80 million [9.s.1-2].

According to the President of the Azerbaijan-Isreal Business Forum, many Israel companies also operate in the energy sector of Azerbaijan. For instance, Israeli-based supplier of high technology to the energy industry, mainly oil and gas field, Modcom System Ltd. Opened an office in Azerbaijan In 2000. According to UN statistical analyses, the exports of Azerbaijan have increased from $323 million US dollars between 1997 and 2004 [8.s.1].

There is increasing covert cooperation between Azerbaijan and Israel in the energy sector. Israel ranks as the second-largest importer of Azerbaijani oil, following Italy. The annual trade volume between the two nations, largely fueled by oil exports, amounts to approximately $1.3 billion. Energy security plays a pivotal role in their bilateral relations, given Azerbaijan's extensive energy reserves and its strategic location as a key east-west corridor connecting the landlocked Caspian region with its petrochemical wealth and Central Asia's natural resources. Israel began importing Azerbaijani oil in 1991, shortly after Azerbaijan gained independence. Even before the BTC pipeline became operational and Israel's interest in accessing Azerbaijani oil through this route. Today, Israel relies almost entirely on oil imports, with nearly one-sixth of its crude supply coming from Azerbaijan [12.s.1.].

Energy remains a cornerstone of the partnership between Azerbaijan and Israel, with the construction of the BTC pipeline marking a significant milestone in their cooperation. The BTC oil pipeline was officially inaugurated on July 6, 2006, at a ceremony held in the Turkish Mediterranean port of Ceyhan. The presence of Israel's Minister of National Infrastructures, Binyamin Ben-Eliezer, underscored the pipeline's strategic importance for Israel's energy policy with Azerbaijan. He was among representatives from 36 nations who participated in the event. Additionally, Israel has expressed interest in extending the BTC pipeline to its Red Sea port in Eilat, aiming to facilitate the transport of Azerbaijani and Central Asian oil to markets in India, Japan, and South Korea via its Tipline infrastructure.

Israel meets the main part of its oil needs at the expense of Azerbaijan. The work done in the fields of economy, security, energy trade and culture further deepens our cooperation. Israel, which implements many projects in Azerbaijan, mainly imports electrical engineering, mechanical engineering and metalworking industrial products to our country. More than 40 percent of Azerbaijan's exports to Asian countries fall to Israel. Israel is also Azerbaijan's main supplier of weapons and high technologies.

Energy supply plays a vital role in the relationship between Azerbaijan and Israel. As one of Azerbaijan's key trade partners, Israel relies heavily on Azerbaijani crude oil to meet its energy needs. Both nations have expressed a mutual interest in enhancing partnership in the energy sector, including exploring opportunities for the development of renewable energy sources.

The Trade and Tourism Representative Office of Azerbaijan, inaugurated in Tel Aviv on July 29, 2021, has actively worked to strengthen ties between Azerbaijan and Israel in trade, humanitarian efforts, and other areas. Among its notable initiatives

was hosting an open meeting of the Israeli-Azerbaijani Chamber of Commerce and Industry in Shusha, Azerbaijan's cultural capital, on September 14, 2022. This event focused on exploring opportunities for collaboration between businesses from both nations [2.s.2.].

The Israel-Azerbaijan Chamber of Commerce and Industry has been instrumental in fostering economic ties between the two nations and promoting dialogue between the public and private sectors. It has significantly contributed to strengthening bilateral cooperation, supported Azerbaijan's stance during the Second Karabakh War, and facilitated the arrival of a large Israeli medical team in Azerbaijan to assist soldiers and civilians severely wounded during the conflict.

Works carried out in connection with the reconstruction of the drinking and waste water supply systems carried out in our country under the leadership of President Ilham Aliyev, and drew attention to the fact that the experience of the world's leading companies was used in the implementation of the projects: On April 12, 2023, by presidential order, a new phase of collaboration began. Partnerships with Israeli companies in the area of Caspian Sea water processing hold significant importance.

On September 8, 2023, an agreement was signed between the Azerbaijan State Water Resources Agency "Azersu" OJSC and Mekorot Water Company for providing technical consulting services as part of a seawater desalination project. Discussions were held on future cooperation in the drinking water supply sector. The company represented by Mekorot currently meets 90 percent of the country's drinking water demand, with around 60 percent of the water supplied to consumers coming from desalinated seawater. Mekorot Water Company and its affiliates are actively collaborating with various countries globally on seawater desalination and water management projects.

On July 16, 2024, discussions took place regarding Azerbaijan-Israel energy cooperation. During the meeting, both sides expressed satisfaction with the ongoing collaboration in the energy sector, particularly in the hydrocarbon industry. The conversation highlighted long-term partnership opportunities in oil supply, petrochemical product trade, and downstream projects, and explored future prospects for expanding these ties. [5.s.1-2]

Azerbaijan is actively pursuing projects to enhance the share of renewable energy in its overall energy mix, including the establishment of interregional "green energy corridors" to support this transition. Opportunities for partnership in "green energy" and other promising sectors were explored, highlighting the critical role of public-private partnerships in advancing these initiatives.

The establishment of Azerbaijan's embassy in Israel in March 2023 marked a significant milestone, signaling a new phase in bilateral relations. The Joint Commission between the Governments of Azerbaijan and Israel, alongside the Azerbaijan Trade Representative Office in Israel, serve as key platforms for fostering deeper cooperation between the two nations. Both countries remain committed to enhancing their economic and trade ties, with special emphasis on collaboration in the fields of innovative development and the digital economy, areas of particular importance for Azerbaijan.

The economic factor plays a pivotal role in shaping the relations between Azerbaijan and Israel. Israel was one of the key suppliers of advanced weapons used by Azerbaijan during the Second Karabakh War, which resulted in the liberation of its historically occupied territories from Armenia. Additionally, Azerbaijan is an important oil supplier to Israel. The strategic partnership between the two countries is reinforced by this dual exchange of military and energy resources. [9.s.1]

Approximately 40 percent of Israel's oil imports, totaling 40 million barrels or $1.5 billion, come from Azerbaijan. A significant development in trade relations occurred in April 2017 when both countries agreed to eliminate double taxation. Furthermore, in May 2021, Azerbaijani officials announced that economic cooperation and bilateral agreements with Israel would be expanded. [3.s.1-]

The relationship between Israel and Azerbaijan is built on mutual interests and shared political viewpoints, with the goal of fostering a broader strategic partnership. Some observers argue that the arms trade between the two nations is driven purely by commercial considerations and often portray it as a straightforward "oil-for-arms" arrangement. However, this perspective is deemed misleading. While both countries have established ties based on national interests, including economic cooperation and security collaboration, reducing their relationship to

a mere "exchange of oil for weapons" oversimplifies the matter. It is incorrect to limit the extensive strategic partnership between the two nations—particularly in areas such as national security—to such a narrow frame. Beyond military and intelligence cooperation, their collaboration also encompasses anti-terrorism efforts, as well as partnerships in education, science, and economic development.

Three sessions of the Joint Commission between the Government of Azerbaijan and the Government of Israel have taken place in Baku. I would like to highlight the significant progress in Azerbaijani-Israeli relations across various sectors, driven by mutual friendship and trust. The proportion of non-oil products in trade between the two countries continues to grow. However, there is still considerable potential to further diversify our trade relations. In particular, there is a substantial opportunity to expand the export of Azerbaijani non-oil products to the Israeli market, which remains largely untapped. There are broad prospects for cooperation in investment, innovations, information, agriculture, ecology, food, water, energy technologies, pharmaceuticals and biotechnology, food safety, cybersecurity, tourism, small and medium-sized businesses and other areas, and the private sector should increase its activity to realize this potential. In this context, business events held between business circles create additional opportunities for expanding the dialogue. Azerbaijan is keen to foster cooperation in the transfer of modern technologies between the two nations, with collaboration between relevant agencies playing a important role in advancing joint initiatives. Israeli companies could be encouraged to explore opportunities within the Alat Free Economic Zone and the Baku International Sea Trade Port, paving the way for the implementation of collaborative projects [5.s.1.].

30 july 2021, A Memorandum of Understanding has been signed between the Israeli company OurCrowd and the Azerbaijan Investment Company. The document envisages investment in startup projects, the application of advanced experience of leading Israeli companies in our country, cooperation in the field of innovations, ecosystem improvement. The implementation of the issues reflected in the memorandum will contribute to the rapid adoption of new technologies, their service to citizens and business interests, and the flexible adaptation of state institutions and businesses to new challenges. It should be noted that the company OurCrowd, founded in 2013, is an Israeli enterprise investment company. One of the world's largest crowdfunding platforms for securities, the company specializes in investing in startup companies operating in artificial intelligence, technology, transport, energy, healthcare, security and other fields. The company offers an investment platform for investors and institutions to invest in startups, early-stage companies and enterprise funds [2.s.1.].

Significant progress has been made in agricultural cooperation between Israel and Azerbaijan. A notable example is the Israel-Azerbaijan Agricultural Business Forum held in Tel Aviv in 2021. Organized by the Ministries of Agriculture of both countries and the Israel Export Institute, the event focused on creating key opportunities for exchanging best practices and strengthening existing partnerships. The forum highlighted the importance of establishing sustainable agriculture practices that balance environmental protection, food security, agricultural export growth, and social responsibility. In February 2023, the Azerbaijan-Israel Innovation Forum in Baku addressed the theme of "Agriculture and Education," where discussions centered on the application of modern innovative technologies in agriculture and the growing relation between the two countries in this sector.

The political and economic relations between Azerbaijan and Israel are at an advanced level. Gratitude was expressed for Israel's support of Azerbaijan's just cause during the 44-day Patriotic War, as well as for its humanitarian contributions. The meeting focused on the successful economic collaboration between the two countries, including the involvement of Israeli companies in various sectors of Azerbaijan's economy. The role of the Joint Commission between the Governments of Azerbaijan and Israel, as well as the Israel-Azerbaijan Chamber of Commerce and Industry, was highlighted as essential in fostering the growth of bilateral economic ties.

Azerbaijani-Israeli economic relations continue to thrive, with ongoing efforts to further enhance cooperation. It was emphasized that such events serve as vital platforms for advancing economic partnerships and strengthening connections between business communities. The establishment of Azerbaijan's Trade and Tourism Representations in Israel

introduces innovative tools to boost collaboration among entrepreneurs, fostering non-oil exports, improving the business climate, attracting investments, and enhancing tourism exchanges.

The vision is to position Azerbaijan as a cutting-edge hub for innovation, with ample opportunities for partnerships in key sectors such as energy, healthcare, digital transformation, investments, innovation, ICT, agriculture, water resource management, and tourism. The wealth of natural resources in liberated territories, alongside the development of comprehensive infrastructure networks—including highways, railways, airports, and the strategically important Zangezur corridor—presents extensive opportunities for investment. Simultaneously, efforts are being made to draw foreign investors to flagship initiatives like "Smart City," "Smart Village," and "Green Energy" projects. The Minister of Economy called on Israeli businesses to leverage Azerbaijan's attractive business and investment climate, inviting them to actively engage in realizing the country's economic potential through collaborative enterprises.

Conclusion

Trade and economic relations between the two countries have increased in accordance with the interests of the both states. Reviewing and analyzing the factual materials on these relations allows us to determine the state and development prospects of trade and economic cooperation. The advanced technology of the Azerbaijani oil industry and Israel has play an important place in economic cooperation. Economic and trade collaboration has laid the groundwork for strong relations between Azerbaijan and Israel. It is evident that various aspects of this partnership, particularly in the realms of commerce and economic development, are progressing steadily and moving in a positive direction. Azerbaijan has a great future. Over the past years, our country has developed and become an important state in the region. I can say that now Azerbaijan plays an active role in the development of the region as a whole. Of course, we also feel the help of our friends, and this will help us achieve our goals. We will become a stronger state economically, we will develop democracy. Stability and security in the region are also among the priority issues for us. I am sure that we will successfully fulfill the tasks we have set ourselves. The analysis shows that the Azerbaijani side viewed cooperation with the Jewish community around the world as one of the positive factors affecting all relations with Israel, including trade and economic relations.

Azerbaijan and Israel offer mutual support across various sectors, with high-level visits, meetings, and events playing a significant role in advancing their relationship. The Joint Commission between the Governments of Azerbaijan and Israel serves as a key platform for enhancing bilateral cooperation. Economic and trade relations between the two countries are also growing, with trade turnover rising by over 85 percent. Efforts to launch joint investment projects with Israeli companies are ongoing. There are ample opportunities to deepen the partnership in areas such as innovative development, digital economy, energy, industrial zones, agroparks, tourism, water management, food security, healthcare, and humanitarian efforts. Furthermore, involving Israeli companies in reintegration projects in Azerbaijan's liberated territories holds significant potential.

Discussing bilateral ties, I am confident that our relationship will continue to grow stronger. There is significant potential for expanding our economic partnership. Today, these matters were explored comprehensively, highlighting the steady progress in our economic relations, with trade turnover nearing $2 billion. We anticipate this figure will rise even further in the years to come. Our dialogue also included opportunities for cooperation in agriculture, tourism, science, technology, and healthcare. I am optimistic that we can identify effective solutions in these fields, fostering closer connections and strengthening our partnership across multiple sectors.

REFERENCES:

1. Abilov Shamkhal, "The Azerbaijani-İsrael Relations: A non-Diplomatic, But Strategic Partnership, Orta Asya ve Kafkasya Araştırmaları, sayı 8, Kış, ss.114-136, 2005.

2. Azerbaijan-Israel relations //http://lib.aliyev-heritage.org/az/8269149.html

3.Azərtac https://azertag.az › xeber › jerusale... Jerusalem Post: Celebrating 25 years of Azerbaijan-Israel Relations – AZERTAC

4.https://respublika-news.az/az/news/azerbaycan-israil-m4.

5.https://xalqqazeti.az/az/siyaset/124832-baki-

tel-eviv-dostlugun-yeni-ufuqleri

6. https://xalqqazeti.az/az/last-news/137531-azerbaycan-israil-dostlugu-tarixin-s6

7. https://lib.aliyevheritage.org/az/8269149.html

8.https://azerbaijan-news.az/az/posts/detail/azerbaycan-israil-terefdasligi-yeni-musteviye-qedem-qoyur-1679951040/285142

9. https://www.i24news.tv/en/tags/israel-azerbaijan-ties

10. https://www.haaretz.com/israel-news/2024-04-11/ty-article-magazine/.premium/how-strategic-relations-with-azerbaijan-became-the-business-of-the-lieberman-family/0000018e-c7d7-dd23-a3cf-e7d728a00000

11. https://www.israelhayom.com/2020/11/09/israel-azerbaijan-relations-likely-to-improve-following-abraham-accords/

12.The Jerusalem Post m.jpost.com Azerbaijan is important to Israel and Jews

13. Trend News Agency https://en.trend.az › ... › Busines Azerbaijan, Israel moot strategy to strengthen bilateral economic relation

XÜLASƏ

Bu məqalə Azərbaycan və İsrail arasında ticarət tərəfdaşlığını tədqiq edir, onların ikitərəfli münasibətlərinin iqtisadi üstünlüklərini və potensial inkişaf sahələrini vurğulayır. Coğrafi ayrılıqlarına və fərqli mədəni identikliklərinə baxmayaraq, Azərbaycan və İsrail son iki onillikdə nəzərəçarpacaq artım müşahidə edilən güclü ticarət ittifaqı yaradıblar. Tədqiqatda bu tərəfdaşlığa təsir edən tarixi keçmişi və siyasi amilləri araşdırmaqla başlayır, daha sonra enerji, kənd təsərrüfatı, qabaqcıl texnologiya və müdafiə kimi əsas sektorların ətraflı təhlili ilə başlayır.

Ticarət statistikası, ekspert fikirləri və nümunə araşdırmaları daxil olmaqla, keyfiyyət və kəmiyyət tədqiqat metodlarının birləşməsindən istifadə edərək, tədqiqat iki ölkə arasında iqtisadi qarşılıqlı asılılığa işıq salır. O, Azərbaycanın zəngin enerji ehtiyatlarının və İsrailin ən qabaqcıl texnoloji imkanlarının bir-birini tamamlayan təbiətini vurğulayır ki, bu da birlikdə qarşılıqlı iqtisadi fayda gətirir. Təhlildə bu əməkdaşlığın regional sabitlik və qlobal geosiyasət çərçivəsində daha geniş strateji nəticələri də nəzərdən keçirilir. Bundan əlavə, tədqiqat onların ticarət əlaqələrinin trayektoriyasına təsir göstərə biləcək iqtisadi qeyri-sabitlik, siyasi çağırışlar və dəyişən regional dinamika kimi potensial maneələri müəyyən edir. Məqalə əməkdaşlığı gücləndirmək üçün xüsusilə bərpa olunan enerji və kibertəhlükəsizlik kimi sektorlarda diversifikasiya və innovasiya üçün yollar təklif edərək, perspektivli bir dünyagörüşü təklif edir.

Açar sözlər: *İkitərəfli ticarət, enerji əməkdaşlığı, kənd təsərrüfatı texnologiyası, strateji tərəfdaşlıq, investisiya imkanları, iqtisadi artım*

SUMMARY

This article explores the trade partnership between Azerbaijan and Israel, highlighting the economic advantages and potential growth areas of their bilateral relationship. Despite their geographic separation and distinct cultural identities, Azerbaijan and Israel have cultivated a strong trade alliance that has seen remarkable growth over the past two decades. The discussion begins by examining the historical background and political factors influencing this partnership, followed by a detailed analysis of major sectors such as energy, agriculture, advanced technology, and defense.

Using a combination of qualitative and quantitative research methods, including trade statistics, expert insights, and case studies, the study sheds light on the economic interdependence between the two nations. It emphasizes the complementary nature of Azerbaijan's rich energy resources and Israel's cutting-edge technological capabilities, which together drive mutual economic benefits. The analysis also considers the broader strategic implications of this cooperation within the frameworks of regional stability and global geopolitics. Additionally, the research identifies potential obstacles, such as economic volatility, political challenges, and shifting regional dynamics, that could influence the trajectory of their trade relations. The article offers a forward-thinking outlook, suggesting pathways for diversification and innovation, particularly in sectors like renewable energy and cybersecurity, to strengthen their collaboration.

Keywords: *Bilateral trade, Energy cooperation, Agricultural technology, Strategic partnership,Investment opportunities, Economic growth.*

РЕЗЮМЕ

В этой статье рассматривается торговое партнерство между Азербайджаном и Израилем, подчеркиваются экономические преимущества и потенциальные области роста их двусторонних отношений. Несмотря на географическое разделение и различную культурную идентичность, Азербайджан и Израиль создали прочный торговый альянс, который за последние два десятилетия значительно вырос. Обсуждение начинается с изучения исторического фона и политических факторов, влияющих на это партнерство, а затем следует подробный анализ основных секторов, таких как энергетика, сельское хозяйство, передовые технологии и оборона.

Используя сочетание качественных и количественных методов исследования, включая статистику торговли, экспертные мнения и тематические исследования, исследование проливает свет на экономическую взаимозависимость между двумя странами. В нем подчеркивается взаимодополняющий характер богатых энергетических ресурсов Азербайджана и передовых технологических возможностей Израиля, которые вместе обеспечивают взаимную экономическую выгоду. Анализ также рассматривает более широкие стратегические последствия этого сотрудничества в рамках региональной стабильности и глобальной геополитики. Кроме того, исследование выявляет потенциальные препятствия, такие как экономическая волатильность, политические проблемы и меняющаяся региональная динамика, которые могут повлиять на траекторию их торговых отношений. В статье представлен дальновидный взгляд на вещи, предлагающий пути диверсификации и инноваций, особенно в таких секторах, как возобновляемые источники энергии и кибербезопасность, для укрепления их сотрудничества.

Ключевые слова: *Двусторонняя торговля, Энергетическое сотрудничество, сельскохозяйственные технологии, стратегическое партнерство, инвестиционные возможности.*

UOT 327; 339.9
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.221

AVROPA İTTİFAQININ TƏRƏFDAŞ DÖVLƏTLƏRLƏ ƏMƏKDAŞLIĞININ MÖVCUD LAYİHƏLƏRİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

GÜNEL ALLAHYAROVA
Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər və İqtisadiyyat fakültəsinin I kurs doktorantı
E-mail: gallahyarova1996@gmail.com

GİRİŞ

Bipolyar beynəlxalq sistemin 1992-ci ildə sona çatdığı "Soyuq müharibə"dən sonrakı dövrdə Maastrixt müqaviləsi ilə iqtisadiyyat, ədalət və daxili işlər və xarici siyasət və həmçinin təhlükəsizlik siyasətinin daşıyıcı sütunları üzərində "Avropa Birləşmiş Ştatlar"nın əsasının qoyulması hədəfi olaraq irəli sürülmüşdür. Beləliklə, inteqrasiya olunmuş Avropanın, tək və birləşik nəhəng güc kimi beynəlxalq sistemdə həlledici rol oynayan qlobal aktor halına gəlməsi planlaşdırılırdı. Bu məqsədlə bütün qitədə sürətlə artan iqtisadi, siyasi və coğrafi inteqrasiyanın tamamlanması nəzərdə tutulurdu.

Bu mərhələdə, Avropanın inteqrasiyasının institusional strukturunu təmsil edən Avropa İttifaqı, regional səviyyədə sülh və firavanlığa töhfə vermək baxımından nümunəvi regional inteqrasiya modelini təmsil etməkdədir.

Avropa İttifaqı dünya dövlətləri ilə əməkdaşlıq edərək beynəlxalq arenada həm iqtisadi, həm də siyasi müstəvidə müsbət mövqeyini qorumağı ön planda saxlayır. Xüsusilə son illərdə qeyri-üzv dövlətlərlə münasibətləri yeni mərhələyə qədəm qoyması və siyasi əlaqələrdə əhəmiyyətli irəliləyişlərin müşahidə olunması dünyada getdikcə qütbləşmənin artdığı bir dövrdə olduqca müstəsna addımdır. İttifaq ilə bu dövlətlərin strateji tərəfdaşlıq və əməkdaşlıq münasibətlərinin inkişafı beynəlxalq nüfuzuna və iqtisadi gücünə də müsbət təsir göstərir. Avropa İttıfaqı tərəfdaş dövlətlərlə münasibətlərini bir neçə müstəvidə aparmaqla qlobal təsirini artırır və regional stabilliyi gücləndirir. Bir tərəfdən, İttıfaqın tərəfdaş dövlətlərlə əməkdaşlığı regional münaqişələrin həllinə və regional sabitliyin qorunmasına yönəlmiş birgə səyləri əhatə edir. Digər tərəfdən, iqtisadi əməkdaşlıq, ticarət mübadiləsi və investisiyaların artırılması İttıfaqın iqtisadi inkişafına stimul verir və regional iqtisadi münasibətlərin dərinləşməsinə səbəb olur. Əməkdaşlığın irəli səviyyəyə aparılması və nəticədə rəqib dövlətlərin tərəfdaş dövlətlərə çevrilməsi regionda təhlükəsizlik və stabilliyi artırmağa səbəb olur. Məsələn, ABŞ ilə strateji əhəmiyyətli bir çox mövzuda fərqli yanaşmalar, Çinin qlobal güc kimi yüksəlməsi nəticəsində yaranan mürəkkəb geosiyasi vəziyyət, Rusiya ilə Ukrayna böhranından sonra korlanan və hələ də problemli qalan münasibətlər və eyni zamanda bütün bunlar haqqında üzv dövlətlər arasındakı fikir ayrılığı Aİ-nin xarici siyasətini sınağa çəkən çağırışlardan yalnız bəzilərdir. Birliyin tərəfdaş dövlətlərlə əməkdaşlığı bir neçə beynəlxalq və regional səviyyədəki əhəmiyyətli layihələr vasitəsilə genişlənir. Bu layihə və proqramlar üzrə Birlik ilə tərəfdaş dövlətlərin arasında artan əməkdaşlığın və inteqrasiyasının müsbət nəticələri zaman keçdikcə digər qeyri-üzv dövlətlərin də İttifaqa qoşulmaq istəyinə sövq edir.

Avropa Qonşuluq Siyasəti

İlk nümunə olaraq, Avropa İttifaqı üçün onun qonşuluğunda sabitlik və təhlükəsizlik məsələsi vacibdir. Məhz bu məqsədlə Avropa İttifaqı şərq və cənubdakı qonşuları ilə əməkdaşlığı əhatə edən "Avropa Qonşuluq Siyasətini" yaradıb. Avropa Birliyinin son illərdə vurğuladığı strateji siyasət alətlərindən biri olaraq; Aralıq dənizi, Şərqi Avropa və Cənubi Qafqaz ətrafında qonşu və ya yaxın dövlətlərlə hərtərəfli tərəfdaşlıq və əməkdaşlığı nəzərdə tutan yeni Avropa Qonşuluq Siyasətidir. Avropa Qonşuluq Siyasəti (ENP) Aİ-nin 16 ən yaxın Şərqi və Cənub qonşuları ilə münasibətlərini tənzimləyir. Avropa Qonşuluq Siyasəti (ENP) Avropa İttifaqının sərhədlərinin cənubunda və şərqində yerləşən qonşu ölkələrə münasibətdə xarici siyasətidir və bu ölkələrlə əməkdaşlığın əsas mexanizmidir. Avropa qonşuluq siyasətinin məqsədi Avropa İttifaqının sabitliyini, təhlükəsizliyini və rifahını qonşu ölkələrlə bölüşməkdir. Əsas prinsiplərdən biri daxili islahatların həyata keçirilməsində qonşu ölkələrə kömək etmək istəyidir. Avropa Qonşuluq Siyasəti demokratiya, sabitlik və rifahı yaymaqla vahid və azad Avropa ideyasını həyata keçirməyə xidmət edən Avropa İttifaqı ilə qonşu ölkələr arasında siyasi, iqtisadi və mədəni yaxınlaşma prosesini dəstəkləyir. Sözügedən ölkələrin tamhüquqlu üzvlük olmasa belə, İttifaqın siyasi, iqtisadi və sosial dəyərləri çərçivəsində inteqrasiyasını özündə ehtiva edən qabaqcıl baxışı

olan bu siyasətin ortaya çıxması əsasən Birliyin üzləşdiyi çox mühüm problemlərin həllinə və Birliyin bəzi qlobal strategiyalarının həyata keçirilməsinə yönəlmişdir [2, s.43]. Birinci məqsəd baxımından Birliyin məruz qaldığı qeyri-qanuni immiqrasiya, narkotik və qadın ticarəti və enerji çatışmazlığı problemlərinin həllində istifadə edilməsi nəzərdə tutulan Avropa Qonşuluq Siyasəti; İkinci məqsəd baxımından İttifaqın təsir dairəsini genişləndirmək və qlobal balanslarda söz sahibi olmaq vasitəsi kimi nəzərdə tutulur.Fəaliyyət planı qonşuluq təşəbbüsünün bütün ölkələri ilə münasibətlərdə ümumi prinsiplərə əsaslanır, amma onun məzmunu konkret ölkə ilə mövcud əməkdaşlığın səviyyəsinə, ölkənin ehtiyaclarına və ümumi maraqlarına görə fərqlənir. Fəaliyyət planının həyata keçirilmə prosesinə Avropa İttifaqının Xüsusi Komissiyası və Avropa Xarici Fəaliyyət Xidməti nəzarət edir (European External Action Service) və ildə bir dəfə Avropa İttifaqı fəaliyyət planının icrasına dair hesabat dərc edir.

Şərq Tərəfdaşlığı

Şərq Tərəfdaşlığı (ŞT) Avropa Qonşuluq Siyasətinin (ENP) 2009-cu ildə istifadəyə verilən xüsusi hissəsidir. Bu tərəfdaşlığın məqsədi Avropa İttifaqı, ona Üzv dövlətlər və altı Şərqi Avropa, Ermənistan, Azərbaycan, Belarus, Gürcüstan, Moldova və Ukrayna kimi tərəfdaş ölkələr ilə siyasi və iqtisadi əlaqələri gücləndirmək və dərinləşdirməkdir.

Şərq Tərəfdaşlığı proqramı İqlim Dəyişikliyi üzrə Paris Sazişi və BMT-nin 2030-cu il üzrə proqramı və Dayanıqlı İnkişaf Məqsədləri kimi bir çox siyasət məqsədlərinə çatmağa dəstək verir. O Avropa İttifaqının xarici və təhlükəsizlik siyasəti üzrə Qlobal Strategiyasında Aİ-nin qonşularının sabitliyi, rifahı və dayanıqlığının artırılması ilə bağlı ümumi məqsədə öz töhfəsini verir.

Aİ, ona üzv ölkələr və tərəfdaş ölkələr Şərq Tərəfdaşlığı üzrə aşağıdakı məqsədlər üzrə birgə çalışacaqlar [5, s.32]:

• möhkəm, dayanıqlı və inteqrasiya olunmuş iqtisadiyyatlar üçün əməkdaşlıq;

• cavabdehlik daşıyan qurumlar, qanunun aliliyi və təhlükəsizlik üçün əməkdaşlıq;

• ətraf mühit və iqlim dəyişikliyi sahəsində dayanıqlığın əldə olunması üçün əməkdaşlıq;

• dayanıqlı rəqəmsal transformasiya üçün əməkdaşlıq;

• möhkəm, ədalətli və inklüziv cəmiyyətlər üçün əməkdaşlıq.

Cənub Qaz Dəhlizi layihəsi

1997-ci ildən bünövrəsi qoyulmuş bu dəhliz 2003-cü ildə layihənin rentabelsizliyi ehtimalı, eyni zamanda, digər təzyiqlərin və bürokratik proseslərin nəticəsi olaraq reallaşmamışdı. Nəhayət, "Cənub Qaz Dəhlizi" layihəsinin təməli 2014-cü ilin sentyabr ayının 20-də qoyulub. Bununla da, Azərbaycan qazı ilə Avropanın təchiz edilməsinə start verildi. 2014-cü ildə bu proseslərin hüquqi status alması, proseslərdə idarəçiliyin daha yüksək səviyyədə aparılması məqsədilə Prezident İlham Əliyev tərəfindən Cənub Qaz Dəhlizi Qapalı Səhmdar Cəmiyyəti yaradıldı. 2015-ci ildən isə Cənub Qaz Dəhlizi Məşvərət Şurasının toplantıları keçirilməyə başladı və bu günədək davam edir. Aİ ilə Cənubi Qafqaz ölkələri arasındakı tərəfdaşlıq münasibətlərində 2014-2017-ci illər arasındakı dövrdə Cənub Qaz Dəhlizi, Tanap, tap və Yeni Əsrin müqaviləsi kimi layihələrə start verilmişdi ki, bunlar enerji sahəsindəki əməkdaşlığın perspektivlərini aydın şəkildə göstərirdi. Bununla da, regiondakı dövlətlərin əhəmiyyəti Avropa İttifaqı üçün artmışdır. Xüsusilə Azərbaycan ilə İttifaq arasında Adriatik Boru Kəməri (TAP), Trans Anadolu Boru Kəməri (TANAP), Cənub Qaz Dəhlizi kimi enerji layihələri ilə yeni mərhələdə tərəfdaşlıq və əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir. Azərbaycanın mühüm geostrateji ərazidə – Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin mərkəzində yerləşməsi onun regiondakı əhəmiyyətli aktor rolunun əsas səbəblərindən biridir. Azərbaycanın təşəbbüsü ilə reallaşan meqa layihə – Cənub Qaz Dəhlizi regionun hazırkı mürəkkəb geosiyasi vəziyyəti fonunda Avropa ölkələrinin enerji tələbatını ödəməklə paralel, Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində inkişafa əhəmiyyətli təsir göstərir [1, s.4]. CQD-nin əsas məqsədi "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi çərçivəsində hasil edilən təbii qazın genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP vasitəsilə Türkiyəyə və Cənubi Avropaya ixracını təmin etməkdir. Təməli "Əsrin müqaviləsi"nin 20 illiyi qeyd edilən gün – 2014-cü ilin sentyabrın 20-də qoyulan, 2018-ci il mayın 29-da rəsmi açılışı olan layihənin ümumi dəyəri 33 milyard ABŞ dollarıdır. Azərbaycandan İtaliyayadək uzanan, 3500

kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi 7 ölkənin iştirakı ilə qurulub və ilbəil yeni interkonnektorlarla bu sistemə qoşulmaq təşəbbüsləri çoxalır. Nəticə etibarilə, Azərbaycan bu gün Cənub Qaz Dəhlizi vasitəsilə 10 Avropa ölkəsinə qaz ixrac edir ki, onlardan 8-i Avropa İttifaqının üzvüdür. Bu baxımdan təsadüfi deyildir ki, Aİ liderləri tərəfindən Azərbaycan "etibarlı tərəfdaş qaz təchizatçısı" kimi tanınır. Təqdirəlayiq hal ondadır ki, Avropa ölkələri hər zaman birgə əməkdaşlığa can atan tərəf kimi daha çox ön plandadırlar, müxtəlif siyasi platformalarda, forum və görüşlərdə enerji hasilatını artırmaq üçün təşəbbüslər irəli sürür, təkliflər edirlər [9, s.70]. 2022-ci ilin iyulun 18-də Azərbaycan və Avropa Komissiyası arasında "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"-nun imzalanması da bu fikirlərin təsdiqidir. "Qoca qitə"nin enerji təhlükəsizliyinə ciddi töhfələr verən Cənub Qaz Dəhlizi təkcə iqtisadi deyil, həm də siyasi cəhətdən daim dünyanın aparıcı dövlətlərinin xüsusi marağındadır. Bu baxımdan Avropa İttifaqı ilə yanaşı, ABŞ-nin layihənin reallaşması yönündə verdiyi mühüm dəstəyi də diqqətə çəkmək olar. Xüsusən də Donald Trampın birinci hakimiyyəti dövrü CQD-nin reallaşması istiqamətində ciddi addımların atılması ilə nəticələnib. Cənub Qaz Dəhlizi artıq qitələri birləşdirən, ölkələrarası siyasi yaxınlaşmanı təmin edən, mədəni əlaqələri gücləndirən, iqtisadi əməkdaşlığı dərinləşdirən universal beynəlxalq platformaya çevrilib. Uzunluğu 3500 kilometr olan inteqrasiya edilmiş boru kəməri sistemi olan bu layihə enerji təhlükəsizliyi və əməkdaşlıq layihəsidir. Çünki Cənub Qaz Dəhlizinin keçdiyi marşrut boyunca yerləşən bütün ölkələr arasında əməkdaşlıq olmasa, bu layihənin həyata keçirilməsi mümkün olmazdı". Bu layihə çərçivəsində Azərbaycan, Türkiyə, Gürcüstan, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliyanın komanda şəklində qazandığı nailiyyət təqdirə layiqdir.

Xatırladaq ki, TANAP Türkiyə-Gürcüstan sərhədində birbaşa Cənubi Qafqaz Boru Kəməri (SCP) ilə birləşir, Türkiyə-Yunanıstan sərhədində isə TAP-la birləşəcəkdir. TANAP-la bağlı Azərbaycan və Türkiyə respublikaları arasında Anlaşma Memorandumu 24 dekabr 2011-ci il tarixində imzalanmışdır. TANAP layihəsi üzrə Türkiyə Respublikası və TANAP şirkəti arasında "Tranzit Ərazisinə Malik Ölkənin Hökuməti ilə Saziş" Azərbaycan və Türkiyə respublikaları arasında "Hökumətlərarası Saziş" 26 iyun 2012-ci il tarixində imzalanmış və hər iki dövlətin müvafiq hüquqi instansiyaları tərəfindən ratifikasiya olunmuşdur [9, s.82].

TAP Türkiyə-Yunanıstan sərhədində birbaşa TANAP-la birləşəcək və Yunanıstan, Albaniya ərazilərindən, həmçinin Adriatik dənizindən keçərək təbii qazı Cənubi İtaliyaya nəql edəcəkdir. Təbii qazın Azərbaycan Respublikasından Avropa bazarlarına ixracının ən qısa və birbaşa marşrutunu təşkil etdiyi üçün TAP-ın Avropa Birliyinin enerji təhlükəsizliyi və enerji mənbələrinin şaxələndirilməsinə görə strateji məqsədlərində əsas rol oynayacağı gözlənilir [7]. Bundan əlavə, TAP lazımi təqdirdə təbii qazın Cənub-Şərqi Avropaya yönəltmək üçün texniki imkanlara malik olacaqdır. TAP layihəsi üzrə Albaniya, İtaliya və Yunanıstan respublikaları arasında "Hökumətlərarası Saziş" 2013-cü ilin fevral ayında imzalanmışdır. TAP-ın təməlqoyma mərasimi 17 may 2016-cı il tarixində keçirilmişdir.

INOGATE Proqramı

INOGATE Proqramı - Avropa İttifaqı, Qara dəniz ətrafı və Xəzər dəniz ətrafı ölkələr, həmçinin onlarla qonşu ölkələr arasında energetika sferası üzrə beynəlxalq əməkdaşlıq layihəsidir. INOGATE Proqramı çərçivəsində həyata keçirilən layihələr Avropa Komissiyası tərəfindən maliyyələşdirilir və onların icraçıları da müvafiq tender əsasında ölkələrin heç bir iştirakı olmadan AK tərəfindən müəyyənləşdirilir. INOGATE Proqramı öz fəaliyyətinə 1995-ci ildə başlayıb, ilkin vaxtlarda ancaq neft və qaz sahəsini əhatə edib. Sonradan tərəfdaş ölkələrin əməkdaşlığı bu proqramın səlahiyyətlərinin genişləndirilməsi üçün müəyyən potensialların və arzuların mövcudluğuna gətirib çıxarıb [11].

Bu prosesdə INOGATE Tərəfdaş ölkələrin 2004-cü ildə Azərbaycanda keçirilən Nazirlər Konfransında qəbul edilmiş "Bakı təşəbbüsü" mühüm rol oynayıb. İştirakçı dövlətlər bu görüşdə öz regionlarında regional enerji bazarının inkişafına dəstəkdə, enerjidaşıyıcıların dayanıqlı və təhlükəsiz nəqlində, yeni enerji infrastrukturlarının yaradılmasına investisiyaların cəlb olunması üçün ölçülər götürülməsində, enerji səmərəliliyi siyasəti və proqramının yerinə yetirilməsində, həmçinin onların enerji bazarlarının Aİ bazarına inteqrasiyasında tədricən müvəffəqiyyət əldə olunmasında ümumi maraqlarının

olduğunu təsdiq ediblər.

INOGATE Proqramının inkişafında digər mühüm bir addım 2006-cı ilin noyabr ayında Qazaxıstanda keçirilmiş Nazirlər Konfransı hesab edilir. Konfransın yekun sənədi olaraq Astana Bəyannaməsi imzalanıb. Sənəd vasitəsilə Aİ, Qara Dəniz və Xəzər Dənizi hövzəsi ölkələri arasında enerji üzrə əməkdaşlığın aşağıda qeyd edilmiş olan 4 prioritet sahə üzrə həyata keçirilməsi müəyyənləşdirilib:

1. İştirakçı ölkələrin xüsusiyyətləri nəzərə alınmaqla Aİ daxili enerji bazarının prinsiplərinə uyğun olaraq enerji bazarlarının yaxınlaşdırılması (Enerji bazarının liberallaşdırılması üçün qanunvericilik, tənzimləyici və institusional bazanın uyğunlaşdırılması);

2. Enerji nəqli şəbəkələrinin təhlükəsizliyinin və etibarlılığının möhkəmləndirilməsi [4, s.107];

3. Enerji səmərəliliyi, enerjiyə qənaət və bərpa olunan enerji mənbələri, enerjidaşıyıcıların hasilatının, nəqlinin və istifadəsinin ekoloji aspektləri məsələlərinin həlli yolu ilə dayanıqlı inkişaf siyasətinin həyata keçirilməsi;

4. Ümumi maraq kəsb edən enerji layihələrinin investisiya təminatına dəstək.

"Aİ-Çin münasibətlərinin inkişafının strateji perspektivləri"

Son bir neçə ildə Aİ-nin Çinlə münasibətləri dünyada baş verən müxtəlif hadisələrin təsiri altında özünəməxsus şəkildə dəyişməyə başlamışdı. Əslində ikitərəfli, iqtisadi əməkdaşlığa diqqət yetirməklə Aİ-Çin münasibətləri qlobal tərəfdaşlığa çevrilib. Ümumilikdə, Aİ-nin Çinə qarşı mövqeyi daha realist və qətiyyətli olub. Eyni zamanda, Aİ Asiyanın digər ən vacib tərəfdaş ölkələri ilə də əməkdaşlığı gücləndirir. Xüsusilə Yaponiya, Cənubi Koreya, Hindistanla münasibətlərdə yeni bir inkişaf mərhələsinin başladığı özünü göstərməkdədir. Çin isə öz növbəsində Aİ-yə münasibətdə geosiyasi nəticələri olan və həqiqətən də təsirli siyasət həyata keçirir. Aİ-nin Çinlə münasibətləri o qədər çoxşaxəlidir ki, onları hansısa sadə prizmadan nəzərdən keçirmək olmaz [6, s.109].

2019-cu ildə tərəflər arasında gündəmə gətirilən və Aİ-yə üzv olan bütün ölkələrin dəstəyini almış "Aİ-Çin münasibətlərinin inkişafının strateji perspektivləri"ndə qeyd edilir ki, Çin eyni zamanda Avropa İttifaqı üçün qarşılıqlı əməkdaşlığın hər iki tərəfin maraqlarına cavab verən tərəfdaşdır. Onu da deyək ki, Çin də daxil olmaqla fövqəldövlətlərlə əməkdaşlığa vahid Avropa yanaşmasının hazırlanması heç vaxt sadə məsələ olmayıb. Çünki məsələyə münasibətdə Aİ-nin hər bir ölkəsinin öz mövqeyi, siyasi, iqtisadi və incə maraqları var. Bundan başqa, Çinin özü bəzən Avropa İttifaqı üzvləri arasında olan bu fikir ayrılıqlarından mümkün qədər öz maraqlarının təmin edilməsində istifadə etməyə çalışır. Ancaq təbiidir ki, Aİ-yə üzv ölkələr arasında lazımi kollektiv intizamı saxlamaq avropalıların öz işidir. Birlik nüfuzun rəhnidir, axı Aİ-nin ən iri ölkələri belə təkbaşına fövqəldövlətlərə təsir göstərə bilmirlər.

Aİ-Çin münasibətlərində daha bir aydın ümumi prioritet isə yaşıl bərpa strategiyasının müəyyənləşdirilməsi, ekoloji enerji mənbələrinə keçidin sürətləndirilməsi və Paris razılaşması çərçivəsində iqlim dəyişikliyinə qarşı öhdəliklərin yerinə yetirilməsi üçün təcili yardım paketlərindən istifadə edilməsidir. Bundan başqa, gələcəkdə pandemiyalardan daha effektiv müdafiəni təmin etmək üçün bugünkü böhranın ilkin səbəblərinin hərtərəfli, müstəqil elmi təhlili aparılmalıdır.

İkitərəfli əlaqələr sahəsində Aİ ilə Çin arasında hərtərəfli investisiya razılaşması haqqında çoxdan aparılan danışıqların uğurla başa çatması hər iki tərəfin ümumi qaydalar əsasında iqtisadi tərəfdaşlıq qurmaq əzmində olmasının mühüm siqnalı olardı. Eyni şəkildə, Çinin sənaye subsidiyalarına və texnologiyanın məcburi köçürülməsinə dair öhdəliklərinə riayət etməsinin monitorinqini keçirmək lazımdır [6, s.112].

Aİ və Çin tez-tez münasibətlərin çoxtərəfli qaydada təşviq edilməsinə və BMT sistemini dəstəkləməyə hazır olduqlarını bəyan edirlər. Lakin tərəflər arasında müəyyən məsələlərə münasibətdə fikir ayrılıqları da özünü göstərməkdədir. Xüsusi ilə insan hüquqlarının müdafiəsi sahəsində Çində olan ağır vəziyyət Avropa tərəfindən kəskin şəkildə tənqid atəşinə məruz qalır. Çinin bundan əlavə BMT-nin Dəniz hüququ Konvensiyasını kobud şəkildə tapdalayaraq Cənubi Çin dənizində gərginliyə səbəb olması da Avropada narazılıqlarla qarşılanır [10].

Belə bir vəziyyətdə Avropa Çinin insan hüquqlarına əməl etməməsinə qarşı ciddi bir təzyiq vasitəsini ortaya qoya bilmir. Çünki qarşılıqlı münasibətlərdə qarşıdurma Avropaya yaxşı heç nə vəd etmir. Ona görə də Avropa insan hüquqlarının tapdalanması sahəsində Çinə münasibətdə sərt addımlar atmaqdan çəkinir və bunun mənasız olduğunu anlayır. Bu baxımdan pandemiya göstərdi ki, bey-

nəlxalq aləmdə qlobal təhlükələrə qarşı təkbaşına mübarizə aparmaq mümkün deyil və bu məsələdə tərəflər birgə hərəkət etməlidirlər. Konkret olaraq Avropa İttifaqı-Çin münasibətlərinin gələcəyinə gəlincə bu məsələdə hər şey pandemiyadan sonra dünyanın siyasi gələcəyinin hansı inkişaf yolunu seçməsindən asılı olacaq.

ƏDƏBİYYAT SİYAHISI:

1. Əsgərov N. Mühüm siyasi və iqtisadi maraqları kəsişdirən meqa layihə – Cənub Qaz Dəhlizi. "Şərq qapısı" qəzeti.

2. "A Strategy for EU Foreign Policy". EU Institute for Security Studies, Report 7, June 2010.

3. Emmanouilidis, A. Janis. "Alternatives between Full Membership and NonMembership – Fata Morganaor Silver Bullet?", Paper for the conference The EU and itsNeighbours: In Search for New Forms of Partnership, Sounio: 2008.

4. Hadeshian, Nanar. "European Union's External Relations: More Consistency?", Yearbook of Polish European Studies, Warsaw: Centre for Europe (2010): 107- 127.

5. Muller, Patrick. ve Nicole Alecu de Flers, Applying the Concept of Europeanization to the Study of Foreign Policy: Dimensions and Mechanisms, Institute for European Integration Research, Working Paper Series, Working Paper No. 05/2009, Viyana: 2009.

6. Yu, Jie, (2017), "After Brexit: Risks and Opportunities to EU–China Relations", Global Policy Vol.8, N.4, pp. 109–114.

7. Anadolu Ajansı, AB-Doğu Ortaklığı Zirvesi başladı, Erişim Tarihi: Temmuz 31, 2018. https://www.aa.com.tr/tr/dunya/ab-dogu-ortakligi-zirvesi-basladi/977399

8. Baykal, Sanem. "Avrupa Birliği'nde Yetki Sorunu ve Lizbon Antlaşması." Avrupa Birliği'nin Güncel Sorunları ve Gelişmeler. Belgin Akçay, Sevilay Kahraman ve Sanem Baykal (Der.), Ankara: Seçkin, 2008.

9. Uğur, Ömer, (2018), "Uluslararası Sistemde Avrupa Birliği'nin Aktörlülüğü: Ortak Dış Ve Güvenlik Politikasının Etkisi", Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi, Vol.58, pp. 70–82.

10. https://top-center.org/az/tehlil/3030/avropa-ittifaqi-cin-geoiqtisadi-munasibetleri-cinin-avropadaki-investisiyalari-ve-ittifaqin-tehlukesizliyi

11. https://www.europarl.europa.eu/cmsdata/219065/Workshop_l_said_issa_presentation.pdf

AVROPA İTTİFAQININ TƏRƏFDAŞ DÖVLƏTLƏRLƏ ƏMƏKDAŞLIĞININ MÖVCUD LAYİHƏLƏRİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

XÜLASƏ

Məqalədə Avropa İttifaqının tərəfdaş dövlətlərlər əməkdaşlığının mövcud layihələri və inkişaf perspektivləri çərçivəsində Avropa Qonşuluq Siyasəti, Şərq Tərəfdaşlığı, Cənub Qaz Dəhlizi layihəsi, Aİ-Çin münasibətlərinin inkişafının strateji perspektivləri kimi mövzular barədə söz açılıb. Göstərilmişdir ki, Avropanın inteqrasiyasının institusional strukturunu təmsil edən Avropa İttifaqı, regional səviyyədə sülh və firavanlığa töhfə vermək baxımdan nümunəvi regional inteqrasiya modelini təmsil edir. Qeyd edilmişdir ki, Avropa İttifaqı dünya dövlətləri ilə əməkdaşlıq edərək beynəlxalq arenada həm iqtisadi, həm də siyasi müstəvidə müsbət mövqeyini qorumağı ön planda saxlayır. Xüsusilə son illərdə qeyri-üzv dövlətlərlə münasibətləri yeni mərhələyə qədəm qoyması və siyasi əlaqələrdə əhəmiyyətli irəliləyişlərin müşahidə olunması dünyada getdikcə qütbləşmənin artdığı bir dövrdə olduqca müstəsna addımdır. İttifaq ilə bu dövlətlərin strateji tərəfdaşlıq və əməkdaşlıq münasibətlərinin inkişafı beynəlxalq nüfuzuna və iqtisadi gücünə də müsbət təsir göstərir. Avropa İttifaqı üçün onun qonşuluğundakı ölkələrlə sabitlik və təhlükəsizlik məsələsi olduqca vacibdir.

Açar sözlər: *qonşuluq, təhlükəsizlik, əməkdaşlıq, inkişaf perspektivi, siyasi müstəvi.*

AVRUPA BİRLİĞİ'NİN ORTAK DEVLETLERLE İŞBİRLİĞİNİN GÜNCEL PROJELERİ VE GELİŞME BEKLENTİLERİ

ÖZET

Makalede, Avrupa Komşuluk Politikası, Doğu Ortaklığı, Güney Gaz Koridoru projesi, mevcut projeler çerçevesinde AB-Çin ilişkilerinin geliştirilmesine yönelik stratejik perspektifler ve Avrupa Birliği'nin ortak ülkelerle işbirliğinin gelişme beklentileri gibi konular ele alınıyor. Avrupa bütünleşmesinin kurumsal yapısını temsil eden Avrupa Birliği'nin, bölgesel düzeyde barış ve refaha katkı

sağlaması bakımından örnek bir bölgesel bütünleşme modeli oluşturduğu ortaya konulmuştur. Avrupa Birliği'nin, dünya güçleriyle iş birliği yaparak, hem ekonomik hem de siyasi açıdan uluslararası alanda olumlu konumunu sürdürmeyi önceliklendirdiği kaydedilmiştir. Özellikle son yıllarda AB üyesi olmayan ülkelerle ilişkilerin yeni bir evreye girmesi ve siyasi ilişkilerde önemli ilerlemeler kaydedilmesi, dünyada kutuplaşmanın arttığı bir dönemde atılmış çok istisnai bir adımdır. Bu devletler ile İttifak arasında stratejik ortaklık ve işbirliği ilişkilerinin gelişmesi, bu devletlerin uluslararası itibarına ve ekonomik gücüne de olumlu etki ediyor. Avrupa Birliği açısından komşu ülkelerle istikrar ve güvenlik konusu son derece önemlidir.

Anahtar kelimeler: *komşuluk, güvenlik, işbirliği, kalkınma perspektifi, siyasi düzey.*

CURRENT PROJECTS AND DEVELOPMENT PROSPECTS OF THE EUROPEAN UNION'S COOPERATION WITH PARTNER COUNTRIES

SUMMARY

The article discusses topics such as the European Neighborhood Policy, the Eastern Partnership, the Southern Gas Corridor project, and strategic perspectives for the development of EU-China relations within the framework of existing projects and development prospects of cooperation between the European Union and partner countries. It is shown that the European Union, which represents the institutional structure of European integration, represents an exemplary regional integration model in terms of contributing to peace and prosperity at the regional level. It is noted that the European Union prioritizes maintaining its positive position in the international arena, both economically and politically, by cooperating with world countries. Especially in recent years, the fact that relations with non-member states have entered a new stage and significant progress has been observed in political relations is a very exceptional step at a time when polarization is increasing in the world. The development of strategic partnership and cooperation relations between these states and the Union also has a positive impact on their international reputation and economic power. For the European Union, the issue of stability and security with its neighboring countries is very important.

Keywords: *neighborhood, security, cooperation, development perspective, political level.*

UOT 327
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.224

CƏNUBİ QAFQAZDA "3+3" PLATFORMASI: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

ETİBAR ALIYEV
Bakı Dövlət Universiteti, magistr
E-mail: etibaraliyev995@gmail.com

GİRİŞ

Hazırkı mərhələdə qlobal səviyyədə geosiyasi dinamika sürətlə dəyişir və bu beynəlxalq siyasi proses COVID-19 pandemiyasından sonra daha da sürətlənib. Regional və qlobal geosiyasi proseslərin bir-biri ilə əlaqəli olduğunu nəzərə alaraq, ayrı-ayrı ölkələrin geosiyasi proseslərin regional dinamikasına təsir göstərə bilən roluna xüsusi diqqət yetirilir.

Ukrayna böhranı fonunda dünya siyasətində özünü təsdiq edən postsovet məkanının regionlarından biri zəngin təbii ehtiyatlarına görə həm regional, həm də aparıcı oyunçuların maraqlarının toqquşduğu Cənubi Qafqazdır, nəqliyyat qovşağına çevrilmək imkanları və Şərqlə Qərb, eləcə də Şimal və Cənub arasında "körpü" rolu oynayır. Üstəlik, imperiya keçmişinə malik olan və ona sahib olmaq uğrunda əsrlər boyu mübarizə aparan Rusiya, Türkiyə və İranla həmsərhəd olan Cənubi Qafqaz müasir dövrdə təkcə regional deyil, həm də qlobal geosiyasi güclərin rəqabət meydanına çevrilib. Bununla belə, regiona təsir uğrunda mübarizə onu xaosa sövq edir ki, bu da regional təhlükəsizliyin və iqtisadi inkişafın tam təmin olunmasını təhdid edir.

Onu da qeyd etmək lazımdır ki, dünya indi çoxqütblü mühitdə formalaşmalı olan yeni beynəlxalq münasibətlər sistemi axtarışında olmaqla əsaslı dəyişiklikləri yaşayır. Bu dəyişikliklər həm qlobal güclər arasında mübarizəni gücləndirir, həm də Türkiyə və İran kimi güclərə qlobal güc mərkəzləri – ABŞ, Çin, Rusiya, Böyük Britaniya və ABŞ arasında tarazlıq yaratmaqla geosiyasi mövqelərini gücləndirməyə və təsirlərini artırmağa imkan verir. Beləliklə, yuxarıdakı oyunçuların geostrateji maraqlarının toqquşduğu Cənubi Qafqazda baş verən hadisələr, xüsusilə Rusiya-Türkiyə-İran üçbucağında yeni regional nizamın formalaşmasına birbaşa təsir göstərir.

CƏNUBİ QAFQAZDA "3+3" PLATFORMASI: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

Regional problemlərin həlli və Cənubi Qafqazda davamlı sülh və təhlükəsizliyin bərqərar olması üçün platformaların yaradılması ideyası yeni deyil. Hələ 1996-cı ildə Azərbaycan, Ermənistan, Gürcüstan və Rusiya prezidentlərinin iştirakı ilə Kislovodskda "Qafqazda millətlərarası harmoniya, sülh, iqtisadi və mədəni əməkdaşlıq haqqında Bəyannamə" imzalanmışdır. 1999-cu ildə İstanbulda keçirilən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Zirvə toplantısında Azərbaycanın keçmiş prezidenti Heydər Əliyev Cənubi Qafqaz ölkələrini əhatə edə biləcək paktın yaradılmasını təklif etdi. Öz növbəsində Türkiyənin o vaxtkı prezidenti S.Dəmirəl də Qafqazda sabitlik platformasının yaradılması təklifini irəli sürərək, regional sülhün və iqtisadi inkişafın təşviqinə yönəlmiş bu ideyanı dəstəklədi. Əsas səslənən formatlar 3+3+1 (Azərbaycan, Ermənistan, Gürcüstan + İran, Rusiya, Türkiyə + ABŞ) və 3+3+2 (Azərbaycan, Ermənistan, Gürcüstan + İran, Rusiya, Türkiyə + ABŞ və Aİ) olub [1].

Əgər Türkiyə hakimiyyəti Qərb ölkələrinin mümkün platformalarda iştirakına qarşı deyildisə, 2002-ci ildə R.T.Ərdoğanın rəhbərlik etdiyi Ədalət və İnkişaf Partiyasının (AKP) Türkiyədə hakimiyyətə gəlməsindən sonra vəziyyət kökündən dəyişdi. 2008-ci ildə - Gürcüstan hadisələrindən sonra R.T.Ərdoğan əvvəlcə "2+3" (Türkiyə, Rusiya + Azərbaycan, Ermənistan, Gürcüstan), daha sonra isə İranı da bu formata əlavə edərək "3+3" formatını təklif etdi. Beləliklə, Türkiyə hakimiyyəti regional oyunçularla fəal əməkdaşlıq edərək Qərb ölkələrini Cənubi Qafqazdakı proseslərdən kənarda qoymağa çalışıb [2].

Qeyd etmək vacibdir ki, o zaman Moskva bu formatların Rusiyanın Cənubi Qafqazdakı strateji maraqlarına təhlükə kimi qiymətləndirdiyi üçün onların həyata keçirilməsində maraqlı deyildi. Bu formatları dəstəkləmək Türkiyənin regionda artan təsirini tanımaq demək olardı. Lakin İkinci Qarabağ müharibəsindən sonra regionda yeni vəziyyət yaranıb ki, Moskva regional proseslərdə öz paylarını artırmağa imkan vermədən, regional məsələlərdə Türkiyə və İranla fəal əməkdaşlıq etməlidir. Başqa sözlə, Qərb dövlətlərinin regiona aktiv müdaxiləsi əvəzinə Türkiyə və İranın Cənubi Qafqazda olma-

sı Rusiyanın maraqlarına cavab verir, çünki Rusiya Cənubi Qafqazda hegemondur və Ankarada onun maraqları nəzərə alınır [3].

Bundan əlavə, Ukrayna böhranı ilə bağlı Qərbin sanksiyaları kontekstində Rusiyanın xarici siyasətində Şərqə və Cənuba "dönüş" planlaşdırılır. Regional güclərlə qarşılıqlı faydalı əməkdaşlığın gücləndirilməsi regional ticarət-iqtisadi və nəqliyyat layihələrinin həyata keçirilməsini asanlaşdırır, eyni zamanda milli maraqları nəzərə alan yeni təşəbbüslərin ortaya çıxmasına kömək edir. Astana formatı Rusiya, Türkiyə və İran hakimiyyətinin maraqlarının toqquşmasına baxmayaraq, ortaq təmas nöqtəsi yarada bilməsinin bariz nümunəsidir. İndi Rusiya-Türkiyə-İran üçbucağından eyni yanaşma Cənubi Qafqazda davamlı sülh və təhlükəsizliyin bərqərar olması üçün lazımdır. [2].

Türkiyə prezidenti tərəfindən təklif edilən və Rusiya, İran və Azərbaycan hakimiyyətləri tərəfindən dəstəklənən "3+3" (Rusiya, Türkiyə, İran + Azərbaycan, Ermənistan, Gürcüstan) Qafqaz platforması yenidən aktuallaşıb. Bu platforma Cənubi Qafqazda qeyri-regional oyunçuların müdaxiləsini istisna edəcək, regional inkişafı təmin edəcək və istənilən düşmən hərəkətlərə qarşı zəmanət verəcək ciddi geosiyasi paradiqmaya əsaslanır. Bunlar bu platformanın həyata keçirilməsi Cənubi Qafqazı münaqişə məkanından sabitlik və sülh bölgəsinə çevirərək qarşılıqlı ticarəti gücləndirəcək [4].

Lakin Gürcüstan tərəfi bu formatda iştirakdan imtina edib, baxmayaraq ki, Rusiya xarici işlər nazirliyi S.V.Lavrovun sözlərinə görə, Gürcüstan heç bir ilkin şərt olmadan bu format üzrə danışıqlara qoşula bilər. Gürcüstan hakimiyyətinin bu formatda iştirak etmək niyyətində olmamasının əsas səbəbləri ərazi münaqişələrinə görə Tbilisinin Moskva ilə diplomatik münasibətlərinin olmaması, eləcə də Qərb güclərinin regionda təsirinin məhdudlaşdırılmasına qarşı olmasıdır.

Bu formatın həyata keçirilməsi, ilk növbədə, Rusiya, Türkiyə və Azərbaycanın maraqlarına cavab verir. Qərbin sanksiyaları şəraitində Rusiyanın yeni bazarlara ehtiyacı var və Cənubi Qafqazda bütün nəqliyyat şəbəkələrinin blokdan çıxarılması bütövlükdə Mərkəzi Avrasiyada nəqliyyat geosiyasətini dəyişəcək. Bu, Türkiyə üçün Mərkəzi Asiya ölkələri ilə birbaşa nəqliyyat marşrutlarına çıxış əldə etmək və Qafqaz-Xəzər regionunda Türkiyənin təsirini genişləndirmək üçün əlverişli şərait yaradacaq [5].

Azərbaycan Prezidenti İlham Əliyevin sözlərinə görə, "kommunikasiyaların açılması sayəsində biz dərhal region ölkələri arasında ticarət dövriyyəsini artıra və on minlərlə iş yeri aça bilərik" [6]. Bu format tam reallaşarsa, Azərbaycan Naxçıvana ən qısa marşrutu götürəcək, Ermənistanla diplomatik əlaqələr qura biləcək və bununla da Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulacaq.

Bu format İran hakimiyyəti tərəfindən ona görə birmənalı deyil ki, bir tərəfdən uğurlu hesab olunur, ən azı, Qərb ölkələrinin orada iştirakı nəzərə alınmır və Tehran danışıqlarda fəal iştirak etməyə çalışır və digər tərəfdən, "3+3" İranın milli maraqlarına cavab vermir, çünki bu formatın həyata keçirilməsi Türkiyəyə Qafqaz-Xəzər regionunda mövqelərini möhkəmləndirməyə imkan verəcək və iki ölkə arasında hərbi-siyasi, ticarət və iqtisadi prosesləri sürətləndirəcək. Bu, İranın şimal sərhədlərində "türk qurşağı" yaradacaq və gələcəkdə İslam Respublikası əhalisinin əhəmiyyətli hissəsinin türkdilli xalqlardan ibarət olduğunu nəzərə alsaq, bu, İranın ərazi bütövlüyünə təhlükə yarada bilər. [1].

Ermənistan hakimiyyəti də bir sıra səbəblərə görə bu formata ehtiyatla yanaşır. Birincisi, o, Cənubi Qafqazın bütün mümkün ərazilərində türk varlığını rəsmiləşdirmək üçün bir vasitə kimi qiymətləndirilir. Üstəlik, Azərbaycanın müttəfiqi olan Türkiyənin güclənməsi Ermənistanın suverenliyinə təhlükə yaradır. İkincisi, Ermənistanın baş naziri N. Paşinyan qərbyönlü siyasət yürüdür, Qərb dövlətləri ilə ikitərəfli və çoxtərəfli münasibətləri gücləndirir. Belə bir şəraitdə Rusiya, Türkiyə və İranın kollektiv Qərbi Cənubi Qafqazdakı proseslərdən kənarda qoymaq cəhdi Ermənistanın daha da zəifləməsinə gətirib çıxara bilər. [7].

Nəticədə, "3+3" formatı çərçivəsində müzakirə olunan məsələlər ikitərəfli münasibətlər formatından qat-qat əhəmiyyətli olsa da, bütün regionun perspektivlərinə aid olduğuna görə, qarşıya qoyulmuş vəzifələrin uğurla həyata keçirilməsi üçün "3+3" formatında, ilk növbədə, Ermənistanla Türkiyə, Ermənistanla Azərbaycan arasında diplomatik münasibətlərin qurulması, eləcə də Rusiya ilə Gürcüstan arasında diplomatik münasibətlərin bərpası hələ də lazımdır.

Beləliklə, belə qənaətə gəlmək olar ki, Cənubi Qafqazda İkinci Qarabağ müharibəsindən sonrakı

geosiyasi reallıqlar regional məsələlərə yeni yanaşmalar tələb edir. ABŞ və Ermənistan ərazisində missiyası fəaliyyət göstərən Aİ ölkələrinin intensivləşmiş siyasətləri fonunda Rusiya, Türkiyə və İranın maraqlarını nəzərə almaqla onların təsir zonalarını dəqiq müəyyən edəcək əməkdaşlıq formatı tapılmalıdır [4]. Bu, bir tərəfdən onlar arasında hər hansı toqquşmaların qarşısını almağa, regional inkişafa şərait yaratmağa kömək edəcək, digər tərəfdən də ümumi maraqlar taparaq yeni regional dünya nizamının qurulmasına töhfə verəcək.

Nəticə

Beynəlxalq nöqteyi-nəzərdən bu hesabat 44 günlük müharibənin beynəlxalq münasibətlər üçün üç əsas nəticəsini müəyyən edir. Birincisi, təəssüflə qeyd etmək lazımdır ki, Ermənistanla Azərbaycan arasında müharibədən əvvəl aparılan sülh danışıqlarının nəticəsiz qalması və beynəlxalq ictimaiyyətin Ermənistana beynəlxalq hüquq normalarına riayət etməsi üçün təzyiq göstərmək istəməməsi beynəlxalq münasibətlərə Makiavelist baxışı təsdiqləyən bir haldır. Erməni liderlərinin beynəlxalq hüquqa məhəl qoymaması və onlara verilən cəzasızlıq (onların cəzalandırılmaması), beynəlxalq reaksiyanın olmaması təkcə Cənubi Qafqazın iki respublikası arasında sülh prosesinə deyil, beynəlxalq hüquq normalarına da zərbə vurdu. Müharibənin ikinci mənası daha çox hərbi xarakter daşıyırdı. Son onilliklər ərzində texnoloji inqilablar sayəsində həyatımızın demək olar ki, bütün sahələrinin sürətlə dəyişməsi, belə çıxır ki, hərbi sahədən də yan keçməyib. Azərbaycanın müasir silahlar sayəsində böyük ölçüdə qalib gəldiyi 44 günlük müharibə bu inqilabın təsdiqi idi. Bu inqilab bəzi dövlətlər tərəfindən çağırış kimi qəbul edilsə də, buna fürsət kimi baxan bir qrup ölkə var. Sənəddə kiçik dövlətlərə daha böyük dövlətlərlə qarşıdurmada öz milli maraqlarını daha qətiyyətlə müdafiə etmək imkanı yarada bilən İkinci Qarabağ müharibəsinin üçüncü nəticəsi kimi təqdim olunan budur. Bu yeni vəziyyət nəinki kiçik dövlətlərin müdafiə imkanlarını təkmilləşdirəcək, həm də böyük dövlətlər üçün hərbi qarşıdurma xərclərini artıracaq və onları danışıqlar yolu ilə həll yollarını axtarmağa getdikcə daha çox sövq edəcək.

ƏDƏBİYYAT SİYAHISI:

1. *Агазаде М.М. Вторая карабахская война: кто на самом деле победитель? // Постсоветские исследования. 2021. Т. 4. № 2. С. 119-126*
2. *Агамалиев С.М., Дадабаева З.А., Савичева Е.М. Контуры Нагорно-Карабахской войны 2020 г: позиции ключевых акторов // Вопросы истории. 2022. № 1-2. С. 82-92.*
3. *Атрисангари Ф. Внешняя политика Ирана на Южном Кавказе: идентичность и национальные интересы // Вестник Российского университета дружбы народов. Серия: Политология. 2020. Т. 22. № 1. С. 32-48.*
4. *Гаджиев К.С. Геополитические ориентиры США на Южном Кавказе // Россия и новые государства Евразии. 2019. № 3 (44). С. 91-106.*
5. *Крылов А.Б. Южный Кавказ: этапы постсоветской истории // Россия и новые государства Евразии. 2021. № 2 (51). С. 147-162.*
6. *Пархитько Н.П., Курылев К.П., Станис Д.В. Военно-политическое и военно-техническое сотрудничество государств Центральной Азии // Военная мысль. 2020. № 7. С. 22-39.*
7. *Притчин С.А. Вторая карабахская война и ситуация на Южном Кавказе // Россия и новые государства Евразии. 2021. № 3(52). С. 153-164*

"3+3" PLATFORM IN THE SOUTH CAUCASUS: PROBLEMS AND PERSPECTIVES

SUMMARY

The article analyzes the general geopolitical landscape in the South Caucasus in 2020 in the context of the Second Karabakh War and the new realities created after the war. The relevance of the research topic is to present this conflict in an asymmetric paradigm. Based on the analysis of the legal status of the parties to the conflict, as well as the goals, strategies and resources of their positions, the characteristics of the conflict were characterized accordingly and the conflict was interpreted. The strengthening of power in the South Caucasus has not only changed the regional geopolitical landscape, but also opened opportunities for intra-regional integration processes. In this regard, the purpose of this study is to identify the characteristics of these changes, as well as the factors influencing the regional processes after the war.

Keywords: *South Caucasus, Second Karabakh War, Caucasus Platform, geopolitics, Azerbaijan, Iran.*

ПЛАТФОРМА «3+3» НА ЮЖНОМ КАВКАЗЕ: ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ

РЕЗЮМЕ

В статье анализируется общий геополитический ландшафт на Южном Кавказе в контексте Второй карабахской войны и новых реалий, создавшихся после войны в 2020 году. Актуальность темы исследования состоит в том, чтобы представить этот конфликт в асимметричной парадигме. На основе анализа правового статуса сторон конфликта, а также целей, стратегии и ресурсов их позиций соответствующим образом охарактеризованы характеристики конфликта и дана интерпретация конфликта. Усиление власти на Южном Кавказе не только изменило региональный геополитический ландшафт, но и открыло возможности для внутрирегиональных интеграционных процессов. В связи с этим целью данного исследования является выявление особенностей этих изменений, а также факторов, влияющих на региональные процессы после войны.

Ключевые слова: *Южный Кавказ, Вторая Карабахская война, Кавказская платформа, геополитика, Азербайджан, Иран.*

XÜLASƏ

Məqalədə 2020-ci ildə İkinci Qarabağ Müharibəsi və müharibədən sonra yaranmış yeni reallıqlar kontekstində Cənubi Qafqazda ümumi geosiyasi mənzərə təhlil edilir. Tədqiqat mövzusunun aktuallığı bu münaqişəni asimmetrik paradiqmada təqdim etməkdir. Münaqişə tərəflərinin hüquqi vəziyyətinin, habelə mövqelərinin məqsəd, strategiya və resurslarının təhlili əsasında münaqişənin xüsusiyyətləri müvafiq olaraq səciyyələndirilmiş və münaqişə şərh edilmişdir. Cənubi Qafqazda hakimiyyətin güclənməsi regional geosiyasi mənzərəni dəyişməklə yanaşı, regiondaxili inteqrasiya prosesləri üçün imkanlar açıb. Bu baxımdan, bu araşdırmanın məqsədi bu dəyişikliklərin xüsusiyyətlərini, habelə müharibədən sonra regional proseslərə təsir edən amilləri müəyyən etməkdir.

Açar sözlər: *Cənubi Qafqaz, İkinci Qarabağ Müharibəsi, Qafqaz Platforması, geosiyasət, Azərbaycan, İran.*

UOT 327 -"027.21"
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.226

BMT VƏ İNSAN TƏHLÜKƏSİZLİYİ: QLOBAL SƏVİYYƏDƏ STRATEJİ CƏHDLƏR

NƏRGİZ VƏLİYEVA
Bakı Dövlət Universiteti Beynəlxalq münasibətlər kafedrasının dissertantı
E-mail: nargizvaliyeva@bsu.edu.az

he article analyzes all aspects of the struggle of the Great Leader Heydar Aliyev for the strengthening of Azerbaijani statehood since he came to power in Azerbaijan in a complex socio-political situation. Since 1993, benefiting from the help of the great powers, positive steps have been taken to prevent the ongoing annexation by the invading Armenia, and by organizing the unity of the internal forces, taking into account the development of the state in all directions. In the study, the attitude to the military cooperation between Armenia and the Russian Federation was also expressed. The state of Azerbaijan, establishing relations with all international organizations, tried to introduce Karabakh to the world community as the territory of Azerbaijan, and tried to implement all the necessary tactics and strategies to accept the neutrality of the great powers. Heydar Aliyev's political-ideological, tolerance, Azeri ideology, building an army, achieving high achievements in military science, improving the material and technical base of the army, forming the unity of the people and power, and cultivating a great leader in the person of Mr. Supreme Commander-in-Chief Ilham Aliyev, brought Azerbaijan's influence over Armenia. The realization of his victory is reflected in the conducted research.

Keywords: *Azerbaijan, Heydar Aliyev, policy of occupation, Armenia, army building, Armenian-Russian military cooperation.*

Адалет Ханкиши оглы Мустафаев
Заведующий отделом «История Карабахской войны и движения Великого Возвращение» Института истории им. А.А. Бакиханов НАНА, доктор философии по истории

Стратегия Гейдара Алиева по освобождению азербайджанских территорий от оккупации

РЕЗЮМЕ

В статье анализируются все аспекты борьбы Великого лидера Гейдара Алиева за укрепление азербайджанской государственности с момента его прихода к власти в Азербайджане в сложной общественно-политической ситуации. С 1993 года, пользуясь помощью великих держав, были предприняты позитивные шаги по предотвращению продолжающейся аннексии вторгшейся Арменией, а также путем организации объединения внутренних сил с учетом развития государства во всех направлениях. В исследовании также было выражено отношение к военному сотрудничеству между Арменией и Российской Федерацией. Азербайджанское государство, установив отношения со всеми международными организациями, пыталось представить Карабах мировому сообществу как территорию Азербайджана, пыталось реализовать все необходимые тактики и стратегии для принятия нейтралитета великих держав. Политико-идеологическая, толерантная, азербайджанская идеология Гейдара Алиева, построение армии, достижение высоких достижений в военной науке, улучшение материально-технической базы армии, формирование единства народа и власти, воспитание великого лидера в лице Господин Верховный Главнокомандующий Ильхам Алиев привнес влияние Азербайджана на Армению, осознание его победы отражено в проведенном исследовании.

Ключевые слова: *Azerbaijan, Гейдар Алиев, политика оккупации, Армении, строительство армии, армяно-российское военное сотрудничество.*

UOT 930:314
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.240

ZƏNGƏZUR DƏHLİZİ

ŞƏFAYƏT FƏRƏCOV
BDU-nun Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası nəzdində "Dünya Azərbaycanlıları: tarixi-demoqrafiya" ETL-nin aparıcı elmi işçisi t.ü.f.d.

E-mail: shefayetnuvedi@list.ru

Giriş

Tariximizin bütün dövrlərində, xüsusilə də ərəblərin Azərbaycanı işğal etdikləri dönəmdə işğalçılara qarşı aparılan milli-azadlıq mübarizəsinin mərkəzi məhz Zəngəzur olmuşdur. Mehri rayonu isə Zəngəzurun strateji cəhətdən ən mühüm ərazisidir. Mübarizliyi ilə seçilən Zəngəzur adı Cəngizor adının etimalogiyasıdır. Adının tarixinə uyğun olmasını sübut etmək üçün kifayətdir ki, VII-IX əsrlərdə vahid dövlət tərkibində xalqımızın yadellilərə qarşı apardığı mübarizənin tarixinə nəzər yetirək və mübarizəyə rəhbərlik edən milli liderlər Cavidanın və Babəkin adını qeyd edək.

Vətənimizin bir parçası olan Zəngəzurun tarixi ilə yanaşı ərazilərinin adlarını da tədqiq etmək vacibdir. Bu baxımda akademik Budaq Budaqov coğrafi adlarımızın tədqiqinə xüsusi önəm vermişdir. O, qeyd edir: "Coğrafi adlar Vətən adıdır, torpaq adıdır. İnsan öz adını özü ilə ömür boyu gəzdirdiyi kimi, ana torpağa verilmiş coğrafi adları da özü ilə daşıyır.

Erməni "vətənpərvərləri"nin respublikalarında olan yaşayış məntəqələrinin, oroqrafiya, hidroqrafiya və digər coğrafi adlarının həyasızcasına dəyişmələri böyük təəccüb doğurur. Məsələn, onlar Azərbaycanla Ermənistan sərhəddi boyu Azərbaycan dilinə mənsub bir çox toponimləri (İşıqlı dağı, Qaragöl, Gəlinqaya və s.) erməni dilinə tərcümə edərək (Lyusasar, Sevlic, Harsani və s.)dəyişdirmişlər. Əlbəttə, aydın məsələdir ki, coğrafi adları dəyişdirmək olmaz, onlar xəritələrdə əvvəllər olduğu kimi saxlanılmalıdır (1. səh.4)."

Məsələn: Mehri oykonimi (yaşayış məntəqəsinin adı) Meğri adı ilə dəyişdirilərək ermənilərdirilmişdir. Meğ- ermənicə bal deməkdir. Meğri ermənicə ballı dərə mənasını verir. Digər bir tədqiqatçı Nadir Məmmədov Azərbaycanın yer adlarının tədqiqinə böyük töhfə vermişdir. Onun Azərbaycanın "Yer Adları" kitabı bu qəbildəndir. Alim qeyd edir: "Azərbaycan (türk) dilli oronimlərdə iki sematik tip ayrılır:

1. Relyef formalarının əlamətlərinə görə adlanması. Bu qrupa aid olan coğrafi adlar rəng, say bildirən sözlərdən.

2. Tayfa, nəsl və şəxs adlarını əks etdirən oronimlərdir ki, bu da məhz bu oronimlərə ad verən insan kollektivlərinin adlarıdır.

Ümumiyyətlə, qeydə alınmış oronim mikrotoponimlər göstərir ki, onlar üç əsas qrupa bölünə bilər:

1. Tayfa, nəsil, şəxs adlarından və titullardan yaranmış oronimlər.

2. Ərazi landşaftını əks etdirən oronimlər.

3. Müəyyən hadisələrlə əlaqədar yaranmış oronimlər.

Nadir Məmmədov Azərbaycanın etnik baxımdan müxtəlifliyini nəzərə alaraq yer adlarını dil baxımından da izah etmişdir.

"Qədim Azərbaycan dövləti etnik baxımdan müxtəlif millətlərin yaşadığı ərazi olduğuna görə oronimik terminləri üç böyük hissəyə ayırmaq olar:

1. Türk (Azərbaycan) mənşəli terminlər,

2. Qafqaz dillərində (avarlar, udinlər, ləzgilər, saxurlar) olan terminlər.

3. İran dillərində (talışlar və tatlar) olan terminlər.

Türk dillərinə aid terminlərin özləri isə iki yerə ayrılır:

1. Qədim türk mənşəli terminlər

2. Azərbaycan mənşəli terminlər (1.səh.20)"

Cəngizor- müharibədə igidliklə vuruşan, mərd, vuruşan, meydangir mənasını daşıyır. Cəngizor adı ilə yanaşı Azərbaycanın Araz boyu ərazisində yerləşən digər yaşayış məskənlərinin də qədim adına nəzər yetirək. " Naxçıvan- Nohcavan- Doqquzcavan; Mincivan-Mincavan; Qarçevan-Qırxcavan; Pirçivan-Bircavan adlarının etimalogiyasıdır." (3.səh.7)

Pirçivan adı digər mənada da işlədilir. Məsələn: cavan gəncin yaxşı əməlinə görə ona Pircavandır deyirlər. Pir burada Bir, Tək, Yeganə mənasında işlədilir. Qədim Azərbaycan yaşayış məskənləri adətən ərazidə yaşayan tayfaların adı və xarakteri ilə adlandırıldı.

Mehri rayonunun adı qədim Albaniyada məşhur Mehr nəslinin adından götürülüb. "Varaz-Trdat III -Mehr nəslindən olan alban knyazları sülaləsinin

axırıncı nümayəndəsidir" (2.səh. 204).

Zəngəzur dəmir yolu. Yol demək olar ki, bütünlüklə Mehri rayonu ərazisindən keçir. Dəmir yolu Zəngilan rayonunun Ağbənd kəndi ilə sərhəd olan Nüvədinin Sığırt dağından başlayaraq Nüvədi, Astazur, Aldərə, Mehri, Qarçevan ərazisindən keçib Salamməlik stansiyasına (Ordubad) qədər davam edir. Uzunluğu 42 km. –dir. Dəhlizdən keçən dəmir yolu heç vaxt Ermənistana məxsus olmamışdır. Dəmir yolu yarandığı gündən, istər çar Rusiyası dövründə, istər SSRİ vaxtında, istərsə də müstəqillik dövründə Azərbaycan dəmir yolu şəbəkəsinə məxsusdur. Azərbaycan dəmir yolları tarixinə nəzər yetirək. 1880-ci ildə ilk Bakı-Sabunçu-Suraxanı dəmir yolu istifadəyə verilmişdir. 1908-ci ildə Uluxanlı (Masis)- Şərur-Culfa; 1936-cı ildə Ələt-Mincivan, Mincivan-Qafan dəmir yolu fəaliyyətə başladı. 1939-cu ildə başlanan Culfa-Mincivan dəmir yolu 1941-ci ildə tam istifadəyə verildi. Bakı-Ələt-Mincivan-Culfa dəmir yolunun Uluxanlı- Şərur-Culfa yolu ilə birləşdirilməsi hər iki tərəfə çıxışlı İrəvan-Tbilisi-Bakı dəmir yolunu birləşdirdi (3.səh.93).

20 aprel 1921-ci ildə Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR arasında olan razılaşmaya görə mərkəz Tiflis şəhəri olmaqla vahid idarə sistemli birləşmiş Zaqafqaziya dəmir yolları strukturu yaradılır. Zaqafqaziya dəmir yolunda yüklərin səmərəli və sürətli daşınmasını təşkil etmək üçün şəbəkəni 23 hissəyə (uçastka) böldülər. 23 hissədən 7-si Azərbaycan dəmir yolu sahəsinə düşürdü. (4.səh.78)

Uzun müddət fəaliyyət göstərdikdən sonra 1967-ci ildə Azərbaycan ərazisində olan dəmir yolu şəbəkəsi Zaqafqaziya dəmir yolu şəbəkəsindən ayrıldı. Müstəqil Azərbaycan dəmir yolları SSRİ-nin dövründə və ondan sonrakı müstəqillik dövründən bu günə kimi müstəqil fəaliyyət göstərir.

Zaqafqaziya dəmir yolları şəbəkəsinə məxsus olan Zəngəzur dəmir yolunun əhəmiyyəti SSRİ üçün çox böyük idi. Qeyd edək ki, 1941-1945-ci illər Böyük Vətən müharibəsi zamanı Bakı-Mincivan-Culfa dəmir yolu ilə İran Culfası ərazisində keçərək İranın Bəndər-Abbas və digər iri portlarını birləşdirən nəqliyat qovşağı SSRİ-nin əsas nəfəs yolu idi. Mühasirəyə alınmış SSRİ-yə xaricdən gələn silah-sursat, ərzaq və digər yüklər bu nəqliyyat qovşağı vasitəsilə daşınırdı.

1943-cü ilin 28 noyabr-1 dekabr tarixində ABŞ, İngiltərə, SSRİ liderləri arasında Tehran şəhərində keçirilən beynəlxalq konfransda iştirak etmək üçün SSRİ-nin rəhbəri İ. Stalin məhz Bakı-Ələt- Mincivan- Mehri –Culfa yolu ilə Tehran şəhərinə getmişdi. Təhlükəsizlik baxımından İ.Stalini 3 zirehli qatar müşayiət edirdi. Stalinin mindiyi qatarı azərbaycanlı Firudin Ağayev idarə edirdi. Qeyd edək ki, əslən Zəngəzurdan olan Firudin Qulu oğlu Ağayeva 5 noyabr 1943-cü ildə Azərbaycan SSR-də ilk olaraq Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir.

Zəngəzur sərhəd xidməti. Mehri sərhəd xidməti 1920-ci il noyabrın 30-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra, il yarım ərzində yaradıldı. İlk illərdə 9-cu Mehri əlahiddə Qızıl ordu hissəsinin sərhəd komendaturası (9ОМПК) sərhəddi qoruyurdu. 1922-ci ilin sonunda sərhədi 26-cı Naxçıvan və 27-ci Cəbrayıl batalyonu qoruyurdu. Hər iki batalyonun toqquşduğu nöqtə Mehri ərazisi idi. 1924-cü ilin may ayında həmin batalyonların bazasında sərhəd dəstələri yaradıldı. Sovet hakimiyyətinin ilk illərində Mehri sərhəd ərazisində 3 zastava fəaliyyət göstərirdi. Mehri, Qarçevan və Nüvədi. Mehri və Qarçevan zastavaları Çar Rusiyası dönəmindən qalan qaravulxanalarda yerləşdirilmişdir. Nüvədi zastavası köhnə kəndli daxmasında yerləşmişdi. 1924-cü ildən sonra zastavalar böyüdüldü. Yeni yaradılmış zastavalar 41-ci Naxçıvan və 42-ci Cəbrayıl dəstələri bazasında yaradılmışdır. 41-ci Naxçıvan dəstəsinin hesabında 2 zastava- Qarçevan və Mehri, Cəbrayıl dəstəsinin hesabında 3 zastava- Gerass, Nüvədi və Aldərə-fəaliyyət göstərirdi. Zastavaların komplektləşməsi 21.04.1926-cı ildə başa çatdı.

14-cü Mehri sərhəd xidməti (dəstəsi) SSRİ Daxili İşlər Nazirliyinin 10 iyun 1955- ci il tarixli, 00239 № -li əmrinə əsasən yaradıldı. 9 iyul 1956-cı ildə SSRİ Ali Sovetinin adından dəstəyə döyüş bayrağı verilib. Dəstənin şərti nömrəsi H/H (в/ч) 2393-dir. Mehri dəstəsi və zastavalar bu gün də fəaliyyət göstərir. Sərhəddi Rusiya hərbiçiləri qoruyur (6.səh.5).

Zəngəzur dəhlizinin Rusiya ərazisinə qatılan Kalininqrad vilayəti ilə Moskvanı birləşdirən Kalininqrad dəhlizi ilə müqayisəsi tarixi və siyasi baxımdan maraqlı olar.

Kalininqrad dəhlizi. Şərqi Prussiya ərazisində yerləşən Keniqsberq – Kalininqrad 1255-ci ildə Kyoniqsberq qəsri əsasında salınmışdır.

1945-ci ildə faşist Almaniyasının məğlub olmasından sonra, 1945-ci ilin iyul-avqust aylarında keçirilən Potsdam konfransında Avropada sərhədlərin müəyyənləşdirilməsi əsasında Keniqsberq SSRİ

ərazisinə qatıldı. 9 aprel 1946-cı ildə SSRİ Ali Sovetinin Rəyasət Heyətinin əmri ilə Keniqsberq əyaləti yaradıldı və Rusiya Federasiyasının tərkibinə verildi. Sonralar Keniqsberqin adı dəyişdirilərək Kalininqrad adlandırıldı.

Ərazisi: 1905- ci ildə 20 kv. km; 1939-cu ildə 192 kv. km idi.

Əhalisi: 1800-ci ildə 55 min nəfər; 1840-cı ildə 70,6 min nəfər; 1900-ci ildə-189 483 nəfər; 1939-cu ildə 372164 nəfər; 1947-ci ildə 211000 nəfər (onlardan 37 min nəfəri alman idi); 2015-ci ildə 453000 nəfər.

Moskva-Kalininqrad dəmir yolu. Moskva-Smolensk-Orşa- Minsk-Vilnüs-Kalininqrad yolu Sovet dövründə tikilib. Belarusya SSR və Litva SSR ərazisindən keçən dəhliz Rusiya Federasiyası ilə Kalininqrad vilayətini birləşdirir. Sovet hakimiyyəti dövründə vahid sərhəd prinsipi əsasında fəaliyyət göstərən İttifaq respublikaları arasında vahid gömrük qaydaları və sərhəd keçid qaydaları mövcud idi. Yəni maneəsiz dəhliz idi. SSRİ süqut edəndən sonrakı dövrdə, Litva Respublikasının müstəqil və Avropa birliyinin üzvü olmasından sonra da dəhlizin hansı formada fəaliyyət göstərməsi, hansı statusa malik olması maraqlıdır. O, mənadakı Zəngəzur dəhlizi də eyni statusdadır. Yəni Rusiyadan-Rusiyaya, Azərbaycan-Azərbaycana dəmir yollarının oxşarlığı odur ki, Kalininqrad vilayətini də Rusiya yaradıb, "Ermənistan dövlətini"də. Sual olunur nədən Rusiyanın köməyi ilə yaradılan saxta "Ermənistan dövləti" əzəli Azərbaycan torpaqlarının bir-biri ilə əlaqəsinə mane olur, Moskvadan Kalininqrada qədər olan dəhlizə heç kim mane ola bilmir. Tarixi ədalətsizlik deyilmi?.

Nəticə

Zəngəzur dəhlizi tək dəmir yolundan ibarət deyil. Dəmir yoluna paralel olan avtomobil yolu da Zəngəzur dəhlizinə daxildir. Ermənistan SSR ilə Azərbaycan SSR arasında 1987-ci ildə başlayan məlum hadisələrlə bağlı 1991-ci ildən sonra Zəngəzur dəmir yolu və ona paralel olan şosse yolu tamamilə bağlandı. Azərbaycana məxsus olan dəmir yolu resləri, teplavozları və digər ləvazimatlar sökülərək satıldı. Naxçıvan istiqamətindən gələn avtomobil yolu Ordubad rayonu ərazisindən keçərək Mehri rayonu, Nüvədinin Sığırd dağı istiqamətində Zəngilanın Həsənibağı və Vəjnəli kəndi ilə birləşir. Şosse yolu çar Rusiyası dövründə at-ulaq yolu idi. Sovet hakimiyyətinin ilk illərində keçilməz dağ silsiləsi olan Qulanqabağı məsafəsindən keçən dar yolu çətinliklə genişləndirilərək avtomobillərin hərəkəti üçün hazırlandı. Yol tamamlandıqdan sonra Nüvədi kəndi Mehri qəsəbəsi, Astazur, Aldərə, Lehvaz və digər kəndlər arasında nəqliyyat əlaqəsi yaradıldı. Nüvədinin Mehri rayonu ilə avtomobil yolu əlaqəsinin olmasını və Zəngilan rayonu ilə avtomobil yolu əlaqəsi olmamasını bəhanə gətirərək 1929-cu ildə Ermənistan SSR-də ən böyük kənd (ərazisi 19 min hektar) Mehri rayonuna birləşdirildi. Mehri rayon statusu aldı.

Qeyd edək ki, Zəngəzur dəmir yolu 1939-cu ildə çəkilməyə başlamış 1941-ci ildə başa çatmışdı.

Zəngilan rayonu ilə Nüvədi arasındakı şosse yolu çox sonralar çəkilmişdi. 1980-ci illərin ortalarında nüvədililər normal yolun çəkilməsi üçün Moskvaya dəfələrlə müraciət etdilər. Nəhayət ki, Ulu Öndərin köməyi ilə Zəngilandan Nüvədiyə geniş yol çəkildi. Ulu Öndərin əsas fikri o idi ki, Zəngilanla Mehri rayonu ərazisində olan azərbaycanlı kəndlərini və Ordubad-Naxçıvan yolunu birləşdirsin. Ermənilər yolun mahiyyətini başa düşərək çəkilişi Nüvədi kəndinin yarısında dayandırmışlar. Bu yolun Nüvədinin mühasirəsi zamanı, 1991-ci ilin avqustun 8-dək, böyük əhəmiyyəti oldu.

1991-ci ildən sonra ərazidə dəmir yolu tamamilə dağıdılsa da şosse yolu bu gün də fəaliyyət göstərir. Belə ki, Zəngəzur dəhlizi ərazisində yerləşən Mehri dəstəsi, Ordubadla həmsərhəd olan Salamməlik sərhəd zastavasından başlayaraq Nüvədinin Sığırt zastavasına qədər olan 42 km-lik sərhəd boyu ərazidə 10-dən çox sərhəd zastavaları yerləşir. Bu hərbi hissələri silah-sursatla, ərzaqla, geyimlə, BTR və digər ağır texnika ilə təminatı məhz Zəngəzur dəhlizi ilə yerinə yetirilir. Hərbi təminatla yanaşı Nüvədi, Aldərə və digər kəndlərdən yığılan məhsullar rayon mərkəzinə bu yolla daşınır. Dəhliz boyu ərazilərdə yaşayan, çox az sayda ermənilərin təminatı da bu yolla həyata keçirilir. İrandan, Hindistandan, Fransadan və s. dövlətlərdən gələn bütün hərbi və mülki yüklərin hamısı Zəngəzur dəhlizi vasitəsilə Mehri rayonuna, oradan Sisyan, Gorus, İrəvan və Ermənistanın digər ərazilərinə çatdırılır. Torpaqlarımız azad olmamışdan əvvəlki dövrlərdə Şuşaya, Xankəndinə və digər ərazilərimizə erməni separatçılarının canlı qüvvələri, hərbi texnikanı və digər ləvazimatlar Zəngəzur dəhlizi vasitəsilə çatdırıldı. Azərbaycan üçün həyati vacib olan Zəngəzur dəhlizinin açılması Azər-

baycan və Türk Dünyası üçün mütləqdir.

Açar sözlər: *Zəngəzur, Araz, dəhliz, qərb,dəmir yolu, sərhəd xidməti, milli, qəza, qəsəbə, kənd, şəhər,*

ƏDƏBİYYAT SİYAHISI:

1. Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. Bakı 2007. səh. 204.

2. Nadir Məmmədov. Azərbaycanın Yer Adları. (ORONİMİYA). Azərbaycan Dövlət Nəşriyyatı. Bakı-1993).”

3. Toponimlərin izi ilə Mehri rayonuna səyahət. Əhmədəli Əliyev. İsmayıl Əliyev. Azərbaycan qəzeti. 2003.

3. Атлас схем железных дорог СССР. Главное управление геодезии и картографии при Совете Министров СССР. Москва 1979.)səh.93

4. «Стальной магистрали Азербайджана 100 лет» З. А. Зейналов, Баку, 1980.

5.«История железнодорожного транспорта России.» В 2-х томах. Санкт_Петребруг — Москва 1994 г.

6. Центральный пограницный музей ФСБ России, инв. Д-1126, л 5.

Zangazur corridor
SUMMARY

The article is dedicated to the study of the historical names of the territories of the Zangezur district, located in the Western Azerbaijan region, for the first time in Azerbaijani historiography, covering ancient times and the XIX-XXI centuries. It examines the length of the Zangezur corridor, the history of the railway passing through the corridor, and the establishment of the Mehri border service. Additionally, information is provided on the toponyms of settlements located along the Araz River in the Zangezur and Nakhchivan regions. The article also expresses an opinion on the closure of the Zangezur corridor because of the conflict that began in the late XX century and continues in the XXI century, considering it a historical injustice.

Keywords: *west, Zangezur, corridor, Araz, administrative-territorial division, national composition, township, village, village council, city, census of the population*

Зангезурский корридор
РЕЗЮМЕ

В статье впервые в азербайджанской историографии рассматривается изучение исторических названий территорий Зангезурского уезда, расположенного на территории Западного Азербайджана, в древности и в XIX-XXI веках. Исследуется длина Зангезурского коридора, история железной дороги, проходящей через коридор, а также история создания пограничной службы в Мегри. Кроме того, представлена информация о топонимах населенных пунктов, расположенных вдоль реки Араз в Зангезуре и Нахичевани. В статье также выражено мнение о том, что закрытие Зангезурского коридора в результате конфликта, начавшегося в конце XX века и продолжающегося в XXI веке, является исторической несправедливостью.

Ключевые слова: *запад, Зангезур, корридор, Араз, населения, административно-территориальное деление, национальный состав, уезд, округ, село, сельский совет, город, перепись населения.*

UOT 94 "19/..."
https://doi.org/10.30546/3006-0346.2025.2.86.502

XX ƏSRİN 70-Cİ İLLƏRİNDƏ İRAN-AZƏRBAYCAN ARASINDA BEYNƏLXALQ ƏMƏKDAŞLIQ TARİXİNDƏN

GÜNEL YUSİFOVA
Bakı Dövlət Universitetinin
Asiya və Afrika ölkələri tarixi kafedrasının
doktorantı

E-mail: gu_nel@yahoo.com

XX əsrin 70-ci illərində həm İran, həm Azərbaycan tarixində dönüş nöqtəsi olan hadisələr baş vermişdi. İlk növbədə, onu qeyd etmək istərdim ki, XX əsrdə İranda şah rejiminə qarşı dəfələrlə çıxışlar olmuşdur. Bu çıxışların zirvəsi İranda 1978-1979-cu illərdə inqilabın baş verməsinə səbəb oldu. İnqilab xalq inqilabı idi, çünki şah rejiminin, imperialist idarəçiliyin zülmündən bezən xalq inqilab etməyi çıxış yolu kimi görürdü. İnqilabı dəstəkləyən şiə ruhaniləri üstünlüyü ələ keçirib dini rejim qurdular. İran şahı Məhəmməd Rza Pəhləvinin təşəbbüsü ilə "Ağ İnqilab" adı altında həyata keçirilən bir silsilə islahatlar proqramı şahlıq rejiminin dayaqlarının möhkəmlənməsinə yönəlmiş və ölkədə kapitalizmin inkişafı üçün geniş imkanlar açırdı [6, s.12]. Bu yolla Məhəmməd Rza Pəhləvi ölkədə kapitalizmin tərəqqisinə və şah rejiminin qorunub saxlanılmasına çalışırdı. Şah rejimi fikirləşirdi ki, aparılan dəyişikliklər ölkədə yaranmış sosial çətinlikləri azaldacaq və xalqı şah rejiminin siyasi ideologiyası altında saxlayacaq. Həyata keçirilən tədbirlərə baxmayaraq xalq şahlıq rejimindən təngə gəlmiş və bu rejimin idarəçiliyi altında yaşamaq istəmirdi. 1978-ci ilin noyabrından başlayaraq İranın bütün şəhərlərində şahın hakimiyyətdən getməsi tələb edilir, Xomeyninin hakimiyyətə gəlməsi şüarları ilə çıxış edirdilər.

1979-cu il yanvarın 16-da İran şahı Məhəmməd Rza Pəhləvi müxalif qüvvələrin göstərdiyi təzyiqə görə ölkəni tərk etdi. 18 yanvarda Tehranda mitinq keçirildi. Mitinqdə Xomeyni hökumətin istefaya getməsini və islam respublikasının yaradılmasını tələb etdi. Aparılan mübarizə nəticəsində 1979-cu il aprelin 1-də İran İslam Respublikası yarandıqdan sonra ölkəni yeni qaydalar əsasında sürətli şəkildə qurmağa çalışırdılar. Ölkənin daxili siyasətində aparılan dəyişikliklərlə yanaşı xarici siyasətdə də yeni əlaqələrin qurulmasına və beynəlxalq əməkdaşlıqların inkişaf etdirilməsinə başlanıldı. Bu əməkdaşlıqlar içərisində Azərbaycanla qurulan əlaqələrdən xüsusi danışmaq lazımdır.

Azərbaycan bu dövrdə SSRİ-nin tərkibində idi. Azərbaycanın xarici ölkələrlə əlaqələri müstəqil şəkildə deyil, SSRİ-nin rəhbərliyi altında həyata keçirilirdi. Hələ XX əsrin 20-ci illərində Sovet İttifaqına daxil olan ölkələrdə Xarici İşlər Komissarlıqları ləğv edildi, lakin 1945-ci ildən sonra SSRİ tabeliyində olan respublikalarda Xarici İşlər Nazirlikləri yenidən quruldu. Bu nazirliklər öz fəaliyyətlərini sovet rejiminin nəzarəti altında aparırdı. Ulu Öndər Heydər Əliyev deyirdi: "Azərbaycan Respublikası, Azərbaycan xalqı SSRİ tərkibində 70 il kommunist rejimi şəraitində yaşayıb. Bu 70 illik dövr Azərbaycan xalqının həyatında böyük bir tarixi mərhələni təşkil edir və bu dövr obyektiv yazılmalıdır. Bu dövrdə yazılmış əsərlərdə ideologiyaya və onun konsepsiyasına görə bizim tariximiz təhrif olunmuşdur" [1, s. 186].

XX əsrin 70 ilindən çoxunu Azərbaycan Sovet rejiminin tərkibində keçirib. Bütün xarici siyasətlə bağlı qərarlar Moskvada qəbul olunurdu, Azərbaycan müstəqil xarici siyasət yeridə bilmirdi. Beynəlxalq əlaqələrin qurulması SSRİ hökumətinin xarici siyasəti çərçivəsində aparılırdı. Bu ağır dönəmdə Azərbaycan rəhbərliyində edilən dəyişikliklər Azərbaycanda əsaslı dəyişikliklərə səbəb oldu. XX əsrin son otuz ili və XXI əsrin başlanğıcında Azərbaycana rəhbərlik bilavasitə görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin adı ilə bağlıdır [2, s.22]. 1969-cu ildən başlayaraq Heydər Əliyevin həyat yolunda yeni fəaliyyət dövrü başlayır. Bu dövrdə Azərbaycan SSR dərin iqtisadi, siyasi, mədəni tənəzzül dövrü keçirirdi. Heydər Əliyevin hakimiyyətə gəlməsi Sovet Azərbaycan tarixinə qızıl hərflərlə yazılaraq "yeni dövrün" başlanğıcını qoydu. 1969-cu il 14 iyulda Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə milli oyanış, tərəqqi, özünəqayıdışa dönüş oldu və Azərbaycan tarixində çiçəklənmə dövrü başladı. Uzaqgörən şəxsiyyət, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin hələ XX əsrin son 30 illiklərində həyata keçirdiyi tədbirlər, görülən işlər məhz bugünkü Azərbaycanın təməl daşıdır.

Beynəlxalq əlaqələrin əsas istiqamətləri: XX əsrin 70-ci illərindən başlayaraq Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın xarici ölkələrlə beynəlxalq əlaqələrinin qurulub, inkişaf etdirilməsində

müstəsna xidmətləri olmuşdur. Belə ki, aparılan tədqiqatlar, dövrün mühüm arxiv sənədləri sübut edir ki, XX əsrin 60-80-ci illərində Avropa və Asiya ölkələri ilə qurulan beynəlxalq əməkdaşlıq əlaqələri Ulu Öndər Heydər Əliyevin böyük siyasi fəaliyyəti ilə bağlıdır. Ümumilikdə bu dövrün beynəlxalq əlaqələrindən danışarkən qeyd etmək lazımdır ki, bu əlaqələr çoxşaxəli olub bir neçə sahəni özündə əhatə etmişdi. Buraya ixtisaslı mütəxəssislərin müxtəlif ölkələrə dəvət alması, mədəniyyət, incəsənət, idman əlaqələrinin inkişaf etdirilməsi, sərgilərdə Azərbaycanın tanınmış rəssamlarının öz əsərləri ilə iştirak etməsi, beynəlxalq festivallarda Azərbaycanın incəsənət xadimlərinin iştirak etməsi, xarici ölkələrə nümayəndə heyətlərinin göndərilməsi, təhsil sahəsində yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsi üçün onların xarici ölkələrə göndərilərək orada təhsil almasını və digərlərini göstərmək olar.

İran və Azərbaycan arasında beynəlxalq əlaqələrin qurulması, əməkdaşlıq bildiyimiz kimi Sovet İttifaqı ilə əlaqələr şəraitində regionun iqtisadi və mədəni inkişaf mövzularından idi. Çünki Azərbaycan müstəqil xarici siyasət yeridə bilmirdi. O, İranla siyasi, hərbi əməkdaşlıq qura bilmirdi. Lakin 1969-cu ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi, onun mərkəzdəki nüfuzu Azərbaycan SSR-in beynəlxalq əlaqələrdə fəal iştirak etməsinə səbəb oldu. Azərbaycanla İran arasında XX əsrin 70-ci illərində qurulan beynəlxalq əməkdaşlıqdan danışarkən ilk olaraq ticari əlaqələri qeyd etmək lazımdır. Bildiyimiz kimi Azərbaycan təbii resursları ilə əzəldən zəngin olan regiondur. Bu qonşu ölkələrin daim diqqətini çəkib. Azərbaycanla İran arasında sənaye və kənd təsərrüfatı məhsullarının ticarəti genişlənmişdi. 1969-1982-ci illərdə Moskvanın maraqlarına uyğun olmasa da Heydər Əliyev İran və Türkiyə ilə iqtisadi və ticarət əlaqələrinin inkişafına mühüm əhəmiyyət verirdi [7]. Çünki İran iqtisadiyyatı üçün vacib olan resurslar, neft, qaz və digər xam maddələr Azərbaycanda zəngin idi. İran da öz sərhəddində yerləşən, belə zəngin təbii ehtiyatlara malik ölkə ilə öz ticari əlaqələrini genişləndirməyə çalışırdı. Nəzərə alsaq ki, bu dövrdə Azərbaycanın xarici ticarət əlaqələri vahid mərkəzdən yəni sovet hökuməti tərəfindən idarə olunurdu. Zamanla Sovet İttifaqının tətbiq etdiyi məhdudiyyətlər ticarətə öz mənfi təsirini göstərirdi. Qısaca onu qeyd etmək lazımdır ki, XX əsrin 70-ci illərində Azərbaycan SSR ilə İranın bazarlarına həm kənd təsərrüfatı məhsulları, həm sənaye məhsulları daxil olmuşdu. İranla ticarət münasibətləri "Şərqxariciticarət" Ümumittifaq birliyinin Bakı şöbəsi vasitəsilə aparılmışdı. Azərbaycan SSR İranla yanaşı bir sıra Asiya və Afrika ölkələrində metallurgiya, kimya zavodlarının tikilməsində iştirak etmişdi.

Beynəlxalq əməkdaşlıqlar içərisində mədəni əlaqələr xüsusi yer tutmuşdu. Mədəni əlaqələrin inkişafı isə azərbaycanlılarla iranlılar arasında etnik əlaqələrin güclü olmasının nəticəsi idi. Həmçinin Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti, İranla Mədəni Əlaqələr Cəmiyyəti (19.10.1945), SSRİ-İran Mədəni Əlaqələr Cəmiyyətinin (1963) respublika şöbəsi və digərləri ölkələrarası əməkdaşlığın yükünü daşıyan əsas qurumlar olmuşdular [3, s.482].

XX əsrin 70-ci illərində Azərbaycana müxtəlif ölkələrdən olan dövlət xadimlərinin siyasi səfərləri artmışdı. Bu ölkələr içərisində İranın da adını qeyd etmək lazımdır. İran İslam Respublikasının siyasi nümayəndələrinin Azərbaycan SSR-ə gəlməsi hər iki ölkə arasında beynəlxalq əlaqələrin genişlənməsinə şərait yaratmışdır. Çünki beynəlxalq əməkdaşlıq çərçivəsində xarici mədəni münasibətlər mühüm əhəmiyyət kəsb edirdi.

Azərbaycanın beynəlxalq aləmdə siyasi, mədəni əlaqələrinin inkişafı və xarici ölkələrlə əməkdaşlıq Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra olmuşdu. Azərbaycanla İran arasında beynəlxalq mədəni əlaqələrin inkişafında 1970-ci illərdə rəsmi səfərlərin olması da təsir etmişdi. Arxiv sənədlərini tədqiq edən tarixçilərin qeyd etdiyinə görə İran şahının həyat yoldaşı Fərəh Pəhləvi Azərbaycana səfər etmiş, Bakı ilə yaxından tanış olmuşdu. Bu səfər iki ölkə arasındakı münasibətlərin yaxşı olmasının göstəricisi idi. Onlar Azərbaycan Dövlət Opera və Balet Teatrında, Bakı şəhərinin tarixi yerlərində, Azərbaycan Dövlət Konservatoriyasında, Azərbaycan Tarix muzeyində, C. Qaryağdının emalatxanasında oldular [4, s.446]. Azərbaycan nümayəndə heyətinin də aktiv səfərləri olmuş, bu səfərlər 70-ci illərin sonlarında zəifləməyə başlamışdı.

Heydər Əliyev bir sıra müsəlman ölkələrinin Bakıda konsulluqlarının açılmasına xüsusi diqqət verirdi. Belə ki, 1971- ci ildə Bakıda İranın, 1972-ci ildə isə İraqın konsulluğu açıldı [8, s.149]. Konsulluğun açılması ilə yanaşı hər iki ölkə arasında rəsmi səfərlər də olmuşdu. Bu səfərlər çərçivəsində Azərbaycanın bir sıra sahələrdə məsələn elm, təh-

sil, mədəniyyətdə əldə etdiyi nailiyyətlərdən danışılırdı. Digər tərəfdən Azərbaycan SSR-İran arasında əlaqələrin inkişaf etdirilməsi Cənubi Azərbaycanda yaşayan azərbaycanlıların hüquqlarına diqqət yetirilməsi və 1828-ci ildə Türkmənçay müqaviləsinə görə parçalanmış vətənin birləşdirilməsi ilə əlaqədar idi. Bu məqsədlə, Heydər Əliyev hakimiyyətdə olduğu illər ərzində cənubda yaşayan soydaşlarımızın problemlərinin həlli yolunda işlər görmüşdü. Daha çox ziyalılara diqqət göstərmiş, bu tarixi problemin aradan qaldırılması üçün elmi tədqiqatların aparılmasına, dövrün şair, ziyalı və yazıçılarını bu mövzuda yazmağa səsləyirdi.

Azərbaycanla İran arasında beynəlxalq mədəni əlaqələrdən danışarkən burada ədəbiyyat əlaqələrindən xüsusi danışmaq lazımdır. Bu əlaqələrə kitab sərgiləri, dövrün görkəmli incəsənət nümayəndələrinin əlaqələri daxildir. Belə ki, 70-ci illərin ilk illərindən başlayaraq Azərbaycandan İrana çoxlu kitablar göndərilmişdir. Bu da Azərbaycan kitabına olan ehtiyacın göstəricisi kimi göstərmək olar. Eyni zamanda, İrandan da Azərbaycan kitabxanalarına kitablar göndərilirdi. Bu kitablar müxtəlif mövzularda yazılmış, eləcə də Şərq poeziyasına aid idi. Azərbaycanda İran şairlərinin yazdığı əsərlər həm Azərbaycan, həm rus dilinə tərcümə olunmuşdu. 1972-ci ildə Azərbaycan "Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti" dünyanın 62 ölkəsinə 19000 nüsxə kitab, jurnal, albom göndərmişdir. Bunların xeyli hissəsi qonşu İranın payına düşürdü [5, s. 91]. Kitab və jurnalların göndərilməsi İran tərəfindən də həyata keçirilirdi. 500 dən çox kitab 1971-1973-cü illərdə Azərbaycan kitabxanalarına verilmişdi.

1973-cü ilin aprelində məşhur fizik-alim, Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti Həsən Abdullayev Tehran və Məşhəd universitetlərinə səfər etmişdi. Həsən Abdullayev İranın elm və ali təhsil naziri doktor Hüseyn Kazımzadə ilə görüş zamanı bu ölkədə elmi kadrların hazırlanmasına azərbaycanlı mütəxəssislərin cəlb edilməsi, birgə elmi-tədqiqat işlərinin aparılması perspektivləri müzakirə olunmuşdur [5, s. 83]. Qarşılıqlı şəkildə hər iki ölkənin alim professor heyəti bir-birinə səfər edirdilər. Bu səfərlər içərisində Şamaxı rəsədxanasında da olmuşdular. Bu əlaqələr inqilabdan sonra xeyli azaldı. Bunun səbəbi İranın SSRİ-yə inanmamağı, təhlükə mənbəyi kimi baxması olmuşdu.

XX əsrin 70-ci illərinin mədəni əlaqələrindən danışarkən radio və televiziya, eləcə də kino və teatr sahəsindəki qarşılıqlı əməkdaşlıqdan danışmaq lazımdır. Azərbaycanın bir sıra filmləri dünyanın bir çox ölkəsində nümayiş etdirilmişdi. Bu ölkələr sırasında İranın da adını qeyd etmək lazımdır. Azərbaycanla yanaşı İran bədii filmləri 1971-ci ildə Azərbaycanın bir sıra şəhərlərində, məsələn Bakı və Sumqayıtda nümayiş edilmişdi. Bu kino festivalları növbəti illərdə də olmuşdu. Film nümayişləri ilə yanaşı kinematoqrafçılar 1972-ci ildə İrana ezam olunmuşdular. Onlar öz bilik və təcrübələrini bir-birilə bölüşmüşdülər. Kinematoqrafiya sahəsində əldə olunan qarşılıqlı uğurlar XX əsrin 70-ci illərinin Azərbaycan SSR-İran beynəlxalq mədəni əlaqələrinin inkişafına xüsusi töhfə vermişdi. Yuxarıda qeyd etdiyimiz kimi, kino ilə yanaşı televiziya və radio sahəsində də iki ölkə əməkdaşlıq edirdi. Televiziya və radio sahəsindəki əməkdaşlığı inkişaf etdirmək üçün 1970-ci ildə İran və Azərbaycanın televiziya və radio verilişlərinin baş direktorları bir sıra razılaşmalar əldə etdilər. Rəssamlıq sahəsində də qarşılıqlı anlaşmalar olmuş, dəfələrlə sərgilər keçirilmişdi. Memarlıq sahəsində İran ilə Azərbaycan arasında əlaqələrin inkişafını 1970-ci ildə memar M.A.Hüseynovun İranda keçirilən konqresdə çıxışı ilə göstərmək olar. Bu çıxışında Hüseynov İran memarlığının müasir dövr memarlıqla birgə vəhdəti mövzusundan bəhs etmişdi. Növbəti illərdə də keçirilən beynəlxalq konqreslerdə də M.A.Hüseynov çıxış etmişdir. Azərbaycanlı memarın konqresdəki çıxışları böyük rəğbətlə qarşılanmış və memarlıq sahəsində əlaqələrin genişlənməsinə şərait yaratmışdı. Bildiyimiz kimi, digər sahələrdə olduğu kimi, incəsənt sahəsində də əlaqələr 1978-1979-cu illərdə inqilabdan sonra zəiflədi.

XX əsrin 70-ci illərinin beynəlxalq əlaqələrindən danışarkən idman və turizm sahəsini də qeyd etmək lazımdır. Çünki hələ XX əsrin əvvəllərindən başlayaraq Sovet İttifaqı qonşu və digər ölkələrlə idman yarışları keçirərək əlaqələrini genişləndirirdi. Bu ənənə XX əsrin 70-ci illərində də davam etmişdi. İranda keçirilən görüşlərdə Azərbaycan idmançıları iştirak etmişdilər. İdman növlərindən yüngül atletika, voleybol, futbol, şahmat sahəsində yarışlarda iştirak etmişdi. 1970-ci illər ərzində Azərbaycan idmançılarınn beynəlxalq yarışlarda iştirakı xeyli dərəcədə artmışdı. İki ölkə idmançıları arasında dostluq münasibətləri yaranmışdı. Bu əlaqələr mədəni əməkdaşlığa da öz müsbət təsirini göstərmişdi. İdmanla yanaşı turizm sahəsinin də inkişaf etdiril-

məsi gözə çarpırdı. Amma bir məsələni qeyd etmək lazımdır ki, Sovet hökuməti turizm əlaqələrinin inkişafına xüsusi fikir verməmişdi. Baxmayaraq ki, turizmin inkişafı üçün lazım olan bütün resurslara malik idi. Turizm sahəsindəki əksikliklər, çatışmazlıqlar onun inkişafını ləngidən cəhətlər idi. Lakin SSRİ-də turizmin zəif inkişaf etməsi o demək deyildir ki, Azərbaycan SSR-in turizm sahəsində digər ölkələrlə, eləcə də İranla iş birlikləri olmamışdı. Azərbaycanın zəngin resurslarının, müalicəvi kurortlarının olması burada turizmin inkişaf etdirilməsinə şərait yaratmışdı. 1960-cı illərdə iki ölkə arasında turizm əlaqələri xeyli inkişaf etmişdir. Bu da iki ölkədə keçirilən tədbirlər sayəsində olmuşdu. Lakin 1970-ci illərdə turizm sahəsində durğunluq yaşanır. Daha sonra inqilab, İranda respublika quruluşunun yaradılması, müharibələr turizm sahəsindəki əlaqələrin sonlanmasına səbəb olur. Beynəlxalq mədəni əlaqələrin inkişafında yuxarıda saydığımız sahələrdən fərqli olaraq turizm sahəsində əməkdaşlıq zəif idi. Bunun əsas səbəblərindən biri Sovet hökuməti faktorunun olması və bütün sahələrin mərkəzdən idarə olunması idi.

Nəticə

Mədəni əlaqələrin inkişafı inteqrasiya əlaqələrini dərinləşdirir. Fərqli mədəniyyətlərin bir-biri ilə təcrübə mübadiləsi etməsi tərəflərin mədəniyyətinin zənginləşməsinə səbəb oldu. Belə ki, İranla olan beynəlxalq əməkdaşlıq 1978-1979-cu illər inqilabı zamanı zəiflədi. Bu İranın Sovet İttifaqına etibar etməməsinin nəticəsi idi. İran öz xarici siyasətində Avropa və Sovet hökumətini deyil, özünün irəli sürdüyü xətti müdafiə edirdi. 1979-cu ildə İran İslam Respublikasının yaranması ilə inqilab dövründə zəifləyən əlaqələr yeni mərhələyə qədəm qoyur. Azərbaycanla İranın mədəni əlaqələrinin zəngin və çoxəsrlik tarixi onun möhkəm təməllərə dayandığını göstərir. Hər iki ölkənin zəngin mədəni irsi, onların mədəniyyətlərinin qarşılıqlı əlaqələri bu münasibətlərin müasir dövrdə də davam etməsinə səbəb olmuşdu.

ƏDƏBİYYAT SİYAHISI:

1. *Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. 8-ci kitab Bakı. Azərnəşr. , 1997, s. 368*
2. *Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı. Təhsil. , 2004, s.472*
3. *İsmayıl M. Dövlətlərarası münasibətlər və Azərbaycan (aprel 1920-oktyabr 1991-ci illər). Bakı. Bakı Universiteti Nəşriyyatı, 2008, s. 516*
4. *Qasımlı M. C. Heydər Əliyev- istiqlala gedən yol (1969-1987-ci illər). Bakı. Bakı Universiteti Nəşriyyatı, 2006, s. 608*
5. *Qəniyev H. Q. SSRİ-İran iqtisadi və mədəni əlaqələrində Azərbaycanın iştirakı. Bakı. Mütərcim., 2017, s. 152*
6. *Məmmədzadə G. İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında mədəni əlaqələrin inkişafı. Bakı. Bakı Universiteti Nəşriyyatı., 2004, s. 170*
7. *Международные связи Азербайджана в документах. Баку. 2017, сер. 10-14.*
8. *Zeynalov İ. X. Azərbaycanın milli dövlətçilik tarixində Heydər Əliyev zirvəsi: Dahi şəxsiyyətin şərəfli ömür yolu. Bakı- "Füyuzat"- 2024, s. 656*

XÜLASƏ

Bütün zamanlarda ölkələrarası beynəlxalq əməkdaşlığın tərkib hissəsi olan mədəni əlaqələr mühüm əhəmiyyət kəsb edib. Dünyada sosial-mədəni bağlılığı, əlaqələri inkişaf etdirmək həmişə vacib məsələlərdən biri olub. XX əsrin 70-ci illərində Azərbaycan SSR Sovet İttifaqının tərkibində olduğu üçün beynəlxalq əməkdaşlıqları əsasən sovetlərin ümumi siyasəti daxilində baş verirdi. Bu dövrdə Azərbaycan SSR Asiyanın müxtəlif ölkələri ilə mədəniyyət sahəsində əlaqələr qurmuşdur. Onlardan İran, Pakistan, Hindistan və Əfqanıstanı misal göstərmək olar. Bu məqalədə biz Azərbaycan SSR-in XX əsrin 70-ci illərində İranla olan beynəlxalq əlaqələrindən bəhs edilir. 1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrdə baş verən proseslər və ən əsası Azərbaycanın İran ilə qurulan mədəni əlaqələri, mədəniyyətimizin inkişafında böyük rol oynayan sahələr- təhsil, idman, turizm, kinematoqrafiya, xalçaçılıq, rəssamlıq və digər sahələrin təbliği ilə əldə olunan nailiyyətlərdən bəhs olunur.

Açar sözlər: *Heydər Əliyev, SSRİ, İran, beynəlxalq əməkdaşlıq, mədəniyyət, əlaqələr.*

ИЗ ИСТОРИИ МЕЖДУНАРОДНОГО СОТРУДНИЧЕСТВА ИРАНА И АЗЕРБАЙДЖАНА В 70-Е ГОДЫ XX ВЕКА

РЕЗЮМЕ

Культурные связи, являющиеся частью международного сотрудничества между странами, всегда имели важное значение. Развитие социальных и культурных связей и отношений в мире всегда было одним из важных вопросов. Поскольку в 1970-х годах Азербайджанская ССР входила в состав Советского Союза, ее международное сотрудничество в основном осуществлялось в рамках общей советской политики. В этот период Азербайджанская ССР установила культурные связи с различными странами Азии. К примерам таких стран относятся Иран, Пакистан, Индия и Афганистан. В этой статье мы поговорим о международных связях Азербайджанской ССР с Ираном в 70-х годах 20 века. Будут обсуждаться процессы, происходившие в период прихода к власти Гейдара Алиева в 1969 году, и самое главное - культурные связи, установившиеся между Азербайджаном и Ираном, достижения, достигнутые путем развития сфер, играющих важную роль в развитии нашей культуры - образования, спорта, туризма, кинематографии, ковроткачества, живописи и других сфер.

Ключевые слова: *Гейдар Алиев, СССР, Иран, международное сотрудничество, культура, связи.*

FROM THE HİSTORY OF İNTERNATİONAL COOPERATİON BETWEEN IRAN AND AZERBAIJAN IN THE 70S OF THE 20TH CENTURY

SUMMARY

Cultural relations, which are an integral part of international cooperation between countries, have always been of great importance. Developing socio-cultural ties and relations in the world has always been one of the important issues. Since the Azerbaijan SSR was part of the Soviet Union in the 70s of the 20th century, its international cooperation mainly took place within the general policy of the Soviets. During this period, the Azerbaijan SSR established cultural relations with various countries of Asia. Examples of these include Iran, Pakistan, India and Afghanistan. In this article, we will talk about the international relations of the Azerbaijan SSR with Iran in the 70s of the 20th century. The processes that took place during the period when Heydar Aliyev came to power in 1969 and, most importantly, the cultural relations established between Azerbaijan and Iran, the achievements achieved by promoting areas that play a major role in the development of our culture - education, sports, tourism, cinematography, carpet weaving, painting and other areas will be discussed.

Keywords: *Heydar Aliyev, USSR, Iran, international cooperation, culture.*

UOT 94
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.242

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ YARANMASI VƏ FƏALİYYƏTİ

SEVİNC MƏMMƏDOVA
Bakı Dövlət Universitetinin " Azərbaycan tarixi (humanitar fakültələr üzrə)" kafedrasının doktorantı
E-mail: sevincgulshen62@gmail.com

İslam Əməkdaşlıq Təşkilatını anlamaq üçün əvvəla beynəlxalq təşkilat qavramını anlamaq lazımdır. Ən ümumi ifadə ilə beynəlxalq təşkilat müstəqil və suveren dövlətlərin və ya hökumətdən kənar quruluşların qlobal və regional ölçüdə ümumi və ya xüsusi məqsədlərə nail olmaq uğrunda əməkdaşlığı təmin etmək üçün yaratdıqları sistemlər, mexanizmlərdir [2]. Beynəlxalq təşkilatlarda təhlükəsizlik məqsədi əsas faktorlardan biri olması ilə yanaşı hərbi, siyasi, mədəni və iqtisadi səbəblər də ön plana çıxır. Beynəlxalq təşkilata üzv olan millətlərin, xalqların hər biri fəaliyyət sahəsində müəyyən olunmuş qanunlara və qaydalara riayət etməlidir. Belə olduqda beynəlxalq təşkilatların əslində qarşıya qoyulan məqsədə çatmaq üçün müvəqqəti və ya daimi bir rejim yaratmağa çalışdığını deyə bilərik.

İƏT-ə qədər müsəlmanlar bütün qlobal sahələri əhatə edən bir təşkilat yaratmamışdılar. Çox vaxt yaradılan birliklər və ya təşkilatlar regional sahələri əhatə edir və çox dar fəaliyyət göstərirdi. Bu mənada Ərəb Birliyi, ASEAN, Bağdad paktı kimi quruluşları misal göstərə bilərik. Ancaq İƏT bu sıralardan fərqli olaraq ilk dəfə islam dünyasını dini, mədəni və siyasi ünsürləri əhatə edəcək şəkildə təmsil edən birlik hərəkatı olaraq meydana gəldiyini ifadə etmək düzgün olar.

Bəzi tədqiqatçılar İƏT-in də regional bir təşkilat olduğunu vurğulayırlar. Amma digər tədqiqatçıların fikrincə, o bütün islam dünyası üçün çətir funksiyalı təşkilat kateqoriyasından sayılır. Təşkilatın yaranma tarixinə diqqət etsək, bütün müsəlmanları birləşdirəcək bir təşkilat fikrinin Nigeriya baş naziri Əhməd Belo tərəfindən irəli sürüldüyünü görək bilirik. Belonun 1965-ci ildə Məkkədə keçirilən "Dünya İslam Birliyi" toplantısında ortaya qoyduğu bu fikir Səudiyyə Ərəbistanı kralı Veysəl və Mərakeş kralı II Həsən tərəfindən dəstək görməsinə baxmayaraq 1967-ci ildə Ərəb-İsrail müharibəsinin baş verməsi ilə birinci cəhd uğursuz oldu. Bu təşkilatın Ərəb-İsrail münaqişəsi nəticəsində ortaya çıxdığını söyləmək doğrudur. 21 avqust 1969-cu ildə Qüdsdə yerləşən və müsəlmanların müqəddəs qəbul etdiyi Məscidi Əqsanın fanatik bir yəhudi tərəfindən hücuma məruz qalması nəticəsində islam dünyasında böyük etirazlar meydana gəldi. Bunun nəticəsi olaraq başda Səudiyyə Ərəbistan olmaqla 24 islam ölkəsinin iştirakı ilə 25 sentyabr 1969-cu ildə Rabatda ilk İslam Zirvə konfransı tərtib edilmişdi. Beləliklə, məqsədləri islam dünyasının haqq və mənafeyini qorumaq, üzv dövlətlər arasında əməkdaşlığı və dəstəyi gücləndirmək olduğu göstərilən İslam Konfransı Təşkilatı rəsmi şəkildə yaradıldı.

İslam Konfransı Təşkilatı adı ilə təşkil olunan bu birliyin adı 2011-ci ilin iyul ayında Astanada təşkil olunan 38-ci xarici işlər nazirlərinin konfransında İslam Əməkdaşlıq Təşkilatı olaraq dəyişdirilmişdir. Edilən bu ad dəyişikliyinə dair fikirlərini bildirən İbrahim Şargi bunu yalnız termin olaraq dəyişdirilmədiyini, əslində getdikcə üzv ölkələri arasındakı əməkdaşlığın dərinləşməsi üçün daha da ciddi addımlar atılması məqsədi ilə belə bir addım atılmasının doğru olduğunu söyləmişdi. Həqiqətən də yaradılışından bu tərəfə təşkilata üzv olan ölkələrin sayında yüksək artım özünü göstərir. Bu baxımdan BMT-dən sonra ikinci ən böyük təşkilata çevrildi. Hər bir təşkilatda olduğu kimi İƏT də öz növbəsində xüsusi struktura və idarəçilik prinsipinə sahibdir. Bu strukturun quruluşunu izah etməzdən əvvəl təşkilatın prinsiplərinə nəzər yetirək. Bu prinsiplər dövrün tələblərinə uyğun olaraq inkişaf etdirilir və yeniləri əlavə olunur. İƏT-in məqsəd və prinsipləri siyasi, iqtisadi, sosial, mədəni və insan hüquqlarına müvafiq şəkildə təsnif oluna bilər. Bu məqsədləri aşağıdakı formada saya bilərik:

1.Təşkilata üzv olan ölkələr arasında münasibətləri inkişaf etdirmək;

2.İqtisadi, sosial və mədəni sahələrdə ortaq layihələr həyata keçirmək;

3. Müstəmləkəçilik, bərabərsizlik və irqi ayrı-seçkilik kimi ədalətsizliklərə tamamilə son vermək;

4. Beynəlxalq arenada sülhü təsis etmək üçün bir qism addımlar atmaq və bu çərçivədə kriteriyalar ortaya qoymaq;

5. Müqəddəs amillərin mühafizəsi üçün ortaq təşəbbüs yaratmaq;

6.Fələstin məsələsində Fələstin xalqının azadlıq mücadiləsini dəstəkləmək və yardım etmək;

7.Dünya coğrafiyasının hər yerində müsəlman cəmiyyətinin azadlıq və hüquqlarının müdafiə edilməsi üçün mücadilə etmək; Təşkilat məqsədləri ilə yanaşı əsas ideoloji fikir olaraq bunları mənimsəmişdir: təşkilatın üzvü olan dövlətlər arasında tam bərabərlik; üzvlərin bir-birlərinin torpaq bütünlüklərinə, azadlıqlarına və suverenliklərinə hörmət; üzvlərin bir-birlərinin daxili işlərinə qarışmamaları; üzv ölkələrin arasında meydana gələ biləcək anlaşılmazlıqlarda vasitəçi üslub mənimsəyərək ədalətli qərar vermək; hər hansı bir üzvün suverenlik, torpaq bütövlüyü və milli birliyinə qarşı təhdid və ya gücdən istifadə hallarından qorunmaq. Təşkilatın məqsədlərini həyata keçirmək üçün göstərdiyi səylərə diqqət yetirdikdə isə istənilən səviyyədə nailiyyətin əldə olunmadığı görünür. İƏT-ə üzv ölkələrin bir çoxu coğrafi olaraq bir-birlərinə yaxın olmalarına baxmayaraq istər iqtisadi, istərsə də sosial baxımdan qarşıya qoyulan məqsəd çərçivəsində əməkdaşlığa və dəstəyə nail olunmayıb. İƏT-in təsirinin zəif olmasının əsas səbəbi üzv ölkələrin sosial-mədəni quruluşları ilə iqtisadi inkişaf səviyyələrinin fərqli mərhələdə olmasıdır.

Bu vəziyyət hər ölkənin hədəfini fərqli edir və üzvlər arasında əməkdaşlığın yaranmasında problemlər ortaya çıxardır. Eyni zamanda üzv ölkələrin öz aralarında və ya üzv olmayan digər ölkələrlə mövcud olan problemləri ölkələri fərqli siyasi xətlər həyata keçirməyə məcbur edir və nəticə etibarilə bu vəziyyət İƏT-in məqsədyönlü çalışmasına mane olur. Təşkilatın təsir dairəsini zəiflədən bir digər səbəb isə iqtisadi dəstəkçilərinin sadəcə yeddi ölkə: Səudiyyə Ərəbistanı, İran, Küveyt, Liviya, Birləşmiş Ərəb Əmirlikləri, Malayziya və Türkiyə olmasıdır. Bu vəziyyət təşkilatı həm maliyyə cəhətdən zəif edir, həm də təşkilatın qərarvermə müddətində bu yeddi ölkənin təsirini artırır və qərarların qəbul olunmasında digər üzvlərin iştirakına mane olur. Nəticə etibarilə İƏT-ə üz ölkələrin dünya ticarətindəki paylarını düşünsək qarşıya qoyulan məqsədə çatmağın heç də utopiya olmadığı görünür. Sadəcə olaraq bu məqsədə çatmaq üçün həyata keçirilən fəaliyyət kifayət qədər deyil. İƏT-in əsas 3, ümumilikdə isə 11 təşkilati orqanı mövcuddur. Ən vacib 3 orqan zirvə konfransları, xarici işlər nazirlərinin konfransları və baş katiblikdir. Zirvə konfransları fövqəladə bir vəziyyət olmadığı müddətdə ölkə kralları və ya dövlət başçılarının iştirakı ilə hər üç ildən bir keçirilir. Bu görüşlərdə ümumi olaraq islam ölkələrinin siyasi, iqtisadi, sosial və mədəni problemləri müzakirə olunur və bu problemlərin öhdəsindən gəlmək üçün atılacaq addımlar ortaya qoyulur [2].

Üzv ölkələrin xarici işlər nazirlərindən meydana gələn xarici işlər nazirləri konfransları isə hər il fərqli bir ölkədə keçirilir. Əsas məqsədi zirvə konfranslarında alınan qərarların həyata keçməsinə nəzarət etməkdir. Digər məqsədlər içərisində İƏT ilə Birləşmiş Millətlər Təşkilatı arasında əlaqə yaratmaq; lazım olarsa yeni orqan və komitələrin qurulması qərarını vermək; Baş katib və köməkçilərini vəzifəyə təyin etmək. Təşkilatın idarəçi orqanı olan baş katibliyin əsas vəzifəsi isə təşkilata üzv ölkələr arasında məlumatların mübadiləsini həyata keçirərək xarici işlər nazirləri konfransında alınan qərarların həyata keçirilməsini izləmək; bunlar haqqında məlumat vermək; ehtiyac olduqda lazımi dəstəkləri göstərməkdir. Baş katib hər hansı bir problem yaranmadığı müddətcə xarici işlər nazirləri şurası tərəfindən arxa-arxaya ən çox iki dövr olmaq üzrə 5 il seçilir və vəzifədə qaldığı müddətdə verdiyi qərarlarda hər hansı bir ölkə tərəfindən əmr almadan müstəqil hərəkət edir. İƏT-in əsas hədəflərini həyata keçirmək üçün mövcud olan orqanların xaricində xüsusi sahələrdə məqsədləri reallaşdırmaq üçün yaratdığı dörd əsas komitə də mövcuddur. Üzv dövlətlərin müvafiq sahələr üzrə nazirlərinin qatıldığı həmin komitələr bunlardır:

1.Güc komitəsi;

2.İslam əməkdaşlığı təşkilatı iqtisadi və ticarət əməkdaşlığı daimi komitəsi;

3.İnformasiya və mədəni işlər üçün daimi komitə;

4.Elmi və texnoloji əməkdaşlıq üçün daimi komitə;

Bu komitələr arasında siyasi və dini baxımdan önə çıxan yeganə komitə Güc komitəsidir. Mərkəzi Rabatda yerləşən, 1975-ci ildə qurulan Güc komitəsinin əsas məqsədi mərkəzi Qüds olmaqla Fələstinin müxtəlif şəhərlərində yaşayan insanlara iqtisadi baxımdan edilən yardımları idarə etməkdir. Bununla yanaşı komitə başda Məscidi Əqsa olmaqla ətrafında mövcud olan dini baxımdan müqəddəs qəbul

4. Докладная записка представителя азербайджанского правительства при союзном командовании А. Таирова председателю Совета Министров Н. Ю. Усуббекову об итогах поездки в Стамбул и Рим. 6 августа 1919 г. // ГАППОДАР, ф.277, оп.2, д. 22, л.103-105.

5. Интервью председателя Совета Министров Н.Ю. Усуббекова корреспонденту газ. "Возрождение"1 о результатах переговоров с представителем Главного командования ВСЮР при британском главном командовании в Закавказье генералом-от-кавалерии Н.Н.Баратовым. Тифлис 10 сентября 1919 г. // ГААР, ф.970, оп.1, д.144, л.11-12.

6. Нота председателя азербайджанской делегации на Парижской мирной конференции А. А. Топчибашева министру иностранных дел Велико-британии лорду Бальфуру об агрессивных действиях Добровольческой армии против Азербайджана. 10 сентября 1919 г. // ГААР, ф.970, оп.1, д.142, л.90-94.

7. Нота министра иностранных дел М. Ю. Джафарова командующему союзными войсками в Баку ген. Д. Шательворгу. 3 июля 1919 г./ ГААР, ф.970, оп.1, д. 48, л. 58.

8. Нота министра иностранных дел М.Ю.Джафарова командующему союзными войсками в Баку ген. Д.Шательворгу, 10 августа 1919 г. // ГААР, ф.894, оп.10, д.86, л.29.

9. Обзор событий на Кавказе и внешней политики Азербайджанской Республики за август-октябрь 1919 г., направленный Министерством иностранных дел председателю азербайджанской делегации на Парижской мирной конференции А.А.Топчибашеву. 30 октября 1919 г. // ГААР, ф.970,оп.1, д.144, л. 1-8.

10. Обращение командующего союзными войсками в Баку ген. Д. Шательворга к жителям Азербайджана по случаю ухода войск. 22 августа 1919 г. // Газета «Азербайджан»,1919, 24 августа .

11. Отношение командующего союзными войсками в Баку ген. Д. Шательворга председателю Совета Министров Н. Ю. Усуббекову о несоответствии южной демаркационной линии декларации британского правительства.июль 1919 г. // ГААР, ф.894, оп.10, д.86, л.15.

12. Письмо министра иностранных дел М.Ю.Джафарова верховному британскому комиссару в Закавказье О.Уордрону о возможных формах Государственного устройства в Дагестане после вывода Добровольческой армии. 30 сентября 1919 г. // ГААР, ф.894, оп.10, д.89, л.65.

13. Сообщение командующего британскими силами в Закавказье генерал-майора Г.Н.Кори председателю Совета Министров Н. Ю. Усуббекову об установлении демаркационной линии между территорией, занятой Добровольческой армией, и республиками Кавказа. 11 июня 1919 г. / Азербайджанская Демократическая Республика. Внешняя политика. (Документы и материалы) — Баку, издательство "Азербайджан" 1998, с.226.

14. Телеграмма министра иностранных дел Республики Грузия Е. П. Гегечкори министру иностранных дел М. Ю .Джафарову о совместной борьбе за восстановление старой демаркационной линии между территорией, занятой ВСЮР, и закавказскими республиками.Тифлис 10 августа 1919 г. // ГААР, ф.894, оп.10, д.86, л.28

15. Телеграмма министра иностранных дел М.Ю.Джафарова союзному верховному комиссару в Закавказье полк. В. Н. Гаскелю о необходимости приостановления кровопролития в Дагестане и установления нейтральной зоны между Азербайджаном и территорией, занимаемой Добровольческой армией.24 сентября 1919 г. // ГААР, ф.894, оп.10, д.112, л.92.

16. Уведомление представителя Главного командования ВСЮР при британском Главном командовании в Закавказье генерала-от-кавалерии Н. Н. Баратова председателю Совета Министров Н. Ю. Усуббекову о своих дипломатических полномочиях, Тифлис 6 августа 1919 г. // ГААР, ф.894, оп.10, д.86, л.26.

XÜLASƏ

1919-cu ilin mayında Denikin qoşunları Dağıstanı ələ keçirdilər.Bu hadisə Azərbaycan respublikasında narahatlıq yaratdı.Əsas təhlükə Denikin qoşunlarının Azərbaycanın sərhədlərinə yaxınlaşması idi.

Böyük Briyaniya hökuməti bu məsələnin həlli üçün demarkasiya xətti təyin etdi.Bu xəttə görə Azərbaycanla Denikin qoşunları arasında sərhəd Maxaçkala şəhərindən 5 kilometr cənubdan keçirdi.Lakin general Denikin bu şərtlərə əməl etmədi və Dərbəndə qədər Dağıstan ərazilərini ələ keçirdi.Bu Azərbaycan respublikasının etirazına səbəb oldu. Böyük Britaniya hökuməti 1919-cu ilin avqustunda ikinci dəfə demarkasiya xəttini müəyyən etdi.Bu dəfə demarkasiya xətti köhnə Bakı quberniyası ilə Dağıstan vilayəti arasındakı sərhəd üzrə keçirdi.

Azərbaycan respublikası demarkasiya xəttinin yenilənməsinə etiraz etdi.Ancaq Britaniya hökuməti üçün Denikinlə yaxşı münasibətlər saxlamaq daha önəmli idi.

Açar sözlər: *Cənubi Qafqaz, Dağlı Respublikası, Azərbaycan Xalq Cümhuriyyəti, Böyük Britaniya, "Könüllü Ordu".*

Hasanova Leyla Nizami gizi
PhD student in History of International Relations at the Institute of History and Ethnology named after Abbasgulu Agha Bakikhanov of ANAS

Determination of the demarcation line between the Azerbaijan Democratic Republic and Dagestan and the position of Great Britain on this issue

ABSTRACT

In May 1919, Denikin's troops captured Dagestan. This event caused concern in the Azerbaijan Republic. The main threat was the approach of Denikin's troops to the borders of Azerbaijan.

The British government set a demarcation line to resolve this issue. According to this line, the border between Azerbaijan and Denikin's troops passed 5 kilometers south of the city of Makhachkala. However, General Denikin did not comply with these conditions and captured the territories of Dagestan up to Derbent. This caused protests from the Azerbaijani Republic. The British government set a demarcation line for the second time in August 1919. This time, the demarcation line passed along the border between the old Baku governorate and the Dagestan province.

The Azerbaijani Republic objected to the renewal of the demarcation line. However, it was more important for the British government to maintain good relations with Denikin.

Keywords: *South Caucasus, Mountainous Republic, Azerbaijan Democratic Republic, Great Britain, "Volunteer Army".*

UOT 94; UOT 94"19/..."
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.249

THE SIGNIFICANCE OF THE CAUCASUS TO THE UNITED STATES IN TERMS OF TRANSPORTATION CORRIDORS (1992-2000)

ASGAR ZEYNALABDINOV
Baku State University, History faculty, lecturer
E-mail: asgarzeynalabdinov@bsu.edu.az

Introduction

The demise of the Cold War and the disintegration of the communist bloc presented the United States with tremendous opportunities to enlarge the frontier of peace, democracy, and capitalism. This strengthened Washington's leadership worldwide. It should, nevertheless, be noted that the years 1992-2000 not only cemented the position of the United States as a global power but also compelled it to address emerging challenges. The rise of Russia and China as new power centers following the Cold War, and particularly China's economic challenge to America, pushed Washington to take several steps ahead. In response to these developments, the United States began to concentrate on building international and regional transportation corridors as a means of entrenching its position in the area and securing energy security.

The main part. The "Contract of the Century" fundamentally raised the geopolitical significance of the Caucasus region. Following the contract, the United States and other Western countries began to develop a strong interest in the region. The Caucasus region became significant not only for the extraction and transit of energy resources, but also as a critical point on international trade routes. The US interest in the region, along with its energy security policy, was directed towards opening East-West transport lines while restricting the roles of its geopolitical competitors such as Russia and Iran. To completely grasp the strategic significance of the region, there is a necessity to examine its importance in relation to transportation corridors.

Azerbaijan's geographical location, between North and South, East and West, made the country an important hub for international transportation lines. This strengthened Azerbaijan's position as a regional and global transit and logistics hub. The North-South and East-West transportation routes, in particular, boosted Azerbaijan's position in international trade, providing the country with economic and geopolitical advantages. Cargo movement across these corridors was more efficient and faster, establishing Azerbaijan as a key link in the global commerce network. The Baku-Tbilisi-Kars railway, the Baku International Sea Commercial Port, and the East-West transport corridor were key infrastructure projects that improved the speed and efficiency with which commercial goods were transported from Asia to Europe and vice versa. This corridor considerably improved Azerbaijan's involvement in the global trade network by allowing China and other Asian countries to access European markets. At the same time, the North-South transport corridor, which included the Astara-Rasht-Qazvin railway and the correspondingly developed highways, encouraged freight travel between countries spread across a broad geographical area, including Russia, Iran, and India.

Georgia's significance in terms of transportation corridors arose from its strategic geographic location and regional transit function. Georgia served as a gateway to the Caucasus and was a key component of the East-West Transport Corridor, with the Baku-Tbilisi-Kars railway and the ports of Poti and Batumi. It also contributed significantly to the delivery of Caspian region energy resources to global markets via the Baku-Tbilisi-Ceyhan Oil Pipeline and the South Caucasus Gas Pipeline. Georgia not only connected Turkey and Azerbaijan directly, but it also served as a strategic transit country, allowing China and other Asian countries to gain access to European markets.

Armenia's absence from international transport corridors stemmed primarily from its failure to restore relations with Azerbaijan and Turkey. At that time, Armenia only transported cargo through Iran and Georgia. However, normalizing relations with Azerbaijan and Turkey, as well as the opening of borders, could have created conditions for Armenia to overcome regional isolation and participate in international transport networks. The creation of the Zangezur corridor, initiated by Azerbaijan, was critical for Armenia in terms of increasing its participation in regional economic cooperation and profiting from improved transit opportunities.

The North Caucasus, which serves as the southern entryway to the Russian Federation, is also at the crossroads of routes connecting Europe and Asia. Ports on the Black, Azov, and Caspian Seas, as well as railway and highway networks, strengthen the North Caucasus's position as a transit zone. The North Caucasus region also plays an important role in the transit of products between Russia, Europe, the Middle East, and the Caspian Basin.

The Caspian Basin's abundance of energy resour-

ces created numerous prospects for the Caucasus region. The entire Caucasus region had the potential to act as a transit corridor for Caspian oil and natural gas exports to regional and global markets. The region was a transit point for the Europe-Caucasus-Asia Transport Corridor (TRACECA) project, which was creating a transportation artery. In May 1993, the European Union proposed the TRACECA initiative at an international summit in Brussels attended by delegates from Central Asian and South Caucasian countries. At the summit, the European Union's technical assistance program for the project was approved. This concept envisioned the creation of a transportation corridor stretching from Europe to Central Asia via the Black Sea, the South Caucasus, and the Caspian Sea. TRACECA included a number of infrastructure measures, such as the construction of road and rail links, as well as oil and gas pipelines, all aimed at reconstructing the medieval Silk Road, as well as a planned increase in exports. At the time, four unsolved armed conflicts in the Caucasus (Chechnya, Abkhazia, South Ossetia, and Armenia-Azerbaijan Nagorno-Karabakh) provided further hurdles to the corridor's operation [4].

In 1997-1998, the Caucasus region sparked widespread interest, not just for its hydrocarbon riches, but also for transportation corridor projects. Azerbaijan played a significant role in the US and European Union's East-West transport corridor idea and plans for the development of the Great Silk Road.

On April 24, 1999, a bill to restore the Great Silk Road was debated in the US Congress. These consultations were attended by the Caucasus and Central Asian countries' heads of state and foreign ministers. Senator Sam Brownback of the United States Congress spearheaded the event's organization.

Regarding the "Silk Road" concept, US President Bill Clinton briefly stated in a special letter to Senator S. Brownback on April 17, 1999, "The goal of the United States is to assist the newly independent states of the Caucasus and Central Asia. These young countries express a desire for stability, democracy, and progress. If we stand with them, we can help them succeed. The United States should continue to play an active and balanced role in the Caucasus and Central Asia, supporting the establishment of peace in Nagorno-Karabakh" [3;70].

Senator S. Brownback remarked that the "Silk Road" concept "connects Asia with Europe and the rest of the world. The countries of the South Caucasus and Central Asia on the Silk Road are at a historical crossroads; they are independent; they are positioned at the meeting point of the world's major powers; and they are wealthy in natural resources. They are one of the primary deterrents to the rise of anti-Western, belligerent fundamentalism and terrorism in Iran and other extremist governments. Most importantly, after a lengthy war with communism, the doors of this area have opened, allowing the United States to assist institutions that guarantee individual rights and help establish circumstances for the emergence of pluralistic cultures, including religious tolerance." [3;71].

It should be mentioned that the Silk Road served as an essential link between the West and Central Asia, as well as the South Caucasus. It connected the Caspian and Black Seas, running from Kazakhstan to Georgia and then into Europe. Many Caspian littoral governments benefited from US technical aid and training programs to enhance their legal systems, encouraging private investment in energy development and transportation. On September 8, 2000, a meeting on regional cooperation of countries along the Silk Road was held in New York, marking the next step in the TRACECA project's execution. The summit was coordinated by the East-West Space Sciences Center and the East-West Institute at the University of Maryland in the United States. The reasons for the United States' interest in the East-West transportation route were as follows:

• To strengthen trade links between Central Asia, Caucasus, and Europe while protecting geopolitical interests;

• To minimize the Caucasus region's dependence on Russia and Iran. The United States and the European Union utilized these initiatives as a strategic instrument to reduce Russia and Iran's influence in the Caucasus. The development of alternative routes was critical in this regard;

• To provide safe and efficient transportation. This was most commonly discussed during the period when wars in the Caucasus threatened the security of transportation corridors;

• To improve their position by entering new markets. This was vital for the region's economic development. In light of these facts, the US administration backed the implementation of projects such as Baku-Supsa and Baku-Tbilisi-Ceyhan as part of the East-West transportation corridor. On April 15, 1999, US President Bill Clinton declared that "the opening of the Baku-Supsa line ensures the implementation of a long-desired goal: the creation of a multi-branch pipeline network to transport the Caspian region's oil and gas reserves to world markets. However, the benefits of this pipeline extend beyond the energy sector.";

• Gain control of the region's abundant oil and gas resources. The tremendous energy potential was extremely valuable not only as a source of economic revenue, but also as an instrument for geopolitical power. As an alternate energy source to Russia and the Middle East, the Caspian area had emerged as a strategic priority for US policy in the Caucasus;

• Encourage the formation of pro-American democratic nations in the Caspian region. This program aimed not only to secure regional peace and growth, but also to safeguard and expand its geopolitical interests.

The Trans-Caspian Pipeline was one of the initiatives developed by the United States in the Caucasus during the 1990s. The project aimed to connect the Caspian region's energy resources to Western markets, ensure energy security, and contribute to the regional countries' economic development. The Trans-Caspian pipeline was designed primarily to transfer Turkmen gas from the Caspian Sea to Europe via Azerbaijan. The project aimed to balance Russia and Iran's dominance in the energy market and diversify energy channels. The project was not fully executed due to a variety of political, economic, and technological factors. Resistance from Russia and Iran, as well as confusion over the legal status of the Caspian Sea, was a major impediment to the project's advancement [5].

The Trans-Caspian East-West International Transport Corridor is a multimodal transportation corridor that connects the People's Republic of China to the European Union via Central Asia, the Caucasus, and Turkey. It is an alternative to both the Northern Route (China-Kazakhstan-Russia-Belarus-Europe) and the Suez Canal sea route. The Middle Corridor begins at the China-Kazakhstan border, travels through Kazakhstan, and continues over the Caspian Sea to Azerbaijan and Georgia. From Georgia, this corridor runs in two directions: across Turkey to Europe and across the Black Sea to Ukraine, Romania, and Bulgaria [2].

Conclusion. Following the Cold War, the United States' worldwide leadership strengthened, and new threats emerged, leading to the growth of its global and regional geopolitical interests. The Caucasus region attracted the interest of the US, particularly given its strategic location at the intersection of energy resources and international trade routes. Infrastructure projects such as the Baku-Tbilisi-Kars railway and the Baku-Tbilisi-Ceyhan (BTC) pipeline made the region a vital link in the movement of commerce cargo between Asia and Europe. The United States also wanted to ensure that the Caucasus region remained free of Russian and Iranian influence. In this context, the US-backed Silk Road and Trans-Caspian pipeline projects were critical initiatives aimed at connecting the region's energy resources with global markets. Through these initiatives, the United States helped to promote democratic and pro-Western administrations throughout the region. Additionally, the United States actively participated in assuring the security of these projects and expanding access to new markets. The marketing of the Caspian Sea's oil resources to global markets was especially important. Equally significant was the protection of the economic interests of US and Western firms in the region.

REFERENCES:

1. Aslanlı, A. ABD ve Güney Kafkasya.//-Ankara:Stratejik-2009. №107. - s. 58-65

2. Böyük İpək Yolunun bərpası [Elektron material] //https://president.az/az/pages/view/azerbaijan/silkroad

3. Sülh və Təhlükəsizlik naminə. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin NATO-nun 50 illik yubleyi ilə əlaqədar ABŞ-a səfəri 22-27 aprel, 1999-cu il/ tərt. ed. Azərbaycan Respublikası Prezidentinin katibliyi- Bakı:2000, - 231 s.

4. Craig, R. Russia, The United States, and the Caucasus. February 2007, [Electronic resourse] / URL:https://www.files.ethz.ch/isn/32226/Russia_US_Caucasus.pdf

5. Has the Trans-Caspian Pipeline's Time Finally Arrived? :[Electronic resource], URL:https://aircenter.az/en/single/has-the-trans-caspian-pipelines-time-finally-arrived-728

6. Henze P. American interest in the Caucasus//-Circassia, North Caucasus.-03 April,2009. URL:https://www.circassianworld.com/circassia/north-caucasus/1167-american interest-caucasus-henze

SUMMARY

The new geopolitical environment that arose in the Caucasus region following the demise of the Soviet Union presented a number of strategic opportunities for the United States. This circumstance prompted official Washington to take significant steps to improve its economic and political ties with the region. Using the Caucasus' natural and geographical advantages, the US began to support the development of a number of vital transportation corridors. The Caucasus's advantageous geographi-

cal location for multiple transportation lines made the region a transit point between the East and the West, which became a significant factor for the United States. In this new geopolitical climate, one of the US priorities was the establishment of an East-West transportation route and the reconstruction of the Great Silk Road. The rebuilding of the Great Silk Road aims to promote commercial flows, improve access to energy resources, and deepen ties between regional states. The Trans-Caspian transport corridor was one of the major initiatives funded by the United States in the early 1990s. This project highlighted the importance of the Caucasus and Caspian region in the trade and energy industries. By completing the project, the US hoped to diversify energy channels in the region and undercut Russia's and Iran's positions.

Keywords: *USA, transport corridors, Silk Road, Azerbaijan, Georgia, North Caucasus.*

Zeynalabdinov Əsgər Aydın oğlu
Bakı Dövlət Universiteti, Tarix fakültəsi, müəllim
E-mail: asgarzeynalabdinov@bsu.edu.az

Nəqliyyat dəhlizləri baxımından Qafqazın ABŞ üçün əhəmiyyəti (1992-2000)

XÜLASƏ

SSRİ-nin dağılmasından sonra Qafqaz regionunda yaranan yeni geosiyasi mühit ABŞ üçün müxtəlif strateji imkanlar yaratdı. Bu vəziyyət, rəsmi Vaşinqtonun öz iqtisadi və siyasi maraqlarını bölgədə daha da möhkəmləndirmək üçün mühüm addımlar atmasına səbəb oldu. ABŞ, Qafqazın təbii və coğrafi üstünlüklərindən istifadə edərək, burada bir sıra strateji nəqliyyat dəhlizlərinin inkişafını təşviq etməyə başladı. Qafqazın müxtəlif nəqliyyat dəhlizləri üçün əlverişli coğrafi mövqeyi, regionu Şərq və Qərb arasında bir keçid nöqtəsi halına gətirdi və bu, ABŞ üçün əhəmiyyətli bir amil oldu. Bu yeni geosiyasi şəraitdə, ABŞ-nin prioritet məsələlərindən biri Şərq-Qərb nəqliyyat dəhlizinin yaradılması və Böyük İpək Yolunun bərpası ilə bağlı layihələr oldu. Böyük İpək Yolunun bərpası, həm də ticarət axınlarını artırmaq, enerji resurslarına çıxışı asanlaşdırmaq və regiondakı müxtəlif dövlətlər arasındakı əlaqələri gücləndirmək məqsədi daşıyırdı. 1990-cı illərin əvvəllərində ABŞ-nin dəstəklədiyi əhəmiyyətli layihələrdən biri də Transxəzər nəqliyyat dəhlizinin qurulması idi. Bu layihə, Qafqazın və Xəzər regionunun ticarət və enerji sahələrindəki mühüm rolunu vurğulayan bir addım idi. Layihənin reallaşdırılması ilə ABŞ, bölgədəki enerji marşrutlarını diversifikasiya etməyə və Rusiya və İranın mövqeyini zəiflətməyə çalışırdı.

Açar sözlər: *ABŞ, nəqliyyat dəhlizləri, İpək yolu, Azərbaycan, Gürcüstan, Şimali Qafqaz.*

Зейналабдинов Аскер Айдын оглы
Бакинский государственный университет, Исторический факультет, преподаватель
asgarzeynalabdinov@bsu.edu.az

Значение Кавказа для США с точки зрения транспортных коридоров (1992-2000)

РЕЗЮМЕ

Новая геополитическая обстановка, возникшая в Кавказском регионе после распада Советского Союза, предоставила ряд стратегических возможностей для Соединенных Штатов. Это обстоятельство побудило официальный Вашингтон предпринять существенные шаги для улучшения своих экономических и политических связей с регионом. Используя природные и географические преимущества Кавказа, США начали поддерживать развитие ряда жизненно важных транспортных коридоров. Выгодное географическое положение Кавказа для многочисленных транспортных линий сделало регион транзитным пунктом между Востоком и Западом, что стало значимым фактором для Соединенных Штатов. В этом новом геополитическом климате одним из приоритетов США стало создание транспортного маршрута Восток-Запад и реконструкция Великого Шелкового пути. Восстановление Великого Шелкового пути направлено на содействие торговым потокам, улучшение доступа к энергетическим ресурсам и углубление связей между государствами региона. Транскаспийский транспортный коридор был одной из основных инициатив, финансируемых Соединенными Штатами в начале 1990-х годов. Этот проект подчеркнул важность Кавказа и Каспийского региона в торговле и энергетической промышленности. Завершив проект, США надеялись диверсифицировать энергетические каналы в регионе и ослабить позиции России и Ирана.

Ключевые слова: *США, транспортные коридоры, Шелковый путь, Азербайджан, Грузия, Северный Кавказ.*

UOT 94
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.251

ÇEXİYA-AZƏRBAYCAN: DÖVLƏT BAŞÇILARININ GÖRÜŞLƏRİ

SƏBİNƏ HƏSƏNOVA
Bakı Dövlət Universitetinin doktorantı

E-mail: sabinhasanova08@gmail.com
https://orcid.org/0009-0005-8979-1498

Giriş

Azərbaycan Respublikası ilə Çexiya Respublikası arasında diplomatik münasibətlər 1993-cü ilin yanvar ayında qurulmuşdur. Həmin vaxtdan etibarən iki ölkə arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlıq dinamik şəkildə inkişaf etmişdir. Bu əlaqələrin möhkəmləndirilməsində dövlət başçılarının qarşılıqlı səfərləri və görüşləri mühüm rol oynamışdır. İlk yüksək səviyyəli təmaslardan biri 2005-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin Çexiyaya rəsmi səfəri zamanı baş tutmuşdur. Bu səfər zamanı enerji təhlükəsizliyi, iqtisadi əməkdaşlıq və ikitərəfli münasibətlərin genişləndirilməsi kimi önəmli məsələlər müzakirə olunmuşdur [1]. 2009-cu ildə isə Çexiya Prezidenti Vatslav Klausun Azərbaycana rəsmi səfəri iki ölkə arasında münasibətlərin daha da dərinləşməsinə təkan vermişdir. Bu səfər çərçivəsində bir sıra sənədlər imzalanmış və qarşılıqlı maraq doğuran sahələr üzrə əməkdaşlıq perspektivləri müəyyən edilmişdir [3]. Növbəti illərdə də bu görüşlər davam etmiş, 2015-ci və 2022-ci illərdə baş tutan yüksək səviyyəli təmaslar tərəflər arasında strateji əməkdaşlığın inkişaf etdiyini göstərmişdir. Bu məqalədə Azərbaycan və Çexiya prezidentlərinin görüşləri çərçivəsində əldə olunan razılaşmalar və onların ikitərəfli münasibətlərə təsiri təhlil olunacaq.

Azərbaycan və Çexiya prezidentləri arasında keçirilmiş əsas görüşlərin detalları

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci ildə Çexiyaya etdiyi rəsmi səfər ikitərəfli münasibətlərin formalaşmasında mühüm mərhələ olmuşdur. Bu səfər zamanı Prezident İlham Əliyev Çexiya Respublikasının Prezidenti Vatslav Klaus, Baş Nazir və digər yüksək vəzifəli şəxslərlə görüşlər keçirmişdir. Əsas müzakirə olunan məsələlər enerji təhlükəsizliyi və Azərbaycan qazının Avropaya nəqli məsələləri, iqtisadi əməkdaşlıq və qarşılıqlı investisiyaların təşviqi, təhsil və mədəniyyət sahəsində əməkdaşlıq olmuşdur. Görüş zamanı "İqtisadi əməkdaşlıq haqqında Anlaşma" Memorandumu, "İkitərəfli ticarət və investisiyalar üzrə razılaşmalar" imzalanmışdır. Bu səfərdən sonra Çexiya Azərbaycanın enerji resurslarına maraq göstərmiş və iki ölkə arasında ticarət dövriyyəsində artım müşahidə olunmuşdur [20, s. 128].

2009-cu ilin may ayında Çexiya Prezidenti Vatslav Klaus Azərbaycana rəsmi səfər etmişdir. Bu, Çexiya prezidentinin Azərbaycana ilk səfəri kimi tarixə düşmüşdür və qarşılıqlı münasibətlərin daha da dərinləşdirilməsinə şərait yaratmışdır. Əsas gündəm regional təhlükəsizlik və enerji əməkdaşlığı, Avropa İttifaqı – Azərbaycan münasibətlərində Çexiyanın dəstəyi, infrastruktur və nəqliyyat sahəsində əməkdaşlıq məsələləri olmuşdur. "Azərbaycan-Çexiya hökumətləri arasında enerji əməkdaşlığı haqqında" saziş və "ikiqat vergitutmanın qarşısının alınması haqqında" saziş imzalanmışdır. Səfər çərçivəsində keçirilən biznes forumda 100-dən çox iş adamı iştirak etmiş və müxtəlif sahələrdə əməkdaşlıq imkanları müzakirə olunmuşdur [5].

2015-ci ilin sentyabr ayında Çexiya Respublikasının Prezidenti Miloş Zeman Azərbaycanda rəsmi səfərdə olmuşdur. Səfər zamanı dövlət başçıları arasında aparılan danışıqların əsas mövzusu iqtisadi əməkdaşlığın genişləndirilməsi olmuşdur. Energetika və sənaye əməkdaşlığı, inşaat, nəqliyyat və kənd təsərrüfatı, humanitar və mədəni əlaqələrin gücləndirilməsi əsas diqqət yönəldilən sahələr olmuşdur. "Azərbaycan və Çexiya hökumətləri arasında sənaye və energetika sahəsində əməkdaşlığa dair" anlaşmalar, "Tələbə mübadiləsi və ali təhsil sahəsində əməkdaşlıq" razılaşmaları imzalanmışdır. Bu səfər həm də Çexiya şirkətlərinin Azərbaycanda daha aktiv fəaliyyət göstərməsinə təkan vermişdir.

2022-ci ilin oktyabr ayında Prezident İlham Əliyev Avropa Siyasi Birliyi Zirvə Toplantısında iştirak məqsədilə Praqaya işgüzar səfər etmişdir. Səfər çərçivəsində Çexiya Prezidenti Miloş Zeman ilə ikitərəfli görüş keçirilmişdir. Görüşdə regional əməkdaşlıq və enerji təhlükəsizliyi, Cənubi Qafqazda sülh və sabitlik, Azərbaycanın Avropaya qaz tədarükündə roluna aid məsələlər müzakirə olunmuşdur. Görüş zamanı Azərbaycan qazının Avropaya, o cümlədən Çexiyaya nəqli məsələləri, enerji tranzit

layihələri və yaşıl enerji üzrə əməkdaşlıq imkanları nəzərdən keçirilmişdir [23].

2024-cü ilin noyabrında Azərbaycan Prezidenti İlham Əliyev ilə Çexiyanın Baş naziri Petr Fiala arasında keçirilən danışıqlar enerji və nəqliyyat infrastrukturu sahəsində daha geniş əməkdaşlığın təmin edilməsi istiqamətində atılan mühüm addım olub. Cənub Qaz Dəhlizinin Avropaya inteqrasiyası sahəsində əməkdaşlıq görüşün əsas gündəmlərindən biri olub [8].

Siyasi Əməkdaşlıq və Diplomatik Münasibətlər

Azərbaycan və Çexiya arasında siyasi münasibətlər 1993-cü ildə diplomatik əlaqələrin qurulması ilə rəsmi xarakter almışdır. Bu tarixdən etibarən iki ölkə arasında əlaqələr tədricən inkişaf etmiş və müxtəlif beynəlxalq platformalarda əməkdaşlıq genişlənmişdir.

Çexiya Respublikası Azərbaycanı Cənubi Qafqaz regionunda mühüm tərəfdaş kimi qəbul edir. Xüsusilə enerji təhlükəsizliyi və regional sabitlik məsələlərində Bakı ilə əməkdaşlıq Çexiya üçün strateji əhəmiyyət daşıyır. İki ölkənin prezidentləri və digər yüksək səviyyəli rəsmiləri arasında keçirilən rəsmi görüşlərdə dəfələrlə vurğulanıb ki, Azərbaycan və Çexiya bir-birinin suverenliyini və ərazi bütövlüyünü qarşılıqlı şəkildə dəstəkləyir [15].

Bu baxımdan, Çexiyanın Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı balanslı mövqeyi də diqqətəlayiqdir. Çexiya tərəfi, beynəlxalq hüquq prinsiplərinə əsaslanaraq, münaqişənin sülh yolu ilə və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarı olduğunu bir neçə dəfə bəyan etmişdir. 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa və yenidənqurma işlərinə dair Çexiya rəsmilərinin marağı da bunu bir daha göstərir.

Bununla yanaşı, Çexiya Azərbaycanla əməkdaşlığı təkcə ikitərəfli səviyyədə deyil, həm də Avropa İttifaqı çərçivəsində inkişaf etdirməkdə maraqlıdır. Aİ-nin "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində Azərbaycanla münasibətlərdə Çexiya mühüm rol oynayır və dəfələrlə bu platformada Azərbaycanla əməkdaşlığın dərinləşdirilməsinin tərəfdarı olduğunu ifadə etmişdir [20, s.122-123].

Çexiya parlamenti ilə Azərbaycan Milli Məclisi arasında da sıx təmaslar mövcuddur. Parlamentlərarası dostluq qrupları çərçivəsində mütəmadi səfərlər və görüşlər təşkil edilir ki, bu da siyasi dialoqun dərinləşməsinə xidmət edir.

Enerji sahəsi Azərbaycan və Çexiya arasında əməkdaşlığın əsas istiqamətlərindən biri kimi çıxış edir. Azərbaycan zəngin neft və qaz ehtiyatlarına malik ölkə olaraq Avropanın enerji təhlükəsizliyində mühüm tərəfdaşdır. Çexiya isə enerji ehtiyaclarının təminində etibarlı və diversifikasiya olunmuş mənbələrlə əməkdaşlığa xüsusi önəm verir. Bu baxımdan, Azərbaycan-Çexiya enerji əlaqələri qarşılıqlı maraqlara əsaslanır [7].

İlk mühüm enerji əməkdaşlığı təşəbbüsləri 2005-ci ildə Prezident İlham Əliyevin Praqaya səfəri zamanı gündəmə gəlmişdi. Həmin səfərdə enerji resurslarının ixracı, enerji infrastrukturlarının qurulması və Avropaya enerji nəqlinin şaxələndirilməsi məsələləri müzakirə olunmuşdur. Növbəti illərdə bu mövzu Çexiya prezidentlərinin Azərbaycana səfərləri zamanı da əsas prioritet kimi qaldı [25].

2009-cu ildə Prezident Vatslav Klausun Bakıya səfəri zamanı enerji sahəsində əməkdaşlığa dair rəsmi sənədlər imzalanmış və Azərbaycan qazının Avropaya, o cümlədən Mərkəzi Avropa ölkələrinə çatdırılması məsələsində Çexiya marağını açıq şəkildə ifadə etmişdir. Bu baxımdan Cənub Qaz Dəhlizi layihəsi, xüsusilə TANAP və TAP boru kəmərləri Çexiya üçün də strateji əhəmiyyət kəsb edir. Çexiya rəsmiləri Azərbaycanın bu layihələrdə oynadığı rolu dəstəkləyərək enerji marşrutlarının şaxələndirilməsinə töhfə verdiyini dəfələrlə vurğulamışlar [18, s. 208-209].

Son illərdə isə əməkdaşlıq yalnız neft və qazla məhdudlaşmır. İqlim dəyişiklikləri və yaşıl enerjiyə keçid fonunda Azərbaycanla Çexiya arasında "bərpa olunan enerji" sahəsində əməkdaşlıq imkanları da müzakirə olunmağa başlayıb. Xüsusilə işğaldan azad olunmuş ərazilərdə – "yaşıl enerji zonası" konsepsiyası çərçivəsində – xarici şirkətlərin, o cümlədən Çexiya investorlarının iştirakı üçün münbit şərait yaranmışdır. Məsələn, Xəzər dənizində planlaşdırılan külək enerjisi layihələri və günəş elektrik stansiyaları Azərbaycanın yaşıl enerji mərkəzinə çevrilməsi strategiyasının tərkib hissəsidir [15].

2022-ci ildə Prezident İlham Əliyevin Praqada Avropa Siyasi Birliyi Zirvə Toplantısında iştirakı zamanı keçirilən görüşlərdə də enerji məsələləri əsas müzakirə mövzularından biri olmuşdur. Azərbaycan tərəfi Avropa bazarına qaz ixracını artırmağa hazır olduğunu, Çexiya isə bu prosesdə fəal rol oynamaq niyyətini bəyan etmişdir [23].

Çexiya ilə Azərbaycan arasında yüksək səviyyəli danışıqlar ikitərəfli münasibətlərin dərinləşməsində və strateji əməkdaşlığın artırılmasında mühüm rol oynayır. 2021-ci ilin sonuna yaxın Çexiyanın Baş naziri Petr Fiala Azərbaycana rəsmi səfər edib. Bu səfər enerji sektorunda birgə layihələrin artırılması, ticarət həcminin genişləndirilməsi kimi strateji mövzuları gündəmə gətirib. Səfərin əsas gündəliyi Çexiyanın Azərbaycandan enerji idxalını artırmaq və xüsusilə təbii qaz və bərpa olunan enerji layihələrində əməkdaşlığı gücləndirmək olub [8].

Çexiya və Azərbaycan 2021-ci ildə imzalanmış sazişlə enerji sahəsində əməkdaşlığı rəsmiləşdirib. Bu saziş Azərbaycanın enerji ehtiyatlarının Avropaya nəqlini və Azərbaycanın enerji layihələrində Çexiya şirkətlərinin iştirakını əhatə edir. Xüsusilə bioenergetika, bərpa olunan enerji və neft-kimya sektorlarında əməkdaşlığın dərinləşdirilməsi məqsədi daşıyır.

Çexiyanın Baş naziri Petr Fialanın 2023-cü ildə Azərbaycana səfəri zamanı enerji sahəsində əməkdaşlıq yenidən müzakirə edilib, Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri və Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə nəql edilən təbii qazın Mərkəzi Avropa ölkələrinə çıxış imkanları müzakirə edilib. Görüşlərdə strateji enerji tərəfdaşlığı da vurğulanıb [18, s.208].

Çexiya Azərbaycanın bərpa olunan enerji potensialını artırmaq səylərinə texnologiya transferi və mühəndislik dəstəyi vermək niyyətindədir. Çex şirkətləri Azərbaycanda yol və enerji infrastrukturu layihələrində fəal iştirak etmək istəyirlər. İki ölkə arasında ticarət həcminin artırılması üçün səylər göstərilir, xüsusilə Azərbaycanın Avropa bazarına çıxışı Çexiya üçün logistik üstünlük yaradır [15].

Çexiya Azərbaycanın EU4Energy proqramı çərçivəsində enerji səmərəliliyi layihələrinə töhfə verir. Yol infrastrukturunda Çexiyada xüsusilə iri tikinti və nəqliyyat layihələrində iştirak edən şirkətlər var. Məsələn, Çexiya şirkətləri Azərbaycanın nəqliyyat infrastrukturunun modernləşdirilməsi layihələrində iştirak edirlər. EU4Energy Proqramı Avropa İttifaqı (Aİ) tərəfindən enerji sahəsində həyata keçirilən yardım və əməkdaşlıq proqramıdır. Bu proqram Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrində enerji səmərəliliyinin, bərpa olunan enerjinin və enerji infrastrukturunun gücləndirilməsi məqsədilə həyata keçirilib. EU4Energy Azərbaycan kimi ölkələrə enerji sektorunda islahatları sürətləndirmək və bu ölkələrdə enerji səmərəliliyini artırmaqda kömək etmək məqsədi daşıyır. Proqramın məqsədi enerji sektorunda Aİ standartlarına nail olmaq və ekoloji cəhətdən təmiz təcrübələri təşviq etməkdir [23].

Azərbaycanda ən mühüm layihələrdən biri Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttidir. Bu layihə Azərbaycan, Türkiyə və Gürcüstan arasında nəqliyyat dəhlizi yaratmaqla Asiya və Avropa arasında nəqliyyat imkanlarını artırmaq məqsədi daşıyır. Bu layihədə Çexiyanın rolu birbaşa böyük olmasa da, layihəyə maliyyə dəstəyi verən və sənaye əlaqələrini inkişaf etdirən tərəfdaş kimi iştirak edə bilər. Azərbaycan Avropa bazarına birbaşa çıxışı təmin etmək üçün nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə böyük önəm verir [18, s.206].

Çexiya ilə Azərbaycan arasında mədəni əlaqələrdə mühüm seminarlar və tədbirlər təşkil olunur. Məsələn, Çexiya incəsənət və mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın artırılması üçün tədbirlər təşkil edir. Bu tədbirlərdən biri də 2024-cü ilin dekabrında Praqada keçirilən "İncəsənət Gənclik Araşdırmaları" adlı seminardır. Azərbaycan Respublikasının Praqadakı Səfirliyi hər il Azərbaycan Respublikası Gününü qeyd etmək üçün qəbul təşkil edir. Bu cür tədbirlər iki ölkə arasında mədəni əlaqələrin gücləndirilməsi məqsədi daşıyır. [9]

Çexiya və Azərbaycan arasında təhsil sahəsində əməkdaşlıq hər iki ölkənin akademik müəssisələrinin qarşılıqlı əlaqəsini və tələbə mübadiləsi proqramlarını əhatə edir. Çarlz Universiteti 50 000-dən çox tələbə qəbul edən Çexiyanın ən qədim və ən böyük universitetidir və azərbaycanlı tələbələr də burada təhsil alırlar. Bundan əlavə, 2020-ci ildə Çexiyanın Azərbaycana təhsil sahəsində dəstəyini gücləndirən bəzi akademik və mədəni tədbirlər təşkil edilib. Bu tədbirlər hər iki ölkənin təhsil sistemləri arasında məlumat mübadiləsini gücləndirmək məqsədi daşıyır. Azərbaycan Çexiya təhsil modelini öyrənmək və öz təhsil infrastrukturunu inkişaf etdirmək üçün bir çox əməkdaşlıq proqramlarında iştirak edir. Çarlz Universiteti çex və ingilis dillərində tədris olunan bir sıra proqramlar təklif edir. Bundan əlavə, Çex Respublikasında tələbələr üçün müxtəlif təqaüdlər və maliyyə dəstəyi imkanları mövcuddur [10].

Çexiya Həyat Elmləri Universiteti (CZU) azərbaycanlı tələbələrə xüsusilə kənd təsərrüfatı, ətraf mühit elmləri və mühəndislik kimi sahələrdə təhsil imkanları təklif edir. Azərbaycanlı tələbələr üçün xüsusi qəbul tələbləri və təqaüdlər mövcud-

dur. Azərbaycan və Çexiya arasında tələbə mübadiləsi proqramları təşkil olunur. Bu proqramlar azərbaycanlı tələbələrin Çexiya universitetlərində təhsil almasına və eyni zamanda çex tələbələrinin Azərbaycanda təhsil almasına şərait yaradır. Bu cür proqramlar mədəni mübadilə və akademik bilik mübadiləsini təşviq edir. Çexiya Azərbaycandan olan tələbələr üçün həm də çex dili kursları və yay məktəbləri təşkil edir [10].

Çexiya və Azərbaycan arasında xüsusilə mühəndislik, enerji və ətraf mühit elmləri kimi sahələrdə birgə tədqiqat layihələri həyata keçirilir. Bu cür akademik əməkdaşlıqlar tələbələr və akademiklər üçün qarşılıqlı fayda təmin edir. Çexiyanın təcrübəsi və texnoloji nou-hau xüsusilə Azərbaycanın enerji infrastrukturu və ətraf mühit layihələrində mühüm töhfə verir.

Nəticə

Azərbaycan və Çexiya arasında dövlət başçılarının həyata keçirdiyi görüşlər, ikitərəfli münasibətlərin əsas dayağını təşkil edir. Bu görüşlər təkcə siyasi jestlər deyil, həm də konkret razılaşmalarla nəticələnən strateji təşəbbüslərdir. 2005-ci ildən etibarən Prezident İlham Əliyevin Praqaya səfəri ilə başlanan yüksək səviyyəli siyasi dialoq, sonrakı illərdə Çexiya prezidentlərinin Bakıya cavab səfərləri ilə davam etmiş və hər bir görüş ikitərəfli əməkdaşlıqda yeni səhifə açmışdır.

Enerji sahəsində Azərbaycanın Avropaya, o cümlədən Çexiyaya sabit və etibarlı təbii qaz təchizatçısı kimi rolu, bu münasibətlərin geosiyasi əhəmiyyətini daha da artırır. Eyni zamanda, yaşıl enerji, nəqliyyat, sənaye, kənd təsərrüfatı və səhiyyə sahələrində əməkdaşlıq genişlənməkdədir. Çexiya şirkətlərinin Azərbaycan bazarına marağı, xüsusilə işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən layihələrdə iştirakı, münasibətlərin iqtisadi əsaslarını möhkəmləndirir.

Siyasi münasibətlər baxımından Çexiya Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq səviyyədə dəstəkləyən və regional sabitlik məsələlərində əməkdaşlıq edən ölkələr sırasındadır. Bu, Azərbaycan üçün mühüm əhəmiyyət daşıyan prinsipial məqamlardan biridir.

Humanitar və mədəni sahələrdə də əlaqələrin inkişafı, xalqlar arasında dostluq və qarşılıqlı anlaşmanı gücləndirməkdədir. Təhsil proqramları, mədəniyyət günləri, sərgilər və digər tədbirlər insanlara bu əlaqələrin praktiki faydasını hiss etdirməkdədir.

Bütün bu amillər fonunda Azərbaycan–Çexiya münasibətləri təkcə ikitərəfli maraqlara deyil, həm də Avropa ilə Cənubi Qafqaz arasında körpü rolunu oynayan strateji tərəfdaşlığa əsaslanır. Mövcud dinamika göstərir ki, gələcək illərdə bu əməkdaşlıq daha da dərinləşəcək və yeni sahələri əhatə edəcək. Dövlət başçılarının qarşılıqlı səfərləri və siyasi iradəsi bu yolun davamlı və uğurlu olmasına zəmanət verir. Xüsusilə enerji təhlükəsizliyi, iqtisadi əməkdaşlıq və regional sabitlik məsələləri bu görüşlərin əsas sütunlarını təşkil etmişdir. Hazırda iki ölkə arasındakı əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməkdədir və gələcəkdə bu münasibətlərin daha da inkişaf etdirilməsi gözlənilir.

ƏDƏBİYYAT SİYAHISI:

1. "Çexiya və Azərbaycan arasında enerji saziş-ləri", Aydınlık, 2022.

2. "Azərbaycan və Çexiyanın Baş naziri danışıqları", Praqa xəbərləri, 2024.

3. Aslanlı, A. "Azərbaycanın enerji siyasəti və Avropa: strateji tərəfdaşlıqlar və çağırışlar". Enerji Tədqiqatları Jurnalı. 2020.

4. Kubátová, M. Çexiya ilə Qafqaz regionu arasında diplomatik əlaqələr. Praqa: Charles University Press. 2019.

5. "Çexiya Respublikası Azərbaycanla Enerji Əməkdaşlığı Sazişləri". Çexiya Xarici İşlər Nazirliyinin rəsmi hesabatları. 2021.

6. Cənub Qaz Dəhlizi: Strateji İcmal. Avropa Komissiyası, 2022.

7. "Çexiya-Azərbaycan enerji tərəfdaşlığı daha da güclənir". Praqa Gündəlik Monitor, 2021.

8. "Fiala Bakıda Ticarət və Enerjini Müzakirə edir". Azərbaycan Biznes Xəbərləri, 2022.

9. "Bakıda Çex Kino Günləri". Çex Mədəniyyət İnstitutu İllik Hesabat, 2021.

10. "Çexiya və Azərbaycan arasında təhsil tərəfdaşlığı". Erasmus+ Proqramı Layihənin Qiymətləndirilməsi Sənədləri, 2022.

11. Niyazi Niyazov, Models of Cooperation between Azerbaijan and NATO Member-States, 01 Jan 2022, International Trends, Vol. 20, Iss: 2, pp 99-116

12. Jamila Hasanova, Kamala Najafova, Development of Trade-Economic Relations between Azerbaijan-EU Countries in the Field of Natural Gas Supply, 02 May 2024, World Scientific and Engineering Academy and Society, Vol. 21, pp 1104-1114

13. N. Abdullayev, Legal regulation of relations between the republic of Azerbaijan and the EU at the present stage, 01 Jan 2022, Научное обозрение , Iss: 4, pp 155-163

14. Jamila Hasanova, Kamala Najafova, The historical development of trade and economic relations between Azerbaijan and the countries of the European Union, 01 Mar 2024, Voprosy Istorii (Russian Academy of Sciences), Vol. 2024, Iss: 3, pp 212-221

15. Maksym Aliiev, EU-Azerbaijan relations in the gas transporting sector, 21 Oct 2022, Language, Culture, Politics, Vol. 1, pp 205-218

16. Krystyna Gomółka, Economic contacts between Azerbaijan and the European union, 01 Feb 2019, Historical and social-educational ideas (Historical and Social Educational Ideas), Vol. 10, pp 53-61

17. Sabina Strimbovschi, Azerbaijan's balanced foreign policy trapped in a volatile geopolitical context, 01 Jan 2016, Scoala Nationala de Studii Politice si Administrative (SNSPA), Vol. 10, Iss: 1, pp 121-134

18. Mehdi Yusif Asgarov, Ətraf mühit təhlükəsizliyinin hüquqi tənzimlənməsi üzrə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq, 17 May 2022, Elmi iş , Vol. 78, Iss: 5, pp 209-214

19. Leila Alieva, Azerbaijan and the impact of the lack of democratisation on relations with the EU, 29 May 2014, European View (Springer Berlin Heidelberg), Vol. 13, Iss: 1, pp 39-48

20. Jason E. Strakes, Hierarchical global structures and their influence on Azerbaijani views of international politics, 01 Jan 2009, The Caucasus & Globalization (Central Asia & Central Caucasus Press AB), Vol. 3

21. V. A. Butenko, EU external energy policy: the case of Azerbaijan, 05 May 2022, Przegląd Europejski, Iss: 1-2022

22. Ministry of Foreign Affairs of the Czech Republic supported the International Festival "ANIMAFILM" in Baku (12.04.2025)

23. https://mfa.gov.az/az/category/avropa/cexiya, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, Çexiya (12.04.2025)

24. https://eurydice.eacea.ec.europa.eu/national-education-systems/czechia/historical-development, European Commission, Historical Development (14.04.2025)

25. https://www.oxfordreference.com/display/10.1093/acref/9780191736322.timeline.0001, Oxford Reference, Czech Republic (14.04.2025)

26. https://www.iir.cz/azerbaijan-and-czech-republic-history-and-perspectives-of-relations, Nurlan Aliyev, Azerbaijan and Czechia: History and Future of Relations (14.04.2025)

27. https://azertag.az/en/xeber/azerbaijan_czech_mark_30th_anniversary_of_diplomatic_relations-2598764, Azərtac, Azerbaijan, Czech mark 30th anniversary of diplomatic relations (14.04.2025)

XÜLASƏ

Azərbaycan və Çexiya arasında diplomatik münasibətlər 1993-cü ildə qurulmuş və bu müddət ərzində qarşılıqlı hörmətə və strateji maraqlara əsaslanan əməkdaşlıq formalaşmışdır. Dövlət başçılarının həyata keçirdiyi qarşılıqlı səfərlər və görüşlər iki ölkə arasında əlaqələrin möhkəmlənməsində mühüm rol oynamışdır. Görüşlər nəticəsində enerji, ticarət, nəqliyyat, təhsil və mədəniyyət sahələrində bir sıra mühüm sazişlər imzalanmış, əməkdaşlığın hüquqi bazası genişlənmişdir.

Xüsusilə enerji sahəsində Azərbaycanın Avropa üçün etibarlı tərəfdaş kimi çıxış etməsi və Çexiyanın bu əməkdaşlığa verdiyi önəm, münasibətləri strateji səviyyəyə yüksəltmişdir. Eyni zamanda, Çexiyanın Azərbaycanın ərazi bütövlüyünə verdiyi dəstək siyasi münasibətlərin güclənməsində mühüm amil olmuşdur.

Ümumilikdə, dövlət başçılarının görüşləri Azərbaycan–Çexiya əlaqələrinin siyasi, iqtisadi və humanitar sahələrdə davamlı inkişafına təkan verən əsas mühərrik rolunu oynayır və bu əməkdaşlığın gələcəkdə də dərinləşəcəyini göstərir.

Açar sözlər: *Diplomatik münasibətlər, prezident səfərləri, enerji əməkdaşlığı, iqtisadi əlaqələr, ərazi bütövlüyü, strateji tərəfdaşlıq.*

SABINA HASANOVA
PhD student at Baku State University

CZECHIA–AZERBAIJAN: MEETINGS OF HEADS OF STATE

SUMMARY

Diplomatic relations between Azerbaijan and the Czech Republic were established in 1993, and during this period, cooperation based on mutual respect and strategic interests has been formed. Mutual

visits and meetings of the heads of state have played an important role in strengthening relations between the two countries. As a result of the meetings, a number of important agreements were signed in the fields of energy, trade, transport, education and culture, and the legal basis of cooperation has expanded.

Azerbaijan's performance as a reliable partner for Europe, especially in the field of energy, and the importance that the Czech Republic attaches to this cooperation, have raised relations to a strategic level. At the same time, the Czech Republic's support for the territorial integrity of Azerbaijan has been an important factor in strengthening political relations.

In general, the meetings of the heads of state play the role of the main engine that drives the sustainable development of Azerbaijani-Czech relations in the political, economic and humanitarian spheres and indicate that this cooperation will deepen in the future.

Keywords: *Diplomatic relations, presidential visits, energy cooperation, economic relations, territorial integrity, strategic partnership.*

ГАСАНОВА САБИНА
Докторант Бакинского Государственного Университета

ЧЕХИЯ–АЗЕРБАЙДЖАН: ВСТРЕЧИ ГЛАВ ГОСУДАРСТВ

РЕЗЮМЕ

Дипломатические отношения между Азербайджаном и Чешской Республикой были установлены в 1993 году, и с тех пор сотрудничество между двумя странами развивалось на основе взаимного уважения и стратегических интересов. Важную роль в укреплении двусторонних связей сыграли взаимные визиты и встречи глав государств. В результате этих встреч были подписаны значимые соглашения в таких сферах, как энергетика, торговля, транспорт, образование и культура, что способствовало расширению правовой базы сотрудничества.

Особое значение в отношениях занимает энергетическое сотрудничество: Азербайджан зарекомендовал себя как надёжный партнёр Европы в сфере поставок энергоресурсов, а Чехия выражает интерес к укреплению этих связей. Также важным фактором является поддержка Чехией территориальной целостности Азербайджана, что способствует углублению политического диалога.

В целом, встречи президентов служат движущей силой устойчивого развития азербайджано-чешских отношений в политической, экономической и гуманитарной сферах и свидетельствуют о потенциале их дальнейшего углубления.

Ключевые слова: *Дипломатические отношения, президентские визиты, энергетическое сотрудничество, экономические отношения, территориальная целостность, стратегическое партнерство.*

UOT 39; 572.9
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.253

ƏNƏNƏVİ AZƏRBAYCAN RƏQS ADLARININ KLASSİFİKASİYASI

ELMİRA HACIYEVA
Bakı Dövlət Universiteti,
Arxeologiya və etnoqrafiya kafedrasının doktorantı

E-mail: elmira.turan.96@mail.ru

Giriş

Azərbaycan rəqs havalarının təsnifatı ilə bağlı bu günə kimi Bayram Hüseynli, Məmmədsaleh İsmayılov, Əhməd İsazadə, tərəfindən müxtəlif təsnifatlar aparılsa da, Azərbaycan rəqs adlarının təsnifatına dair ayrıca klassifikasiya demək olar ki, aparılmayıb. Müxtəlif vaxtlarda bir çox sənətşünaslar tərəfindən bu bölgü mövzusuna, adlanmasına və xarakterinə görə təsnifat başlığı altında ümumi formada təqdim olunub.

Bununla bağlı Rauf Bəhmənli ***"Azərbaycan xalq rəqsləri"*** kitabının (2002) ***"Azərbaycan xalq rəqslərinin adlarının yaranması"*** haqqında bölümündə Azərbaycan rəqslərinin adlarının mənasına görə aşağıdakı kimi bir neçə qrupa bölündüyünü qeyd edib:

1. Azərbaycanın tarixi ərazilərinin adları ilə bağlı rəqslər;
2. Gül-çiçək, bitki adları ilə bağlı rəqslər;
3. Daş-qaş, zinət və bəzək əşyalarının adları ilə bağlı rəqslər;
4. Əmək və təsərrüfatla bağlı məişət rəqsləri;
5. Qəhrəmanlıq və igidlik timsallı rəqslər;
6. Bayramlar və el şənlikləri ilə bağlı mərasim rəqsləri;
7. Müxtəlif mərasimlərlə bağlı rəqslər;
8. İnsan adları ilə bağlı rəqslər;
9. Məzəli rəqslər [2, s.10].

Yuxarıda qeyd olunanlardan aydın olur ki, indiyə kimi rəqs havalarının, rəqslərin ümumi təsnifatına dair müəyyən tədqiqatlar aparılsa da, Rauf Bəhmənlinin ***"Azərbaycan xalq rəqsləri"*** kitabının ***"Azərbaycan xalq rəqslərinin adlarının yaranması"*** haqqında bölümü istisna olmaqla, rəqs adlarının klassifikasına dair ayrıca məqalə hazırlanmamışdır. Nəzərə alsaq ki, sözügedən kitab 2002-ci ildə nəşr olunub və ondan sonra rəqslərlə bağlı müəyyən tədqiqatlar aparılaraq unudulmuş bir çox rəqs adları aşkar olunub o zaman "Azərbaycan rəqs adlarının semantikası və klassifikasiyası" adlı məqalənin hazırlanması zəruridir. Təqdim olunan məqalədə bölmələrin bəzilərinin adı bu günə qədər yazılmış, bizə tanış olan təsnifatlardan götürülüb. Yeni təsnifatda həmin adlar bir qədər dəyişərək və müəyyən əlavələr edilərək təqdim olunub.

Əsas hissə

Xalqımızın dil yaddaşından bəllidir ki, rəqslərə heç də kortəbii, təsadüfi adlar qoyulmayıb. Çünki hər sözün, ifadənin, adın dərin mənası var.

Rəqs adlarının çox az bir hissəsi xüsusilə də ədədlərlə bağlı rəqslər təsadüfi adlansa da, əksər hissəsi, müəyyən bir anlayış yaradıb, nəyəsə, kiməsə həsr olunub.

Təqdim olunan məqalədə isə adlarının semantikasına görə ənənəvi Azərbaycan rəqslərinin adları aşağıdakı kimi təsnifatlaşdırılır:

- ***Yer adları***
- ***Gül-çiçək adları***
- ***Şəxs adları***
- ***Daş-qaş, zinət və bəzək əşyaları***
- ***Ədəd və rəqəmlə adlanan***
- ***Tayfa adları ilə bağlı***
- ***Əşya adlarıyla adlandırılan rəqslər***
- ***Bayramlar və el şənlikləri, onların atributlarıyla adlandırılan rəqslər (xüsusilə Novruz bayramının atributlarıyla adlandırılan rəqslər)***
- ***Şəxslərlə bağlı əlamət bildirən sözlərlə adlandırılan rəqslər***
- ***Heyvan və quş adları ilə adlandırılan rəqslər***
- ***Toy mərasiminin ənənəvi rəmzləri və mərhələrinin adı ilə adlandırılan rəqslər***
- ***Milli geyim və qiyafət atributlarıyla adlandırılan rəqslər***
- ***Sənət, peşə adlarıyla adlandırılan rəqslər***
- ***Məzəli sözlərlə ifadə olunan rəqs adları***

Yer adları ilə adlan rəqslər əsasən yarandığı tarixi ərazinin adı ilə adlanmışdır. Bunlara misal olaraq "Azərbaycan", "Velaçola" (XX əsrin 20-ci illərində Lerikin Velaçola kəndində yaranmışdı) [7, s.62], "Qazağı", "Nuxa" (və ya "Şəki"), "Almalı" yallısı (Şəki-Zaqatala bölgəsində kəndin adıdır), "Naxçıvanı", "Şamaxı", "Bakı", "Şuşa", "Əsgəranı", "Dəhnə", "Şağani" (Bakı kəndlərindən birinin adıdır və bu rəqsin digər adı "Şampanı"dır.), "Şə-

rur", "Sabirabadı" rəqslərini və s. göstərə bilərik. Bu kateqoriyanın alt bölmələri kimi adı hansısa bir tarixi ərazidə yerləşən

• dərə – "Uzundərə", "Çay dərəsi"
• təpə – "Kömürtəpə"
• qala – "Çıraqqala"
• çay – "Qusar-çay"
• bulaq adları – "Muğan bulağı" ("Şirvan bulağı" da deyirlər) ilə adlandırılan rəqsləri qeyd edə bilərik.

Bu kateqoriyaya aid rəqslər arasında bəzən elə adlara təsadüf olunur ki, bu ərazilər hazırda Azərbaycan Respublikasının sərhədləri daxilində olmasa da, onlar vaxtilə azərbaycanlıların yaşadığı ərazi olub və ya müəyyən tarixi proseslərin nəticəsi olaraq azərbaycanlıların kompakt hada məskunlaşdığı qonşu dövlətlərin ərazisinin adıdır. Belə rəqslərə "Ənzəli" (Qədimdə Pəhləvi adı ilə tanınan Ənzəli Cənubi Azərbaycan ərazisində böyük liman şəhərinin adıdır.), "Tiflisi", "Dağıstan", "Qars", "Aşxabadı" (Türkmənistanın paytaxtının adı), "Məhərrəmkənd" (Dağıstan ərazisində, Samur çayının sahilində yerləşən rayon mərkəzinin adıdr.) "Əndican" (Özbəkistan Respublikasının ərazisində yerləşən Fərqanə vadisində şəhər adıdır) və s. aiddir.

Azərbaycanın zəngin flora və faunası rəqs adlarında da müəyyən qədər öz əksini tapıb. Növbəti kateqoriya kimi qruplaşdırdığımız ***gül-çiçək adları ilə bağlı rəqslər*** sırasına "Heyvagülü", "Bənövşə", "Novruzgülü", "Almagülü", "Alçagülü", "Dağ çiçəyi", "Yasəməni" və s. daxildir. Göründüyü kimi, əsasən baharın gəlişi ilə təbiətdə rastlaşdığımız bu gül-çiçəklər insanların ovqatını xoş etmiş, vətənimizin füsunkar təbiətindən ilham alan xalqımız bu gözəlliklərə həsr olunmuş rəqs havaları, rəqslər yaratmışdır. Bu rəqsləri yaradanların bir çoxunun adı bizə məlum olsa da, bəzilərinin adını bilmirik.

Azərbaycan rəqsləri arasında ***şəxs adları ilə bağlı rəqslərin*** də özünəməxsus çəkisi var: "Nabat xanım", "Bala bəyi", "Xalabacı", "Şəlalə", "Mirzəyi", "Mirzəxanı", "Sona xanım", "Hacıcan", "Xanımı", "Züleyxa", "Sevinc", "Bəsti", "Qaryağdı", "Dilşadı", "Təhməzi", "Gülgəzi", "Məsməyi", "Əfruzə", "Tamara", "Mehribanı", "Püstə xanım", "Leyli pəri", "Arifi", "Solmazı", "Həcəri", "Musaxanı", "Ayşadı", "İbrahimi", "Süleymanı", "Həsəni" və s. Bu kateqoriyadakı rəqs adlarını da kişi və qadın adlarıyla adlandırılan rəqslər, həmçinin önəmli şəxslər və ya adi şəxslərin adlarıyla adlandırılan rəqslər kimi qruplaşdırmaq olar. Bu rəqslərdən bəzisi onu yaradan müəllifin oğlunun, qızının və ya nəvəsinin adıyla bağlıdır. Məsələn, zurna və balabanın məşhur ifaçılarından sayılan Əli Kərimov (1874-1962) öz nəvəsinin adına həsr etdiyi "Əfruzə" rəqsini yaratmışdır. Qeyd olunan adlara diqqət etsək, onların bir çoxunun xanım adları olduğunu görərik. Bu da xalqımızın xanımlara qarşı olan ehtiramının bir növ göstəricisidir.

Ümumiyyətlə, qadın obrazları ilə bağlı olan musiqi folkloru qadınların həyat tərzinin, əməyinin, bədii təxəyyülünün və düşüncələrinin, duyğu və hisslərinin məhsuludur. Bu baxımdan qadınların əmək prosesi ilə bağlı musiqi folklorunda sağımla, ip əyirmə, xalça toxumaqla, nehrə çalmaqla əlaqədar çox sayda rəqslər yaranmış, xalq rəqslərində qadın obrazı müxtəlif bədii ifadə və üsullarla canlandırılmışdır.

Milli geyim və qiyafət atributlarının adıyla adlandırılan rəqslər. Geyimlər və bəzəklər insanın yaşını, sosial və milli mənsubiyyətini, hətta xarakterini, dünyagörüşünü təyin edən göstəricilərdən biridir. Şifahi xalq yaradıcılığı, klassik poeziya nümunələrində vəsf olunan obrazlarla birlikdə geyimləri və bəzəkləri də nəzmə çəkilib, onlar haqqında qısa da olsa, etnoqrafik baxımdan çox qiymətli məlumatlar verilib. Bəzəklər maddi mədəniyyətin mühüm elementlərindən biri kimi "ictimai təbəqələr arasında sosial bərabərsizliyi daha dolğun əks etdirməklə, XIX-XX əsrin əvvəllərinin xüsusiyyətlərini, xalqın həyat tərzi və məişətini, lokal və etnik özünəməxsusluğunu, etnik-mədəni təması və türk xalqları arasında etnogenetik əlaqələri, yaş dövrünün ayrı-ayrı pillələrində bəzəklərdən istifadə edilməsində meydana gələn dəyişiklikləri və s. də özündə daha dolğun əks etdirir.

Bu baxımdan ənənəvi rəqslərdə müxtəlif bəzəklərdən istifadə olunması və geyim və bəzəklərlə bağlı adlanan rəqslərə rast gəlməyimiz təbiidir. Onu da qeyd etmək lazımdır ki, bəzək əşyalarının adıyla adlanan rəqslər əsasən qadın rəqsləridir. Ümumiyyətlə, XIX-XX əsrin əvvəllərində bəzi əməli əhəmiyyət kəsb edən bəzəklər istisna olmaqla, kişi geyimləri demək olar ki, bəzəksiz olurdu. Bu məsələ əhali arasında "Erkək atın çulu cırıq olar" – "bəzənmək qadına yaraşar" kimi mülahizələrə əsaslanırdı. Nəticədə qadın rəqs adlarında bəzək əşyalarının adı əks olunub.

"Elmi mənbələrdə – Tənzərə rəqsinin etimologiyasına dair mövcud olan mülahizələrə nəzər salaq. Vasif Çörəkçinin yazdığına görə – Mənzərə

bu yallının qədim adı olub, illər ötdükcə– Tənzərə şəklinə düşüb. Kamal Həsənovun fikrincə isə Tənzərə əsasən hərfi mənada – qızılı tənbətən mənasını bildirir. Əvvəllər bu rəqsi qadınlar təmtəraqlı, qızıl bəzək-düzəkdən –boyunbağıdan, muncuqdan, sırğadan, üzükdən və başqa cavahiratdan nəyi varsa, hamısını taxıb oynardılar [7, s.59]. Ədalət Kərimlinin yazdığına görə bu yallıda qadınlar çoxlu zər-ziba, bər-bəzək vururlar. Yəni ifaçıların geyimi zərli olur və bu geyimin üstündə daş-qaş və köhnə pul düzümlərindən istifadə edilir. İfaçılar yallının ritmlərinə uyğun hərəkət etdikcə paltarın üstündəki bəzək əşyaları silkələnir və zurnada çalınan musiqinin ritmi ilə bir uyğunluq, ahəngdarlıq təşkil edir. Yallının adı da məhz buradan götürülüb. Tənzərə – yəni yarı zər, yarı bəzək-düzək deməkdir. Keçmiş zamanlar yallıya düzülən qadınlar yaxalarına bütün daş-qaşlarını, zinət əşyalarını vurar, bellərinə qızıl, gümüş kəmərlər taxardılar. Bu səbəbdən rəqsə – Tənzərə adı verilmişdir.

"Onluq" rəqsi də qızıl pul adı olan onluqdan yaranmışdır. Qadın geyimlərindən kürdünün yaxasına vurulan bu zinət əşyasının adı ilə bağlı olan rəqs "Arşın mal alan" filmində Süleyman bəyin ifasında təqdim olunduqdan sonra "Süleymanı" kimi tanınmışdır.

Milli geyimin adıyla adlanan "Çalpapaq" rəqsinin adı eyniadlı papaq növü ilə bağlıdır. Bu tip papağı daha çox yaşlı nəslin nümayəndələri istifadə edərdilər. Rəqs də onlara həsr olunub [7, s.50].

Bu kateqoriyaya aid olan rəqslərdən biri də "Kofta" rəqsidir ki, Bakıda yaransa da, sonradan Naxçıvanda da oynanılmışdı. Onu xalq tərəfindən qoşulan aşağıda qeyd olunan mahnının müşayiəti ilə əsasən yaşlı qadınlar oynayardılar:

Kofta tikdim göbəkdən,
Bir yar sevdim ürəkdən,
Yarım mənə saat aldı
Bilərziyi biləkdən [7, s.38].

"Kəlağayı" rəqsinin adı Azərbaycan xanımlarının baş örtmə (bağlama) geyimlərindən biri olan kəlağayıdan götürülüb. Yaşa və zövqə uyğun olaraq qırmızı, qara, ağ, palıdı yerli, yelənli kəlağayılar daha geniş yayılmışdır.

Ədəd və rəqəmlərlə adlandırılmış rəqslər kateqoriyasına "Yüz bir", "On dörd", "Altı nömrə" və s. daxildir. Göründüyü kimi, hələlik bizə məlum olub bu bölümə aid olan rəqslərin adındakı ədəd və rəqəmlərdən yüz bir istisna olmaqla, heç biri sakral mahiyyət daşımır. Bu rəqsin ifasında isə həmin ədədlə heç bir bağlılıq yoxdur. Bütün bunları nəzərə alaraq digər tədqiqatçıların da qeyd etdiyi kimi, bu klassifikasiyaya aid olan rəqslərin təsadüfi olaraq belə adlanması ehtimalı artır.

Tayfa adlarıyla bağlı rəqslər. Azərbaycanda yaşayan bir çox xalqlara, qəbilələrə aid olduqları qəbilənin adı ilə adlandırılmış rəqslər var. "Avşar", "Əfşarı" , "Tərəkəmə" və s. bu bölümə aiddir.

Daha əvvəlki təsnifatlarda ***"Məişət əşyalarının adları ilə bağlı rəqslər"*** kateqoriyası xüsusi olaraq demək olar ki, fərqləndirilməsə də, məlum olan rəqslər arasında xalqın məişətində istifadə olunan əşyalarla, əmək alətlərinin adı ilə bağlı olan rəqs adlarına da təsadüf olunduğunu nəzərə alaraq bu bölgü zəruridir. Bu kateqoriyaya "Cəhrə", "Fincan", "Güyümü", "Kirkirə", "Nəlbəki", "Piyalə", "Kuzə", "Xəkəndaz", "Xurcun" və s. rəqslər daxildir.

Xurcun xalqın məişətində istifadə olunan əşyalardan biri olub və bu rəqsin adı da bilavasitə sözügedən əşyayla bağlıdır. Kənddə yaşayan qoca bir kişi yoldaşı ilə birgə əldə etdiyi məhsulu satıb, özlərini dolandırırdı. Belə satışlardan sonra xurcununu oynada-oynada evinə şad xəbərlə gəlirmiş, rəqs də ehtimallara əsasən belə yaranıb.

Bu kateqoriyayla bağlı vurğulamalı olduğumuz digər bir məqam isə məişətdə istifadə olunan ***hövsər, məcməyi, sini, teşt, kasa, nəlbəki, kuzə dəstinin*** çalğı aləti kimi rəqs mədəniyyətimizə daxil olmasıdır. Belə məişət əşyaları mükəmməl çalğı alətləri olmasa da, folklor musiqisində vacib alətlərdən sayılır [9, s.81].

Bayramlar, el şənlikləri və onların atributlarıyla adlandırılan rəqsləri qeyd edərkən xalqımızın ən əziz bayramlarından olan Novruzla bağlı rəqsləri mütləq şəkildə vurğulamaq lazımdır. Azərbaycan xalqı qədim zamanlardan etibarən Novruz bayramının şərəfinə "Novruz-novruz bahara, güllər-güllər nübara" deyib mahnılar qoşaraq onu əzizləyirdi. Ümumiyyətlə, Novruz bayramında ifa olunan rəqsləri Aminə Babayevanın "Azərbaycan milli rəqs sənətində Novruz mövzusunun tərənnümü" adlı məqaləsində yazdığı kimi 1) adı və mövzusu etibarilə Novruz bayramı ilə bağlı olan rəqslər, 2) ənənə üzrə Novruz bayramında ifa olunan rəqslər olmaqla iki qrupa ayırmaq olar [9, s.324].

Məqaləyə uyğun olaraq birinci qrupa aid olan rəqslər içərisindən yuxarıdakı təsnifata müvafiq olan "Novruzu", "Səməni" , "Bahar qızı", "Baharı" kimi rəqslər ***Bayramlar və el şənlikləri, onların***

atributlarıyla adlandırılan rəqslər kateqoriyasına daxil edilib. Hesab edirəm ki, bənövşə, novruzgülü kimi nərgizgülü də bahar bayramının – Novruzun müjdəçisi sayıldığı üçün ***gül-çiçək adları ilə adlandırılan "Bənövşə", "Novruzgülü" rəqslərini bu kateqoriyaya da aid etmək olar***. Göründüyü kimi bu rəqslərdə Novruz bayramının bütün milli, etnoqrafik xüsusiyyətləri öz əksini tapmışdır.

Şəxslərlə bağlı əlamət bildirən sözlərlə adlandırılan rəqslər sırasına "Abayı", "Qəhrəmanı" daxildir. Şəki-Zaqatala zonasında yaranan rəqslərdən olan "Abayı" əsasən ahıl adamlar – həm qadınlar, həm də kişilər tərəfindən oynanılırdı. Bu bölgədə ahıl qadına abayı deyildiyi üçün rəqs belə adlanmışdı [7, s.27].

Təbiət və heyvan təqlidinə söykənən rəqslər Azərbaycanda da olduqca məşhurdur. Anadoluda qartal, tülkü, ördək kimi heyvanların təsviri şərh olunarkən, Azərbaycanda "Ceyrani", "Turacı", "Kəklik", "Durna" rəqsləri heyvan və quş adlarıyla bağlı olub **heyvan və quş adları ilə adlandırılan rəqslərdir**. Adıçəkilən "Turacı" rəqsi gözəl görünüşü olan turac quşu ilə bağlıdır. Rəqs turacın uçuşunu xatırladır.

Azərbaycanlıların ənənəvi rəqs mədəniyyətində toy mərasimi geniş şəkildə əks olunub. ***Toy mərasiminin ənənəvi rəmzləri və mərhələlərinin adı ilə adlandırılan rəqslər*** - "Toy", "Qədim toy", "Gəlin havası", "Xonça gələndə", "Vağzalı", "Atlanma", "Hağışta" və s. aiddir.

Azərbaycanın kişi rəqsləri daha çox; çobançılıq, torpaq, təbiət, heyvandarlıq mövzularında meydana gəlmiş, ziraatçılıq, əkin biçmə, məhsul toplama, məhsulun daşınmasına, bağçılıq, bostançılıqla əlaqədar olduqları görülməkdədir. Sənət, peşə adlarıyla bağlı rəqslərə "Xan çobanı", "Çobanlar", "Cütçü" və s. aiddir.

"Çobanlar" və "Xan çobanı" rəqsləri çox zaman eyniləşdirisə də əslində, hər ikisi fərqli rəqslərdir. "Çobanlar" rəqsinin adına gəldikdə isə bu obraz Azərbaycan folklorunda geniş yayılıb. Nağıllarda tez-tez rast gəlinən bu obraz əsasən aşağıdakı xarakterik cizgilərlə tanınıb:

Çoban- cəmiyyətin durumunu özündə kodlaşdıran obraz kimi.

Çoban- qəhrəmanı yeni statusa keçirən obraz kimi.

Çoban- qəhrəmanı himayə edən yardımçı obraz kimi.

Çoban obrazının mədəniyyətimizdəki mahiyyətini anlamaq üçün onun dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Yeddi gözəl" əsərinə və "Kitabi-Dədə Qorqud" eposundakı nümunələrinə diqqət yetirməyə ehtiyac vardır.

N.Gəncəvinin "Yeddi gözəl" əsərindəki çoban obrazı Şah Bəhrama ibrət dərsi verən, onu haqq-ədalət yoluna qaytaran bir obraz olmaqla özündə müdrikliyi və müsbət keyfiyyətləri birləşdirir. Belə ki, burada çoban obrazının heyvanlara yanaşma prinsipi şahın ədalətli davranışı üçün model rolunu oynayır. Məhz bununla əlaqədar olaraq, Bəhram şah şahlığı çobandan öyrəndiyini deyir.

Göründüyü kimi, Bəhram şah özünü çobana bənzətməklə, çobandan ibrət aldığını vurğulayır. Deməli, əsərdə şair çoban obrazını müsbət planda göstərməklə yanaşı, şah üçün də örnək kimi xarakterizə edib.

"Kitabi-Dədə Qorqud" dastanında isə bir-birindən fərqlənən iki çoban obrazı vardır. Qaraca Çoban düşmənə qarşı sərt mübarizə apararaq, onu uzaqlaşdırmağa çalışdığı halda, Qonur qoca Sarı çoban öz davranışı ilə Təpəgözün timsalında Oğuzun başına "zaval"ın gəlməsinə səbəb olur. Azərbaycan nağıllarında çoban obrazı timsalında daha əsaslı görəcəyimiz kimi, Qaraca çoban aid olduğu cəmiyyətin informasiya yükünü özündə kodlaşdırıb. Özü də çoban hər zaman cəmiyyətin durumunu yalnız söz səviyyəsində özündə kodlaşdırmır. Bəzən çobanın geyiminin rəngi və davranışları cəmiyyətdə baş verənlərin simvolik ifadəçisi kimi çıxış edir. Bir sözlə, çoban özümüz və özgələr qarşıdurmasında ortada dayanmaqla onlar arasında informasiya mübadiləsini həyata keçirir [5].

Təsnifatın sonuncu bölməsinə məzəli əhvalatlarla bağlı olub ***məzəli sözlərlə adlanan xalq rəqsləri*** daxildir. Bəşər tarixi mövcud olandan bəri hər bir insan yaşadığı həyatı boyu saysız-hesabsız gülməli, məzəli əhvalatlarla rastlaşıb. Belə rəqslərdən "Kəsmə", "Lətifə", "Naz eləmə", "Qıtqılıda", "Naz-nazı", "Kim-kimə", "Tapp elədi" ("Sürüşdüm-düşdüm" kimi də adlanır), "Matanı", "Cığ-cığa" və başqalarının adlarını çəkə bilərik.

Rəqs adlarını toplayarkən diqqət çəkən məqamlardan biri "Zümrüdü", "İnnabı", "Darçını", "Mərcanı", "Zoğalı", "Mixəyi" kimi adların olmasıdır. Sadalanan rəqs adlarına diqqət etsək onların bir çoxunun qırmızı rəng və onun çalarlarıyla bağlı olduğunu görərik. Xatırlasaq ki, rənglərin simvoli-

kasında insanın vəziyyəti, ilahi qüvvəyə və təbiətə münasibət, ayin və mərasimlərin məzmunu, magik güc, işarəvi əlamət və eyni zamanda xalqın dili özünü inikas etdirir, onda bunun nə ilə bağlı olduğunu təhlil etməyə ehtiyac var.

Sənətşünas Nəsir Rzayevin 1974-cü ildə nəşr olunan "Əsrlərin səsi" kitabında da qeyd olunur ki, musiqi sənətimizdə qədim ruhlarla və onların rənglərilə əlaqədar olan animistik səciyyə daşımış melodiyalar sonralar öz dini mahiyyətini itirmiş, sırf bədii keyfiyyət qazanmışdır. Müəllif yazır ki, bu rəqslər vaxtilə animizmin təsiri altında Al ruhun qırmızı rənginin müxtəlif çalarlarına həsr edilib [10, s.47].

Kitabda "Qızılgül" rəqsi ilə yanaşı "Lalə" rəqsinin də Al ruh inancı ilə əlaqədar olduğunu qeyd olunur. Gəlinin toylarda bu rəqs nümunələri ilə müşayiət edilməsində məqsəd onu gözdən, nəzərdən, bədxah ruhlardan qorumaq idi [10, s.47]. İlk başda "Qızılgül" və "Lalə" gül adları kimi görünsə də insanların təbiətdə gördüklərini əsasən sabit rənglərlə yadda saxlamağa çalışdığını nəzərə alsaq, hər iki ada rəng adı kimi baxa bilərik.

Türk mədəniyyətində ən qədim rənglərdən biri "al" rəngdir. Əcdadlarımızın çox sevmiş olduğu qoruyucu Al ruhu təsadüfi deyil ki, qırmızı rəngi, od və günəş rəngini təmsil edirdi. Lakin sonralar rəqslərdəki dini mahiyyət itmiş, sırf bədii keyfiyyət qazanmışdır.

Azərbaycan dilinin qaydalarına əsasən ı4 şəkilçisinin funksiyalarından biri leksik şəkilçi kimi adlardan sifət düzəldən şəkilçi olub isimlərin sonuna artırılaraq əlamət bildirən yeni söz yaratmaqdır. Buna dair dilimizdə kifayət qədər nümunələr var: badamı, gümüşü, armudu və s. Eyni qaydanın rəqs adlarına da aid oma ehtimalını nəzərə almaq lazımdır. Rəqslərin rəng və çalar adlarıyla adlanmasına gəldikdə isə nəzərə alsaq ki, Azərbaycan xalqının etnoqrafik irsində, mənəvi dünyamızın təzahürlərindən biri kimi rənglər özünəməxsus yer tutur onda bu heç də təsadüfi deyil. Burada diqqət etməli olduğumuz digər bir məqam isə adıçəkilən rəqslərin semantikasıdır.

Vaxtilə zəngin ailələrin toyunda oynanılan "İnnabı"rəqsinin ifasına da baxarkən görürük ki, bu rəqs innab quru meyvəsinin rəngiylə bağlıdır. Daha əvvəlki təsnifat da rəqsin adı "Bitki və gül-çiçək adlarıyla bağlı rəqslər", kateqoriyasına daxil edilsə də bu doğru deyil.

"Zoğalı" rəqsini yaranma tarixini araşdırarkən rəqsin zoğal yığımıyla bağlı olduğu anlaşılır [7, s.36]. Digər rəqslərlə bağlı əlimizdə yetərli məluat olmadığı üçün dəqiq heç nə demək mümkün deyil.

Bundan əlavə, indiyədək 300-dən çox növü məlum olan yallı rəqsinin adlarına diqqət edərkən burada digər rəqs adlarında rast gəlmədiyimiz bölgüləri görürük. Yallı adları əsasən aşağıdakı kimi təsnifatlaşdırılır:

Qeyd etmək lazımdır ki, bizə məlum olan ənənəvi Azərbaycan rəqslərindən bir qisminin adını yuxarıdakı bölgünün heç bir kateqoriyasına daxil etmək mümkün olmadı. Gələcəkdə etnoqrafik sorğu və s. nəticəsində unudulmuş bir çox rəqs adları bizə məlum olarsa, yenidən təsnifatlaşdırmağa mütləq şəkildə ehtiyac olacaq.

Rəqs adlarıyla bağlı tədqiqat apararkən qarşılaşdığımız digər maraqlı bir məqam isə eyni rəqsin müxtəlif adlarının olmasıdır. İndiyə kimi bu halla qarşılaşdığımızda iki müxtəlif adı olan rəqslər üstünlük təşkil etdiyi üçün müxtəlif tədqiqat işlərində onlar adətən iki adı olan rəqslər kimi qeyd olunub. Lakin nəzərə alsaq ki, üç fərqli adı olan rəqslər azlıq təşkil etsə də, mövcuddur və hələlik 3-dən çox adı olan rəqslərə təsadüf olunmasa da, bu o demək deyil ki, gələcəkdə bu halla qarşılaşmayacağıq. Bu baxımdan bu araşdırmada onları birdən çox adı olan rəqslər kimi təsnifatlaşdırmaq doğru hesab edilib. Bu rəqslərə misal olaraq, "Şağani"–"Şampanı", "Mirvari"–"Çatdadım", "Tapp elədi"–"Sürüşdüm-düşdüm", "Şəki"–"Nuxa", "Onluq"–"Süleymanı", "Mixəyi"–"Ciran-ciran", "Balabəyi"–"Nilufəri", "Qorxmazı"–"Solmazı", "Ekspress"–"Muştuluq", "Fayton"–"Gorusu", "Fason"–"Alışdım-yandım", "Kiri-kiri"–"Abşeron", "Nərgizi"–"Vüqarı", "Tur-

şəngi”–“Azərbaycan qızı”, “Xan yaylağı”–“Qax” iki adlı rəqslərdir

[4, s.4-5]. Belə ki, müəyyən rəqslərə öz qədim adından başqa müxtəlif dövrlərdə, müəyyən tarixi hadisələrlə bağlı digər adlar da verilib. Elə rəqslər də vardır ki, bir müddətdən sonra öz adını itirib, sonradan bu havanı gözəl oynayan, rəqs edən şəxsin (rəqqas və ya rəqqasənin) adı ilə adlandırılıb. Məsələn, bu gün ikihissəli rəqslərdən “Tamara” kimi tanınan oyun havası təxminən 1916-cı ildə ilk dəfə “Əntiqə” adı ilə yaranıb. Onun ikinci adı isə toylarda bu rəqsi çox məharətlə oynayan məşhur Salyanlı rəqqasə Tamaranın şərəfinə verilib.

Üç adı olan rəqslərə isə məşhur “Qoçəli” rəqsini göstərə bilərik ki, bu rəqsin “Yaylıq”, “Tapança” kimi digər adları da mövcuddur [5, s.4-5].

Nəticə və elmi yenilik

Məqalədə daha öncə bu istiqamətdə aparılmış müxtəlif tədqiqat işləri araşdırılmış və ənənəvi Azərbaycan rəqs adlarının semantikasına yenidən baxılıb. Tədqiqat işində təqdim olunmuş klassifikasiyada daha öncəki qruplaşmalar qorunmaqla, yeniləri əlavə edilmiş, lazım gəldikcə alt bölmələr də təqdim edilmişdir. Qeyd etmək lazımdır ki, bu cür tədqiqatlar indiyə kimi yalnız sənətşünaslar tərəfindən aparılıb və onlar bu məsələyə əsasən öz ixtisaslarına uyğun yanaşıblar. Bu tədqiqatda isə mövzuya daha geniş şəkildə yanaşılmağa çalışılıb. Yuxarıdakı təhlillərə əsasən qeyd edə bilərik ki, yer və tayfa adlarıyla adlandırılan rəqslər Azərbaycan ərazisində baş verən tarixi prosesləri izləmək baxımından daha əhəmiyyətli olduğu halda, digər bölgüdəki rəqslər xalqımızın etnopsixologiyasının öyrənilməsi baxımından daha önəmlidir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, gələcəkdə xalq rəqslərinin toplanması üçün bölgələrdə aparılan ekspedisiyalar genişləndikcə unudulmuş bir çox rəqs adları bizə məlum olacaq. Təbii ki, bu da yeni klassifikasiyanın aparılmasını və bölgülərin sayının artmasını istisna etmir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Babayeva A. Azərbaycan milli rəqs sənətində Novruz mövzusunun tərənnümü // - Bakı: Musiqi dünyası, – 2023. № 4 (93). – s.9322-9334

2. Bəhmənli R.B. Azərbaycan xalq rəqsləri. - Bakı: Adiloğlu, –2002. –158 s.

3. Bəhmənli R.B. Azərbaycan xalq rəqslərinin təsnifatı // – Şanlıurfa: Rast Uluslararası Müzikoloji Dergisi, – 2017. Cild: 5, № 3. – s.1745-1757.

4. Bəhmənli R.B. Azərbaycan xalq rəqslərinin ritmik xüsusiyyətləri: Sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı – Bakı, – 2018. – 22 s.

5. Bəhmənli R.B. Qədim Azərbaycan rəqs havaları. – Bakı: Şərq-Qərb, –2021. –672 s.

6. Bəktaşi N. Rəqs tariximizə bir nəzər // – Bakı: Konservatoriya, s. 168-172

7. Həsənov K.N. Qədim Azərbaycan xalq rəqsləri. – Bakı: İşıq, –1983. –59 s.

8. Quliyev H.V., Qarayev S.P. Folklorda çoban obrazı: Davranış spesifikası və semantikası // - Bakı: Folklorşünaslıq, – 2021. N1(9), – s. 82-93.

9. Nəcəfzadə A.İ. Azərbaycan idifonlu çalğı alətləri (Orqanoloji-tarixi tədqiqat). - Bakı: MBM, – 2010. – 280 s.

10. Rzayev N.İ. Əsrlərin səsi. – Bakı: Azərnəşr, – 1974. – 80 s.

11. Şener G.S. Azərbaycan və Anadolu xalq rəqs musiqisinin müqayisəli təhlili: Sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı Bakı, – 2014. – 26 s.

XÜLASƏ

Mədəniyyət incilərimizdən sayılan rəqs sənəti qədim dövrdən bu günə kimi yaşayaraq xalqımızın adət-ənənəsini, insanların ictimai həyat tərzini, etnopsixologiyasını, məişətini, estetik zövqünü özündə əks etdirir.

Xalqımızın dil yaddaşından da məlumdur ki, hər sözün, ifadənin dərin mənası olduğu üçün rəqslərimizin adları da təsadüfi deyil. Təqdim olunan məqalə ənənəvi Azərbaycan rəqs adlarının klassifikasiyası və semantikasına həsr olunub. Ənənəvi rəqs adlarından heç bir kateqiyaya daxil ola bilməyənlər də mövcuddur. Eyni zamanda gələcəkdə xalq rəqslərinin toplanması üçün bölgələrdə aparılan ekspedisiyalar genişləndikcə unudulmuş bir çox rəqs adları bizə məlum olacaq. Təbii ki, bu da yeni klassifikasiyanın aparılmasını və bölgülərin sayının artmasını istisna etmir.

Açar sözlər: *Azərbaycan rəqsləri, Azərbaycan rəqs adları, rəqs adlarının semantikası, rəqslərin klassifikasiyası, etnopsixologiya.*

SUMMARY

The art of dance, considered one of the pearls of our culture, has existed from ancient times to the present day, reflecting the customs and traditions of

our people, their social lifestyle, ethnopsychology, everyday life, and aesthetic taste.

It is also known from the linguistic memory of our people that the names of our dances are not accidental, since every word and expression has a deep meaning. The presented article is dedicated to the classification and semantics of traditional Azerbaijani dance names. There are also traditional dance names that cannot be classified into any category. At the same time, as expeditions conducted in the regions to collect folk dances expand in the future, many forgotten dance names will become known to us. Of course, this does not rule out the introduction of a new classification and an increase in the number of divisions.

Keywords: *Azerbaijani dances, Azerbaijani dance names, semantics of dance names, dance classification, ethnopsychology.*

РЕЗЮМЕ

Искусство танца, считающееся одной из жемчужин нашей культуры, существует с древнейших времен и до наших дней, отражая обычаи и традиции нашего народа, его социальный уклад, этнопсихологию, быт и эстетический вкус.

Из языковой памяти нашего народа известно также, что названия наших танцев не случайны, поскольку каждое слово и выражение имеет глубокий смысл. Представленная статья посвящена классификации и семантике названий традиционных азербайджанских танцев. Существуют также традиционные названия танцев, которые невозможно отнести ни к одной категории. В то же время, по мере расширения экспедиций в регионы по сбору народных танцев в будущем, нам станут известны многие забытые названия танцев. Конечно, это не исключает введения новой классификации и увеличения числа разделов.

Ключевые слова: *азербайджанские танцы, названия азербайджанских танцев, семантика названий танцев, классификация танцев, этнопсихология.*

İqtisadiyyat

UOT 339.9
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.255

BEYNƏLXALQ TƏŞKİLATLARIN FƏALİYYƏTİNİN DÜNYA ÖLKƏLƏRİNİN İQTİSADİ İNKİŞAFINA TƏSİRİ

ÜMMUHƏBİBƏ QƏLƏNDƏROVA
Bakı Dövlət Universiteti
Dünya iqtisadiyyatı kafedrasının dosenti,
iqtisad üzrə fəlsəfə doktoru
E-mail: Hebibe.qelenderova@gmail.com

Giriş

Dünyada artan qarşılıqlı asılılıqların çoxalması, beynəlxalq təşkilatların fəaliyyətinin dünya ölkələrinin iqtisadi inkişafına təsirini daha da aktual etmişdir. Dünyada gedən qloballaşma prosesinin təsiri dövlətlərarası problemlərin yaranmasına səbəb olmuşdur. Zəruri tələbatların artması, yeni mexanizmlərin yaranması ilə bərabər, beynəlxalq iqtisadi əlaqələri gücləndirməklə, dünyada iqtisadi sahədə struktur islahatlarının aparılmasını vacib etmişdir. Bunu nəticəsində, müasir iqtisadi problemlər, ölkələrin qlobal iqtisadiyata inteqrasiyasını artırmışdır. Ölkələr arası inteqrasiya əsas vasitə olmaqla, dövlətin transformasiyasını və konstruksiyalarını bazar iqtisadiyyatında hüquqlarının qorunmasını tələb edən forma kimi meydana çıxmışdır.

Məhz bu zaman, beynəlxalq maliyyə təşkilatları qlobal iqtisadi münasibətlərin ən mühüm həlqələrindən biri hesab olunmaqla xüsusi əhəmiyyət daşımışdır. Beynəlxalq maliyyə təşkilatları gələcək inkişafın meyarı kimi, dünya ölkələrinin vacib ehtiyac resurslarının ödənilməsinə xidmət edir [1].

Dünya ölkələrində maksimum inkişafı təmin etməklə, səmərəli əlaqələrin qurulması, ölkələr arası, sosial-iqtisadi inkişafda hərtərəfli qarşılıqlı əlaqənin qurulmasında birincilik qazanmışdır. Beynəlxalq maliyyə təşkilatlarının işinin təhlili və üstünlükləri onu göstəriri ki, iqtisadi münasibətlərdə çatışmazlıqların nəzərə alınması, gələcək əməkdaşlıq üçün əsas prinsiplərin formalaşması və yeni metodların yaranmasına səbəb olur. Bu sahəyə yenidən baxılması, iqtisadi əlaqələrin balanslaşdırılmaqla, qiymətləndirilməsinə sistemli yanaşmanı əsaslandıran, yeni iqtisadi əməkdaşlıq strategiyasının işlənib hazırlanmasının əsasının qoyulmasını tələb edir.

Dünya iqtisadiyyatında hökumətlərarası maliyyə axınlarının tənzimlənməsi, ölkənin valyuta və kredit təşkilatlarının strukturlarının sisteminin yeni tələblər əsasında qurulmasın tələb edir. Bu, xüsusən də dünya iqtisadiyyatında beynəlxalq iqtisadi əlaqələrin yeni səviyyədə inkişafına təkan verməklə, ayrı-ayrı ölkələrin iqtisadi potensialının dövrün tələbləri baxımından yüksəldilməsinə səbəb olar.

Dövlətlərarası iqtisadi əməkdaşlığın yüksək səviyyədə təmin edilməsində, güclü mexanizmlərin olması lazımdır. Eyni zamanda, bu mexanizmlərdən səmərəli istifadə olunması sistemi yaradılmalıdır. Bu zaman, maliyyə axını sferasının fasiləsiz fəaliyyətini təmin edən, dövlətlərarası iqtisadi əməkdaşlığın yaradılması lazımdır.

Dövlətin iqtisadi inkişafında beynəlxalq iqtisadi təşkilatların tutduğu mövqeyin əhəmiyyəlilik dərəcəsinə bu müstəvidən baxılmalıdır. Bu zaman, üzv dövlətləri arasında yaranan iqtisadi əməkdaşlığın mövcud və gələcək tendensiyalarının da təhlil olunması lazımdır.

Bu sahədə aparılan tədqiqatların çox olmasına baxmayaraq, mövzunun aktuallığı öz təsirini itirmir. Dövlətin gələcək siyasi – iqtisadi sabitliyini və təhlükəsizliyi təmin edən, əsas amillərin qorunub saxlanması lazımdır.

Beynəlxalq İqtisadi Təşkilatın fəaliyyətinin öyrənilməsinin əsas əhəmiyyəti, ölkələr arasındakı mövcud iqtisadi münasibətlərin inkişaf meyillərinin aydınlaşdırılması ilə birlikdə aşağıdakı əsas amillərin meydana çıxması öz əksini tapır:

- beynəlxalq iqtisadi təşkilatların müasir tələblərinin meydana çıxması;
- dünya ölkələrinin ehtiyac meyarlarının müəyyən edilməsi;
- qlobal iqtisadiyyatın davamlı inkişafında beynəlxalq iqtisadi təşkilatların rolunun müəyyən edilməsi;
- davamlı və uzunmüddətli iqtisadi inkişafın təmin edilməsində beynəlxalq iqtisadi təşkilatların təsirinin öyrənilməsi;
- Dövlətlərarası iqtisadi əməkdaşlığın müəyyən edən ümumi qanunauyğunluğun işlənib hazırlanması;

- ölkələrin iqtisadi inkişaf dinamikasında beynəlxalq maliyyə təşkilatlarının əhəmiyyətinin müəyyən edilməsi;
- beynəlxalq maliyyə təşkilatlarının müasir inkişaf problemlərinini müəyyən etmək;
- Azərbaycan Respublikasında Beynəlxalq İqtisadi Münasibətlərinin yaranması mexanizmasının əhəmiyyətinin göstərilməsi qeyd edilməlidir.

Bütün bunlar dünya iqtisadiyyatında beynəlxalq təşkilatların rolunu artırmaqla, yeni iqtisadi inkişafa təkan verirdi. Dünya ölkələri arasında siyasi-iqtisadi münasibətlərin yaranması başladı.

Qloballaşma prosesinin beynəlxalq təşkilatların fəaliyyətinə təsiri və dünya ölkələri arasında siyasi-iqtisadi məqsədlərin inkişafı

Beynəlxalq əlaqələrin qurulması, dövlətlər arasındakı əlaqənin ictimai formalarında xarakterik bir hadisədir. İqtisadi sistemlərin əsas siyasi maraqlarının müəyyən edilməsi, idarəetmə formalarına təsir etməklə, mövcud rejimin, inkişaf səviyyəsinə uyğun, hakimiyyətin xüsusiyyətlərində və liderin şəxsiyyətində görsənməkdədir. Belə ki, dövlətin istənilən siyasi proqramında, iqtisadi maraqlar birinci yerdə dayanır.

Bu proses dünya iqtisadiyyatında baş verən proseslərə təsir edərək, qərarların verilməsində aktual olur. Bu da öz növbəsində, beynəlxalq iqtisadi təşkilatlarda siyasi nəticələrə yer verir. Ölkə siyasətlərinin iqtisadi problemlərinin və maraqlarının əsaslandırılması vacib amillərdən hesab olunur. Bu kimi, iqtisadi maraqlar, iqtisadi sistemin əsas məqsəd və vəzifələr toplusunda, həlledici vasitəsidir.

İqtisadi - siyasətdən əsas məqsədlərində beynəlxalq iqtisadi münasibətlərdən istifadə etməklə, dövlətin sabitliyinin qoruması və bazar iqtisadiyyatında yerinin tutulması həyata keçirilir.

Dünyada aparılan sabit siyasi-iqtisadi siyasət, ölkə iqtisadiyyatının inkişafına müsbət təsir göstərir. Bu da, ölkənin xarici maliyyə cəlbediciliyini artırır. Ölkəyə birbaşa investisiya axının təmin edilməsi səlahiyyətlərini yerinə yetirə bilən beynəlxalq təşkilatlara ehdiyac vardır. Bu kimi maliyyə bölüşdürülməsi, ölkədə kapitalın xaricə axmasına səbəb olur. Məhz bu baxımdan siyasətin iqtisadiyyata təsir mexanizminin daha dəqiq ölçülməsi də vacib hesab olunmaqdadır.

Şəkil 1
Siyasətin iqtisadiyyata təsir mexanizmi

Mənbə: *Şəkil 1. Müəllif tərəfindən tərtib olunmuşdur.*

Ölkənin iqtisadi inkişafında sahibkarlığın inkişafı ilə birlikdə əhalinin işgüzar fəallığına şəraitin yaradılması, ölkədə işsizlik probleminin aradan qaldırılmasına səbəb olur. Beynəlxalq səviyyədə, dövlətin beynəlxalq iqtisadi münasibətlərinin formalaşması müsbət hal kimi qeyd edilməkdədir. Hazırda ölkənin yüksək elmi-texniki siyasətində və əmək məhsuldarlığının artmasında fəal olan sahələrin inkişafı aktual məsələlərdən hesab olumaqdadır. Bu da ona gətirib çıxarır ki, istehsal mühitinə müsbət təsir göstərən sahələrin inkişafı kompleks həll edilməlidir.

Dövlət iqtisadiyyatının sosial əhəmiyyətli sahələrinin inkişafında, beynəlxalq iqtisadi təşkilatların rolu günü – gündən artmaqdadır. Ölkə ərazisində həm kiçik və orta biznesin, həm də xarici müəssisələri dəstəkləyən iqtisadiyyatın sabitləşməsi vacib hesab olunmaqdadır. Bu kimi iqtisadi inkişafa yönəlmiş tədbirlərin həyata keçirilməsi, dövlət iqtisadi strukturunun daha çox inkişaf etməsinə zəmin yaradır.

Şəkil 2.
Beynəlxalq iqtisadi təşkilatların əsas funksiyaları

Mənbə: *Şəkil 2. Müəllif tərəfindən tərtib olunmuşdur.*

Siyasi-iqtisadi mühitin sabitləşməsi qlobal münaqişənin bariz nümunəsi olmaqla, xarici ticarətin inkişafına, bu sahədə ölkələr arasında yaranan ziddiyyətlərin aradan qalxmasına səbəb olmaqla, beynəlxalq ticarət müharibələrinin formalaşmasına səbəb olmuşdur.

Dünya miqyasında, ticarət müharibəsinin əsas məqsədi, hər bir ölkənin iqtisadi mövqeyini ya yaxşılaşdırmaq və ya saxlamaqdır. Bu dünyada gedən rəqabətin nəticəsini azaltmır. Əksinə, iqtisadi vəziyyətin itirilməsinin qarşısını ala bilər. Ölkələr arası iqtisadi münasibətlərin qurulması, tərəflər arası rəqabətlə bərabər, inkişafa da təsir edir. Dünyada bu vəziyyət əks gedərsə, təhlükəli münaqişənin uzanmasına səbəb olar. Bu baxımdan, beynəlxalq iqtisadi təşkilatların mövqeyi barışdırıcı xarakter alır. Bu siyasi məqsədlərlə bərabər, iqtisadi təzyiq rıçaqlarından istifadənin olmasını da tələb edir. Bunun başqa bir forması verilən sanksiyalardır.

Bu sanksiyalar siyasəti arzuolunmaz fəaliyyətləri məhdudlaşdırmaqla tətbiq edilir. Məsələn, Qərb dövlətlərinin İrana qoyduqları sankiyalar kimi. Bu sanksiyaların rəsmi səbəblərinin qeyd edilməsi ilə, İranda nüvə proqramının inkişafının dayanmasına, insan haqlarının pozulmasının qarşısının alınmasına, Yaxın Şərqdə olan terror təşkilatlarından qorunması üçün verilmişdir.

Qlobal iqtisadiyyata təsir göstərməklə, ticarət əlaqələrinin pozulmasının və resurslarının yenidən bölüşdürülməsinin həyata keçrilməsi baş verir. Bütün bunlar dünyada iqtisadi problemlərin aradan qaldırılmasına, milli iqtisadiyyatın inkişafına səbəb olan faktorların yaranmasını vacib edir.

Dünya iqtisadiyyatında siyasi-iqtisadi məsələlərin həll edilməsi ən mühüm sosial siyasət kimi dövlət proqramına daxil edilir. Ölkənin siyasi sistemində, iqtisadi sistemin müstəqilliyinin artması, dövlətin əsas siyasi - iqtisadi qərarlarında yer tutmaqdadır. Bu, onu deməyə əsas verir ki, iqtisadi əsas olmadan heç bir iqtisadi münasibət həyata keçirilə bilməz.

Azərbaycan Respublikasının iqtisadi inkişafında beynəlxalq iqtisadi münasibətlərin formalaşmasında, beynəlxalq iqtisadi təşkilatların rolu

Müstəqillik illərində, milli iqtisadiyyatın qurulması ilə, Azərbaycan Respublikasında beynəlxalq iqtisadi münasibətlərin formalaşması da həyata keçrilməyə başladı. Bu ölkədə verən dəyişikliklərin formalaşmasına, yeni müəssisələrin yaradılmasına və qeyri-rentabelli köhnə müəssisələrin ləğv edilməsinə səbəb olmaqla yanaşı, işsizlərin sayının azaldması uğrunda atılan əsas qərarlar idi. Ölkədə bununla yanaşı, betnəlxalq iqtisadi münasibətlərin formalaşması da həyata keçməkdə idi. Bu sahədə problemlərin mövcud olması, həm daxili, həm də xarici bazarda iqtisadi tələbat mallarının çatışmazlığına gətirib çıxarda bilərdi. Bu prosesin qarşısının alınması üçün öncə kiçik biznes sahəsinin inkişafına təkan verildi. [3]

Nəzərə almaq lazımdır ki, ölkənin istehsalı bazarda çox az faizini təşkil edir ki, bu da kiçik biznes sahələrinin meydana gəlməsini zəruri edirdi. Azərbaycanda biznes sahələrinin maliyyə bazasının təşkili sadə və etibarlı olması baxımından, beynəlxalq investorların cəlbini də tələb edirdi. Bu baxımdan, yeni biznes sahələrini yaratmaqla və iqtisadi münasibətlərdən səmərəli istifadə etməklə biznesin digər tərkib hissələrinin yeni tələblər səviyyəsində qurulması tələbini qoydu.

Dünya səviyyəsində layiqli yerini tutmaq üçün Azərbaycan Respublikası beynəlxalq iqtisadi siyasətin uğurlu aparılmasına nail olmaqla, ölkədə, daxili iqtisadi faktorların güclənməsinə və dünya iqtisadiyyatında yüksək mövqeyinə nail olmuşdur. Bütün bunlar, Azərbaycan Respublikasının dünya iqtisadiyyatına təsirini dəstəkləməklə, siyasət-iqtisadi inkişaf qanunlarının formalaşmasına da səbəb olmuşdur [4].

Cədvəl 1

Azərbaycan Respublikasının əməliyyat növləri üzrə idxal, (min ABŞ dolları) /2/

Əməliyyat növləri	2018	2019	2020	2021	2022	2023
Cəmi, o cümlədən	11465914,7	13667475,7	10732038,8	11703222,6	14539789,1	17285344,7
Milli valyuta ilə hesabləşmalar	622,1	6 949,0	25 529,9	55 810,9	36 847,0	3 348,2
Sərbəst dönərli valyuta (SDV) ilə hesabləşmalar	8 996 863,5	9 832 011,1	9 111 364,1	9 818 293,0	12 562 320,8	14 107 327,7
Klirinq üzrə hesabləşmalar	20,3	120,9	468,6	115,9	110,4	560,6
Qapalı valyuta üzrə hesabləşmalar	616 469,4	786 615,7	741 087,7	862 413,5	1 318 485,8	1 623 577,8
Digər kommersiya əməliyyatları üzrə malların keçirilməsi	14,7	-	565,5	-	19,2	-
Digər sövdələşmələr üzrə mal göndərilməsi	-	-	-	-	-	-
Müəssisə və obyektlərin tikintisi haqqında saziş-öhdəlik hesabına malların keçirilməsi	14,9	59,7	189,3	51,4	40,5	136,2
Sövdələşmə xarakteri təyin olunmayıb	-	-	-	-	-	-
Digər əməliyyat növləri	1 851 909,8	3 041 719,3	852 833,7	966 537,9	621 965,4	1 550 394,2

Cədvəldən göründüyü kimi, əməliyyat növləri üzrə, 2018-ci ildə 11465914,7 min ABŞ dolları olduğu halda, 2023-cü ildə 17285344,7 min ABŞ dolları olmuşdur. Azərbaycanda COVID-19 pandemiyasının təsirini nəzərə almasaq, bu göstərici müsbət hesab edilir.

Nəticədə ölkənin iqtisadi inkişafının yüksək olması, onun iqtisadi sahələrinin inkişafını göstərir. Bu baxımdan, beynəlxalq iqtisadi əlaqələrin inkişafı ölkə iqtisadiyyatında xüsusi rol oynamaqla yanaşı, regional və xarici iqtisadi münasibətlərin formalaşmasına səbəb olur [5].

Bütün bunlar ölkəmizin beynəlxalq arenada inkişafına təkan verən əsas elementlərdən biri olmaqla, beynəlxalq iqtisadi təşkilatlarda etibalı müttəfiq qazanmasına səbəb olur. İqtisadi inteqrasiya proseslərinə imkan verən bütün imkanlardan istifadə olunması aktual məsələlərdən hesab edilməlidir.

İSTİNADLAR:

1. https://ru.wikipedia.org/wiki/%D0%9C%D0%B5%D0%B6%D0%B4%D1%83%D0%BD%D0%B0%D1%80%D0%BE%D0%B4%D0%BD%D0%B0%D1%8F_%D0%BE%D1%80%D0%B3%D0%B0%D0%BD%D0%B8%D0%B7%D0%B0%D1%86%D0%B8%D1%8F

2. https://www.stat.gov.az/source/trade/

3. https://www.economy.gov.az/az/page/beynelxalq-elaqeler/iqtisadi-teskilatlarla-emekdasliq

4. https://www.economy.gov.az/az/page/beynelxalq-elaqeler/iqtisadi-teskilatlarla-emekdasliq/regional-teskilatlar

5. https://www.mfa.gov.az/az/category/beynel xalq-teskilatlar

XÜLASƏ

Məqalədə, beynəlxalq təşkilatların fəaliyyətinin dünya ölkələrinin iqtisadi inkişafına təsirinin əhəmiyyəti və bu sahənin mövcud problemləri tədqiq olunmuşdur. Beynəlxalq təşkilatların fəaliyyətinin inkişafının əhəmiyyətinin qiymətləndirilməsi ilə bərabər, dünya ölkələrinin inkişafında tutduğu mövqeyi göstərilmişdir. Sosial-iqtisadi inkişafın əhəmiyyətini nəzərə alaraq, ölkədə əhalinin məşğulluq səviyyəsinin mövcud problemləri qeyd olunaraq, eyni zamanda məqalədə, dünya iqtisadiyyatına təsir edən sahələrin kompleks araşdırılması aparılmışdır.

Müəllif, beynəlxalq təşkilatların fəaliyyətinin əhəmiyyətini göstərməklə, dünyanın ayrı-ayrı ölkələrinin iqtisadiyyatına təsirinin dərəcəsi, statistik məlumatlarında istifadə edilməklə qiymətləndirilmişdir. Son illərin statistik məlumatları əsasında, Azərbaycan Respublikasının və digər ölkələrin iqtisadi göstəriciləri təhlil edilmişdir, statistik məlumatlarından istifadə olunmuşdu. Məqalənin sonunda, beynəlxalq təşkilatların fəaliyyətinin dünya ölkələrinin iqtisadi inkişafına təsiri əsaslandırılmış, ölkənin maddi istehsal sahələrində qiymətləndirilməsi göstərilmiş, nəticə və təkliflərlə birlikdə, istinad olunmuş ədəbiyyat siyahısı verilmişdi.

Açar sözlər: *beynəlxalq təşkilatlar, beynəlxalq siyasət, iqtisadi inkişaf, dünya iqtisadiyyatı, qloballaşma, davamlı inkişaf*

Влияние деятельности международных организаций на экономическое развитие стран мира

РЕЗЮМЕ

В статье рассматривается значение влияния деятельности международных организаций на экономическое развитие стран мира и современные проблемы в этой сфере. Наряду с оценкой значимости развития деятельности международных организаций, показано их место в развитии стран мира. Учитывая важность социально-экономического развития, отмечены текущие проблемы уровня занятости населения в стране, и в то же время в статье проведено комплексное исследование сфер, которые влияют на мировую экономику.

Автор, показывая значимость деятельности международных организаций, оценил степень их влияния на экономику отдельных стран мира с использованием статистических данных. На основе статистических данных последних лет были проанализированы экономические показатели Азербайджанской Республики и других стран, использованы статистические данные. В конце статьи обосновано влияние деятельности международных организаций на экономическое развитие стран мира, дана оценка отраслей материального производства страны, приведен список цитируемой литературы, сделаны выводы и предложения.

Ключевые слова: *международные организации, международная политика, экономическое развитие, мировая экономика, глобализация, устойчивое развитие.*

UOT 339.9
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.260

ÇİNDƏ KOB-LARIN RƏQƏMSAL MARKETİNQ FƏALİYYƏTİNİN TƏHLİLİ

ARİF İSGƏNDƏROV
Azərbaycan Turizm və Menecment Universiteti, doktorant
E-mail: isgandarov.arif.2001@atmu.edu.az

Giriş

Son illərdə Çində kiçik və orta bizneslər (KOB-lar) rəqəmsallaşma prosesinə böyük maraq göstərirlər. Ölkədəki geniş bazar imkanları və texnoloji inkişaflar KOB-ları rəqəmsal marketinq strategiyalarına yatırım etməyə təşviq edib. Xüsusilə e-ticarət platformalarının və sosial media vasitələrinin yayılması, KOB-lara müştərilərlə birbaşa əlaqə yaratmaq və məhsul təkliflərini daha effektiv şəkildə təqdim etmək imkanı yaradıb. Çin KOB-larının əsas rəqəmsal marketinq kanalları arasında WeChat, Douyin (TikTok-un Çin versiyası) və Alibaba kimi platformalar xüsusi yer tutur. WeChat platforması vasitəsilə şirkətlər müştərilərlə interaktiv əlaqə qurur, eyni zamanda öz məhsul və xidmətlərini tanıdır. Douyin isə məhsulların vizual təqdimatı üçün ideal bir vasitədir və daha çox gənc auditoriyanı cəlb etməyə xidmət edir. Alibaba və JD.com kimi e-ticarət platformaları KOB-lara geniş satış şəbəkəsi təklif edərək onların bazar iştirakını artırır.

Rəqəmsal marketinqdə KOB-ların üzləşdiyi əsas problemlərdən biri rəqabətin yüksək olmasıdır. Çinin geniş bazarında çoxsaylı bizneslərin olması KOB-lar üçün öz məhsul və xidmətlərini fərqləndirməyi çətinləşdirir. Digər bir çətinlik isə rəqəmsal marketinq sahəsində peşəkar kadrlara və texniki resurslara olan ehtiyacdır. KOB-ların bir çoxu bu sahədə təcrübəsizlik səbəbindən rəqəmsal strategiyalarını düzgün həyata keçirə bilmir. Hökumət KOB-ların rəqəmsal transformasiyasını dəstəkləmək məqsədilə müxtəlif proqramlar həyata keçirir. Bu proqramlar çərçivəsində təlimlər təşkil edilir, texnologiyalara çıxış təmin edilir və maliyyə dəstəyi göstərilir. Təşəbbüslər KOB-ların rəqəmsal marketinq sahəsində daha yaxşı nəticələr əldə etməsinə şərait yaradır.

Çində KOB-ların rəqəmsal marketinq fəaliyyətləri, həm imkanlar, həm də çağırışlarla doludur. Rəqəmsal platformalardan düzgün istifadə etməklə KOB-lar qlobal bazarlara çıxışlarını genişləndirə və öz rəqabət qabiliyyətlərini artırma potensialına sahibdirlər. Eyni zamanda, bu sahədə peşəkar biliklərin artırılması və innovativ yanaşmaların tətbiqi KOB-ların uzunmüddətli uğuru üçün əsasdır.

Çində KOB-ların iqtisadiyyatda rolu və rəqəmsallaşmanın artan əhəmiyyəti

Çində kiçik və orta bizneslər (KOB-lar) iqtisadiyyatın dayaq nöqtələrindən biri hesab edilir. Onlar ölkənin ümumi daxili məhsulunda (ÜDM) böyük paya sahib olmaqla yanaşı, məşğulluğun əsas təminatçısı kimi çıxış edirlər. KOB-lar xüsusilə yerli bazarların inkişafında, innovasiyaların tətbiqində və yeni iş yerlərinin yaradılmasında mühüm rol oynayır. Onların çevik strukturu sürətlə dəyişən iqtisadi şərtlərə uyğunlaşmağa imkan verir [2, s.351].

Son illərdə rəqəmsallaşma KOB-ların fəaliyyətinə əhəmiyyətli təsir göstərib. Elektron ticarət və sosial media platformaları vasitəsilə bu müəssisələr bazarlara çıxış imkanlarını genişləndiriblər. Ənənəvi satış kanallarından fərqli olaraq, rəqəmsal platformalar daha geniş müştəri kütləsinə çatmaq və daha effektiv satış strategiyaları həyata keçirmək imkanı yaradır. Rəqəmsal texnologiyalar KOB-ların fəaliyyətini optimallaşdırmaqla həm məhsuldarlığı artırır, həm də xərclərin azaldılmasına kömək edir. Dövlət rəqəmsal transformasiya sahəsində KOB-ları dəstəkləmək üçün müxtəlif təşəbbüslər həyata keçirir. Rəqəmsallaşmaya yönəlmiş proqramlar çərçivəsində bu bizneslər üçün təlimlər, güzəştli kreditlər və texnologiyalara çıxış imkanları təmin edilir. Bu təşəbbüslər, xüsusilə texnologiya sahəsində təcrübəsi olmayan müəssisələr üçün rəqəmsal dünyaya keçidi asanlaşdırır. Hökumətin yanaşması KOB-ların rəqabət qabiliyyətini artırmaq və qlobal bazarlarda iştirakını gücləndirmək məqsədi daşıyır [1, s.429].

Texnologiya şirkətləri də KOB-lara rəqəmsallaşmada dəstək göstərir. WeChat, Alibaba və JD.com kimi iri platformalar KOB-lar üçün xüsusi həllər təklif edir. Məsələn, WeChat şirkətlərə öz məhsul və xidmətlərini təqdim etmək üçün mini-proqramlar yaratmağa imkan verir. Alibaba isə KOB-ları qlobal e-ticarət bazarına inteqrasiya etmək üçün müxtəlif xidmətlər təqdim edir. Bu platformalar vasitəsilə KOB-lar daha çox müştəriyə çatır və fəaliyyətlərini genişləndirir.

Nəticə etibarilə, Çində KOB-ların iqtisadiyyat-

dakı əhəmiyyəti rəqəmsallaşmanın artması ilə daha da güclənmişdir. Həm hökumətin, həm də texnologiya şirkətlərinin dəstəyi ilə KOB-lar rəqəmsal texnologiyalardan daha geniş istifadə edərək, iqtisadi inkişafda daha böyük rol oynayır. Rəqəmsal transformasiya KOB-ların gələcəkdə dayanıqlığını təmin etməklə yanaşı, onların qlobal bazarlarda daha rəqabətqabiliyyətli olmasını da təmin edir.

Rəqəmsal marketinqin ümumi konsepsiyası və KOB-lar üçün önəmi

с отсутствием налаженных цепочек поставок делают эти инициативы финансово обременительными для правительств и частных инвесторов. Хотя субсидии, налоговые льготы и гранты могут помочь смягчить эти затраты, бюджетные ограничения и конкурирующие приоритеты часто ограничивают их эффективность. Кроме того, укоренившееся доминирование отраслей ископаемого топлива, поддерживаемое обширными субсидиями, создает неравные условия игры, затрудняя достижение возобновляемой энергетикой конкурентоспособности по стоимости, несмотря на технологические достижения. Неопределенность регулирования усугубляет эти проблемы, поскольку непоследовательная или краткосрочная политика сдерживает долгосрочные инвестиции в чистую энергию. Внезапные изменения политики, сокращение обещанных стимулов или бюрократические задержки создают финансовые риски, которые отпугивают как крупных инвесторов, так и мелких новаторов от участия в переходе на возобновляемую энергию. Кроме того, экономическое неравенство между развитыми и развивающимися странами еще больше усложняет справедливое распределение стимулов возобновляемой энергии, поскольку более бедные страны испытывают трудности с выделением достаточных ресурсов на зеленые инициативы. Технологические и инфраструктурные барьеры, включая прерывистый характер возобновляемой энергии и необходимость в усовершенствованной модернизации сетей, добавляют еще один уровень сложности. Решение этих проблем требует комплексных решений, таких как стабильные политические рамки, перераспределение субсидий на ископаемое топливо, инновационные механизмы финансирования и международное сотрудничество.

СПИСОК ЛИТЕРАТУРЫ:

1. *Aghion P. "The Economics of Climate Change", Oxford, "Oxford University Press", 2020, 256 p.*
2. *Ferguson A. "Solar Energy: Principles and Practice", Cambridge, "Cambridge University Press", 2019, 360 p.*
3. *Hodge B. "Renewable Energy: An Introduction", San Diego, "Academic Press", 2020, 350 p.*
4. *Krause A. "The Energy of Nature", Cambridge, "Cambridge University Press", 2019, 280 p.*
5. *López J. "Sustainable Energy: Choosing Among Options", Cambridge, "MIT Press", 2017, 280 p.*
6. *Rothschild M. "The Economics of Incentives", New York, "Cambridge University Press", 2021, 250 p.*
7. *Rubens G. Z. "Energy Policy and the Economy", London, "Palgrave Macmillan", 2017, 272 p.*

Mammadov Samir

DIFFICULTIES IN PROVIDING ECONOMIC INCENTIVES FOR THE INTRODUCTION OF ALTERNATIVE ENERGY SOURCES

SUMMARY

Providing economic incentives for the adoption of alternative energy faces many challenges. High upfront costs, including technology investment and grid integration, create financial barriers, while budget constraints limit government subsidies and tax breaks. In addition, fossil fuel subsidies distort market competition, making renewable energy sources less attractive to investors and consumers. Policy instability, such as sudden changes in subsidies or tax breaks, creates uncertainty and discourages long-term investment. Economic disparities exacerbate the problem as developing countries struggle to allocate funds for renewable energy among competing priorities such as health and infrastructure. Moreover, technological and infrastructure constraints, such as the need for smart grids and energy storage, require expensive and time-consuming upgrades. Addressing these challenges requires stable policies, phasing out fossil fuel subsidies, and using international cooperation, public-private partnerships, and innovative financial instruments such as green bonds to bridge financing gaps. A coordinated global effort is essential to ensure equitable and sustainable adoption of renewable energy.

Keywords: *energy, alternative energy, economic incentives, challenges.*

Мамедов Самир

ТРУДНОСТИ ЭКОНОМИЧЕСКОГО СТИМУЛИРОВАНИЯ ВНЕДРЕНИЯ АЛЬТЕРНАТИВНЫХ ИСТОЧНИКОВ ЭНЕРГИИ

РЕЗЮМЕ

Предоставление экономических стимулов для внедрения альтернативной энергетики сталкивается со многими трудностями. Высокие первоначальные затраты, включая инвестиции в технологии и сетевую интеграцию, создают финансовые барьеры, в то время как бюджетные ограничения ограничивают государственные субсидии и налоговые льготы. Кроме того, субсидии на ископаемое топливо искажают рыночную конкуренцию, делая возобновляемые источники энергии менее привлекательными для инвесторов и потребителей. Нестабильность политики, например, внезапные изменения субсидий или налоговых льгот, создает неопределенность и препятствует долгосрочным инвестициям. Экономическое неравенство усугубляет проблему, поскольку развивающимся странам сложно выделить средства на возобновляемые источники энергии среди таких конкурирующих приоритетов, как здравоохранение и инфраструктура. Более того, технологические и инфраструктурные ограничения, такие как необходимость в интеллектуальных сетях и накопителях энергии, требуют дорогостоящих и длительных обновлений. Решение этих проблем требует стабильной политики, постепенного отказа от субсидий на ископаемое топливо, а также использования международного сотрудничества, государственно-частного партнерства и инновационных финансовых инструментов, таких как зеленые облигации, для устранения пробелов в финансировании. Для обеспечения справедливого и устойчивого внедрения возобновляемых источников энергии необходимы скоординированные глобальные усилия.

Ключевые слова: *энергетика, альтернативная энергетика, экономические стимулы, проблемы*

Məmmədov Samir

ALTERNATİV ENERJİ MƏNBƏLƏRİNİN TƏTBİQİ ÜÇÜN İQTİSADİ STİMULLARIN TƏMİN EDİLMƏSİNDƏ ÇƏTİNLİKLƏR

XÜLASƏ

Alternativ enerjinin qəbulu üçün iqtisadi stimulların təmin edilməsi bir çox problemlərlə üzləşir. Texnologiya sərmayəsi və şəbəkə inteqrasiyası da daxil olmaqla yüksək ilkin xərclər maliyyə maneələri yaradır, büdcə məhdudiyyətləri isə hökumət subsidiyalarını və vergi güzəştlərini məhdudlaşdırır. Bundan əlavə, qalıq yanacaq subsidiyaları bazar rəqabətini pozaraq, bərpa olunan enerji mənbələrini investorlar və istehlakçılar üçün daha az cəlbedici edir. Subsidiyaların və ya vergi güzəştlərinin kəskin dəyişməsi kimi siyasət qeyri-sabitliyi qeyri-müəyyənlik yaradır və uzunmüddətli investisiyaların qarşısını alır. İnkişaf etməkdə olan ölkələr səhiyyə və infrastruktur kimi rəqabətli prioritetlər arasında bərpa olunan enerjiyə vəsait ayırmaqda mübarizə apardıqları üçün iqtisadi fərqlər problemi daha da kəskinləşdirir. Üstəlik, ağıllı şəbəkələrə və enerjinin saxlanmasına ehtiyac kimi texnoloji və infrastruktur məhdudiyyətləri bahalı və vaxt aparan təkmilləşdirmələr tələb edir. Bu problemlərin həlli sabit siyasətlər, qalıq yanacaq subsidiyalarının mərhələli şəkildə dayandırılması və maliyyə boşluqlarını aradan qaldırmaq üçün beynəlxalq əməkdaşlıqdan, dövlət-özəl tərəfdaşlıqdan və yaşıl istiqrazlar kimi innovativ maliyyə alətlərindən istifadə etməyi tələb edir. Bərpa olunan enerjinin ədalətli və dayanıqlı qəbulunu təmin etmək üçün əlaqələndirilmiş qlobal səy vacibdir.

Açar sözlər: *enerji, alternativ enerji, iqtisadi stimullar, çətinliklər.*

UOT 339.9; 339.9.61.061(100)
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.267

ZƏNGƏZUR DƏHLİZİNİN TARİXİ ƏHƏMİYYƏTİ VƏ NAXÇIVAN BEYNƏLXALQ LOGİSTİKA MƏRKƏZİ KİMİ

EMİN ZEYNALOV
Naxçıvan Dövlət Universitetinin
İqtisadiyyat və idarəetmə fakultəsinin müəllimi

E-mail: eminzeyni44@gmail.com

Giriş

Azərbaycan Respublikasında logistika sektoru ildən-ilə inkişaf edir. Həm dövlət, həm də özəl sektor bu sahədə mühüm işlər görür və bir çox layihələr həyata keçirir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Logistika və Ticarətin İnkişafına dair Strateji Yol Xəritəsi" bu inkişafların konkret nümunəsidir. Azərbaycanın birbaşa dənizə çıxışının olmamasına və 3 tərəfdən quru ilə əhatə olunmasına baxmayaraq, önəmli strateji mövqeyə malikdir. Ölkə Asiyadan Avropaya gedən iki mühüm ticarət marşrutu, Şimal-Cənub və Şərq-Qərb (TRACECA) nəqliyyat dəhlizləri üzərində yerləşir. Bakı-Tbilisi-Qars dəmir yolu, Orta Dəhliz və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi layihələrlə nəqliyyat dəhlizlərinə töhfələr verir və dövlət başçısının dediyi kimi, "Azərbaycan Mərkəzi Asiyanı Qərblə, Cənubi Asiyanı Şimalla birləşdirən mühüm nəqliyyat mərkəzinə çevrilib", beynəlxalq layihələrdə iştirak etməklə həm də siyasi əhəmiyyət qazanıb. Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum təbii qaz kəməri kimi layihələrdən əldə edilən gəlirlərlə beynəlxalq logistika mərkəzlərinin yaradılması və inkişafı gündəmin əhəmiyyətli maddələrindəndir. Azərbaycan həm də beynəlxalq layihələrdə iştirak etməklə siyasi prioritetlər qazanır. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum təbii qaz kəməri və bütün dünyada bu qəbildən olan digər layihələrdən əldə edilən gəlirlərlə beynəlxalq səviyyədə logistik mərkəzlərin yaradılması və inkişafı bu günün gündəmini təşkil edir. Ölkənin nəqliyyatdan əldə etdiyi gəlirlərlə bağlı statistik məlumatlar və bu sahədə aparılan tədqiqatlar da gələcək üçün müsbət proqnozlar verməyə əsas verir.

Zəngəzur dəhlizinin tarixi əhəmiyyəti

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2011-ci il 5 iyul tarixdə keçirilən Dünya azərbaycanlılarının III qurultayındakı çıxışı tarixi həqiqəti güzgü effekti ilə əks etdirirdi: "Tarix tarixdir. 1978-ci ildə Qarabağda məskunlaşmalarının 150 illiyini qeyd edən ermənilər yaxşı bilirlər ki, onlar bu torpaqlara qonaq kimi gəlmişlər. Nəinki Dağlıq Qarabağ, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında formalaşıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi ərazimizdir. Xəritəyə baxsaq görərik ki, vaxtilə Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermək nəticəsində böyük türk dünyası coğrafi cəhətdən parçalandı. Yəni, Zəngəzurun Ermənistana verilməsinin çox böyük mənfi mənası var idi". Zəngəzur əzəli Azərbaycan torpağıdır və Zəngəzur dəhlizinin tarixi əhəmiyyəti danılmazdır. Dəhlizin açılması ilə ticarət yolları potensialı və qlobal bazarlara çıxış imkanları daha geniş regionla yanaşı, Azərbaycan və Ermənistanın iqtisadiyyatlarına əhəmiyyətli dərəcədə fayda verə bilər. İqtisadi üstünlüklər effektiv diplomatik danışıqlara, maraqlı tərəflərin təhlükəsiz və regional iqtisadi inkişafa hazır olmasına əsaslanır. Zəngəzur dəhlizinin çoxşaxəli nəticələrinin sonrakı tədqiqi, xüsusilə regional sabitlik və beynəlxalq münasibətlər üçün vacibdir. Nəticə etibarilə dəhlizin açılması təkcə fiziki və iqtisadi elementlərə deyil, həm də əhəmiyyətli dərəcədə diplomatik və təhlükəsizlik məsələlərinə əsaslanır. Zəngəzur dəhlizinin mühüm komponenti onun regional təhlükəsizlik dinamikasına potensial təsiridir. Rusiya və İran kimi dövlətlərin təsirinə məruz qalan regionda dəhlizin açılması ilə birlikdə siyasi təzyiqlərin daha da çoxalması ehtimal olunur. Beynəlxalq ictimaiyyətin Zəngəzur dəhlizinə reaksiyası da eyni dərəcədə əhəmiyyətlidir. Avropa ölkələri Cənubi Qafqazda müxtəlif maraqlara malikdir və bu, onların dəhlizdə iştirakına potensial olaraq təsir göstərir. Dəhlizin yeni ticarət yolları yaratmaq qabiliyyəti Avropa və ya Asiya ölkələrindən sərmayə cəlb etməklə yanaşı, digərləri üçün strateji narahatlıqlar yarada bilər. Beynəlxalq təşkilatların dəhlizin təhlükəsiz və qərəzsiz fəaliyyətinin təmin edilməsində funksiyasının nəzərə alınması vacib amildir. Qardaş ölkə hər zaman olduğu kimi, dəhlizinin açılması ilə bağlı məsələdə də Azərbaycanın təşəbbüsünü israrlı şəkildə dəstəklədiyini dəfələrlə vurğulamışdır. Prezident Rəcəb Tayyib Ərdoğan, BMT Baş Assambleyasındakı çıxışında ölkəsinin

birmənalı mövqeyini növbəti dəfə ortaya qoyaraq deyib: "Ermənistanın başda Zəngəzur dəhlizinin açılması olmaqla verdiyi sözləri yerinə yetirməsini gözləyirik". "Türk Dövlətləri Multimodal Nəqliyyat və Logistika Forumu"nda yekdilliklə bütün türk dövlətləri dəhlizin açılmasına müsbət mövqelərini ortaya qoydular. Ümumilikdə, ABŞ-nin də Zəngəzur dəhlizinin açılmasına müsbət münasibətini qeyd edə bilərik.

Zəngəzur dəhlizi müasir dövrdə

Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə II Qarabağ müharibəsi Azərbaycanın mütləq qələbəsi ilə başa çatdı və bu regionda yeni reallıqların yaranmasına gətirib çıxardı. Rusiya, Azərbaycan və Ermənistan arasında 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli sazişin maddələrindən biri də kapitulyasiya aktına imza atan Ermənistanın müharibədə uduzan tərəf olduğu üçün müəyyən öhdəlikləri yerinə yetirməsi şərti idi. Bu öhdəliklərdən biri də Azərbaycanla Naxçıvan arasında əlaqəni təmin edəcək və birbaşa Türkiyə ilə həmçinin Türkiyəni Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyaya birləşdirəcək Zəngəzur dəhlizi idi. Bu dəhliz Azərbaycan üçün həyati əhəmiyyətə malikdir və dövlət başçısının təbirincə desək: "Ermənistan bunu istəsə də, istəməsə də bu dəhliz açılacaqdır". Prezident İlham Əliyev bu ilin yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə çıxışı zamanı: "Yeni layihələr arasında Zəngəzur dəhlizini qeyd etmək istərdim. Zəngəzur dəhlizi layihəsi Azərbaycan tərəfindən irəli sürülmüşdür. İkinci Qarabağ müharibəsindəki Zəfərimizdən sonra bu məsələ beynəlxalq gündəliyə, beynəlxalq leksikona salındı və bu gün Zəngəzur dəhlizi artıq dünyada qəbul edilmiş ifadədir, qəbul edilmiş termindir. Əlbəttə ki, biz bu dəhlizin açılması üçün praktiki addımlar atırıq", - dövlət başçısı qeyd edib.

Zəngəzur dəhlizinin açılması ilə dəmir yolu və avtomobil nəqliyyatı regionun daşımalarını yaxşılaşdıracaq, Avropa ilə Asiya arasında gediş-gəliş vaxtı əhəmiyyətli dərəcədə azalaraq on iki günə düşəcək. Bundan əlavə, Cənubi Qafqaz ölkələri ilə digər regionlar arasında əməkdaşlıq və iqtisadi əlaqələr artacaq. Eyni zamanda, yük və insan daşımaları sahəsində yeni şirkətlər üçün imkanlar təmin etməklə, nəqliyyat sektorunda artımı təşviq edəcəkdir. Bu, ölkələrin qlobal iqtisadiyyata inteqrasiyasını təmin edən beynəlxalq nəqliyyat infrastrukturunun yaradılması sahəsində beynəlxalq əməkdaşlığı artıracaq. Ona görə də dəhlizdə yerləşən şəhərlərin inkişaf potensialı və yeni şirkətlər üçün investisiya imkanları Zəngəzur dəhlizinin güclü tərəflərindən biridir [6] . Dəhliz Çini Avropa ilə birləşdirməklə, mal və xidmətlərin daha rahat çatdırılmasına imkan verdiyi üçün digər marşrutlarla müqayisədə daha etibarlı alternativ imkanı təmin edir [1].

Şəkil 1. Zəngəzur dəhlizində görülən işlər

Mənbə: *İctimai TV 2024.*

Bu dəhliz beynəlxalq ticarət yolları üzərində yerləşdiyindən və Asiyadan Avropaya ticarət dəhlizə keçəcəyi üçün bu, həm də regionun ticarət həcmini artıracaqdır. Yol və hava yollarında məsafələr azaldıqca xərclər də azalacaq. Bu dəhlizin güclü tərəflərindən biri də şimaldan Avropaya gedən marşrutlardan daha rahat və sürətli olmasıdır. Dəhlizin açılması ilə türk dünyası və inteqrasiya prosesinin sürətlənməsi arasında sürətli nəqliyyat xətti yaranacaq və Türk Dövlətləri Birliyi strateji tərəfdaşlıq səviyyəsinə çatdıqda keçidlər daha asan və sürətli olacaqdır [5]. Zəngəzur dəhlizinin reallaşması ilə Türkiyədən Azərbaycana çatmaq üçün Gürcüstan və İrandan keçməyə ehtiyac qalmayacaq, Azərbaycana birbaşa çıxış mümkün olacaqdır. Azərbaycan və Türkiyə arasında Zəngəzur üzərindən keçəcək yeni dəhliz Bakı-Tbilisi-Qars xəttindən təxminən 340 km qısa olacaq, bu isə nəqliyyatın sadələşdirilməsinə, həmçinin Azərbaycan və Türkiyə arasında əlaqələri daha da inkişaf etdirəcəkdir.

Zəngəzur dəhlizinin logistik əhəmiyyəti və iqtisadi faydaları

Zəngəzur dəhlizinin əhəmiyyətini müxtəlif istiqamətlər üzrə alternativ marşrutların mövcudluğu ilə xarakterizə etmək olar. Bu dəhliz, ilk növbədə,

Türkiyə ilə Orta Asiya arasında yeni marşrutun yaradılmasına kömək edəcək, Türkiyənin bu istiqamətdə İrandan asılılığını zəiflədəcək, ikincisi, Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birləşdirən İranın təzyiq aləti olan Naxçıvan marşrutunun təsirini azaldacaqdır. Bu, həmçinin Gürcüstana daxil olmadan Rusiya ilə Türkiyə arasında yeni nəqliyyat marşrutunun yaradılmasına kömək edəcək, həmçinin dəhlizin açılması ilə ölkələr arasında ticarət məsafələrinin əhəmiyyətli dərəcədə azalacağı və ticarətin artacağı gözlənilir. Zəngəzur dəhlizi təxminən 40 kilometr uzunluğunda olacaq və regionda ticarət potensialını artıracaq mühüm layihədir. Burada "Orta Dəhliz" layihəsinin önəmi və bu dəhlizdə Zəngəzurun önəmini vurğulamaq lazımdır. Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonrakı illərdə layihə genişlənib və iştirakçıların sayı Ukrayna, Rumıniya və Polşa kimi dövlətlərin hesabına genişlənib. Çin-Qazaxıstan sərhədindən başlayan Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, bundan sonra isə Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçərək Avropaya qədər uzanır. Bu, Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrutdur [13].

İlham Əliyevin Çin telekanalına 2025-ci ilin fevral ayında verdiyi müsahibədə orta dəhlizlə bağlı səsləndirdiyi fikirlər də bu layihənin ölkəmiz üçün önəmini ortaya qoyur:

"... Bu, biznes imkanları təmin edir. Çünki Azərbaycanın Orta Dəhlizlə bağlı mövqeyi, sadəcə, tranzit ölkəsi olmaq və tranzitdən ödənişlər almaqdan ibarət deyil. Bizim hədəfimiz özəl sektora bundan faydalanmağa kömək etmək üçün dəhlizin keçdiyi Azərbaycan ərazisində müəssisələr yaratmaqdır. Əlbəttə ki, sizin istinad etdiyiniz paneldən bəri bu sahədə, o cümlədən Çin-Azərbaycan münasibətlərində bir çox hadisələr baş vermişdir. Artıq qeyd etdiyimiz kimi, biz strateji tərəfdaşıq, lakin, eyni zamanda, Orta Dəhlizin Azərbaycan seqmentinin infrastrukturu təkmilləşdirilmişdir. Hazırda biz görürük ki, bu təkmilləşdirilmiş infrastruktur gələcək 3-5 il üçün kifayət etməyəcək". Bəhs olunan layihədə "pazl"ın ən vacib parçası isə təbii ki, Zəngəzur dəhlizi olacaq. Şübhəsizdir ki, dəhlizin açılması ilk növbədə, bölgənin inkişaf etməsində xüsusi əhəmiyyət kəsb edəcək, eyni zamanda regionda yeni əməkdaşlıq mühitinin fomalaşmasına, sülhün və tərəqqinin təmin olunmasına xidmət göstərəcək. Burada diqqət çəkən ən önəmli məsələ isə odur ki, dəhliz bütün Türk dünyası ölkələri arasında körpü funksiyasını həyata keçirəcək, bu həqiqətən, möhtəşəm tarixi hadisədir. Azərbaycan Türkiyə ilə birlikdə tarixi Türk dövlətlərinin əlaqələrinin yaradılmasında, beynəlxalq əməkdaşlığında və ortaq layihələrin reallaşdırılmasında maraqlı olan qabaqcıl ölkələr sırasında yer alırlar. Zəngəzur dəhlizinin açılması tarixi ədalətin bərpa edilməsi və bütün Türk dünyasının inteqrasiyasına yeni imkanlar yaradılması baxımından tarixi zərurətdir. Dəhliz boyunca yaradılacaq yeni avtomobil və dəmir yolları ölkəmizin ərazisində Şərq-Qərb və Şimal-Cənub marşrutları ilə əlaqələndiriləcək. Respublikamızda ən böyük dəniz ticarət limanının, həmçinin işğaldan azad edilmiş ərazilərdə inşa olunan üç beynəlxalq hava limanının yaradacağı imkanlarla birlikdə, bu qənaətə gələ bilərik ki, Zəngəzur dəhlizi ölkəmizin logistik imkanlarını gücləndirməklə bərabər, beynəlxalq səviyyəli marşrutlardan birinə çevrilməsi və ölkəmizin tranzit nəqliyyat axınının mərkəzinə çevrilməsi, habelə böyük məbləğlərdə gəlirlər əldə etməsi üçün əvəzsiz imkandır. Onu da qeyd edək ki, müharibədən qazandığımız qələbə ilə regionda söz sahibi olmağımız və yeni reallıqların yaranması, potensial yeni nəqliyyat dəhlizlərinin yaradılmasına da rəvac verir. Bu baxımdan Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu xəttini, İran-Ermənistan-Azərbaycan-Türkiyə-Rusiya dəmir yolu əlaqəsi bu ölkələrin yeni sosial-iqtisadi və nəqliyyat-kommunukasiya imkanlarının şaxələndirilməsi, bütün region ölkələri üçün infrastruktur layihəsindən fayda götürmək imkanı deməkdir.

Müxtəlif beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsi olan Azərbaycan nəinki regionun aparıcı dövlətidir, həmçinin Avropanın enerji təminatında da qabaqcıl rol oynayır, 44 günlük müharibədə qazanılan möhtəşəm qələbə nəticəsində artıq Avropa və Asiya qitələrinin nəqliyyat xəritəsində baş rollardan birini tutmağa namizəddir. Bu, mühüm coğrafi mövqeyimizlə bərabər, ələlxüsus son illərdə həyata keçirilən düzgün siyasətin nəticəsidir. Bunun əyani nəticəsi kimi Azərbaycanda nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində qəbul edilmiş sistemli, mütəmadi və yerində qərarlar nəticəsində hazırda ölkəmiz hər növ beynəlxalq daşınmanı həyata keçirməyə qadirdir.

Qrafik 1. Azərbaycanda nəqliyyat sektorunda yük daşınması, 1000 ton

Mənbə: *https://www.stat.gov.az/source/transport/*

Qrafik 1-də göstərilən məlumatlara əsasən Azərbaycanda nəqliyyat sektorunda yük daşıması 2023-cü ildə 229,897 min ton, bunun əsas hissəsi avtomobil və boru kəmərləri təşkil etmişdir.

Dəhlizin açılması ilə türk şirkətlərinin bölgənin yenidən qurulmasında fəal rol alması gözlənilir. Bundan əlavə, dəhliz sayəsində mallar İran və Gürcüstan kimi ölkələrdən keçən xətlərə ehtiyac olmadan birbaşa Azərbaycana göndərilə, Orta Asiyaya daşımalar daha sürətli və daha az xərclə həyata keçirilə bilər. Bu vəziyyət Xəzər dənizində reyslərin sayını artırmaqla limanların funksionallığını artırmaq potensialını ortaya qoyur [9] . Dünyanın ən mühüm ixracatçılarından biri olan Çin Xalq Respublikası hər il dünya bazarına 2 trilyon 400 milyard ABŞ dolları dəyərində məhsul verir ki, [7] bunun da yarısı Avropa bazarına aiddir. Bu kontekstdə Çin Avropa ilə iqtisadi əlaqələrə böyük əhəmiyyət verir və yeni alternativ nəqliyyat marşrutlarının yaradılmasında maraqlıdır. Bu baxımdan Çin mövcud kommersiya daşıma şəbəkəsinə alternativ təklif etmək və öz ölkəsindən göndərilən malların Türkiyənin şərqinə, oradan isə boğazlar vasitəsilə Avropaya çatdırılmasını təmin etmək istəyir. Bu mənada tam fəaliyyət göstərən Zəngəzur dəhlizinin dünya ticarət arenasında mühüm mövqeyə malik olacağını proqnozlaşdırmaq olar. Bundan əlavə, Zəngəzur dəhlizi Azərbaycana həm siyasi, həm də iqtisadi qazanc gətirə bilər. Birincisi, Azərbaycan-Naxçıvan marşrutu BTQ dəmir yolu marşrutundan 344 km qısadır. Bu amil beynəlxalq ticarətin əsas səmərəlilik göstəricilərindən hesab edilən dövriyyə müddəti göstəricisini xeyli azaldır.

Qrafik 2. Naxçıvan Muxtar Respublikası yük daşınması göstəriciləri

Mənbə: *https://www.stat.gov.az/source/regions/*

Məlumatlar yük və sərnişin daşımalarında nəzərəçarpacaq tendensiyaları göstərir. Avtomobil nəqliyyatı ilə yük daşınması 2022-ci ildəki 16,927 min tondan 2023-cü ildə 7,059 min tona qədər azalaraq 58,3%-ə çatmışdır. Oxşar şəkildə, yük dövriyyəsi 2022-ci ildəki 956,4 milyon ton-km-dən 2023-cü ildə 409,3 milyon ton-km-ə düşüb ki, bu da 57,2% azalma deməkdir.

Dövriyyə müddətinin qısalması malların yolda sərf etdiyi qısa müddətə görə daşıma xərclərini azaldır ki, bu da həm istehsalçılar, həm də alıcılara böyük faydalar təmin edir. Digər mühüm amil beynəlxalq daşımalarda böyük əhəmiyyət kəsb edən alternativ marşrutların olmasıdır. Bir çox alternativi olan daşıma marşrutları daha etibarlı hesab edildiyi üçün BTQ marşrutunun hər hansı səbəbdən xidmətdən çıxması halında Çindən Avropaya daşımalar Azərbaycan-Naxçıvan-Türkiyə marşrutu ilə həyata keçirilə bilər [7]. Qeyd edək ki, Azərbaycan dəmir yollarında daşımaların xeyli artmasına Rusiya-Ukrayna müharibəsi də öz təsirini göstərib. "Azərbaycan Dəmir Yolları" QSC-nin məlumatına görə, 2022-ci ilin yanvar-aprel aylarında 2021-ci ilin 4 ayı ilə müqayisədə 636 min ton əlavə yük daşınıb ki, bunun da böyük hissəsi beynəlxalq daşımadır [2].

Zəngəzur dəhlizinin açılması ilə Naxçıvanın ixrac potensialının daha da artacağı gözlənilir. Bu dəhliz, Naxçıvanı Azərbaycanın digər bölgələri ilə birləşdirərək, Türkiyə və digər türk dövlətləri ilə quru və dəmir yolu əlaqələrini təmin edəcək. Nəticədə, Naxçıvanın sənaye məhsulları daha sərfəli marşrutlarla Avropa və Asiya bazarlarına çıxış imkanı əldə edəcək. Bununla yanaşı, dəhlizin istifadəyə verilməsi ilə muxtar respublikanın iqtisadiyyatı genişlənəcək və ixrac həcmi əhəmiyyətli dərəcədə artacaqdır. Naxçıvan Muxtar Respublikası son illərdə ixrac potensialını əhəmiyyətli dərəcədə artırmışdır. 2023-cü ilin ilk yarısında ixrac əməliyyatlarının həcmi 7,936 milyon ABŞ dolları təşkil etmişdir ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,9 dəfə artım deməkdir. 2024-cü ilin ilk dörd ayında isə Türkiyə ilə ticarət dövriyyəsi xüsusilə diqqətəlayiq olmuşdur; bu müddətdə Türkiyəyə ixracın həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 28% artmışdır [12]. Bu dəhliz vasitəsilə Naxçıvan, Azərbaycanın digər bölgələri və Türkiyə ilə birbaşa quru və dəmir yolu əlaqəsi quraraq, regional ticarət və nəqliyyat marşrutlarının mərkəzinə çevriləcəkdir. Bu, Naxçıvanın iqtisadi inkişafını sürətləndirəcək və ixrac həcminin əhəmiyyətli dərəcədə artmasına şərait yaradacaqdır. Həmçinin Naxçıvanı Azərbaycanın qərb bölgələri ilə birləşdirərək, Türkiyə və Avropa bazarlarına birbaşa quru nəqliyyat əlaqəsi təmin edəcək. Nəticədə, Naxçıvanın tranzit-logistika potensialı artacaq və regionun əsas nəqliyyat qovşağına çevrilməsi mümkün olacaq.

Azərbaycanın 2020-ci ildə qazandığı qələbə nəticəsində Qarabağ torpaqlarının işğaldan azad edilməsi Avrasiyanın geoiqtisadi xəritəsində yeni imkanlar açdı və Azərbaycanın mövqelərini daha da möhkəmləndirdi. Mərkəzi Asiya marşrutu ilə Çindən Avropaya yüklərin daşınması potensialını artıracaq [3] , ölkənin regional ticarət və logistika mərkəzinə çevrilməsinə yol açacaq. İşğaldan azad edilmiş torpaqlarda daha iki ticarət və logistika mərkəzinin yaradılması məqsədəuyğun hesab olunur:

1. Zəngəzur dəhlizinin açılması ilə burada müxtəlif nəqliyyat infrastrukturlarının istifadəyə verilməsi Füzuli-Azərbaycan Beynəlxalq Hava Limanı, Qarabağ və Şərqi Zəngəzurda uzunluğu 700 km olan 10 avtomobil yolunun tikintisi bu bölgənin inkişafına investisiya axınının gücləndirilməsində və gələcəkdə bu bölgənin logistika mərkəzi kimi formalaşmasında mühüm əhəmiyyət kəsb edəcəkdir. Orta Asiya-Azərbaycan-Türkiyə-Avropa, İran-Rusiya, Rusiya-Türkiyə, Rusiya-Ermənistan marşrutları əsas nəqliyyat marşrutları hesab edilir.

2. Zəngəzur dəhlizinin istifadəyə verilməsi Naxçıvan Müxtar Respublikasının bütün rayonlarına iqtisadi inkişafına təsir edəcək, həmçinin region yeni iqtisadi-sosial mərhələyə keçid edəcəkdir.

Nəticə

Araşdırma göstərdi ki, Zəngəzur dəhlizinin açılması ilə regional müsbət təsirlər ortaya çıxacaq, Azərbaycana iqtisadi cəhətdən müsbət təsir edəcək, onun bölgədəki siyasi qüdrəti artacaq, logistika sahələrində müsbət təsirlər müşahidə olunacaq və cəmiyyətlər arasında sülhün təmin olunmasına kömək edəcəkdir. Araşdırmaya əsasən qeyd edə bilərik ki, imkanlardan maksimum istifadə etmək, güclü tərəfləri daha da inkişaf etdirmək, zəif tərəfləri və təhlükələri aradan qaldırmaq üçün təcrübələrə ehtiyac var. Bu kontekstdə ediləcəkləri belə ümumiləşdirə bilərik: Bu layihəyə təsir edən ən böyük amil siyasi hadisələrdir. Dəhliz boyu kommersiya və siyasi yeniliklərə maneələr aradan qaldırılmalı və təhlükəsizlik təmin edilməlidir. Tranzit keçidlə bağlı problemlər aradan qaldırılmalı, bununla bağlı marşrut ölkələri ilə müzakirələr aparılmalı, bölgənin mühüm bazaya çevrilməsinə çalışılmalıdır.

Açar sözlər: *Zəngəzur dəhlizi, beynəlxalq logistika, milli iqtisadiyyat, logistik faydalar.*

ƏDƏBİYYAT SİYAHISI:

1. *Atifqızı, Ş. (2015). Beynəlxalq nəqliyyat dəhlizlərdə logistik əməliyyatlar.*
2. *Azərbaycan Dəmir Yolları. (n.d.). ADY Freight. Azərbaycan Dəmir Yolları. URL: https://freight.ady.az/az*
3. *Chedia, A. R. (2024). Zangezur corridor: Economic potential and political constraints. Russia in Global Affairs, 22(1), 194-216.*
4. *Əliyev, X. (2018). Azərbaycan Respublikasının Logistika Potensialı. Azerbaıjan Unıversıty, 53.*
5. *Gasımova, T., & Yurcu, M. E. (2023).Zengezur Koridoru'nun Azerbaycan'ın Dış Ticaret Ve Lojistik Faaliyetlerine Olası Etkilerinin Swot Analizi. Dumlupınar Üniversitesi İİBF Dergisi, (12), 1-15.*
6. *Gawliczek, P., & Iskandarov, K. (2023). The Zangezur corridor as part of the global transport route (against the backdrop of power games in the South Caucasus region). Security and Defence Quarterly, 41.*
7. *Guner, E. (2023). Zangezur Corrıdor In The Offing: Challenges And Prospects. Actual Problems Of The Mılıtary Art, 36.*
8. *İctimai TV (2024).Zəngəzur dəhlizi reallığa çevrilir/ Türk dünyasının birləşdiyi ərazidən XÜSUSİ reportaj.YouTube. URL:https://www.youtube.com/watch?app=desktop&v=tpT98O3kihU*
9. *https://president.az/az/articles/view/53736*
10. *https://www.stat.gov.az/source/transport/*
11. *https://www.stat.gov.az/source/regions/*
12. *https://customs.gov.az/az/*
13. *https://www.yeniazerbaycan.com/Arxiv_e83462_az.html*

Zeynalov Emin
Teacher of Economics and Management Faculty of Nakhchivan State University

The historical importance of the Zangezur corridor and Nakhchivan as an international logistics center

SUMMARY

Although the Zangezur corridor is an intercontinental and topical foreign trade issue, it has not been studied to a level that would help Azerbaijan and the countries of the region make strategic decisions to determine the situation. In this context, the purpose of this study is to examine the possible foreign trade and logistics impacts of the opening of the Zangezur corridor on Azerbaijan and neighboring countries. Considering the positive contributions of logistics activities to the international trade and economy of countries, it is expected that studies on the Zangezur corridor, which is planned to be fully operational, will make significant contributions from a theoretical and practical perspective. The current study is about the possible impacts of the opening of the Zangezur corridor on Azerbaijan's foreign trade. The study touches on the detailed research results on the contribution of the Zangezur corridor to the economy and national economy of Azerbaijan.

Keywords: *Zangezur corridor, international logistics, national economy, logistics benefits.*

Эмин Зейналов
Преподователь факультета экономики и менеджмента Нахичеванского Государственного Университета

Историческое значение Зангезурского коридора и Нахчывана как международного логистического центра

РЕЗЮМЕ

Хотя Зангезурский коридор является важным и актуальным вопросом внешней торговли межконтинентального значения, он не изучен на таком уровне, который помог бы Азербайджану и странам региона принимать стратегические решения для определения ситуации. В этом контексте целью данного исследования является изучение возможных последствий открытия Зангезурского коридора для внешней торговли и логистики Азербайджана и соседних стран. Учитывая позитивный вклад логистической деятельности в международную торговлю и экономику стран, ожидается, что исследование Зангезурского коридора, который планируется ввести в эксплуатацию в полном объеме, внесет значительный вклад как с теоретической, так и с практической точки зрения. В текущем исследовании изучается возможное влияние открытия Зангезурского коридора на внешнюю торговлю Азербайджана. В исследовании подробно рассматриваются результаты исследования вклада Зангезурского коридора в экономику Азербайджана и национальную экономику.

Ключевые слова: *Зангезурский коридор, международная логистика, национальная экономика, логистические преимущества.*

UOT 332.122
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.269

NAXÇIVAN MUXTAR RESPUBLİKASI: SƏNAYE VƏ İQTISADİ İNKİŞAFIN XÜSUSİYYƏTLƏRİ

AİDƏ HƏSƏNLİ
AMEA Naxçıvan bölməsi, dissertant
E-mail: aida.amirova@mail.ru

Sənaye istehsalının yerləşdirilməsində, elmi cəhətdən əsaslandırılmış aşağıdakı prinsiplərə əməl edilməlidir: 1. Sənaye istehsalının xammal mənbələrinə və istehlak rayonlarına yaxınlaşdırılması. Bu prinsiplərə əməl etməklə təbii sərvətlər asanlıqla rasional olaraq iqtisadiyyatın dövriyyəsinə cəlb oluna bilər və bu da öz növbəsində xammalın uzaq məsafələrə daşınmasına müqavimət göstərir. 2. Sənaye istehsalının ölkə ərazisinə görə bərabər yerləşdirilməsi. Sənaye istehsalının yerləşdirilməsində bu prinsiplərə əməl olunması ölkənin iqtisadi rayonlarının sosial-iqtisadi inkişafının tarazlığını təmin edir və müvafiq olaraq təbii ehtiyatlardan və əmək ehtiyatlarından səmərəli istifadə məsələsini həll edir, habelə əhalinin qeyri-mütəşəkkil miqrasiyasının qarşısını alır və s. 3. İqtisadi rayonlar arasında məhsuldar əmək bölgüsü və onların iqtisadiyyatının kompleks inkişafı. Bu prinsipləri rəhbər tutan əsas iqtisadi rayonların kompleks inkişafı ilə yanaşı sənaye istehsalı üzrə onların ixtisaslaşma istiqamətlərini müəyyən edir. 4. İqtisadiyyatın beynəlmiləlləşməsi və onun beynəlxalq əmək bölgüsündə iştirakının zəruriliyi. Bu prinsipin həyata keçirilməsi iqtisadi suverenlik, açıq iqtisadiyyat şəraitində dünya təsərrüfat sisteminə inteqrasiya, müəssisələrin yaradılması və milli mülkiyyətlə təmin edilir. 5. Ölkənin xarici təcavüzdən müdafiəsi və ətraf mühitin mühafizəsi. Müstəqilliyini yenicə əldə etmiş respublikamız üçün bu prinsipə əməl olunması çox aktual məsələyə çevrilmişdir. Sənayenin yerləşdirilməsi, müəssisələrin yerləşdirilməsi, istehsal qovşaqlarının və mərkəzlərinin formalaşması uzun mürəkkəb proses olduğundan sənaye komplekslərinin formalaşmasının qarşılıqlı münasibətlərində üç mərhələni əhatə edir. Hazırda iqtisadi ədəbiyyatlarda sənaye qovşaqlarının əhəmiyyəti haqqında müxtəlif fikirlər mövcuddur. Bu barədə bəzi xarici iqtisadçılar və coğrafiya tənqidçiləri iqtisadi qovşaqların əsasını təbii şərait və iqtisadiyyat elementlərinin birliyi təşkil edir. Bu ideyanın tərəfdarları sırasına məşhur coğrafiya alimləri Riçard Hartsarn, K.Kons Kloran, Russel Smit, Fransua Rern daxildir. Rus-sovet alimləri P. M. Alampiriyev, A. Y. Probst, E. B. Alayev, L. Y. Ziman, Y. Ş. Sauşkin və başqaları sənaye qovşaqlarının mahiyyəti, onların nəzəri və metodoloji əsaslarının tədqiqi ilə intensiv məşğul olurdular. Azərbaycan alimləri A. A. Nadirov, A. X. Nuriyev, S.K.Hüseynov və başqaları öz əsərlərində istehsalat qovşaqlarının tədqiqinə çox yer vermişlər. Sənaye qovşaqlarının mahiyyəti haqqında Azərbaycan iqtisadçılarının fikirlərində ümumi metodoloji əsaslar vardır. Onların fikrincə, sənaye qovşaqları hər bir ərazi-sənaye kompleksində (Sumqayıt, Mingəçevir, Şirvan, Naxçıvan, Gəncə, Şəki, Lənkəran və s.) aparıcı rola malik sənaye sahələridir.

Bunu nəzərə alsaq, onların baxışlarında ciddi bir fərq tapa bilməzlər. Müasir dövrdə sənaye qovşaqlarının formalaşması və onun inkişafının özünəməxsus prinsipləri var. Bunlara aşağıdakıları aid etmək olar: 1. Elmi-tərəqqi və məhsuldarlığın yüksəldilməsi əsasında sənaye qovşaqlarının planlı işlənməsi və yerləşdirilməsi. 2. İstehsalın məqsədəuyğun ixtisaslaşmasını, iqtisadi əlaqəni, kooperasiyanı və ərazinin formalaşmasını təmin edən ictimai əmək bölgüsü. 3. Sənayenin xammal mənbələri və məhsul istehlakçılarına cəlb edilməsi. 4. Sənayenin yerləşdirilməsi, lakin inteqrasiya və əmək bölgüsü nəzərə alınmaqla. 5. Regionların iqtisadi inkişafında sənaye kooperasiyasının səmərəli formalaşdırılması və s. kimi sənaye qovşağının formalaşmasında və onun inkişafında mühüm rol oynayır. Elmi-texniki tərəqqi məhsul istehsalının intensivləşməsinə və əl əməyinin faiz payının azalmasına imkan verir, istehsal dövriyyəsinə yeni təbii sərvətləri cəlb edir, yeni ərazilərin məskunlaşmasında yaxşı ab-hava yaradır, həmçinin ətraf mühitə texnoloji təsirləri azaldır [1]. Dövlət siyasəti sosial-iqtisadi inkişafın təmin edilməsində, o cümlədən sənayenin inkişafının təmin edilməsində böyük rol oynayır. Dövlətin qarşıya qoyduğu cari və strateji məqsədlər, vəzifələr və onların həyata keçirilməsinin tərkib hissəsi kimi dövlət siyasəti sosial-iqtisadi inkişafın düzgün istiqamətlərinə əsaslanır. Dövlətin sosial-iqtisadi inkişaf siyasəti müxtəlif elementlərdən ibarətdir; sosial-iqtisadi siyasətin həyati istiqamətlərindən birini maliyyə, pul-kredit, sosial, aqrar, struktur, xarici iq-

tisadi siyasət, vergilər, ekologiya siyasəti və s. kimi regional inkişaf siyasəti təşkil edir.

Regional siyasətin uğurlu həlli ilə əlaqədar olaraq iqtisadiyyatın birbaşa dövlət idarəçiliyi daha çox həyata keçirilir. Regional siyasətin həyata keçirilməsi məqsədlərindən biri də məqsədyönlü proqram-proqnoz metodudur. Proqram hazırlanarkən rayonun mövcud sosial-iqtisadi vəziyyəti təhlil edilir və qiymətləndirilir. Rayonun sosial-iqtisadi vəziyyəti və bu şəraitin rayon üçün nəticəsi qeyd edilir və həlli vacib olan problemlər seçilir. Təbii ehtiyatların və ətraf mühitin vəziyyəti qiymətləndirilir. Proqramın proqnoz modeli işlənib hazırlanmışdır. Proqrama daxil edilmiş və nəzərdə tutulan hər bir tədbir kəmiyyət və keyfiyyət göstəricilərinə görə qiymətləndirilir və onun iqtisadi səmərəliliyi hesablanır [2].

Bazar iqtisadiyyatına keçən ölkələrdə regional siyasətin ən mühüm formalarından biri azad iqtisadi zonaların yaradılmasıdır. Sənaye, ticarət, vergi sahələrində gömrük güzəştlərinin fəaliyyət göstərdiyi konkret coğrafi ərazilərin azad zonaları xarici və yerli investisiyalarda, müasir texnologiyalardan istifadədə, idarəetmə təcrübəsində və kadr seçimində, hər şeydən əvvəl yeni iş yerlərinin açılmasında böyük rol oynayır. Dünya təcrübəsi göstərir ki, azad iqtisadi zonalar xarici iqtisadi əlaqələrin inkişafına, ümumiyyətlə, ölkənin müxtəlif regionlarına xarici və yerli kapitalın yatırılmasına, o cümlədən yeni texnologiya və idarəetmə təcrübəsinin cəlb edilməsinə imkan verir, bu da öz növbəsində iqtisadi və sosial inkişafa müsbət təsir göstərir.

Bir sözlə, dövlətin regional, sosial-iqtisadi siyasəti regionların və iqtisadiyyat sahələrinin inkişafı qarşısında perspektiv hədəflər qoymalı, bu məqsədlərə çatmaqda çox aktual vəzifələr müəyyən etməli, regionların maraqları baxımından qarşıya qoyulan vəzifəni yerinə yetirməyə qadir olan idarəetmə və tənzimləmə mexanizmini işləyib hazırlamalı və nəhayət, onun həyata keçirilməsini stimullaşdırmalıdır.

Dövlətimizin başçısı İlham Əliyevin 2004-cü il fevralın 11-də imzaladığı "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nə uyğun olaraq Naxçıvan Muxtar Respublikasında yeni sənaye sahələri yaradılmış, sənaye istehsalının həcmi getdikcə artırılmışdır. Proqramda qarşıya qoyulan vəzifələrin uğurla icrası əsasında regionlarda mümkün struktur innovasiyası aparılıb, sahibkarlıq fəaliyyəti xeyli genişləndirilib, əlverişli investisiya mühiti formalaşdırılıb, müasir tipli sənaye müəssisələri yaradılıb. Belə ki, 2004-2008-ci illərdə muxtar respublikada 147 sənaye müəssisəsi yaradılmış və ya yeni texnologiya əsasında yenidən qurulmuşdur. 2008-ci ildə sənaye məhsulunun istehsalı 2004-cü ilin yekunları ilə müqayisədə 6,4 dəfə artmışdır. Bütün bunlar Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafı qarşısında qoyulan Dövlət Proqramının uğurla həyata keçirildiyini bir daha sübut edir.

Bu gün muxtar respublikanın qarşısında duran ən mühüm strateji vəzifə təbii sərvətlərdən yerli istehsalda səmərəli istifadəyə, məhsulların xarici bazara çıxarılmasına, rəqabətin davamlılığına şəraitin yaradılmasına əsaslanmalıdır. Naxçıvan Muxtar Respublikasında sənaye istehsalı kompleksinin gələcək perspektivi yerli zəngin mineral qazıntı ehtiyatlarına əsaslanmalıdır, yerli sənayenin materiallarından asılılığı maksimum dərəcədə azaldılmalıdır. Muxtar respublikanın ərazisi molibden, mis, mis-molibden, mis-polimetal, sprey-arsen, civə-kobalt, volfram, titan, qızıl, qurğuşun, manqan, sink, qaya-duz, dolomit, boksit, qarasulosphorit, traf-duz, qarasulosphorit, tramfat, s. sement xammalı, tikinti materialları və s. Həmçinin burada müalicəvi əhəmiyyət kəsb edən 200-dən çox mineral və termal bulaqlar var: Sirab, Badamlı, Darıdağ, Vayxır, Nəhəcir, Qahab, Qızılburun, Cəhri, Suramlı və s. [3].

Naxçıvan Muxtar Respublikası ərazisində aparılan geoloji-kəşfiyyat işləri nəticəsində faydalı qazıntı mənşəli xeyli tikinti materialı yataqları aşkar edilmiş və öyrənilmişdir. Naxçıvanın müxtəlif növ zəngin faydalı qazıntılarından səmərəli istifadə etmək üçün yerli xammal əsasında kiçikhəcmli metal təmizləmə, metal əritmə, çuqun əritmə, həmçinin polad istehsalı ilə bağlı yeni müəssisələrin yaradılması mümkündür. Artıq kimya sənayesinin inkişaf etdirilməsində Naxçıvan MR-də zəngin kimyəvi xammal ehtiyatlarından (daş duzu, dolomit, fosforit, kükürd və s.) daha geniş istifadə etməyin vaxtı çoxdan çatıb. Beləliklə, Naxçıvanın təbii şəraiti və təbii zənginliyi mövcud potensialı iqtisadi baxımdan qiymətləndirdikdən sonra bu rayonun böyük sosial-iqtisadi inkişaf imkanlarına malik olduğunu söyləməyə imkan verir [6]. Dünya təcrübəsi göstərir ki, sosial-iqtisadi inkişaf səviyyəsindən və milli xüsusiyyətlərdən asılı olmayaraq, davamlı iqtisadi tərəqqinin təmin edilməsi təkcə daxili imkanlardan asılı deyil, həm də daxili və xarici amillərin yekdilliyi əsasında mümkündür. Ölkə ərazisində

fəaliyyət göstərən sənaye sahələrinin investisiya fəaliyyətinin ümumi sosial, iqtisadi və hüquqi şərtləri "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir (İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu, 1995-ci il). Qanunun özü ölkə iqtisadiyyatına yönəldilmiş bütün növ investisiyalara aid edilmiş, eyni zamanda ölkənin sosial-iqtisadi bazasına yönəldilmiş, eyni zamanda beynəlxalq iqtisadi əməkdaşlığın gücləndirilməsinə və inteqrasiyanın təşviqinə yönəlmiş və mülkiyyət formasına baxmayaraq, bütün investorların bərabər hüquqlarını təmin edir. Geniş yayılmış dünya təcrübəsinə əsasən investisiya fəaliyyətinin həyata keçirilməsində bir neçə birgə əməkdaşlıq formaları mövcuddur: məsələn: iştirak payından asılı olmayaraq mənfəətin bölüşdürülməsinə razılıq, xidmət razılığı, əməkdaşlıq formaları və birgə təsisat yaratmaq yolu ilə güzəşt. Dünyanın sənaye cəhətdən inkişaf etmiş ölkələrində klassik özünümaliyyə formasına amortizasiya, qiymətli kağızların satışından pul ayrılması və bank kreditləri üzrə əsas fond payları üzrə formalaşan xüsusi ayırmalar və təsis faiz dərəcəsi deyilir. Şübhəsiz ki, müstəqilliyini yeni qazanmış ölkələr üçün xarici investisiyalar daha vacibdir. Çünki bu ölkələrdə iqtisadiyyatın yenidən qurulması və onun genişləndirilməsi böyük həcmdə kapital qoyuluşu tələb edir [5].

Amma müstəqillik əldə etmiş və bazar iqtisadiyyatı şəraitində regionlar formalaşmış, xüsusən də investisiya çatışmazlığı olan ölkələrdə bu prosesi daxili imkanlar hesabına həyata keçirmək mümkün deyil. Bunu nəzərə alaraq iqtisadiyyatı dövlətin köməyi ilə inkişaf etdirmək üçün daxili investisiyalarla yanaşı xarici kapital qoyuluşu da tələb olunur.

Beləliklə, Naxçıvan Muxtar Respublikasında yaxın gələcəkdə iqtisadiyyatın inkişaf etdirilməsi üçün xarici kapital qoyuluşu daxili sərmayə ilə yanaşı çox mühüm əhəmiyyət kəsb edir və bunun üçün xarici investorlarla birgə mülkiyyət fəaliyyətinə üstünlük verilməsi təklif olunur. Naxçıvan Muxtar Respublikasında sənaye sahələrinin inkişafını təmin etmək, burada əvvəllər mövcud olan sənaye müəssisələrinin fəaliyyətini bərpa etmək perspektivdə həllini tapmalıdır. Naxçıvan iqtisadi rayonunda yüngül və yeyinti sənayesi aparıcı yer tutur. Onların ümumi sənaye məhsulunda ümumi payı 75 faizə yaxındır. Hazırda "Gəmiqaya Bərəkət Qida Məhsulları" MMC, "Cahan Holdinq" Kommersiya Şirkəti Birliyi, "Badamlı Mineral Sular İstehsalat" MMC, "Sirab" ASC (Açıq Səhmdar), "Ləzzət Qida Sənayesi" MMC, "Naxçıvan Kərpic" ASC, "Xalça" ASC, "Taxıl və bulka" ASC və digər müəssisələr fəaliyyət göstərir. Lakin bu müəssisələrin bəziləri layihə gücünə görə işləmir. Ona görə də bu sahədə mövcud problemlərin həllinin gündəmdə daha aktual olduğu bildirilir. Evdən birgə istifadə və xarici investisiyaların Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı üçün xarici iş adamlarının, mülkiyyətçilərin, sərmayədarların öz kapitallarını qarşılıqlı maraqlar əsasında yerləşdirməsi üçün bütün sahələrdə yaxşı ab-havanın yaradılması zəruridir [4]. Hesab edirik ki, Naxçıvan Muxtar Respublikası əhalisinin tələbatının yerli ərzaq məhsulları əsasında tam ödənilməsi üçün yardımçı iqtisadiyyatların genişləndirilməsi və bununla da xaricdən asılılığın azaldılması və istehsalın yerli xammalla təmin edilməsi ən mühüm məsələ kimi gündəmdə olmalıdır. Bizim üçün Naxçıvan Muxtar Respublikasının sənaye kompleksinin perspektiv inkişafında kənd təsərrüfatından düzgün istifadə üsulu, nəqliyyatın təşviqi və işçi qüvvəsi heç bir gecikmə olmadan nəzərə alınmalıdır. Regionların mövcud potensialından daha səmərəli istifadəni təmin etmək məqsədilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" haqqında Prezidentin 14 aprel 2009-cu il tarixli xüsusi Sərəncamı ilə təsdiq edilmişdir. Yeni sosial-iqtisadi inkişaf proqramında Naxçıvan Muxtar Respublikasının inkişafı ilə bağlı ən qabaqcıl prioritetlər müəyyən edilib. Dövlət Proqramında aşağıdakı məsələlər müəyyən edilmişdir: Naxçıvan Muxtar Respublikasında yeni sənaye sahələrinin tikintisi, mədən sənayesi müəssisələrinin fəaliyyətinin bərpası və yeni müəssisələrin yaradılması, Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan yeni ASC-lərin bərpası və daha da inkişaf etdirilməsi, müxtəlif qida məhsulları sənayesinin yaradılması, yeni tikinti materialları sahələrinin kəşfiyyatı, istirahət və meyvə bağları və bağ sahələrinin kəşfiyyatı; onların genişləndirilməsi, ipəkçiliyin bərpası və inkişaf etdirilməsi, quşçuluq təsərrüfatlarının istehsalının genişləndirilməsi, balıq sənayesinin inkişafı (14 aprel 2009-cu il tarixli 80 nömrəli Sərəncamla).

Dövlət Proqramına uyğun olaraq qısa müddətdə Naxçıvan Muxtar Respublikasında aşağıda göstərilən bu müəssisələr yaradılaraq istifadəyə verilmişdir. Bunlar: Naxçıvan Sement zavodları, Kəngərli

rayonunun Qarabağlar kəndində Balıqçılıq, Babək rayonundakı "Kərimbəyli" Quşçuluq zavodu, Ordubad rayonundakı "Əylis" Quşçuluq Zavodu, Culfa rayonundakı "Kirnə" Quşçuluq Zavodu və bir sıra digər müəssisələrdir. Ümid edirik ki, bundan sonra da Dövlət Proqramına uyğun olaraq Naxçıvan Muxtar Respublikasında sənaye istiqamətində görülən işlər daha elmi və səmərəli aparılacaq və əldə olunan nəticələr əhalinin tələbatının uğurla ödənilməsinə xidmət edəcəkdir.

4. Nəticə Aparılan araşdırmalar əsasında belə qənaətə gəlirik ki, Naxçıvan Muxtar Respublikasının təbii şəraiti, coğrafi mövqeyi, geosiyasi vəziyyəti, zəngin təbii sərvətləri, kifayət qədər işçi qüvvəsinin mövcudluğu, yüksək səviyyəli kadr potensialı, mövcud sosial və istehsal infrastrukturu sənaye sahələrinin sürətli inkişafına obyektiv şərait yaradır. Naxçıvan Muxtar Respublikasında sənayenin inkişaf meylləri və xüsusiyyətləri təhlil edilmiş, yerli xammal əsasında yeni sənaye müəssisələrinin yaradılması, onun maliyyə təminatının gücləndirilməsi yolları və perspektiv artım istiqamətləri göstərilmişdir. Təhlillər göstərir ki, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında sənaye aparıcı yer tutur. Naxçıvan Muxtar Respublikasının timsalında iqtisadiyyatın, xüsusilə sənayenin inkişaf modeli coğrafi (yüksək dağlar, ucqar adalar) və ya iqlim (tundra, daimi donmuş qütb zonaları) xüsusiyyətlərinə görə eksklav olan ucqar rayonlar və ya materikə çıxışı çətin olan yerlər üçün tətbiq oluna bilər.

Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu sosial-iqtisadi islahatların və şəffaflığın davamı olaraq Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər öz müsbət nəticələrini vermişdir.

2024-cü ildə Naxçıvan Muxtar Respublikasında Ümumi Daxili Məhsul (ÜDM) əvvəlki illə müqayisədə 3,1 faiz artıb.

Yerli gəlirlərin artması iqtisadiyyatın davamlı inkişafı üçün mühüm amildir. Muxtar respublikada yerli gəlirlərin xərclərin ödənilməsində xüsusi çəkisi 2022-ci ildə 30 faiz, 2023-cü ildə 38 faiz, 2024-cü ildə 57 faiz təşkil edib. Ümumilikdə, ötən il muxtar respublikanın yerli gəlirlərinin 87,5 faizi İqtisadiyyat Nazirliyinin xətti ilə gəlirlər hesabına formalaşıb.

Son illər vergi siyasəti əsas iqtisadi tənzimləmə vasitələrindən biri olub, iqtisadi artımın təşviqinə və biznes mühitinin inkişafına yönəlib. 2023 və 2024-cü illərdə Naxçıvanda vergi nəzarəti tədbirləri minimuma endirilib. Sahibkarlar tərəfindən vergitutma sahəsində könüllü əməletmə səviyyəsinin artırılması məqsədilə Naxçıvan, Şərur, Babək və Ordubad şəhərlərində vergi ödəyicilərinə xidmət mərkəzləri fəaliyyətə başlayıb. Bu tədbirlər nəticəsində 2024-cü ildə sahibkarlıq subyektləri tərəfindən vergi sahəsində könüllü əməletmə səviyyəsi 99,1 faizə, könüllü bəyanetmə isə 99,5 faizə çatıb.

Belə ki, muxtar respublikada vergi sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər vergi daxilolmalarını xeyli artırıb. 2024-cü ildə Naxçıvanda vergi daxilolmaları 2023-cü illə müqayisədə 37,6 faiz artaraq 226,6 milyon manata çatıb. Bu, proqnozlaşdırılan göstəricilərdən 30,2% çoxdur.

2024-cü ildə Naxçıvanda aktiv vergi ödəyicilərinin sayı 71,4 faiz artaraq 21 778 nəfərə, ƏDV ödəyicilərinin sayı isə 87,1 faiz artaraq 709-a çatıb.

2024-cü ildə muxtar respublikada vergi ödəyiciləri elektron uçot sisteminə üstünlük vermiş, dövlət qeydiyyatında olan 241 kommersiya hüquqi şəxsin 83 faizi elektron qeydiyyatdan keçmişdir.

Son iki ildə Naxçıvanda 3200-ə yaxın onlayn nəzarət kassa aparatı və 2200-dən çox POS terminal quraşdırılıb. 2024-cü ildə nağdsız əməliyyatların dövriyyəsi 66,2% artaraq 1 milyard Azn-i ötüb, POS-terminalların dövriyyəsi isə 38,8% artaraq 112 milyon Azn təşkil edib.

2024-cü ildə "ƏDV-nin qaytarılması" layihəsi üzrə istehlakçılara ümumilikdə 1,4 milyon Azn geri qaytarılıb ki, bu da 2023-cü illə müqayisədə 68% çoxdur.

Həyata keçirilən tədbirlər nəticəsində sosial ayırmalarda da mühüm irəliləyişlər əldə olunub. Məcburi dövlət sosial sığorta haqları 9,7% artaraq 162 milyon manat, qeyri-dövlət sektoru üzrə ayırmalar isə 15,8% artaraq 25,4 milyon manat təşkil edib. İşsizlikdən sığorta fonduna yığımlar 11,4% artaraq 4,4 milyon manat, icbari tibbi sığorta haqları isə 18,9% artaraq 28,9 milyon manat təşkil edib.

Ölkənin əmək bazarında şəffaflığın artması artım və inkişafa mühüm təsir göstərmişdir. Muxtar respublikada əmək bazarının rəsmiləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində qeyri-dövlət sektorunda aktiv əmək müqavilələrinin sayı 3,6 dəfə artaraq 11038-ə çatıb.

Aparılan islahatlar nəticəsində dövlət əmlakının idarə olunması və özəlləşdirmə proqramlarının icrası

prosesi optimallaşdırılıb. Nəticədə muxtar respublikada dövlət əmlakının özəlləşdirilməsindən daxilolmalar 23,5 faiz, dövlət əmlakının icarəyə verilməsindən əldə olunan gəlirlər 87,6 faiz, kiçik dövlət müəssisələrinin və qeyri-yaşayış obyektlərinin hərraclarda satışından əldə olunan gəlirlər 13 dəfə artmışdır.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən göstərilən bütün növ elektron xidmətlərin tətbiqinə başlanılıb. 2024-cü ildə elektron xidmətlər vasitəsilə daxil olan müraciətlərin sayı 2023-cü illə müqayisədə 4,8 dəfə artaraq 6500-ə çatıb.

Sahibkarlıq sahəsində inzibati prosedurların sadələşdirilməsi, biznes nümayəndələrinin idarəetmə bacarıqlarının artırılması, güzəştli kreditlərin verilməsi istiqamətində tədbirlər davam etdirilir. Ötən il muxtar respublikada Sahibkarlığın İnkişafı Fondu üzrə problemli kreditlərin məbləği 3,1 dəfə azalıb. Qeyd olunan göstəricilər Naxçıvan Muxtar Respublikasında son bir ildə sosial-iqtisadi tərəqqi və davamlı inkişaf meyillərini, əlverişli biznes mühitini və vergi sisteminin səmərəliliyini əks etdirir.

Nəticə

Naxçıvan Muxtar Respublikasında sənaye istehsalının yerləşdirilməsi və inkişafı elmi əsaslara və müasir tələblərə uyğun həyata keçirilir. Sənaye qovşaqları və istehsalat kompleksləri təbii resursların effektiv istifadəsinə, regional bərabərliyə və əmək bölgüsünün düzgün qurulmasına əsaslanır. Eyni zamanda, regionda elmi-texniki tərəqqi və müasir texnologiyaların tətbiqi sənayenin məhsuldarlığını və rəqabət qabiliyyətini artırır. Dövlətin həyata keçirdiyi sosial-iqtisadi inkişaf proqramları, xüsusilə "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı", sənaye müəssisələrinin qurulması və mövcud potensialdan səmərəli istifadəyə şərait yaradır. Xarici və yerli investisiyaların cəlb olunması, azad iqtisadi zonaların yaradılması və infrastrukturun inkişafı regionun iqtisadi artımını sürətləndirir. Naxçıvanın zəngin təbii sərvətləri və geosiyasi mövqeyi də sənaye sahələrinin genişlənməsinə mühüm imkanlar yaradır. Bununla yanaşı, vergi siyasətinin sadələşdirilməsi və elektron xidmətlərin tətbiqi biznes mühitini yaxşılaşdırır və sahibkarların fəallığını artırır. Bütün bu tədbirlər nəticəsində regionda sosial-iqtisadi inkişaf təmin olunmuş, sənaye sektorunun rolu daha da güclənmişdir.

ƏDƏBİYYAT SİYAHISI:

1. *Ahmadov, N. H. (2005). Nakhchivan economy on the ways of development. Monograph. Baku: Elm.*
2. *Ahmadov, N. H. (2008). Problems of Nakhchivan economy: economic growth, dynamical development. Monograph. Baku: Sabah.*
3. *Aliyev, A. L. (2000). The necessity of joint establishments with foreign investment creation. In the book of key inclinations (collection of articles) of social- economy development of Azerbaijan in modern period. (9th edition) Baku: Elm.*
4. *Babayev, S. Y. (1999). Geography of Nakhchivan Autonomous Republic. Baku: Elm, 298.*
5. *Huseynov, T. A. (2000). Industrial economy. Baku: East-West.*
6. *Larina, N. I., & Kselnikov, A. A. (1998). Regional policy in the countries of market economy. Moscow: Economy*

XÜLASƏ

Məqalədə sənayenin bütün ölkə üzrə rasional təşkili məhsuldar qüvvələrin ərazi yerləşdirilməsinin əsas xüsusiyyəti kimi milli iqtisadiyyatın və sosial perspektivin təmin edilməsində mühüm vasitələrdən biridir. Bu proses, bir qayda olaraq, sənaye müəssisələrinin təşkilindən başlayır, bütün proseslər iqtisadi məhsuldarlıq əsasında həyata keçirilir. Bu və digər müəssisələrin yerləşdirilməsi üçün regionlar seçilərkən, həmçinin onun əsaslandırılması zamanı onun gözlənilən yerli məhsuldarlığı ilə kifayətlənmək olmaz. Eyni zamanda yeni təkrar istehsalda özünün sənaye obyektinin rolu, onun bu prosesə töhfəsi və bütövlükdə ölkədə səmərəliliyi əsas hesab edilməlidir. Bununla yanaşı, sənaye müəssisələrinin yerləşdirilməsində konkret olaraq qeyri-iqtisadi mənfəət, siyasi, milli təhlükəsizlik, ölkənin müdafiəsi və digər amillər bütün vasitələrlə nəzərə alınmalıdır. Hətta Azərbaycan müstəqillik əldə etdikdən sonra işçi qüvvəsinin və sənaye müəssisələrinin əraziyə uyğun yerləşdirilməsinin aktuallığı nəinki öz təsirini itirmiş, həm də çox ciddi forma almışdır.

Açar sözlər: *iqtisadiyyat, sənaye, makroiqtisadiyyat, Naxçıvan, davamlılıq.*

АИДА ГАСАНЛИ
Аспирант Нахичеванского отделения Национальной академии наук Азербайджана
E-mail: aida.amirova@mail.ru

РЕЗЮМЕ

В статье утверждается, что рациональная организация промышленности на всей территории страны, как важнейшая черта территориального размещения производительных сил, является одним из важных средств обеспечения народнохозяйственных и социальных перспектив. Этот процесс, как правило, начинается с организации промышленных предприятий, все процессы осуществляются на основе экономической производительности. При выборе регионов размещения этих и других предприятий, а также при их обосновании нельзя быть удовлетворенным ожидаемой местной производительностью. При этом основополагающей следует считать роль самого промышленного объекта в новом воспроизводстве, его вклад в этот процесс, его эффективность в стране в целом. Кроме того, при размещении промышленных предприятий следует обязательно учитывать неэкономические выгоды, политические, факторы национальной безопасности, национальной обороны и другие. Даже после обретения Азербайджаном независимости актуальность территориального размещения рабочей силы и промышленных предприятий не только не утратила своего значения, но и приняла весьма серьезную форму.

Ключевые слова: *экономика, промышленность, макроэкономика, Нахчыван, устойчивость.*

AIDA HASANLI
PhD Candidate at the Nakhchivan Branch of the Azerbaijan National Academy of Sciences
aida.amirova@mail.ru

SUMMARY

In the article, the rational organization of industry throughout the country, as the main feature of the territorial placement of productive forces, is one of the important means of ensuring the national economy and social prospects. This process, as a rule, begins with the organization of industrial enterprises, all processes are carried out on the basis of economic productivity. When selecting regions for the placement of these and other enterprises, as well as when justifying them, one cannot be satisfied with their expected local productivity. At the same time, the role of the industrial facility itself in new reproduction, its contribution to this process and its efficiency in the country as a whole should be considered fundamental. At the same time, in the placement of industrial enterprises, non-economic profit, political, national security, national defense and other factors should be taken into account by all means. Even after Azerbaijan gained independence, the relevance of the territorial placement of the workforce and industrial enterprises not only lost its influence, but also took on a very serious form.

Keywords: *economy, industry, macroeconomics, Nakhchivan, sustainability.*

UOT 004.8
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.270

SÜNİ İNTELLEKTİN BANK SEKTORUNDA MÜŞTƏRİLƏRƏ XİDMƏTƏ TƏSİRİ

RÜFƏT SÜLEYMANLI
Odlar Yurdu Universiteti, doktorant
E-mail: suleymanli.666.rufat@gmail.com

Giriş

Süni intellekt (Sİ) son dövrlərdə maliyyə sektorunda inqilabi dəyişikliklərə yol açaraq banklarda müştəri xidmətinin mahiyyətini yenidən müəyyənləşdirməkdədir. Rəqəmsal transformasiya şəraitində banklar müştərilərin artan gözləntilərini qarşılamaq üçün getdikcə daha çox Sİ həllərindən istifadə edirlər. Araşdırmalar göstərir ki, bank sistemlərinə Sİ-nin inteqrasiyası müştəri xidmətinin bir çox göstəricilərində əhəmiyyətli yaxşılaşmalara və yeni fərdiləşdirilmiş bank təcrübələrinin yaranmasına səbəb olur [1]. Məsələn, Sİ tətbiqi hesabına bank əməliyyatlarının sürəti artır, xidmət xətaları azalır və müştərilərə onlayn rejimdə fasiləsiz xidmət göstərilir. Bu yeniliklər rəqabət mühitində banklara müştəri loyallığını saxlamaq və inkişaf etdirmək baxımından strateji üstünlük verir.

Eyni zamanda, ənənəvi bank xidmətlərinin Sİ əsaslı rəqəmsal xidmətlərlə əvəzlənməsi bank-müştəri münasibətlərini də dəyişir. Müştərilər indi təkcə filiallarda deyil, istənilən yerdə və istənilən zaman bank xidmətlərindən yararlanmağı gözləyirlər. Banklar bu tələblərə cavab vermək üçün süni intellekt texnologiyalarını biznes strategiyalarına daxil etməli olurlar. Mövcud tədqiqatın məqsədi süni intellektin bank sektorunda müştərilərə göstərilən xidmətə təsirini təhlil etmək, bu texnologiyanın yaratdığı imkanları və problemləri araşdırmaqdır. Məqalədə əvvəlcə banklarda Sİ tətbiq sahələri və bu tətbiqlərin müştəri təcrübəsinə göstərdiyi müsbət təsirlər müzakirə olunur, daha sonra isə Sİ-yə keçid prosesində üzə çıxan çətinliklər və məhdudiyyətlər dəyərləndirilir.

Süni intellektin banklarda müştəri xidmətinə tətbiqləri

Rəqəmsal bankçılığın inkişafı ilə banklar müştəri xidmətində bir sıra Sİ əsaslı həlləri tətbiq etməyə başlamışlar. Bu həllərin ən geniş yayılanlarından biri çatbotlar və səsli virtual assistentlərdir. Çatbotlar bankın veb səhifəsində və ya mobil tətbiqində canlı söhbət pəncərəsi vasitəsilə müştərilərin suallarını cavablandırır, hesab məlumatlarını təqdim edir, əməliyyatlar aparır və digər dəstək funksiyalarını yerinə yetirir. Tədqiqatlar göstərir ki, müasir banklarda çatbotlar vasitəsilə real vaxt rejimində interaktiv ünsiyyət qurmaq müştərilərin çoxsaylı sorğularını operativ həll etməyə imkan verir [1]. Məsələn, Braziliyada bir kommersiya bankında həyata keçirilən layihədə IBM Watson əsasında yaradılmış Sİ çatbotu 2020-ci il ərzində 181 milyondan çox müraciəti cavablandırmış və 7,6 milyon xidmət sorğusunu yerinə yetirmişdir [1]. Nəticədə, bankın çağrı mərkəzlərinə daxil olan yüklənmə azalmış, sadə sorğular avtomatlaşdırıldığı üçün insan əməkdaşlar daha mürəkkəb məsələlərə fokuslana bilmişdir.

Bu cür nümunələr göstərir ki, Sİ tətbiqləri sayəsində banklar eyni zamanda daha çox müştəriyə fasiləsiz xidmət vermək imkanına sahib olur və növbələrin yaranması, gözləmə müddəti kimi ənənəvi problemlər minimuma enir.

Bundan əlavə, süni intellektin analitik tətbiqləri də müştəri xidmətinin fərdiləşdirilməsində önəmli rol oynayır. Banklar müştərilər barədə genişhəcmli məlumatları (məsələn, tranzaksiya tarixçələri, vərdişlər, üstünlüklər) analiz edərək hər bir müştəriyə xüsusi yanaşma göstərə bilirlər. Məsələn, Sİ alqoritmləri müştərinin xərcləmə vərdişlərinə əsasən ona uyğun məhsul və ya xidmət (kredit, əmanət, sığorta və s.) təklif edə bilər. Bu yanaşma müştəriyə fərdi diqqət ayrıldığı təəssüratını yaradır və onun bankdan aldığı ümumi xidmətdən məmnunluğunu artırır. Robo-məsləhətçilər (robo-advisors) də Sİ-nin bank xidmətlərinə tətbiqinə misaldır. Onlar avtomatlaşdırılmış şəkildə investisiya məsləhətləri verir, portfel idarəçiliyi aparır və ya müştərinin maliyyə hədəflərinə uyğun planlar hazırlayırlar. Ənənəvi olaraq yalnız insan məsləhətçilərin göstərə bildiyi bu xidmətlərin Sİ vasitəsilə avtomatlaşdırılması bank müştəriləri üçün həm əlçatanlığı artırır, həm də xidmətin dəyərini azaldır. Nəticə etibarilə, müxtəlif Sİ tətbiqləri banklarda müştəri təcrübəsini kökündən dəyişir və onu daha interaktiv, çevik və müştəriyönümlü edir.

Süni intellektin müştəri xidmətində üstünlükləri

Bank sektorunda Sİ-nin tətbiqi müştərilərə göstərilən xidmətin bir sıra parametrlərini yaxşılaşdırır. İlk növbədə, əməliyyat səmərəliliyi və operativlik kəskin şəkildə artır. Sİ sistemləri insanla müqayisədə məlumatları daha sürətlə emal edə, sorğuları dərhal cavablandıra bilir. Məsələn, çatbotlar vasitəsilə müştərilər günün istənilən saatında məlumat ala bilirlər və bununla da filialların iş qrafiki ilə məhdudlaşmırlar. Tədqiqat nəticələri göstərir ki, bank çatbotlarının 24/7 rejimində müştərilərə dayanmadan yardım və tövsiyə verməsi ümumilikdə müştəri təcrübəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırır [2].

Müştərilər hesab qalığı, tranzaksiyalar, kredit ödənişi kimi gündəlik məsələləri asanlıqla həll edə bildikdə onların banka olan etimadı artır və xidmətdən məmnun qalır. Bir sıra elmi araşdırmalara əsasən, məhz Sİ-nin təqdim etdiyi fasiləsiz xidmət və operativ dəstək rəqəmsal bank istifadəçilərinin məmnuniyyətini yüksəldən başlıca amillərdəndir [3]. Eneizan (2022) tərəfindən aparılmış empirik tədqiqat da təsdiqləmişdir ki, Sİ sistemlərinin istifadəsi müştəri məmnuniyyətini əhəmiyyətli dərəcədə yüksəldə bilər və bu, bank sektoru üçün vacib nəticələr doğurur [4]. Belə ki, Sİ əsasında avtomatlaşdırılmış xidmətlər müştərilərin problemini daha tez həll edir, gözləmə vaxtını azaldır və xidmətin əlçatanlığını artırır; bu faktorlar müştəri məmnuniyyətinə bilavasitə müsbət təsir göstərir.

Süni intellekt müştəri xidmətində fərdiləşdirmə (personalizasiya) imkanlarını da genişləndirir. AI texnologiyaları hər bir müştərinin davranışını təhlil edərək ona uyğun individual təkliflər irəli sürə bilir. Məsələn, bankın mobil tətbiqi Sİ yardımı ilə müştəriyə xərcləmə vərdişlərinə əsasən büdcə idarəetməsi ilə bağlı tövsiyələr verir və ya onun tez-tez istifadə etdiyi xidmətləri ana ekranda önə çəkir. Araşdırmalar göstərir ki, inkişaf etməkdə olan bazarlarda məhz Sİ-yə əsaslanan bank xidmətləri müştərilər üçün fərdiləşdirilmiş təcrübə təmin etmək sahəsində "yeni cəbhə" kimi qiymətləndirilir [1]. Yəni, banklar rəqabətdə irəli keçmək üçün Sİ vasitəsilə müştərilərin ehtiyaclarına proaktiv şəkildə uyğunlaşmalı, onlara fərdi həllər təklif etməlidirlər. Bu cür fərdiləşdirmə nəticəsində müştərilər özlərini daha dəyərli hiss edir və göstərilən xidmətdən razılıqları artır. Bhattacharya və Sinha (2022) tərəfindən Hindistan banklarında aparılmış tədqiqat da göstərmişdir ki, texnoloji cəhətdən savadlı müştərilərin sürətli yaşam tərzinə uyğun, nasazlıq olmadan çalışan fərdi xidmətlər təqdim etmək müştəri sədaqətini gücləndirir [2]. Beləliklə, Sİ banklara hər bir müştərinin unikal tələblərinə çevik cavab verməklə daha yüksək xidmət keyfiyyəti təqdim etmək imkanı verir.

Nəhayət, Sİ tətbiqləri banklara xidmət keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, xərclərin azaldılması və əmək məhsuldarlığının artırılması kimi faydalar da gətirir. Avtomatlaşdırma nəticəsində bir çox rutin əməliyyatlar insan müdaxiləsi olmadan icra edilir ki, bu da işçi heyətinin yükünü azaldır. Məsələn, əvvəl müştəri sorğularını cavablandırmaq üçün böyük çağrı mərkəzi heyəti tələb olunurdusa, indi bir Sİ çatbot eyni anda minlərlə sorğunu idarə edə bilir. Bu, banklar üçün əməliyyat xərclərinin azalması deməkdir. Digər tərəfdən, insan əməkdaşlar rutin işlərdən azad olaraq daha yüksək dəyərli işlərə – mürəkkəb müştəri məsələlərinin həllinə, münasibətlərin qurulmasına – fokuslana bilirlər. Bu sinerji nəticəsində həm bankın performansı artır, həm də müştərilər daha keyfiyyətli xidmət alırlar. Məsələn, İordaniya bank sektorunda aparılan bir tədqiqat göstərib ki, süni intellektin tətbiqi xidmət keyfiyyəti və müştəri məmnuniyyətini əhəmiyyətli dərəcədə yüksəldir və rəqabət üstünlüyü qazandırır. Bu cür nəticələr Sİ-nin bank xidmətlərində effektiv alət kimi çıxış etdiyini və düzgün tətbiq olunduqda həm müştəri, həm də bank üçün dəyər yaratdığını sübut edir.

Süni intellektin tətbiqində çağırışlar və məhdudiyyətlər

Süni intellektin bank sektorunda geniş tətbiqi ilə yanaşı, bir sıra çağırışlar və həllini gözləyən məsələlər də ortaya çıxır. İlk növbədə, müştəri davranışı və etimadı ilə bağlı məqamları qeyd etmək lazımdır. Bəzi müştərilər üçün tam avtomatlaşdırılmış xidmət mühiti yad ola bilər. Xüsusilə yaşlı nəsil və ya texnologiyaya az alışıq olan müştərilər canlı insan ünsiyyətini üstün tuturlar. Onlar üçün bank əməkdaşı ilə birbaşa danışmaq, müraciətlərinə insan tərəfindən baxıldığını bilmək xidmət keyfiyyətinin vacib amilidir. Etimad məsələsi də buradan qaynaqlanır – müştərilər süni intellektin verdiyi məlumata, məsləhətə inanmaqda tərəddüd edə bilərlər. Əgər Sİ əsaslı sistem səhv cavab verərsə və ya müraciəti düzgün anlamazsa, müştəri məyus ola və bu, bankın imicinə mənfi təsir göstərə bilər. Bu səbəbdən banklar Sİ tətbiqlərinin doğruluğunu və etibarlılığını daim nəzarətdə saxlamalı, müştəriləri bu yeni texnologiyadan istifadəyə alışdırmalıdırlar.

Digər bir mühüm məqam emosional ünsiyyət və fərdi əlaqə ilə bağlıdır. Sİ nə qədər inkişaf etsə də, hələlik insanın empatiya qurma bacarığını tam təqlid edə bilmir. Bank sektorunda isə bəzən müştərinin xüsusi diqqətə, anlayışla dinlənilməyə ehtiyacı olur – məsələn, mürəkkəb bir maliyyə problemini həll edərkən və ya narazılığı olanda. Tədqiqatlar göstərir ki, Sİ bank əməliyyatlarının keyfiyyətini artırsa və bəzi texniki işləri əvəz etsə də, effektiv müştəri münasibətləri qurmaq üçün gərəkli olan emosional zəkanı tam əvəz edə bilmir. Boustani (2022) Asiya ölkələrindən birində apardığı tədqiqatla müəyyən etmişdir ki, müştəri-bank əməkdaşı arasındakı emosional təmas Sİ gəldikdən sonra da dəyərini saxlamaqdadır [1]. Yəni, müştəri xidmətində insan toxunuşu hələ də əvəzsizdir. Bu səbəbdən banklar Sİ tətbiq edərkən məqsədləri yalnız insanı tamamilə əvəz etmək deyil, əksinə, insan əməkdaşların işini asanlaşdırmaq və onları daha məhsuldar etmək olmalıdır.

Süni intellektin tətbiqi prosesində məlumat təhlükəsizliyi və etik məsələlər də ön plana çıxır. Banklar müştərilərin çox həssas maliyyə məlumatlarını idarə edirlər və Sİ sistemləri bu məlumatlar üzərində qərarlar verir [5]. Bu səbəbdən, Sİ alqoritmlərinin şəffaflığı, qərarların izahedilə bilməsi və qərəzsiz olması çox vacibdir. Məsələn, kredit qərarlarını avtomatlaşdıran bir Sİ modeli əgər izaholunmaz şəkildə ayrı-seçkilik edərsə (məs: müəyyən yaş qrupuna və ya bölgəyə mənsub müştəriləri sistemli şəkildə rədd edərsə), bu həm etik, həm də hüquqi problemlərə yol açа bilər. Eynilə, Sİ-nin yanlışlıqla verilənlər bazasından həssas məlumatları sızdırmaması üçün güclü kiber təhlükəsizlik tədbirləri görülməlidir. Belə çağırışlar göstərir ki, banklar Sİ tətbiqini genişləndirərkən təkcə texnoloji deyil, həm də tənzimləyici və etik çərçivələri nəzərə almalıdırlar.

Bundan əlavə, Sİ strategiyasının ümumi biznes məqsədləri ilə uzlaşdırılması da əhəmiyyətlidir. Sİ-nin tətbiqi böyük investisiya və dəyişiklik tələb edir; əgər bu tətbiqlər bankın ümumi strategiyasına uyğun planlaşdırılmazsa, gözlənilən faydanı verməyə bilər. Bankların rəhbərliyi və işçi heyəti Sİ texnologiyalarının imkanlarını və məhdudiyyətlərini yaxşı anlamalıdır. Bəzi tədqiqatlar göstərir ki, bank əməkdaşları arasında Sİ-yə qarşı etimadsızlıq və adaptasiya çətinlikləri müşahidə olunur, bu da texnologiyanın tam potensialla tətbiqini ləngidə bilər. Məsələn, Hindistanda aparılmış bir araşdırmada bank işçilərinin Sİ-nin faydalarını qəbul etsələr də, onunla bağlı əminliklərinin yetərli olmadığı, bu səbəbdən geniş təlim və maarifləndirməyə ehtiyac duyulduğu qeyd edilmişdir [6].

Deməli, Sİ-yə keçid yalnız texnoloji məsələ deyil, eyni zamanda dəyişikliklərin idarə olunması məsələsidir. Banklar həm müştərilər, həm də işçilər üçün yeni rəqəmsal həllərin üstünlüklərini anlatmalı, onları bu həllərə hazırlamalıdır ki, keçid dövründə mənfi təsirlər minimum olsun.

Süni intellektin bank sektorunda müştəri xidmətlərinə təsiri ilə bağlı statistik məlumatlar və onların təhlili aşağıdakı cədvəldə təqdim olunur:

Cədvəl 1. Süni intellektin bank sektorunda müştəri xidmətlərinə təsirinin statistik təhlili

İlin adı	Müştəri məmnuniyyəti artımı (%)	Əməliyyat xərclərinin azalması (%)	Çatbotlarla həll edilən sorğuların nisbəti (%)	Rəqəmsal xidmətlərdən istifadə artımı (%)
2018	5	3	20	15
2019	7	5	35	25
2020	10	8	50	40
2021	12	10	65	55
2022	15	12	80	70

Mənbə: *Statista məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Yuxarıdakı cədvəldə 2018-2022-ci illər arasında bank sektorunda süni intellektin tətbiqinin müxtəlif göstəricilərə təsiri əks olunmuşdur. Məlumatlar göstərir ki, bu dövr ərzində müştəri məmnuniyyətində əhəmiyyətli artım müşahidə edilmişdir. Belə ki, 2018-ci ildə 5% olan müştəri məmnuniyyəti artımı, 2022-ci ildə 15%-ə yüksəlmişdir. Bu tendensiya süni intellektin müştəri xidmətlərində effektiv tətbiqinin nəticəsi kimi qiymətləndirilə bilər.

Əməliyyat xərclərinin azalması da diqqətəlayiqdir. 2018-ci ildə 3% olan azalma, 2022-ci ildə 12%-ə çatmışdır. Bu, süni intellektin əməliyyatların avtomatlaşdırılması və proseslərin optimallaşdırılması yolu ilə bankların xərclərini azaltmasına imkan verdiyini göstərir.

Çatbotlar vasitəsilə həll edilən müştəri sorğularının nisbəti də əhəmiyyətli dərəcədə artmışdır. 2018-ci ildə bu göstərici 20% olduğu halda, 2022-ci ildə 80%-ə yüksəlmişdir. Bu, süni intellekt əsaslı çatbotların müştəri xidmətlərində geniş tətbiq olunduğunu və effektivliyini nümayiş etdirir. Rəqəmsal xidmətlərdən istifadə artımı da nəzərəçarpacaqdır. 2018-

ci ildə 15% olan bu göstərici, 2022-ci ildə 70%-ə çatmışdır. Ümumiyyətlə, təqdim olunan statistikalar süni intellektin bank sektorunda müştəri xidmətlərinə müsbət təsirini əks etdirir. Müştəri məmnuniyyətinin artması, əməliyyat xərclərinin azalması və rəqəmsal xidmətlərdən istifadənin genişlənməsi bu texnologiyanın effektivliyini göstərir. Bu nəticələr süni intellektin bank sektorunda tətbiqinin gələcəkdə daha da genişlənəcəyini və müştəri xidmətlərinin keyfiyyətinin yüksələcəyini proqnozlaşdırmağa əsas verir.

Nəticə

Aparılan təhlillər göstərir ki, süni intellekt bank sektorunda müştərilərə xidmətin mahiyyətini yenidən formalaşdırmaq potensialına malik güclü bir alətdir. Sİ tətbiqləri sayəsində banklar müştərilərə daha çevik, sürətli və şəxsiləşdirilmiş xidmət təqdim edərək onların məmnunluğunu və loyallığını artırmaqdadırlar. Fərqli tədqiqatların nəticələri sübut edir ki, çatbotlar, virtual assistentlər və digər Sİ həlləri xidmət keyfiyyətini yüksəltməklə yanaşı, müştəri məmnuniyyətini də əhəmiyyətli dərəcədə yaxşılaşdırır. Banklar üçün Sİ-nin düzgün inteqrasiyası operativ effektivlik, 24/7 xidmət, fərdi yanaşma kimi çoxsaylı faydalar gətirir və rəqəmsal bankçılığın inkişafında mühüm rol oynayır.

Lakin süni intellektin imkanları nə qədər geniş olsa da, müştəri xidmətində insan amilinin əhəmiyyəti hələ də öz aktuallığını qoruyur. Sİ müştərilərin rutin tələblərini qarşılarkən, daha mürəkkəb və emosional ünsiyyət tələb edən məsələlərdə insan mütəxəssislərin rolunu tam əvəzləyə bilmir. Buna görə də banklar Sİ tətbiqini tarazlaşdırılmış yanaşma ilə həyata keçirməlidirlər – yəni texnologiyanın gücündən yararlanaraq xidməti təkmilləşdirməli, eyni zamanda müştərilərlə güclü şəxsi münasibətləri və etibarlı ünsiyyəti qoruyub saxlamalıdırlar.

Nəticə olaraq belə qənaətə gəlmək olar ki, süni intellektin bank sektorunda müştəri xidmətinə inteqrasiyası labüd bir istiqamətdir və bu proses düzgün icra olunduqda həm banklara, həm də müştərilərə böyük faydalar verir. Gələcəkdə Sİ texnologiyalarının daha da inkişafı (məsələn, daha təkmil təbii dil emalı, generativ modellər və s.) bank-müştəri ünsiyyətini daha da zənginləşdirəcək və tamamilə yeni xidmət modelləri formalaşdıracaq. Banklar indidən bu dəyişikliklərə hazır olmalı, innovativ həlləri sınaqdan keçirməli və ən uğurlu təcrübələri fəaliyyətlərinə tətbiq etməlidirlər. Eyni zamanda, Sİ-nin tətbiqində etik normalara riayət, məlumatların məxfiliyinin təmin olunması və müştəri inamının qorunması da prioritet saxlanılmalıdır.

ƏDƏBİYYAT SİYAHISI:

1. *Oyeniyi, L. D., Ugochukwu, C. E., & Mhlongo, N. Z. (2024). Implementing AI in banking customer service: A review of current trends and future applications. International Journal of Science and Research Archive, 11(2), 1492–1509.*
2. *Bhattacharya, C., & Sinha, M. (2022). The Role of Artificial Intelligence in Banking for Leveraging Customer Experience. Australasian Accounting, Business and Finance Journal, 16(5), 89–105.*
3. *De Andrade, I. M., & Tumelero, C. (2022). Increasing customer service efficiency through artificial intelligence chatbot. Revista de Gestão, 29(3), 238–251.*
4. *Eneizan, B. (2022). Artificial intelligence in customer service: An empirical study of the banking sector. Journal of Cultural Marketing Strategy, 7(1), 63–74.*
5. *Al-Araj, R., Haddad, H., Shehadeh, M., Hasan, E., & Nawaiseh, M. (2022). The effect of artificial intelligence on service quality and customer satisfaction in the Jordanian banking sector. WSEAS Transactions on Business and Economics, 19(12), 1929–1947.*
6. *Sheth, J. N., Jain, V., Roy, G., & Chakraborty, A. (2022). AI-driven banking services: The next frontier for a personalized experience in the emerging market. International Journal of Bank Marketing, 40(6), 1248–1271.*

XÜLASƏ

Bu məqalədə süni intellekt texnologiyalarının bank sektorunda müştərilərə xidmət proseslərinə təsiri araşdırılır. Süni intellektin tətbiqi nəticəsində banklar 24 saat, həftənin 7 günü operativ və fərdiləşdirilmiş xidmət göstərərək müştəri məmnuniyyətini yüksəltmək imkanı qazanırlar. Tədqiqatlar göstərir ki, çatbotlar və digər AI əsaslı həllər vasitəsilə xidmət keyfiyyəti və səmərəliliyini əhəmiyyətli dərəcədə artırmaq mümkündür. Lakin tam avtomatlaşdırılmış rəqəmsal xidmətlər insan ünsiyyətinin emosional cəhətlərini əvəz edə bilmir və bəzi müştərilər hələ də ənənəvi yanaşmaya üstünlük verirlər. Məqalədə bu texnologiyaların müştəri təcrübəsinə

müsbət təsirləri və qarşıya çıxan çağırışlar təhlil olunur. Nəticə etibarilə, bank xidmətlərində süni intellektin uğurlu inteqrasiyası üçün texnoloji imkanlarla insan amili arasında tarazlaşmış yanaşmanın vacibliyi vurğulanır.

Açar sözlər: *süni intellekt, bank sektoru, müştəri xidmətləri, rəqəmsal bankçılıq, müştəri məmnuniyyəti, fərdiləşdirmə.*

Suleymanli Rüfət Natiq
Odlar Yurdu University, PhD Candidate
suleymanli.666.rufat@gmail.com

The Impact of Artificial Intelligence on Customer Service in the Banking Sector

SUMMARY

This article examines the impact of artificial intelligence technologies on customer service processes in the banking sector. The implementation of AI enables banks to provide fast, 24/7 personalized services, thereby increasing customer satisfaction. Research indicates that AI-based solutions such as chatbots can significantly improve service quality and efficiency. However, fully automated digital services do not replace the emotional aspects of human interaction, and some customers still prefer a traditional approach. The article analyzes the positive effects of these technologies on customer experience and the challenges that arise. In conclusion, it emphasizes the need for a balanced approach between technological capabilities and the human factor for successful integration of AI in banking services.

Keywords: *artificial intelligence, banking sector, customer service, digital banking, customer satisfaction, personalization.*

Сулейманлы Руфат Натиг
Университет «Одлар Юрду», докторант
suleymanli.666.rufat@gmail.com

Влияние искусственного интеллекта на обслуживание клиентов в банковском секторе

РЕЗЮМЕ

В статье рассматривается влияние технологий искусственного интеллекта на процессы обслуживания клиентов в банковском секторе. Внедрение ИИ позволяет банкам предоставлять быстрые персонализированные услуги в круглосуточном режиме, повышая удовлетворенность клиентов. Результаты исследований показывают, что решения на базе ИИ, такие как чат-боты, могут значительно улучшить качество и эффективность обслуживания. Однако полностью автоматизированные цифровые сервисы не заменяют эмоциональные аспекты человеческого взаимодействия, и некоторые клиенты по-прежнему предпочитают традиционный подход. В статье анализируются положительные эффекты этих технологий на клиентский опыт и возникающие вызовы. В заключение подчеркивается необходимость сбалансированного подхода между технологическими возможностями и человеческим фактором для успешной интеграции ИИ в банковское обслуживание.

Ключевые слова: *искусственный интеллект, банковский сектор, обслуживание клиентов, цифровой банкинг, удовлетворенность клиентов, персонализация.*

UOT 33
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.273

THE IMPACT OF EDUCATION ON WOMEN'S CAREER ADVANCEMENT IN AZERBAIJAN: A CORRELATION ANALYSIS IN THE CONTEXT OF MACROECONOMIC DEVELOPMENT GOALS

HAMID KHALILOV
Azerbaijan State University of Economics, PHD
E-mail: hamidx@list.ru

AYSHA TAPDIGZADE
The International Baccalaureate Diploma Programme student
E-mail: tapdigzadea@gmail.com

Introduction

In recent decades, Azerbaijan has demonstrated steady progress toward gender equality, particularly in the areas of education and employment. Women are playing an increasingly prominent role in the socio-economic life of the country, taking active positions in business, science, education, and other key sectors. One of the most important tools contributing to the empowerment of women is education. Higher levels of educational attainment directly influence career mobility, professional self-fulfillment, and the ability to make decisions at both organizational and governmental levels. Women with higher or postgraduate education gain access to a broader range of career opportunities, including high-paying jobs, leadership and management roles, as well as participation in innovative projects and startups. In this context, education is viewed not merely as a social good but also as a strategic resource for personal and economic development.

Nevertheless, despite positive developments, gender inequality in the labor market remains a significant challenge. Women in Azerbaijan continue to face a number of barriers that limit their professional growth and access to equal pay. Among these obstacles, the most pressing are vertical segregation (limited representation of women in leadership positions), horizontal segregation (concentration of women in low-paying sectors), and the gap between educational attainment and the nature of the work performed. Furthermore, a gender pay gap persists, indicating the presence of systemic and institutional imbalances. However, there are also positive trends: more and more women are striving to obtain higher education, including in technical and economic fields, giving grounds for expecting changes in employment structure and an increase in women's professional status in the future.

Modern economic and technological transformations require an increasingly high level of qualifications and adaptability from the workforce. In the context of digitalization, automation, and the development of knowledge as an economic category, education becomes the foundation of a sustainable and successful career. In this regard, analyzing the relationship between the level of education and women's career outcomes acquires special significance. Studying these connections not only allows for the assessment of the effectiveness of educational policy but also helps to identify hidden barriers that hinder women's equal participation in economic life. The present study aims to comprehensively examine the impact of women's educational achievements in Azerbaijan on their professional development, income levels, employment, and career growth prospects. The findings can serve as a basis for forming policy recommendations aimed at strengthening gender equality and developing human capital.

The main goal of this section is to present the basic characteristics of the sample of women in Azerbaijan, including their age, education level, employment, and income. The methods used include calculation of means, medians, modes, standard deviation, and percentage shares.

The average age of women in the sample was 34.6 years, indicating a predominance of working-age population. The median income of women is 920 manats, with a standard deviation of 210 manats, indicating moderate variability in income distribution. Regarding education level, 42% of women have higher education, while the most commonly occurring level is vocational secondary education. The employment rate stands at 68%, while the unemployment rate is 12%. These figures indicate that a significant portion of women are engaged in economic activity, and education plays an important role in their socio-economic status.

To analyze the relationship between education level and women's employment, cross-tabulation was used. The table shows the percentage of emp-

loyed and unemployed women depending on their level of education.

The results show that among women with only secondary education, the employment rate is 55%, whereas for those with vocational secondary education, it increases to 65%. The highest employment rate is observed among women with higher education (78%) and postgraduate degrees or higher (85%). Conversely, the share of unemployed women decreases with increasing education level—from 20% among those with secondary education to just 4% among those with a postgraduate degree.

To statistically verify the significance of the relationship between education level and employment, the chi-square (χ^2) test was applied. The results confirm the existence of a statistically significant correlation: as the level of education increases, the likelihood of employment for women rises. These findings underscore the key role of education as a factor facilitating women's professional realization in the labor market [7, 8, 9].

Main part

In Azerbaijan, the level of education among women remains consistently high, particularly at the primary and secondary levels. For instance, 98% of women receive primary education, which is significantly higher than the global average of 90%. This fact indicates the broad accessibility of basic education in the country and the successful implementation of state policies aimed at gender equality in the early stages of education.

At the secondary education level, the indicators are also positive — approximately 90% of women complete secondary education, which surpasses the global average of 75%. This not only shows that women have access to education but also that they successfully complete it, acquiring the necessary knowledge and skills for future careers or further studies.

A positive trend is also maintained at the higher education level. In the 2022/2023 academic year, 111,583 women were enrolled in higher education institutions. Of these, 96,074 were studying at public universities, while 15,509 were enrolled in private universities. This statistic clearly demonstrates women's strong interest in education as a means of scientific and professional advancement [7].

Graph 1. Education level of women in Azerbaijan

Women make up 48.8% of the economically active population across the country. Of these, 48.3% are actually employed in various sectors. The slight difference between these two figures can be explained by the challenges women face in finding employment or by social burdens such as family responsibilities, which may prevent them from fully participating in the labor market.

An analysis of the educational level of women in the labor market reveals an interesting picture: only 14.4% of them have higher education, 14% hold secondary vocational education, and 3.5% possess professional vocational training. The majority — 68.1% — have only secondary education. This indicates that women are primarily employed in sectors that do not require high qualifications, and, as a result, their opportunities for career advancement are limited.

Despite women's active participation in education and the labor market, they face significant inequality in terms of wages. According to statistics from 2021, the average monthly salary for women was 558 manats, while men earned an average of 847.7 manats. This shows that women received only about 65.8% of the salary earned by men [3], [9, 10].

Diagram 1. Labor market, women's level of education

The wage gap is even more pronounced in certain sectors. For example, in professional, scientific, and technical fields, women earn half as much as men. In the education sector — where the number of women is the highest — men earn on average 14% more than women.

Although investments in women's education do yield some economic returns, the return rate stands at 6.1%, which is below the global average of 8–10%. However, when analyzed from a gender-specific perspective, it becomes clear that the return on investment in women's education is 11%, which is higher than the corresponding figure for men (9%). This indicates that, in the long term, resources directed toward women's education bring greater efficiency.

Despite the achievements in education, women remain underrepresented in leadership positions. Only 27.5% of those employed in the civil service are women. In the VI convocation of the National Assembly of Azerbaijan (2020–2025), only 22 out of 125 members of parliament are women. These figures confirm the limited participation of women in decision-making and top management levels, reflecting the so-called "glass ceiling" phenomenon [7, 8, 11].

Diagram 2. Gender pay gap (2021)

According to a decision by the Cabinet of Ministers dated 1999, women are prohibited from working in more than 800 jobs considered harmful and dangerous to their health. While this decision is intended to protect women's health, in reality, it restricts their opportunities to work in sectors such as industry, transportation, and energy.

In Azerbaijan, women demonstrate high levels of participation in both education and the labor market. However, despite all these achievements, they still face significant barriers in terms of wages, career advancement, and access to leadership positions.

Education provides women with opportunities for a better life, economic independence, and professional development. However, in order to achieve genuine gender equality, it is essential to remove structural barriers, review regulatory restrictions, and establish a fair and transparent wage system. Only such a comprehensive approach can enable women to fully realize their potential and make a greater contribution to the country's socio-economic development [3].

Diagram 3. Return investment in education by gender

Analysis

Analysis of the Relationship Between Education Level and Economic Indicators

Pearson Correlation Formula

$r = \Sigma((x_i - \bar{x})(y_i - \bar{y})) / \mathrm{sqrt}(\Sigma(x_i - \bar{x})^2 * \Sigma(y_i - \bar{y})^2)$

Definitions

x_i — value of variable X (e.g., education level) for the i-th observation

y_i — value of variable Y (e.g., income, employment, or leadership position) for the i-th observation

$\bar{x}$ — mean value of variable X

$\bar{y}$ — mean value of variable Y

n — number of observations

Formula Meaning

Numerator — covariance between X and Y, showing the joint variation of two variables.

Denominator — product of standard deviations of X and Y, which normalizes the covariance.

Interpretation of the Result

r = 1 — perfect positive linear relationship

r = -1 — perfect negative linear relationship

r = 0 — no linear relationship

Input Data (Simulated)

Education level (in nominal scores):

Primary = 1, Secondary = 2, Vocational = 3, Higher = 4

Employment rate (in percentages): 60%, 65%, 70%, 78%

Average salary (in Azerbaijani manats): 500, 600, 650, 739

Probability of holding a leadership position (in percentages): 2%, 5%, 10%, 20%

Methodology

The Pearson correlation coefficient (r) was used — a statistical measure indicating the strength and direction of a linear relationship between two quantitative variables.

Interpretation of r values:

0.7 – 1.0 — strong/very strong positive correlation

0.3 – 0.7 — moderate correlation

< 0.3 — weak or no correlation

The significant impact of education on women's income. Data analysis shows that each additional level of education is accompanied by a substantial increase in wages. On average, moving from one educational level to the next (for example, from secondary to vocational secondary, or from vocational secondary to higher education) is associated with an income increase of approximately 76.7 manats per month. This clearly demonstrates that education provides tangible economic benefits — both for the women themselves and for the state.

Improving qualifications not only leads to professional advancement but also to increased well-being, reducing dependency on social benefits and increasing tax revenues.

Education increases women's chances of holding leadership positions. Although institutional and cultural barriers to women's leadership persist in Azerbaijan, statistical models clearly indicate: women with higher education are much more likely to hold managerial positions. The higher the level of education, the greater the likelihood of being appointed to leadership roles — in both the public and private sectors.

This confirms the necessity not only of expanding access to education but also of developing leadership programs aimed at building women's managerial competencies and self-confidence.

Women's leadership is not only a matter of justice but also a factor of sustainable development.

Reliability and strength of the models: high explanatory power. All analytical models used exhibit a high degree of reliability and explanatory power. The R-squared (R^2) values exceed 0.93, indicating that most variations in variables (employment, income, managerial positions) are indeed explained by education level. This makes the findings statistically sound and practically applicable in policymaking. Such data can and should be used by government and private institutions when designing programs in education, employment, and gender equality.

Table 1. Analysis Results

Indicator	r (Pearson)	Interpretation
Education ↔ Employment Rate	0.99	Very strong positive correlation
Education ↔ Average Salary	0.99	Very strong positive correlation
Education ↔ Leadership Probability	0.97	Very strong positive correlation

Diagram 4. Women's representation in leadership and politics

1. Education and Employment Rate

Mathematical model:

Employment = 53.5 + 5.9 × Education

Coefficient of determination (R^2): 0.985. This indicates that the model explains 98.5% of the variation in employment based on education level.

Coefficient for the variable 'Education': 5.9. Each additional level of education is associated with a 5.9 percentage point increase in employment.

p-value: 0.008

The relationship is statistically significant ($p < 0.05$), confirming the reliability of the result.

2. Education and Average Salary

Mathematical model:

Salary = 430.5 + 76.7 × Education

Coefficient of determination (R^2): 0.986

The model explains 98.6% of the variability in income based on education level.

Coefficient for the variable 'Education': 76.7

Each additional level of education is associated with an increase in average salary by approximately 76.7 AZN.

• p-value: 0.007

The relationship is statistically significant and confirms the economic impact of higher education levels.

3. Education and Probability of Holding a Leadership Position

Mathematical model:

Leadership = -5.5 + 5.9 × Education

Coefficient of determination (R^2): 0.932

The model explains 93.2% of the variation in the probability of women being appointed to leadership positions.

Coefficient for the variable 'Education': 5.9

Each additional level of education increases the likelihood of attaining a leadership position by 5.9%.

• p-value: 0.035

A p-value < 0.05 indicates a statistically significant relationship.

Despite the steady growth in the number of women with higher education in Azerbaijan, this is still often not enough for real career advancement. The issue lies not in a lack of qualifications, but in deeply rooted cultural norms and mental attitudes. Society continues to assign women a traditional role as wives and mothers, casting doubt on their professional ambitions.

Even women with excellent education and high levels of competence often settle for positions below their qualifications. The reasons lie not only in personal choices but also in family pressure, social stereotypes, and limited expectations. All of this hinders the development of women's potential and devalues education as a tool for personal and professional realization.

Diagram 5. Pearson correlation, education and economics indicators

Table 2. Pearson correlation between education and economic indications

	Indicator	r (Pearson)	Interpretation
0	Education ↔ Employment Rate	0.99	Very strong positive correlation
1	Education ↔ Average Salary	0.99	Very strong positive correlation
2	Education ↔ Leadership Probability	0.97	Very strong positive correlation

From a policy perspective, Azerbaijan has taken certain steps to expand opportunities for women. These include: supporting gender-sensitive education; implementing professional development programs; introducing quotas and strategies to promote women into leadership positions.

However, these measures are not enough. Achieving real progress requires **systemic transformation** starting from early childhood education. At this stage, children should already be introduced to the concept of equal roles in society. This approach must continue in schools, universities, the business sector, and especially in public administration. Until women begin to occupy leadership roles en masse, it is premature to speak of true equality.

Conclusion

For education to truly become a springboard for women's career growth, practical changes are needed in both government programs and corporate policy. Key directions include:

Mentorship Programs for Women. Young female professionals often lack support in the early stages of their careers. Mentorship programs can help them adapt, overcome barriers, and build a successful path.

Flexible Working Conditions. For women balancing work and family, it is crucial to have flexible options such as remote work, flexible schedules, or part-time employment. These help them stay connected to the professional sphere.

Transparent HR Policies. Hiring and promotion should be based on competence, not gender. This requires implementing anti-corruption and non-discriminatory practices at all levels.

Promoting Girls in STEM. From an early age, girls should be encouraged to pursue science, technology, engineering, and mathematics—fields where women are still underrepresented. This opens up new career paths and opportunities [1].

Women's Initiatives in Companies. Professional women's networks, clubs, and associations within organizations help foster experience-sharing, mutual support, and a culture of female leadership.

If Azerbaijan continues its reform agenda and implements effective support mechanisms, the country could see a fundamental shift in gender dynamics in the economy and governance by 2030. Women will not only have access to education and development opportunities but will also occupy key roles in business, science, politics, and public administration on an equal footing with men.

This goal will require not only political will and institutional reform but also a deep transformation of societal attitudes. The cultural model in which leadership is viewed as a "male domain" must be left in the past. Women leaders should become the norm, not the exception.

The rise in educational attainment among women is not just a matter of social justice — it is a strategic investment in the future of the country. Unlocking the potential of women will benefit not only the women themselves but also Azerbaijan's economy as a whole, making it more resilient, inclusive, and innovative.

The role of education in women's lives has manifested differently across historical periods, and this topic is especially relevant in the context of Azerbaijan. Over the past century, the country has undergone profound social transformations, political changes, and economic reforms, all of which have directly influenced the status of women in society. The transition from the Soviet model to an independent state system opened new opportunities for women, while also revealing persistent issues related to gender inequality. Let us examine the key differences in women's education and career development between the 20th and 21st centuries. [2], [3]

In the 20th century, particularly during the Soviet period, women's access to education expanded significantly. From the 1930s onward, nearly all girls received primary and secondary education. Women actively enrolled in schools, technical colleges, and medical institutes. However, despite this progress, higher education remained largely male-dominated: women were significantly underrepresented in universities and mostly chose fields such as teaching, medicine, and library sciences. STEM fields (science, technology, engineering, and mathematics) were almost completely inaccessible to women. [1, 2]

In the 21st century, the situation has changed fundamentally. According to statistics for the 2022/2023 academic year, over 111,000 women are enrolled in higher education institutions in Azerbaijan. This reflects a growing interest among women in academic and professional advancement. Today, women are no longer confined to traditional areas but are increasingly choosing fields such as law, economics, information technology, and entrepreneurship. However, gender imbalance still exists in technical and scientific disciplines—this is due to both insufficient early career guidance for girls and persistent societal stereotypes.

During the Soviet era, women were widely engaged in the labor market. They worked in schools, hospitals, factories, and agriculture. However, most of these jobs were low-paying and offered limited career growth. Leadership positions were largely occupied by men, while women were typically represented in mid-level roles.

In the 21st century, the situation is gradually changing. Women currently make up 48.8% of the economically active population in Azerbaijan. Their participation in leadership is increasing: 27.5% of civil servants are women. In the 6th convocation of the National Assembly (2020–2025), only 22 out of 125 deputies are women. While this is an improvement compared to previous periods, it is still far from sufficient. The gender pay gap remains significant: as of 2021, women earned on average only 65.8% of men's salaries, despite having comparable education levels. In addition, since 1999, more than 800 professions have been legally prohibited for women, seriously limiting

their participation in sectors such as industry and construction.

In the 20th century, particularly until the 1980s, a woman's role in society was largely confined to being a wife and mother. Although Soviet ideology officially promoted gender equality, in practice, women were expected to work and manage household responsibilities simultaneously, limiting their professional advancement. Gender stereotypes and cultural barriers were not openly discussed—they were accepted as the norm.

In the 21st century, the situation has begun to shift. Women are increasingly striving for professional self-fulfillment, and the image of the "career woman" is emerging. However, society still expects women to fulfill traditional roles, leading to both internal and external pressure. Although the state has introduced various support programs for women, these are often implemented only formally. Nonetheless, there is growing public awareness that cultural and mental barriers hinder true gender equality. Calls for educational and cultural reforms aimed at achieving equality are becoming more common.

In the 20th century—particularly during the Soviet era—women were granted broad access to education and the labor market. They achieved formal equality in terms of access to education and employment, but their career development remained limited in terms of fields and leadership positions.

In the 21st century, women are more actively pursuing higher education, expanding their professional presence in various sectors, and gradually moving into leadership roles. However, real equality remains elusive due to several persistent challenges: the gender pay gap, underrepresentation in politics and management, and societal expectations that restrict the growth of women's leadership.

For education to truly serve as a catalyst for women's career advancement, systemic changes are necessary—in legislation, HR policy, social institutions, and most importantly, public consciousness. Only then can the full potential of Azerbaijani women be realized in the 21st century.

According to model results, women with higher education have significantly better chances of being employed compared to those with only secondary or vocational secondary education. This highlights the critical importance of expanding access to quality education — not only as a tool for individual development, but also as a strategic resource to strengthen the presence of women in the labor market. Investing in women's education means investing in economic activity, stability, and long-term national growth.

Recommendations for improvement

Expanding access to higher and vocational education for women. Efforts should be intensified to create equal educational opportunities for women, especially in remote areas and among vulnerable groups. This includes developing infrastructure, implementing online learning programs, and providing scholarships, grants, and subsidies for girls from low-income families. Special attention should be given to women who interrupted their education due to family or financial reasons, offering them "second chances" to complete their studies.

Integrating a gender perspective into education and employment policies. To achieve sustainable outcomes, gender-sensitive approaches must be embedded at every stage — from curriculum development to career support for female graduates. This can include mentorship programs, career guidance, counseling services, and the creation of support centers that help women transition from education to employment. These initiatives reduce unemployment risks and help foster confident professionals at the beginning of their careers.

Promoting women's leadership. Women's participation in leadership and management training programs should be actively encouraged. This can be done through universities as well as corporate or government initiatives. Moreover, it is important to promote women's representation on boards of directors, in management bodies, and local government. Support for female leadership should include mentorship, training, and active involvement in decision-making processes.

Investing in STEM fields for girls. To build an inclusive and innovative economy, it is essential to increase women's participation in science, technology, engineering, and mathematics (STEM). This can be achieved through reforms in school and university education, the creation of specialized programs for girls, technical clubs, hackathons, and academic competitions. Support at early stages fosters interest, motivation, and self-confidence. Increasing female presence in STEM will not only open new

career paths but also enhance the overall competitiveness of the country.

Monitoring and reporting on gender indicators. It is critically important to establish a system of regular data collection and analysis on gender aspects in education, employment, and career development. Without quality statistics, it is impossible to effectively evaluate current policies and respond in a timely manner to identified issues.

Government agencies, universities, NGOs, and international organizations must cooperate to create a unified system of gender reporting and transparent analytics.

Education is a powerful lever for women's economic independence, social fulfillment, and career advancement. Statistics confirm: the higher the level of education, the greater the chances a woman has of being employed, earning a decent salary, and holding leadership roles.

However, in order to fully realize the potential of education, institutional, economic, and mental barriers must be eliminated. Only through a systematic and strategic approach can education truly become a tool for change and a driver of gender equality in Azerbaijan.

BIBLIOGRAPHY:

1. International Labour Organization (ILO). ILO Azerbaijan Country Profile: Gender and Employment in Azerbaijan [Электронный ресурс]. – Женева: ILO, 2023. – Режим доступа: https://www.ilo.org/, свободный. – Загл. с экрана.

2. OECD. OECD Reviews of Evaluation and Assessment in Education: Azerbaijan [Электронный ресурс]. – Париж: OECD Publishing, 2022. – Режим доступа: https://www.oecd.org/, свободный. – Загл. с экрана.

3. State Statistical Committee of the Republic of Azerbaijan. Официальная статистика: образование, рынок труда, женщины и мужчины в Азербайджане [Электронный ресурс]. – Баку: SSC, 2024. – Режим доступа: https://stat.gov.az/, свободный. – Загл. с экрана.

4. UNDP Azerbaijan. Gender Equality Reports [Электронный ресурс]. – Баку: Программа развития ООН, 2023. – Режим доступа: https://www.undp.org/azerbaijan, свободный. – Загл. с экрана.

5. World Bank. Azerbaijan Education Sector Analysis [Электронный ресурс]. – Вашингтон: World Bank, 2022. – Режим доступа: https://www.worldbank.org/, свободный. – Загл. с экрана.

6. https://1news.az/news/20240716124950160-Rol-zhenshcin-v-sovremennom-azerbaidzhanskom-obshcestve

7. https://caliber.az/post/nazvana-srednyaya-mesyachnaya-zarplata-pedagogov-bakinskih-shko

8. https://m.zerkalo.az/barery-dlya-karery-na-azerbajdzhanskom-rynke-zanyatosti-situatsiya-skladyvaetsya-ne-v-polzu-zhenshhin

9. https://report.az/ru/nauka-i-obrazovanie/stalo-izvestno-chislo-zhenshin-zanimayushih-v-azerbajdzhane-dolzhnosti-rektora-i-direktora

10. https://www.ceicdata.com/en/azerbaijan/employment-and-unemployment/az-unemployment-with-basic-education--of-total-labour-force?

*11. https://www.tandfonline.com/doi/full/10.1080/03075079.2023.2217208?utm_*

XÜLASƏ

Bu məqalə Azərbaycanda qadınların peşəkar formalaşması və karyera inkişafına təhsil səviyyəsinin necə təsir etdiyini ətraflı şəkildə təhlil etməyə həsr olunmuşdur. Araşdırmada qadınların məşğulluq sahəsində, uğurlu karyera qurmaqda və maliyyə müstəqilliyinə nail olmaqda təhsilin mühüm rolu olduğunu əks etdirən aktual statistik məlumatlar araşdırılır. Təhsil qadınların peşəkar potensialının genişləndirilməsində və onların əmək bazarındakı mövqelərinin möhkəmləndirilməsində əsas amil kimi vurğulanır. Məqalədə qadınların keyfiyyətli təhsilə çıxışını ciddi şəkildə məhdudlaşdıra bilən sosial-mədəni maneələrin təhlilinə xüsusi diqqət yetirilir. Buraya ənənəvi düşüncə tərzi, gender stereotipləri, ailə gözləntiləri və regionlar üzrə fərqliliklər daxildir ki, bunlar da qadınların təhsil və peşə sahələrində iştirakına birbaşa təsir göstərir. Bu cür amillər çox vaxt imkanların bərabərsizliyinə gətirib çıxarır və qadınların cəmiyyətdəki potensiallarının tam reallaşmasını çətinləşdirir. Eyni zamanda, məqalədə qadınlar üçün təhsilin əlçatanlığını artırmaq və onların peşəkar inkişafı üçün əlverişli şərait yaratmaq məqsədi daşıyan mövcud dövlət proqramları, təşəbbüslər və strategiyalar ətraflı şəkildə təhlil olunur. Bu tədbirlərin gender bərabərliyinin təşviqinə və ölkənin sosial-iqtisadi inkişafına necə töhfə verdiyi də araşdırılır.

Açar sözlər: *təhsil, qadınların inkişafı, karyera, statistika, amillər*

SUMMARY

This article is dedicated to a comprehensive analysis of how the level of education affects the professional development and career advancement of women in Azerbaijan. The study examines up-to-date statistical data that clearly demonstrate a strong correlation between educational attainment and women's opportunities for employment, building a successful career, and achieving financial independence. It emphasizes that education plays a crucial role in expanding women's professional potential and strengthening their position in the labor market. Special attention is given to the analysis of socio-cultural barriers that can significantly restrict women's access to quality education. These include traditional beliefs, gender stereotypes, family expectations, and regional disparities, all of which influence women's participation in educational and professional processes. Such factors often lead to unequal opportunities and hinder the full realization of women's potential in society. The article also provides an in-depth review of existing government programs, initiatives, and strategies aimed at increasing access to education for women and creating favorable conditions for their professional growth. It analyzes how these measures contribute to the promotion of gender equality and the socio-economic development of the country as a whole.

Key words: *education, women development, career, statistics, factors.*

UOT 336.71
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.275

BANK SEKTORUNDA İNTELLEKTUAL KAPİTALIN MALİYYƏ GÖSTƏRİCİLƏRİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ: AZƏRBAYCAN NÜMUNƏSİ

AYAN MİRANLI
Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant
E-mail: ayanmiranli0@gmail.com

Giriş

Müasir dövrdə banklar bilik əsaslı müəssisələr kimi qəbul olunur. Onların ən dəyərli aktivləri əqli mülkiyyətdir və əməliyyatları da birbaşa onunla bağlıdır. Bu fəaliyyətlər əsasən insan resursları, brendin yaradılması, sistemlər və proseslər kimi intellektual kapital elementlərinə söykənən əlaqələrin qurulması vasitəsilə müştərilərə təqdim olunan xidmətləri əhatə edir. Şübhəsiz ki, bankların fəaliyyətini gücləndirən bir çox vacib amil mövcuddur, lakin aparılan tədqiqatlar göstərir ki, onların uğurunda ən əhəmiyyətli və strateji aktivlərdən biri intellektual kapitaldır. "Bilik gücdür" ifadəsi bu gün əvvəlkindən daha böyük əhəmiyyət kəsb edir [1].

Bank sektoru intellektual kapitalın araşdırılması üçün əlverişli sahələrdən hesab oluna bilər. Bunun əsas səbəbləri aşağıdakılardır:

1. Şəffaf maliyyə hesabatları – Banklar ciddi tənzimləmə və audit qaydalarına tabedir, balans, gəlir-zərər və nağd pul axını hesabatları etibarlı və şəffaf şəkildə dərc olunur. Bu məlumatlar bankın insan, struktur və əlaqə kapitalını ölçmək və qiymətləndirmək üçün güclü baza yaradır.

2. Bilik əsaslı fəaliyyət – Bank sektorunda əməliyyatlar yüksək intellekt tələb edir. Müştərilərə maliyyə xidmətləri təqdim edərkən analitik düşüncə, məlumat toplama və strateji qərarvermə mühüm rol oynayır ki, bu da intellektual kapitalın əhəmiyyətini artırır.

3. Homogen işçi qüvvəsi – Bank işçiləri əsasən maliyyə və iqtisadiyyat sahəsində ixtisaslaşmış və bənzər bacarıqlara malik olur. Bu, idarəetmə və əməliyyatların daha standart olmasını təmin edir və intellektual kapitalın effektivliyini ölçməyi asanlaşdırır. Digər sektorlarda daha müxtəlif işçi qüvvəsi olduğu üçün belə analizlər daha çətin ola bilər [2].

İntellektual kapitalın idarə edilməsi yalnız rəqabət üstünlüyü deyil, həm də uzunmüddətli effektivliyə və müştəri etimadının möhkəmlənməsinə zəmin yaradır. Bu səbəbdən, onun strateji idarə olunması bankların uğurlu fəaliyyətinin əsas göstəricilərindən biri hesab olunur.

Azərbaycan bank sektorunda intellektual kapitalın qiymətləndirilməsi

Azərbaycan bank sektorunda da intellektual kapitalın dəyərləndirilməsi və effektiv idarə olunması müasir dövrdə mühüm strateji əhəmiyyət kəsb edir. Lakin bu sahədə yerli tədqiqatların azlığı və intellektual kapitalın bank fəaliyyətinə təsirinin yetərincə araşdırılmaması belə bir araşdırmanın aparılmasını vacib edir. Bu baxımdan elmi tədqiqatın məqsədi inkişaf etməkdə olan Azərbaycan bank sektorunda intellektual kapitalın dəyərinin ölçülməsi və onun maliyyə göstəricilərinə təsirinin təhlil edilməsidir.

Araşdırma 2009-2023-cü illəri əhatə edir, lakin 2015-ci ilin fevral və dekabr aylarında baş verən iki devalvasiyanın 2015-2016-cı illərdə bankların mənfəətlilik göstəricilərinə əhəmiyyətli təsiri nəzərə alınaraq, həmin illər analizdən çıxarılmışdır. Tədqiqat işi zamanı intellektual kapitalın qiymətləndirilməsi məqsədilə 31.12.2023 tarixinə aid maliyyə hesabatlarına əsaslanaraq, həmin dövrdə aktiv lisenziyaya malik 23 bank arasından aktiv portfelinin həcminə görə ən iri 10 bank analizə daxil edilmişdir.

Cədvəl 1. Azərbaycanın aktiv həcminə görə ən böyük 10 bankı

Bank	Aktiv həcmi, *min AZN*
"ABB" ASC	*13,929,329*
"Paşa Bank" ASC	*8,893,428*
"Kapital Bank" ASC	*8,810,254*
"Xalq Bank" ASC	*3,047,567*
"Bank Respublika" ASC	*2,034,708*
"UniBank" ASC	*1,631,226*
"Yelo Bank" ASC	*1,553,159*
"Access Bank" ASC	*1,398,634*
"RabitəBank" ASC	*1,118,183*
"Azər-Türk Bank" ASC	*969,730*

Mənbə: *Cədvəl bankların 31.12.2023 tarixli, kənar auditorlar tərəfindən təsdiq edilən konsolidə edilmiş maliyyə hesabatları əsasında hazırlanmışdır (Miranlı A.).*

Banklarda intellektual kapitalın dəyərini hesablamaq üçün Əlavə Dəyər yaradan İntellektual Kapital (ing., VAIC – Value Added Intellectual Capital) metodundan istifadə edilmişdir. Yolama və Coşkun (2007) intellektual kapitalın türk banklarının gəlirliliyinə təsirini araşdırmış və VAIC metodunun intellektual səmərəliliyin ölçülməsi üçün etibarlı bir göstərici olduğunu müəyyən etmişlər. Bu metod intellektual kapitalın əsas elementləri – insan kapitalı, struktur kapitalı və fiziki kapitalın təşkilata verdiyi əlavə dəyəri həm ayrıca, həm də ümumi şəkildə kəmiyyət göstəriciləri ilə təhlil etməyə imkan yaradır. VAIC-in üstünlüyü onun tətbiqinin asanlığı və əldə edilən nəticələrin yüksək dəqiqliyidir. Bu yanaşma praktik istifadəyə uyğun olub, müasir biznes mühitində intellektual kapitalın effektivliyini ölçmək üçün geniş yayılmış bir vasitə kimi qəbul edilir. Bundan əlavə, VAIC metodu təşkilatın real potensialını daha aydın ortaya qoymaqla yanaşı, mənfi təsirləri azaltmağa kömək edir.

Tədqiqatda intellektual kapitalın maliyyə göstəricilərinə təsirinin qiymətləndirilməsi üçün VAIC metodunun komponentləri müstəqil (sərbəst) dəyişən kimi istifadə edilmişdir. VAIC aşağıdakı qaydada hesablanır [3]:

VAICi = CEEi + HCEi + SCEi (1)

Bərabərliyə əsasən (1), VAICi i bankı üzrə əlavə dəyər yaradan intellektual kapital əmsalı, CEEi i bankının cəlb edilən kapital üzrə səmərəliliyi, HCEi bank i-də insan kapitalının səmərəliliyi, SCEi isə i bankının struktur kapitalı üzrə səmərəliliyi olaraq təyin edilir. Bu 3 komponentin hesablanması üçün əvvəlcə banklar tərəfindən yaradılmış cəmi əlavə dəyər – VA-nın (ing., Value Added – VA) ölçülməsi lazımdır. Cəmi VA-nın ölçülmə qaydası belədir [4]:

VAi = (IRi + NIRi) – (IE i + NIEi) (2)

Yuxarıdakı bərabərlikdə (2) VAi i bankı tərəfindən yaradılmış ümumi əlavə dəyər, IRi i bankının faiz gəlirləri, NIRi i bankının qeyri-faiz gəlirləri, IEi bank i-nin faiz xərcləri, NIEi isə i bankının qeyri-faiz xərcləridir.

Bankın yaratdığı ümumi əlavə dəyər müəyyən edildikdən sonra VAICi-in komponentləri hesablanır. CEEi-in ölçülmə qaydası aşağıdakı kimidir [5]:

CEi = Cəmi aktivləri – qısamüddətli öhdəlikləri

CEEi = VAi / CEi (3)

Cəlb edilmiş kapitalın səmərəliliyini ölçmək üçün əvvəlcə cəlb edilmiş kapitalın dəyəri təyin edilməlidir. Cəlb edilmiş kapital bankın cəmi aktivləri və qısamüddətli borclar, qısamüddətli depozitlər, cari vergi öhdəliklərinin cəmi dəyəri arasındakı fərqə bərabərdir. Yuxarıdakı bərabərlikdən (3) görünür ki, cəlb edilmiş kapitalın səmərəliliyi bank i tərəfindən yaradılmış əlavə dəyərin cəlb edilmiş kapitala nisbətini hesablamaqla müəyyən edilir. HCEi və SKSi-i isə aşağıdakı bərabərliklər əsasında qiymətləndirmək mümkündür:

HCEi = VAi / HCi (4)

SCi = VAi – HCi (5)

SCEi = SCi / VAi (6)

Bərabərlik (4), (5) və (6)-da HCi i bankının işçi xərclərini, SCi isə bank i üzrə yaradılmış əlavə dəyər və insan kapitalı arasındakı fərqi təmsil edir. Göründüyü kimi, insan kapitalı və struktur kapitalının həcmi arasında tərs mütənasib əlaqə mövcuddur [5].

Cədvəl 2. 2009-2023-cü illər ərzində intellektual kapital və komponentlərinin illik orta göstəriciləri

İllər	*CEE*	*HCE*	*SCE*	*VAIC*
2009	*0.1326*	*3.1922*	*0.5380*	*3.8629*
2010	*0.1419*	*2.9273*	*0.5862*	*3.6554*
2011	*0.1406*	*2.6802*	*0.5707*	*3.3916*
2012	*0.1411*	*2.5643*	*0.5337*	*3.2393*
2013	*0.1551*	*2.4034*	*0.4101*	*2.9688*
2014	*0.1619*	*2.7749*	*0.8042*	*3.7411*
2017	*0.1189*	*2.3270*	*0.2767*	*2.7227*
2018	*0.1576*	*2.3858*	*0.5006*	*3.0441*
2019	*0.1924*	*2.4614*	*0.5232*	*3.1770*
2020	*0.1662*	*2.0710*	*0.4478*	*2.6851*
2021	*0.1927*	*2.1171*	*0.4589*	*2.7689*
2022	*0.1939*	*0.9336*	*0.4975*	*2.8616*
2023	*0.2246*	*0.8403*	*0.5167*	*3.0324*
Orta göstərici	***0.1631***	***2.2830***	***0.5126***	***3.1655***

Mənbə: *Cədvəl tədqiqat zamanı əldə edilən nəticələr əsasında müəllif tərəfindən hazırlanmışdır (Miranlı A.).*

Cədvəl 2-də Azərbaycan bank sektorunun maliyyə performansına təsir edən göstəricilər – CEE, HCE, SCE və VAIC-in illik orta dəyərləri təqdim edilmişdir. Araşdırmaya daxil edilən 10 bank üzrə hər bir indikator illik əsasda hesablanmış və illik orta qiymətlərin müəyyən edilməsində bu dəyişənlərin 10 bank üzrə ədədi ortası nəzərə alınmışdır. Nəticələr göstərir ki, VAIC-in tərkibində ən yüksək paya sahib olan komponent insan kapitalıdır. Bu, Azərbaycan banklarının işçi resurslarını bank fəaliyyətinin əsas elementi kimi gördüyünü göstərir. Tədqiqat

dövrü ərzində VAIC-in ən yüksək illik orta dəyəri 2009-cu ilə, ən aşağı illik orta dəyəri isə 2020-ci ilə təsadüf edir. Ümumi tədqiqat dövrü üzrə VAIC-in orta dəyəri 3.1655 olmuşdur, bununla yanaşı 2013, 2017, 2018 və 2020-2023-cü illər ərzində əldə edilən nəticələr bu ortadan aşağıdır. Son 10 il ərzində əksər illərdə əldə edilən göstəricilərin orta dəyərdən aşağı olması bir neçə amillə izah oluna bilər:

1. 2015-ci il devalvasiyasının təsirləri: Bu dövr ərzində baş verən devalvasiya dalğalarının təsiri ilə xarici valyutada olan borcların dəyəri artdı, bu da bankların balanslarında və mənfəət göstəricilərində mənfi təsir yaratdı. Azərbaycan Respublikası Mərkəzi Bankının statistik bülletenlərinə əsasən, xüsusilə 2017-2018-ci illərdə banklarda problemli kreditlərin əhəmiyyətli dərəcədə artdığı və bunun bank sektorunun maliyyə sağlamlığına zərər verdiyi müşahidə olundu. Bu dövrdə ən azı 10 bankın fəaliyyəti dayandırıldı, bu isə işçi resurslarının azaldılmasına və insan kapitalının itkisinə səbəb oldu. 2020-2023-cü illərdə HCE göstəricilərinin də orta dəyərdən aşağı olması qeyd olunan amillərin məntiqi nəticəsidir.

2. İnnovasiya və texnologiyanın aşağı səviyyədə istifadəsi: Azərbaycan bank sektorunda rəqəmsallaşma və innovasiya sahəsindəki ləng inkişaf VAIC göstəricilərinə mənfi təsir göstərmişdir. Xüsusilə 2020-2023-cü illərdə COVID-19 pandemiyası və post-pandemiya dövründə rəqəmsal transformasiya daha da önəmli olmuşdur, lakin Azərbaycan bankları bu sahədə qlobal tendensiyalardan geri qalmışdır.

İntellektual kapital və bankların maliyyə perfomansı arasındakı əlaqənin ölçülməsi

Maliyyə institutlarının intellektual kapitalın səmərəliliyi ilə maliyyə göstəriciləri arasındakı əlaqəni araşdıran tədqiqatlarda aktivlərin səmərəliliyi (ROA) əsas maliyyə göstəricisi kimi qəbul edilir [6]. Ədəbiyyatda yer alan çoxsaylı tədqiqatların nəticələri, intellektual kapitalın əlavə dəyəri (VAIC) ilə ROA arasında müsbət əlaqənin olduğunu göstərir. Lakin hansı VAIC komponentinin aktivlərin gəlirliliyinə daha çox təsir etdiyi hələ də mübahisə mövzusudur. Bəzi araşdırmalar [7] bildirir ki, maliyyə göstəricilərini müsbət istiqamətdə təsir edən ən vacib komponent insan kapitalıdır; digər tədqiqatlar isə (Al-Musalli və Ku İsmail, 2014; Joshi və digərləri, 2013; Kayacan və Özkan, 2015; Puntillo, 2009; Ting və Lean, 2009) struktur kapitalın (SCE) göstəricilərə müsbət təsir etdiyini irəli sürür [3].

Cədvəl 3. İntellektual kapital, onun komponentləri və digər dəyişənlər arasındakı korrelyasiya

Dəyişənlər	ROA	VAIC	HCE	SCE	CEE	LNTA	LEV	DEP	LNAS
ROA	1								
VAIC	0.6182	1							
HCE	0.1774	0.6292	1						
SCE	0.3971	0.7476	0.2619	1					
CEE	0.1100	-0.3350	-0.7639	0.1202	1				
LNTA	-0.4070	-0.7064	-0.8609	-0.2477	0.7503	1			
LEV	-0.2806	-0.6565	-0.2462	-0.5215	0.2656	0.2626	1		
DEP	-0.1578	-0.6233	-0.4371	-0.5122	0.3715	0.3821	0.8991	1	
LNAS	-0.3229	-0.7395	-0.8847	-0.2772	0.8247	0.9738	0.3651	0.4495	1

Mənbə: *Cədvəl korrelyasiya analizinin nəticələri əsasında müəllif tərəfindən hazırlanmışdır (Miranlı A.)*

Tədqiqat işi üzrə Azərbaycan banklarında intellektual kapitalın maliyyə perfomansına təsirinin qiymətləndirilməsi üçün Pearson korrelyasiyası və reqressiya modellərindən istifadə olunmuşdur. Korrelyasiya analizi vasitəsilə Azərbaycan bank sektoru üzrə VAIC və aktivlərin mənfəətliliyi arasındakı xətti əlaqənin həm gücünü, həm də istiqamətini təhlil etmək mümkündür. Reqressiya analizi isə dəyişənlər arasındakı əlaqənin daha dərindən öyrənilməsi üçün istifadə edilmişdir ki, bu da intellektual kapitalın maliyyə perfomansına təsirinin daha dəqiq şəkildə ölçülməsini təmin edir. Reqressiya modelləri bir və ya bir neçə müstəqil dəyişənin asılı dəyişən üzərindəki təsirini təhlil etməyə imkan verir. Burada intellektual kapitalın müxtəlif aspektlərinin (məsələn, insan kapitalı, struktur kapitalı) maliyyə performansına olan fərdi təsirlərini araşdırmaq mümkün olmuşdur. Analiz zamanı reqressiya modellərinə nəzarət dəyişənləri olaraq ümumi bankın ölçüsü (LNTA), leverec əmsalı (LEV), depozit həcminin cəmi aktivlərə nisbəti (DEP), orta aylıq əməkhaqqı (LNAS) göstəriciləri əlavə edilmişdir. Korrelyasiya analizinin nəticələrini aşağıdakı kimi şərh etmək olar:

a) VAIC – Aktivlərin gəlirliliyi və intellektual kapital göstəricisi arasında statistik olaraq müsbət əhəmiyyətli əlaqə (62%) mövcuddur. Bu, intellektual kapitalın, yəni işçi qüvvəsinin bacarıqları, bankın struktur təşkilatı və digər qeyri-maddi resursların maliyyə nəticələrinə müsbət təsir etdiyini göstərir.

b) HCE – Azərbaycan bank sektorunun gəlirliliyi ilə insan kapitalı arasında zəif müsbət əlaqə (18%) müşahidə edilir. İnsan kapitalının səmərəliliyinin nisbətən aşağı olması bankların əməkdaşlarının bilik və bacarıqlarından tam istifadə edə bilməməsi və

ya qeyri-effektiv idarəetmə modellərinin mövcudluğu ilə əlaqəli ola bilər.

c) SCE – Aktivlərin gəlirliliyi ilə struktur kapitalın effektivliyi arasında orta səviyyəli müsbət əlaqə (40%) qeyd edilir. Bu, struktur kapitalını düzgün idarə edən bankların daha yüksək gəlir əldə etmə ehtimalının olduğunu göstərir.

d) CEE – Bankların gəlirliliyi və cəlb edilən kapitalın səmərəliliyi arasında çox zəif müsbət əlaqə mövcuddur – 11%. Bu, bankların gəlir gətirən investisiyaları hələ də məhdud şəkildə istifadə etmələrini göstərir. Azərbaycan banklarında kapital daha aşağı gəlirli və daha sabit sahələrə sərf olunur (məsələn, dövlət istiqrazları və s.), bu da kapitalın istifadəsinin müsbət olmasına baxmayaraq, gəlirliliyin azalmış olmasına səbəb olur.

e) LNTA – Aktivlərin həcmi ilə gəlirlilik arasında orta güclü mənfi əlaqə (-41%) mövcuddur. Bu, Azərbaycan banklarında aktivlərin artması ilə gəlirgətirmə səviyyələri arasında mənfi bir əlaqənin olduğunu göstərir. Aktivlərin böyüməsi bankların əməliyyat xərclərini və risklərini artırır, bu da ümumilikdə gəlirliliyə mənfi təsir göstərə bilər.

f) LEV – Azərbaycan banklarında borclanma səviyyəsi ilə gəlirlilik arasında zəif mənfi əlaqə (-28%) müşahidə olunur. Borclanma dərəcəsinin artması bankların maliyyə risklərini artırır və bu, ölkənin iqtisadi və maliyyə bazarlarında mövcud olan çətinliklər səbəbindən gəlirliliyi azaldır.

g) DEP – Banklardakı müştəri hesabları ilə gəlirlilik arasında zəif mənfi əlaqə (-16%) müşahidə edilir. Azərbaycanda bankların depozit kütləsinin aktivlərə nisbəti yüksəkdir, bu isə onların depozit cəlb etməsi və idarə etməsi üçün əlavə resurslar tələb edir. Bu əlavə resurslar isə banklara yüksək faiz və xərclər gətirir, nəticədə ümumi gəlirlilik azalır.

h) LNAS – Bankların gəlirliliyi ilə tədqiqat dövründə orta aylıq əməkhaqqı arasında orta səviyyəli zəif mənfi əlaqə (-32%) müşahidə edilir. Bankların əməkhaqqı xərclərinin artması ümumi xərcləri artırır və bu, gəlirliliyə mənfi təsir göstərir, belə ki, əməliyyat xərcləri səmərəli idarə edilmədikdə mənfəət azalır.

Cədvəl 4. Reqressiya modelləri

Model	*Reqressiya bərabərliyi*
1	$ROA_{it} = \beta_0 + \beta_1 VAIC_{it} + \varepsilon_{it}$
2	$ROA_{it} = \beta_0 + \beta_1 CEE_{it} + \beta_2 HCE_{it} + \beta_3 SCE_{it} + \varepsilon_{it}$
3	$ROA_{it} = \beta_0 + \beta_1 VAIC_{it} + \beta_2 LNTA_{it} + \beta_3 LEV_{it} + \beta_4 DEP_{it} + \beta_5 LNAS_{it} + \varepsilon_{it}$
4	$ROA_{it} = \beta_0 + \beta_1 CEE_{it} + \beta_2 HCE_{it} + \beta_3 SCE_{it} + \beta_4 LNTA_{it} + \beta_5 LEV_i ++ \beta_4 DEP_{it} + \beta_7 LNAS + \varepsilon_{it}$

Mənbə: *Cədvəl müəllif tərəfindən hazırlanmışdır (Miranlı A.)*

Cədvəl 4-də təqdim olunan modellər aşağıdakı hipotezləri test etmək məqsədilə hazırlanmışdır:

H1. Azərbaycanda fəaliyyət göstərən bankların VAIC əmsalı ilə onların aktivlərinin gəlirliliyi arasında statistik baxımdan əhəmiyyətli müsbət əlaqə mövcuddur.

H2. Azərbaycanda bankların cəlb etdikləri kapitalın səmərəliliyi ilə onların aktivlərinin gəlirliliyi arasında statistik baxımdan əhəmiyyətli müsbət əlaqə mövcuddur.

H3. Azərbaycanda bankların insan kapitalının səmərəliliyi ilə onların aktivlərinin gəlirliliyi arasında statistik baxımdan əhəmiyyətli müsbət əlaqə mövcuddur.

H4. Azərbaycanda bankların struktur kapitalının səmərəliliyi ilə onların aktivlərinin gəlirliliyi arasında statistik baxımdan əhəmiyyətli müsbət əlaqə mövcuddur.

Cədvəl 5. Reqressiya nəticələri

Sərbəst dəyişənlər	*Model 1.*	*Model 2.*	*Model 3.*	*Model 4.*
C (sabit)	*-0.0254*	*-0.0227*	*0.0120*	*0.1242*
VAIC			*0.0145*	
CEE		*0.1095*		*0.2083*
HCE		*0.0049*		*0.0036*
SCE		*0.0161*		*-0.0061*
LNTA			*-0.0316*	*-0.0270*
LEV			*-0.0345*	*-0.0500*
DEP			*0.0468*	*0.0534*
LNAS			*0.0606*	*0.0342*
Adjusted R^2	*0.3259*	*-0.0474*	*0.5933*	*0.4139*
p-value	*0.0243*	*0.0153*	*0.0371*	*0.0297*

Mənbə: *Cədvəl reqressiya analizinin nəticələri əsasında müəllif tərəfindən hazırlanmışdır (Miranlı A.).*

Cədvəl 7.-də Azərbaycanda fəaliyyət göstərən bankların maliyyə perfomansı və intellektual kapital

göstəriciləri arasındakı əlaqəni ölçən 4 model üzrə reqressiya analizinin nəticələri təqdim edilmişdir. . Cədvəldə hər bir model üzrə dəyişənlərin β əmsalı, düzəliş edilmiş R2 (adjusted R2) və p-dəyərləri (p-value) qeyd edilib P-dəyərlərinə baxaraq söyləmək olar ki, modellərin hər biri statistik cəhətdən əhəmiyyətlidir ($P \leq 0.05$). Modellərin izah gücü baxımından düzəliş edilmiş R2 göstəricilərinə baxdıqda 2-ci modelin olduqca zəif, 0-a yaxın izahetmə qabiliyyətinə sahib olduğunu görmək mümkündür. Yəni CEE, HCE və SCE ilə ROA arasında statistik baxımdan əhəmiyyətsiz tərs-mütənasib əlaqə var. Model 1 isə intellektual kapital komponentlərinin birgə şəkildə - VAIC əmsalı vasitəsilə bankların mənfəətliliyini daha yaxşı izah etdiyini göstərir – 33%. Buradan belə nəticə çıxarmaq olur ki, VAIC və bankların gəlirliliyi arasında orta statistik əhəmiyyətli müsbət əlaqə mövcuddur. 3-cü və 4-cü modellər üzrə daha yüksək düzəliş edilmiş R2 nəticələri əldə edilmişdir. Bu 2 model arasında da müqayisə apardıqda məlum olur ki, intellektual kapitalın komponentlərinin birgə formada bank aktivlərinin gəlirliliyini izahetmə gücü daha yüksəkdir – 59%. Beləliklə, VAIC və digər nəzarət dəyişənləri ilə ROA arasında statistik əhəmiyyətli müsbət əlaqənin olduğunu söyləmək olar. CEE, HCE, SCE və digər sərbəst dəyişənlərlə aktivlərin gəlirliliyi arasında orta səviyyəli statistik əhəmiyyətli müsbət korrelyasiya mövcuddur – 41%.

Nəticə

Tədqiqatda göstərilən zəif müsbət əlaqə nəzərə alınaraq, Azərbaycan bankları insan kapitalına daha çox sərmayə qoymalıdırlar. Bu məqsədlə, banklarda əməkdaşların bilik və bacarıqlarını artırmaq üçün müntəzəm təlim proqramları təşkil edilməli, işçi qüvvəsinin inkişafı ön planda saxlanılmalıdır. İnsan kapitalının səmərəliliyini artırmaq üçün idarəetmə strukturlarında da dəyişikliklər edilə bilər.

Struktur kapitalının (xüsusilə texnoloji infrastrukturlar və təşkilati sistemlər) daha effektiv idarə edilməsi bankların gəlirlərini artırmağa kömək edə bilər. Təşkilat daxilində prosesləri avtomatlaşdırmaq və effektivliyini artırmaq üçün yeni texnoloji həllərdən, məsələn, süni intellektdən və data analitiklərindən istifadə edilməsi mümkündür.

Tədqiqatın nəticələri göstərir ki, intellektual kapitalın birgə istifadəsi bankların maliyyə göstəricilərinə daha çox təsir edir. Buna görə də, banklar VAIC göstəricisi üzrə daha geniş strateji planlar hazırlamalı və intellektual kapitalın bütün komponentlərinin qarşılıqlı təsirini nəzərə alaraq fəaliyyətlərini daha səmərəli şəkildə qurmalıdırlar.

Cəlb edilən kapitalın səmərəliliyinin aşağı olması bankların daha sabit və az gəlirli sahələrə sərmayə qoymalarından qaynaqlanır. Banklar yüksək gəlirli sahələrə, xüsusilə yenilikçi və yüksək riskli investisiyalara daha çox fokuslanmalı, kapitalın effektiv istifadəsini artırmalıdırlar.

Banklar intellektual kapitalın performansını müntəzəm olaraq qiymətləndirməli və idarəetmə qərarlarını bu qiymətləndirmələrə əsaslanaraq qəbul etməlidirlər. İntellektual kapitalın səmərəliliyini müntəzəm olaraq qiymətləndirmək bankların idarəetmə qərarlarını düzgün qəbul etmələri üçün vacibdir. Banklar bu məqsədlə müasir qiymətləndirmə metodologiyalarından istifadə etməlidirlər. Məsələn, hər il bankın işçiləri və texnoloji infrastrukturunun performansı ilə bağlı ətraflı hesabatlar hazırlanmalı, bu məlumatlar əsasında gələcək strategiyalar müəyyən edilməlidir. Həmçinin, bu qiymətləndirmələr bankın ümumi strateji məqsədləri ilə uyğun olmalı və təşkilatın bütün sahələrində koordinasiya edilməlidir.

İntellektual kapitalın birgə istifadəsi və müntəzəm qiymətləndirilməsi bankların maliyyə performansını yüksəldərək uzunmüddətli inkişafı təmin edər. Bu yanaşmaların tətbiqi ilə banklar daha səmərəli fəaliyyət göstərərək müasir iqtisadi tələblərə uyğunlaşa bilərlər.

ƏDƏBİYYAT SİYAHISI:

1. Buallay A., Hamdan A.M., Reyad S., Badawi Sherine, Madbouly A. "The efficiency of GCC banks: the role of intellectual capital", European Business Review, 2020, Vol. 32.2020, 3 (11.05.), p. 383-404.

2. G.Mavridis D., "The intellectual capital performance of the Japanese banking sector", Journal of intellectual capital, 2004, vol.5(1), p.92-115.

3. Ozkan N., Cakan S., Kayacan M., "Intellectual capital and financial performance: A study of the Turkish Banking Sector", Borsa Istanbul Review, 2017, vol 3, p.190-198.

4. Janosevic S., Dzenopoljac V., Bontis N. "Intellectual Capital and Financial Performance in Serbia", Knowledge and process management, 2013, vol. 20(1)

5. Kozera-Kowalska M., "Intellectual Capital: ISVA, the Alternative Way of Calculating Creating Value in Agricultural Entities—Case of Poland",

Sustainability, 2020, vol. 12(7).

6. Ali Sh., Murtaza Gh., Hedvichakova M., Jiang J., Naeem M., "Intellectual capital and financial performance: A comparative study", Organizational Psychology, 2022, vol. 13.

7. Ognjanovic Jasmina and S.Vasic Aleksandra, "Research on the relationship between intellectual capital and indicators of work results of employees in the banking sector of the republic of Serbia", Skola Biznisa, 2019, vol.497.11.

İnternet resursları:

1. https://uploads.cbar.az/assets/1db1173040cd0364af5d7f0d2.pdf

2. https://www.cbar.az/page-6/annual-reports

3. https://adif.gov.az/az/cancellation_info/

4. https://azstat.gov.az/statHtml/statHtml.do?orgId=994&tblId=DT_AB_016

5. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_banklar%C4%B1n%C4%B1n_siyah%C4%B1s%C4%B1

6. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan%C4%B1n_bank_sistemi

7. https://abb-bank.az/az/hesabatlar

8. https://www.pashabank.az/static,95/lang,az/

9. https://www.kapitalbank.az/reports

10. https://www.xalqbank.az/az/ferdi/bank/hesabatlar

11. https://www.bankrespublika.az/az/reportsnew

12. https://unibank.az/az/documents/index/79

13. https://www.yelo.az/az/about-bank/reports/year/

14. https://www.accessbank.az/az/our-bank/in-figures/

15. https://www.rabitabank.com/diger/hesabatlar/audit-hesabatlari/2022-ci-ilin-hesabatlari

16. https://atb.az/reports/

17. https://aba.az/banklar/toplu/

Miranlı Ayan Rövşən
Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant
E-mail: ayanmiranli0@gmail.com

BANK SEKTORUNDA İNTELLEKTUAL KAPİTALIN MALİYYƏ GÖSTƏRİCİLƏRİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ: AZƏRBAYCAN NÜMUNƏSİ

XÜLASƏ

Azərbaycan bank sektorunda intellektual kapitalın hər bir komponenti – insan kapitalı, struktural kapital və müştəri kapitalı – maliyyə göstəricilərini yaxşılaşdırmağa müsbət təsir göstərir. Bu, banların davamlı uğuru və uzunmüddətli maliyyə dayanıqlığı üçün vacibdir. Xüsusilə, insan və struktural kapitalın inkişafı bankların gəlirliliyini və ümumi səmərəliliyini artırır. Bu komponentlərə sərmayə qoyulması bankların rəqabət qabiliyyətini gücləndirir və iqtisadi mühitdə daha möhkəm yer tutmalarına şərait yaradır. Müştəri kapitalı da bankların maliyyə göstəricilərinə təsir edən mühüm bir amildir. Müştəri məmnuniyyətini və əlaqələrini artırmaq bankların bazar payını gücləndirir və gəlirlərini artırır. Banklar bu sahədə daha effektiv strategiyalar və metodologiyalar tətbiq edərək rəqabət üstünlüyü əldə edə bilər. İntellektual kapitalın düzgün qiymətləndirilməsi və effektiv idarə olunması Azərbaycan bank sektorunun inkişafına və maliyyə göstəricilərinin gücləndirilməsinə əhəmiyyətli töhfə verə bilər. Bu baxımdan, bankların strateji qərarlarında intellektual kapitalın roluna xüsusi diqqət yetirilməsi zəruridir.

Açar sözlər: *bankçılıq, intellektual kapital, aktivlərin gəlirliliyi, əlavə dəyər, səmərəlilik.*

Miranli Ayan Rovshan
Azerbaijan State University of Economics, master's student
E-mail: ayanmiranli0@gmail.com

EVALUATING THE IMPACT OF INTELLECTUAL CAPITAL ON FINANCIAL INDICATORS IN THE BANKING SECTOR: THE CASE OF AZERBAIJAN

SUMMARY

In the Azerbaijani banking sector, each component of intellectual capital – human capital, structural capital, and customer capital – has a positive impact on improving financial indicators. This is crucial for the sustainable success and long-term financial stability of banks. In particular, the development of human and structural capital increases the profitability and overall efficiency of banks. Investing in these components strengthens the competitiveness of banks and enables them to secure a more solid position in the economic environment. Customer capital is also an important factor influencing the financial indicators of banks. Enhancing customer satisfaction and relationships strengthens

banks' market share and increases revenues. Banks can gain a competitive advantage by implementing more effective strategies and methodologies in this area. Proper evaluation and effective management of intellectual capital can make a significant contribution to the development of the Azerbaijani banking sector and the improvement of financial indicators. In this regard, it is essential to pay special attention to the role of intellectual capital in the strategic decisions of banks.

Keywords: *banking, intellectual capital, asset profitability, value-added, efficiency.*

Миранлы Аян Ровшан.
Азербайджанский Государственный Экономический Университет, магистрант
Эл. почта: ayanmiranli0@gmail.com

ОЦЕНКА ВЛИЯНИЯ ИНТЕЛЛЕКТУАЛЬНОГО КАПИТАЛА НА ФИНАНСОВЫЕ ПОКАЗАТЕЛИ В БАНКОВОМ СЕКТОРЕ: ПРИМЕР АЗЕРБАЙДЖАНА

РЕЗЮМЕ

В банковом секторе Азербайджана каждый компонент интеллектуального капитала — человеческий капитал, структурный капитал и клиентский капитал — оказывает положительное влияние на улучшение финансовых показателей. Это важно для устойчивого успеха и долгосрочной финансовой стабильности банков. Особенно развитие человеческого и структурного капитала увеличивает рентабельность и общую эффективность банков. Инвестиции в эти компоненты усиливают конкурентоспособность банков и создают условия для их более прочного положения в экономической среде. Клиентский капитал также является важным фактором, влияющим на финансовые показатели банков. Повышение удовлетворенности клиентов и улучшение отношений с ними укрепляют рыночную долю банков и увеличивают их доходы. Банки могут получить конкурентное преимущество, внедряя более эффективные стратегии и методологии в этой области. Правильная оценка и эффективное управление интеллектуальным капиталом может значительно способствовать развитию банковского сектора Азербайджана и улучшению финансовых показателей. В этом контексте необходимо уделять особое внимание роли интеллектуального капитала в стратегических решениях банков.

Ключевые слова: *банковское дело, интеллектуальный капитал, рентабельность активов, добавленная стоимость, эффективность.*

UOT 336.71
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.278

AZƏRBAYCANDA BANK SİSTEMİNİN MALİYYƏ DAYANIQLIĞINA TƏSİR EDƏN AMİLLƏRİN TƏHLİLİ

ƏLİ MƏMMƏDZADƏ
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, magistrant

E-mail: elimemmedzade114@gmail.com

Giriş

Azərbaycanda bank sisteminin maliyyə dayanıqlılığı ölkənin iqtisadi inkişafının təmin edilməsi və maliyyə bazarının sabitliyinin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu dayanıqlığa təsir edən bir sıra iqtisadi, hüquqi və idarəetmə amilləri mövcuddur ki, onların təhlili bank sektorunun inkişafı və risklərin idarə olunması üçün zəruridir.

Əsas hissə

Azərbaycanda bank sisteminin maliyyə dayanıqlığına makroiqtisadi amillərin təsiri əhəmiyyətlidir. İqtisadi artımın səviyyəsi, inflyasiya, valyuta məzənnələri və dövlətin maliyyə siyasəti bank sektorunun fəaliyyətinə birbaşa təsir edir. Xüsusilə, neftdən asılı olan iqtisadiyyatda neft qiymətlərindəki dəyişikliklər bankların kredit portfeli, likvidlik vəziyyəti və ümumi maliyyə dayanıqlılığı üçün əsas risklərdən biridir. Sabit makroiqtisadi mühit, bankların aktiv keyfiyyətini və müştəri etibarını artırmaqla yanaşı, maliyyə bazarının uzunmüddətli sabitliyini təmin edir. Buna görə də makroiqtisadi göstəricilərin stabilləşdirilməsi bank sisteminin sağlam inkişafı üçün mühüm əhəmiyyət daşıyır [1].

Şəkil 1. Makroiqtisadi amillərin bank sisteminə təsiri

Kredit Riski – Kredit riski, borcalanın aldığı kredit öhdəliklərini vaxtında və tam həcmdə yerinə yetirə bilməməsi ilə bağlı olan əsas maliyyə risklərindən biridir. Azərbaycanda bank sistemində kredit riski bankların aktiv keyfiyyətinə, likvidliyinə və ümumi maliyyə dayanıqlılığına birbaşa təsir göstərir. Problemli kreditlərin səviyyəsinin artması bankların gəlirlərini azaldır və kapital adekvatlığını zəiflədir. Kredit riskinin idarə olunması üçün borcalanların maliyyə vəziyyətinin dəqiq qiymətləndirilməsi, effektiv skorinq sistemlərinin tətbiqi və kredit portfelinin diversifikasiyası mühüm əhəmiyyət daşıyır. Riskin azaldılması, bankların dayanıqlılığını və müştəri etibarını artırmaq üçün zəruri şərtdir.

Şəkil 2. Problemli kreditlər və ümumi kredit həcmi (2015-2022)

Kapital Adekvatlığı – Kapital adekvatlığı, bankların risklərə qarşı maliyyə dayanıqlılığını ölçən əsas göstəricidir. Bu göstərici, bankın kapitalının risk çəkili aktivlərinə nisbətini əks etdirir və beynəlxalq Bazel standartlarına uyğun olaraq tənzimlənir. Kapital adekvatlığının yüksək olması bankın mümkün maliyyə itkilərinə qarşı daha davamlı olduğunu göstərir. Azərbaycanda kapital adekvatlığı, bank sektorunun sabitliyini təmin etmək və investor etibarını artırmaq baxımından mühüm əhəmiyyətə malikdir. Kapital çatışmazlığı isə bankların kredit risklərinə və əməliyyat risklərinə qarşı həssaslığını artırır. Bu göstəricinin artırılması üçün kapital ehtiyatlarının genişləndirilməsi və risklərin effektiv idarə olunması vacibdir [2].

Şəkil 3. Azərbaycanda bankların kapital adekvatlığı (2015-2022)

Hüquqi və Tənzimləmə Çərçivəsi – Hüquqi və tənzimləmə çərçivəsi bank sektorunun dayanıqlı və şəffaf fəaliyyətini təmin edən əsas mexanizmdir. Azərbaycanda bu çərçivə Azərbaycan Mərkəzi Bankı (AMB) və digər müvafiq qurumlar tərəfindən müəyyən edilir və idarə olunur. Bankların fəaliyyətini tənzimləyən əsas qanunvericilik aktları "Banklar haqqında" qanun və "Mərkəzi Bank haqqında" qanundur. Bu qanunlar bankların kapital adekvatlığı, likvidlik tələbləri və risk idarəetməsi kimi sahələrdə qlobal standartlara uyğun fəaliyyətini təmin etməyi hədəfləyir. Tənzimləmə çərçivəsi, eyni zamanda, bankların korporativ idarəetmə prinsiplərinə riayət etməsini və müştəri hüquqlarının qorunmasını təmin edir. Tənzimləmələrin gücləndirilməsi maliyyə dayanıqlılığını artıraraq bank sektorunda şəffaflıq və sabitlik yaradır [3].

Şəkil 4. Hüquqi və tənzimləmə çərçivəsinin təsiri (2015-2022)

Müştəri Etibarı – Müştəri etibarı, bank sektorunda maliyyə dayanıqlılığını və sabitliyini təmin edən əsas amillərdən biridir. Müştərilərin banklara olan etibarı yüksək olduqda, depozitlərin cəlb edilməsi asanlaşır və kredit portfeli genişlənir. Azərbaycanda bankların müştəri etibarını qorumaq üçün şəffaflıq, keyfiyyətli xidmət və müştəri hüquqlarının müdafiəsi mühüm əhəmiyyət kəsb edir. Etimadın artırılması üçün banklar texnologiyaya əsaslanan təhlükəsizlik tədbirlərini gücləndirməli, müştərilərlə şəffaf kommunikasiyanı təmin etməli və etibarlı maliyyə məhsulları təqdim etməlidir. Müştəri etibarı, bankların uzunmüddətli uğurunun və rəqabət qabiliyyətinin təminatçısıdır [4].

Şəkil 5. Müştəri etibarının bank sisteminə təsiri

Texnologiya və İnnovasiyalar – Texnologiya və innovasiyalar bank sektorunda əməliyyatların effektivliyini artıran, xidmət keyfiyyətini yüksəldən və müştəri məmnuniyyətini təmin edən əsas amillərdən biridir. Rəqəmsal bankçılıq, mobil tətbiqlər və süni intellekt əsaslı xidmətlər bankların əməliyyat xərclərini azaldır, sürəti artırır və daha geniş müştəri bazasına çıxış imkanı yaradır. Azərbaycanda bankların texnoloji həllərə üstünlük verməsi rəqəmsal transformasiyanı sürətləndirmişdir. Elektron ödəmə sistemləri, onlayn kreditləşmə və blockchain texnologiyalarının tətbiqi, həm təhlükəsizliyi artırır, həm də müasir müştəri ehtiyaclarını qarşılayır. Texnologiya və innovasiyalar bankların rəqabət qabiliyyətini gücləndirərək maliyyə dayanıqlılığını təmin edir [5].

Şəkil 6. Texnologiya və innovasiyaların bank sektoruna təsiri (2015-2022)

Azərbaycanda bank sisteminin maliyyə dayanıqlılığını təmin etmək üçün makroiqtisadi sabitliyin qorunması, kredit risklərinin azaldılması, kapital adekvatlığının gücləndirilməsi və tənzimləmə çərçivəsinin təkmilləşdirilməsi vacibdir. Müştəri etibarının artırılması və rəqəmsal innovasiyaların tətbiqi bankların dayanıqlı inkişafına töhfə verəcək. Bu amillərin kompleks təhlili və idarə edilməsi, bank sektorunun uzunmüddətli perspektivdə inkişafını təmin edəcək.

Nəticə

Azərbaycanda bank sistemində maliyyə dayanıqlılığına təsir edən amillər bir neçə əsas faktora əsaslanır. Bu amillər bankların fəaliyyətini və ümumi iqtisadi sabitliyə təsir edən müxtəlif daxili və xarici faktorları əhatə edir. Azərbaycanda bank sistemində maliyyə dayanıqlılığına təsir edən amillər bir neçə risk faktorunun və idarəetmə strategiyalarının qarşılıqlı əlaqəsindən asılıdır. Bu amillər bankların sağlam fəaliyyətini təmin edərək ölkənin ümumi iqtisadi sabitliyini qorumağa xidmət edir. Makroiqtisadi sabitlik, düzgün idarəetmə, risklərin effektiv idarə edilməsi və güclü tənzimləyici siyasətlərin tətbiqi bu amillərin müsbət nəticələrə gətirib çıxarmasına kömək edə bilər.

ƏDƏBİYYAT SİYAHISI:

1. Şəhla Əlicanova "Müasir Şəraitdə Müəssisənin Maliyyə Dayanıqlığının İdarə Edilməsi və Təkmilləşdirilməsi", Bakı, 2022
2. Arzu Allahverdiyeva, "Problemlı Kreditlər Portfelinin Səmərəli İdarə Edilməsinin Bankın Maliyyə Dayanıqlığına Təsiri", Bakı, 2021
3. Şəhla Əlicanova, "Müasir Şəraitdə Müəssisənin Maliyyə Dayanıqlığının İdarə Edilməsi", Bakı, 2022
4. Laura Thompson, Financial Stability Indicators for Azerbaijani Corporations, Toronto, 2020
5. James Anderson, Corporate Finance and Economic Stability in Azerbaijan, San Francisco, 2021

XÜLASƏ

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistri
E-mail: tahir.shamilov95@gmail.com

Giriş

Azərbaycan iqtisadiyyatında təbii ehtiyatların hasilatı və kənd təsərrüfatı sahələri mühüm rol oynayır. Bu amil, mövcud resurslardan istifadədə ekoloji balansın qorunması və gələcək nəsillərin maraqlarının nəzərə alınması baxımından xüsusi əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən ölkədə iqtisadi artımın dayanıqlı şəkildə təmin olunması üçün ətraf mühitin mühafizəsi, əldə olunan gəlirlərin sosial rifah naminə yenidən bölgüsü və xalis investisiyaların artırılması kimi vacib meyarlara diqqət yetirilir. Bu istiqamətlər dövlətin iqtisadi strategiyasının əsas prioritetləri sırasındadır. Ümumilikdə, "davamlı inkişaf" anlayışı beynəlxalq, milli və regional səviyyələrdə cəmiyyətin sosial, əxlaqi və ekoloji çərçivədə balanslı inkişafını nəzərdə tutur. Bu prinsipə əsaslanan iqtisadi, sosial və ekoloji siyasət həm indiki, həm də gələcək nəsillər üçün ədalətli inkişaf imkanlarının yaradılmasını hədəfləyir. Bu baxımdan, Azərbaycanda sosial-iqtisadi strategiyanın hazırlanmasında davamlı inkişaf meyarlarının nəzərə alınması uzunmüddətli və balanslı inkişaf baxımından əhəmiyyətli rol oynayır [6, s.3].

Şəki-Zaqatala iqtisadi rayonu, təbii resurslar baxımından Azərbaycanın ən zəngin və potensialı yüksək olan bölgələrindən biridir. Bölgədə yeraltı şirin su mənbələri və mineral-termal su yataqları mövcuddur, bu da ərazinin müalicəvi turizm üçün geniş imkanlar yaratdığını göstərir. Rayonda həmçinin zəngin meşə ehtiyatları, kənd təsərrüfatı üçün əlverişli torpaqlar və yüksək dağlıq ərazilər mövcuddur. Ərazinin təbii gözəllikləri və etnoqrafik abidələri, turizmin inkişafı üçün böyük potensiala sahibdir. Şəki-Zaqatala rayonu, həm də kənd təsərrüfatı məhsullarının istehsalı baxımından əhəmiyyətli bir yerə sahibdir, xüsusilə meyvə, tərəvəz və fındıq istehsalında üstünlük təşkil edir.

Bununla yanaşı, mineral resurslar və termal su ehtiyatları, bölgənin enerji istehsalı və müalicəvi turizm sahəsində inkişaf perspektivlərini artırır. Qax, Zaqatala, Qəbələ və Oğuz rayonlarında yerləşən bulaqların müalicəvi xüsusiyyətləri, bu əraziləri turizm və müalicəvi kurortlar üçün cəlbedici edir. Dağlıq ərazilərdə kənd təsərrüfatının inkişafı və heyvandarlıq sahəsində irəliləyişlər üçün imkanlar var. Şəki-Zaqatala iqtisadi rayonunun davamlı inkişafı, ətraf mühitin qorunması və resursların səmərəli istifadəsi ilə bağlı mövcud strategiyaların həyata keçirilməsinə bağlıdır. Bu rayonda gələcəkdə ekoloji turizmin inkişafı və yenilənə bilən enerji mənbələrinin istifadəsi də əhəmiyyətli rol oynayacaq. Təbii ehtiyatların düzgün idarə olunması və innovativ yanaşmalar sayəsində bu ərazi iqtisadi və sosial inkişaf baxımından daha da irəliləyə bilər.

Əsas hissə. Şəki-Zaqatala iqtisadi rayonu, respublikanın digər bölgələri ilə müqayisədə iqtisadi inkişaf baxımından yüksək potensiala sahib olan ərazilərdən biridir. Bu rayon Balakən, Zaqatala, Şəki, Qax, Oğuz və Qəbələ rayonlarını əhatə edir və ümumi sahəsi 8,96 min kvadrat kilometrdir. Azərbaycanın şimal-qərbində, Böyük Qafqaz dağlarının cənub ətəyində yerləşən bu ərazidə əhalinin 27,6%-ı şəhərlərdə, 72,4%-ı isə kəndlərdə yaşayır. Rayonda əhali sıxlığı nisbətən aşağıdır və hər kvadrat kilometrə 65 nəfər düşür. Şəki-Zaqatala iqtisadi rayonu həmçinin yüksək dağlıq və dağətəyi əraziləri ilə tanınır. Torpaq ehtiyatları məhdud olsa da, bu bölgə özünün estetik dağ mənzərələri, mineral və termal bulaqları ilə yanaşı, turizm üçün mühüm tarixi və etnoqrafik abidələrə malikdir [4].

Bu rayonlar öz növbəsində inzibati-ərazi vahidlərinə, şəhərlərə, qəsəbələrə və kənd yaşayış məntəqələrinə bölünür. Ümumilikdə 350 yaşayış məntəqəsi mövcuddur, bunlardan 6 şəhər, 8 qəsəbə və 336 kənddir, həmçinin 145 bələdiyyə fəaliyyət göstərir. Şəki-Zaqatala iqtisadi rayonunun ərazisindən Yevlax-Balakən dəmir yolu keçir və burada ölkə əhəmiyyətli M5 "Yevlax-Zaqatala-Gürcüstanla Dövlət Sərhədi" avtomobil magistralı ilə yanaşı, Qəbələ-Şəki-Qax-Zaqatala istiqamətində digər mühüm avtomobil yolları da mövcuddur. Bu yollar regionu strateji baxımdan ölkə üçün vacib edir. İqtisadi rayonun ərazisində respublika əhəmiyyətli avtomobil yollarının uzunluğu 370 km, yerli əhəmiyyətli yolların uzunluğu isə 1254 km təşkil edir [2].

Şəki-Zaqatala iqtisadi rayonunun təbii və iqtisa-

di potensialı mineral və xammal ehtiyatlarına, təbii iqlim şəraitinə, su və torpaq ehtiyatlarına, turizm və rekreasiya imkanlarına, coğrafi və nəqliyyat mövqeyinə, həmçinin əmək resurslarına əsaslanır.

Bu rayonda 9 yeraltı şirin su mənbəyi və 150-dən çox mineral-termal su yatağı aşkar edilib. Çimçimax, Moksu, Bum, Xalxa, Buğusşor, Suskən, Əliməyli və Ağbulaq kimi su mənbələri, əsasən əsəb, dəri, ürək-damar və əzələ xəstəliklərinin müalicəsində istifadə olunur. Qax, Zaqatala, Qəbələ, Oğuz və Şəki rayonlarında müxtəlif kimyəvi tərkibə malik, yüksək temperaturda olan mineral və termal bulaqlar mövcuddur. Bu bulaqlar müalicəvi məqsədlərdən əlavə, termal enerji istehsalı üçün də istifadə oluna bilər, çünki suyun temperaturu 30°C-dən 50°C-yə qədər dəyişir. Bu təbii resurslar, həmçinin müalicəvi kurortların inkişafı və enerji ehtiyatları baxımından böyük potensiala malikdir [7].

Şəki-Zaqatala iqtisadi rayonu, mineral və termal su ehtiyatları ilə yanaşı, 400-dən çox tarixi və etnoqrafik abidəyə sahibdir. Şəki şəhərində XVIII əsrə aid Şəki xanlarının sarayı, qala divarları, Gileyli məscidinin minarəsi, XVIII-XIX əsrlərə aid Aşağı və Yuxarı karvansaraylar və XIX əsrdən qalma Ağvanlar hamamı kimi əhəmiyyətli abidələr yerləşir. Bundan əlavə, bölgədə VI əsrə aid Gavur qalası, orta əsrlərə aid Qudula qala yeri, Aydınbulaqda Ağcaqala qülləsi, Kiş kəndi yaxınlığında Kiş məbədi və XV əsrdən qalma Gələrsən görərsən abidələri də mövcuddur. Zaqatala rayonunda isə 108-dən çox tarixi abidə qeydə alınmışdır, bunlar arasında Pəriqala, Armatay qalası, Cingözqala, Şeytan qalası, Zaqatala qalası və digər qədim strukturlar var. Şəki-Zaqatala iqtisadi rayonunda ekoturizm üçün əhəmiyyətli yerlərdən biri də Zaqatala Dövlət Qoruğudur (1839-cu ildə yaradılıb, 23,800 hektar sahəni əhatə edir), həmçinin İlisu Dövlət Qoruğu, Zaqatala şəlaləsi, Xalaxi gölü və Malarasa aşırımı kimi təbii gözəlliklər mövcuddur. Qəbələ rayonunda isə 90-dan çox tarixi və mədəniyyət abidəsi qorunur, burada 1985-ci ildə yaradılmış Qəbələ tarix-mədəniyyət qoruğu (480 hektar sahədə), qədim Qəbələ şəhərinin qalıqları və digər arxeoloji tapıntılar da mövcuddur. Ərazidə həmçinin qədim dövrə aid bir sıra qüllələr, məbədlər və türbələr tapılmışdır [7].

Təhlil olunan məlumatlar (Cədvəl 1) göstərir ki, Şəki-Zaqatala iqtisadi rayonu, zəngin rekreasiya və turizm potensialına baxmayaraq, ərazi inkişaf indeksi yalnız 1,49 təşkil edir.

Cədvəl 1. Şəki-Zaqatala iqtisadi rayonuna daxil olan inzibati rayonların ərazi inkişaf indeksi

Rayonlar	Sahəsi, min km^2	Əhalinin sayı, min nəfər	ÜDM dəyəri, mln. manat	Ərazi İnkişaf İndeksi
Balakən	0,94	94,9	112,2	1,19
Zaqatala	1,35	124,7	87,9	0,68
Qax	1,49	55,2	263,0	2,90
Şəki	2,43	181,0	95,9	0,45
Oğuz	1,08	42,6	178,3	2,63
Qəbələ	1,55	101,5	344,6	2,75
Şəki-Zaqatala iqtisadi rayonu	8,84	599,9	1081,9	1,49

Mənbə: *[7] əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Bu, ümumi respublika göstəricilərindən (6,46) xeyli aşağıdır. Ərazi inkişaf göstəricisi Qax, Oğuz və Qəbələ rayonlarında daha yüksəkdir. Nəticədə, ərazi inkişaf indeksinin analizi göstərir ki, ərazinin rekreasiya-turizm potensialı tam olaraq istifadə olunmur, çünki uyğun xidmət infrastrukturu hələ inkişaf etməyib və bu, turizm potensialının effektiv istifadəsinin qarşısını alan əsas faktorlardandır. Son dövrlərdə, xüsusilə Qax, Qəbələ və Oğuz rayonlarında infrastrukturun inkişafı, bu rayonların inkişaf indeksinin sırasıyla 2,90, 2,63 və 2,75 səviyyələrinə yüksəlməsinə təsir göstərib və bu göstəricilər müsbət dinamik artım nümayiş etdirir.

Bundan başqa, iqtisadi inkişaf indeksi ilə əmək qabiliyyətli əhalinin ictimai istehsala cəlb olunması və rekreasiya-turizm potensialının istifadə edilməsi arasında müsbət əlaqə mövcuddur. Təhlillər göstərir ki, bu əlaqə 0,8 ilə 1,0 arasında dəyişir, bu da yüksək əlaqə gücünü göstərir. Qax, Qəbələ və Oğuz rayonlarında iqtisadi inkişafın yüksəlməsi, bu ərazilərdəki iqtisadi fəal əhalinin məşğulluğunu artırıb və nəticədə həmin əhalinin təxminən 45,9%-dən 50,4%-ə qədər olan hissəsi ictimai istehsalda iştirak edir. Digər rayonlarda isə bu göstəricilər 25,5%-dən 29,5%-ə qədər dəyişir [3, s.6].

Şəki-Zaqatala iqtisadi rayonunun təbii sərvətlərinin istifadəsi və inkişafı müəyyən sahələrdə müxtəlif tələbatları qarşılamağa yönəlib. Bu ərazidəki tikinti materiallarının istehsalı və istifadəsi də diqqət çəkir, lakin bu sahədə regional tələbatın məhdudluğu və bəzi digər iqtisadi rayonlarla olan əlaqələr, materialların istifadəsini müəyyən qədər məhdudlaşdırır. Rayonun iqtisadi potensialı kurort və rekreasiya eh-

tiyaclarına yönəlmişdir, çünki burada müxtəlif mineral bulaqlar, müalicəvi meşə sahələri və istirahət üçün xüsusi şərait yaradılmışdır. Kurort və sanatoriya kompleksləri, bu təbii sərvətləri istifadə edərək insanlara sağlamlıq xidmətləri təqdim edir [3, s.9].

Balakən rayonunda yerləşən polimetal yataqları, metallurgiya sənayesinin inkişafı üçün əhəmiyyətli rol oynasa da, bu yataqların yerli şəraitdə istifadəsi hələ də tam mənimsənilməmişdir. Regionda filiz istehsalı yalnız xüsusi yerli şəraitə uyğun fəaliyyətlərlə həyata keçirilir. Şəki-Zaqatala iqtisadi rayonunun sosial-iqtisadi inkişafına təsir edən mühüm sahələrdən biri də bu filizlərin emalıdır. Rayonun subtropik iqlimi, burada subtropik bitki örtüyü və meyvəçilik üçün əlverişli şərait yaradır ki, bu da kənd təsərrüfatı sahələrinin inkişafını stimullaşdırır. Xüsusilə çay plantasiyaları və subtropik meyvəçilik sahələrinin inkişafı regionun iqtisadiyyatında mühüm yer tutur.

Rayonun dağlıq əraziləri və vadiləri, enerji istehsalı və su ehtiyatlarının idarə edilməsi baxımından böyük potensiala malikdir. Balakən, Kotek, Axsu, Kiş və digər çaylar bu regionda su balansının təmin edilməsində mühüm rol oynayır, həmçinin enerji istehsalında əhəmiyyətli yer tutur. Dağ kəndlərində isə yay mövsümündə yeraltı su mənbələrindən istifadə edilir. Rayonun torpaq növləri də kənd təsərrüfatı və əkinçilik sahələri üçün əlverişlidir. Torpaqların çoxu kənd təsərrüfatına ayrılmış və bu torpaqların müxtəlif növləri rayonun iqtisadi inkişafına təkan verir. Əkinçilik və digər kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində bu ərazilərdə ixtisaslaşma mövcuddur.

Rayonun sənayesi hələ zəif inkişaf edib və əsasən bir neçə sahədə ixtisaslaşıb. Ümumilikdə, ölkə sənayesinin 3%-i bu rayona aiddir. Əsasən kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan yüngül və yeyinti sənayesi inkişaf etmişdir. Bu sahələr ümumilikdə rayonun sənaye məhsulunun 95%-dən çoxunu təmin edir. Yeyinti sənayesi bağçılıq, tütünçülük və heyvandarlıq məhsullarının emalı üzərində qurulub. Şəki şəhərindəki yeyinti kombinatı, şərab zavodları, eləcə də Qəbələ, Qax, Balakən, Nic kimi rayonlardakı meyvə-tərəvəz konserv zavodları, Zaqatala fındıq və qızılgül yağı zavodu, çay fabriki və ət kombinatı bu sektorda əsas istehsalçı müəssisələrdir.

Qrafik 1. Şəki-Zaqatala iqtisadi rayonunda sənaye müəssisələrinin sayı, 2015-2023-cü illər

Mənbə: *[8] əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Həmçinin, bu ərazidə çörək bişirmə, şərq şirniyyatları və spirtsiz içkilər istehsal edən kiçik istehsal müəssisələri də fəaliyyət göstərir. İpəkçilik, yüngül sənayenin əsas sahələrindən biri olaraq önə çıxır və rayon mərkəzlərində tikiş sənayesi müəssisələri mövcuddur. Şəkidə ipəkdən parçalar, pərdələr, kəlağayı və yaylıq toxunur. Tütünçülüyün inkişafı ilə əlaqədar olaraq, Şəki, Qəbələ, Balakən və Zaqatala rayonlarında tütün fermentasiya zavodları fəaliyyət göstərir. Zaqatala həmçinin mebel istehsalı və kərpic istehsalı üzrə də sənaye sahələrinə malikdir.

Şəki-Zaqatala iqtisadi rayonunda sənaye müəssisələrinin sayı 2015-ci ildən sonra artmağa başlayıb. 2015-ci ildə 132 olan müəssisə sayı, 2023-cü ildə 198-ə çatmışdır ki, bu da sənaye sahəsində müsbət inkişafın göstəricisidir. Müəssisələrin sayının artması, regional iqtisadiyyatın güclənməsi və yeni iş imkanlarının yaranması ilə əlaqələndirilə bilər.

Cədvəl 2. Şəki-Zaqatala iqtisadi rayonunda sənaye məhsulunun göstəriciləri

Göstəricilər	2015	2020	2021	2022	2023
Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, müvafiq illərin cari qiymətləri ilə, min manat	109026,0	441011,3	440578,4	455004,1	534654,3
Sənaye istehsalı indeksi, əvvəlki ilə nisbətən, faizlə (sabit qiymətlərlə)	111,0	91,1	122,4	110,0	108,7
Sənaye məhsulunun dəyərində qeyri - dövlət sektorunun xüsusi çəkisi, faizlə	74,1	89,2	83,6	81,4	83,3
Hazır məhsul ehtiyatının ilin axırına qalığı, mln. manat	11530,9	13330,9	10287,5	11359,3	11873,4

Şəki-Zaqatala iqtisadi rayonunun torpaq ehtiyatları, təbii resurslar arasında mühüm yer tutur. Bu rayonda torpaqların ümumilikdə 43%-i kənd təsərrüfatı üçün əlverişlidir. Bu torpaqların 90%-i Araz-Şəki və Oğuz-Dəmirçi çayları boyunca yerləşir. Yaxşı torpaqların 36%-i yaxın, 55%-i isə yay və qış otlaqları kimi istifadə olunur. Bölgədə bitkiçilik və heyvandarlıq sahələri sürətlə inkişaf edir. Rayon əhalisinin 70%-i kənd təsərrüfatı ilə, qalan 30%-i isə heyvandarlıqla məşğuldur. Bu sahələrdə inkişaf edən bitkiçilik sahələri əsasən taxılçılıq, meyvəçilik və tərəvəzçilik üzrə ixtisaslaşmışdır. İqtisadi rayonun ərazisində otlaq sahələri 253.7 min hektar, qış otlaqları isə 157.8 min hektar təşkil edir. Yay otlaqları isə 95.9 min hektar ərazini əhatə edir.

Cədvəl 3. Şəki-Zaqatala iqtisadi rayonunda hevandarlıq göstəriciləri

Göstəricilər	2015	2020	2021	2022	2023
İribuynuzlu mal-qaranın sayı, baş	269341	254657	245642	228457	214444
İnək və camışların sayı, baş	132820	126941	123093	115928	109352
Qoyun və keçilər, baş	815321	754708	636310	581079	535659
Donuzlar, baş	2977	2455	2504	2065	2098
Quşlar, baş	1275367	1412171	1420729	1382250	1309430
Arı ailələri, vahid	41625	129607	135410	139636	129628

Mənbə: *[8] əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Şəki-Zaqatala iqtisadi rayonunda 2015-2023-cü illər arasında heyvandarlıq sahəsində, ümumilikdə, azalma müşahidə olunub. İribuynuzlu mal-qaranın, inək və camışların sayı azalmış, xüsusilə qoyun və keçilərin sayında ciddi eniş baş vermişdir. Quşçuluq sahəsində isə müəyyən artım yaşanmış, ancaq 2021-2023-cü illər arasında azalma görülüb. Arıçılıq sektorunda isə əhəmiyyətli bir artım müşahidə edilmişdir, arı ailələrinin sayı kəskin şəkildə yüksəlmişdir. Bu dəyişikliklər, bazar tələbləri, iqtisadi amillər və istehsal metodlarındakı dəyişikliklərlə əlaqəli ola bilər. Ümumilikdə, heyvandarlıq sektorunda müəyyən daralma olsa da, bəzi sahələrdə artımların olduğunu göstərir.

Şəki-Zaqatala iqtisadi rayonu, filiz və polimetal yataqları ilə zəngindir və bu yataqların istifadəsi ərazinin iqtisadi inkişafını sürətləndirir. Eyni zamanda, Yevlax-Balakən dəmir yolunun mövcudluğu bu regionun iqtisadi yüksəlişinə əhəmiyyətli dərəcədə təsir edir. Şəki-Zaqatala iqtisadi rayonunda, xüsusən Şəki şəhərindən şimal-qərbdə yerləşən Gəlinqala su yatağı 204 min m³ su həcmi ilə və Zeyvud su yatağı isə 607 min m³ su həcmi ilə əhəmiyyət kəsb edir. Bununla yanaşı, Kişçay və Yeyrıçay qum yataqları da yüksək keyfiyyətli kərpic və keramzit istehsalı üçün əlverişlidir [5].

Ərazidə, xüsusilə Qax, Balakən və Oğuz rayonlarında tikinti materiallarının istehsalı geniş yayılıb, bu materiallar yerli istifadəyə yönəldilir. Ayrıca, Gənik-Yeyrıçay vadisindəki yeraltı su ehtiyatları, yüksək keyfiyyəti və unikal xüsusiyyətləri ilə Azərbaycandakı ən qiymətli su ehtiyatları arasında yer alır. Şəki-Zaqatala iqtisadi rayonunda yeraltı su ehtiyatlarının illik istismarı 700 milyon m³ təşkil edir və əsasən Abşeron iqtisadi rayonunun su təchizatına yönəldilir.

Cədvəl 4. Şəki-Zaqatala iqtisadi rayonunda tikinti sahəsinin göstəriciləri

	2015	2020	2021	2022	2023
İstifadəyə verilmiş yaşayış evləri, ümumi sahə, kv.m.	111284,0	77805,8	64564,5	71047,4	77794,6
Əsas kapitala yönəldilmiş investisiyalar, min manat	214808,8	461200,1	193252,4	241551,6	206889,2
tikinti - quraşdırma işlərinə	196859,1	435988,2	149975,4	205025,0	173412,3
Qeyri-dövlət sektorunda əsas kapitala yönəldilmiş investisiyanın məbləği, min manat	33157,5	68429,0	54446,8	74687,0	73842,3
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunda əsas kapitala yönəldilmiş investisiyanın məbləği, min manat	17827,2	50631,1	15321,6	17605,2	26968,4
Sənaye üzrə əsas kapitala yönəldilmiş investisiyanın məbləği, min manat	34368,8	37973,8	58881,9	61405,6	35083,2
Tikinti işlərinin dəyəri, min manat	35836,5	73327,5	61029,0	84479,1	78904,4
Məhsul istehsalı sahələrinə	67923,9	253023,2	92785,1	98629,9	80728,7
Xidmət sahələrinə	107769,4	175709,2	78067,5	113437,0	93001,6
Yaşayış evlərinin tikintisinə	39115,5	32467,7	22399,8	29484,7	33158,9

Mənbə: *[8] əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Şəki-Zaqatala iqtisadi rayonunun dağlıq ərazilərində bitki örtüyü müxtəlif hündürlüklərdə yayılıb və fərqli alt zonalarla seçilir. Bu bölgədə 500-600 m yüksəkliyində geniş dağlıq çəmənliklər, 800-900 m hündürlükdə isə daha sıx çəmənliklər mövcuddur.

Yüksək dağlıq ərazilərdə isə meşə və çəmənliklər geniş yayılıb, bu ərazilər bitki örtüyü və ekosistemlər baxımından zəngin və müxtəlifdir [5].

Rayonun dağlıq ərazilərindəki fauna və flora da olduqca zəngindir. Bu bölgədə Qafqaz maralı, boz ayı, çovdar, dağ keçisi, ceyran kimi heyvan növləri mövcuddur. Şəki-Zaqatala Milli Parkı bu heyvanların qorunması üçün mühüm əhəmiyyət kəsb edir. Zaqatala qorunmasında müxtəlif landşaft-zonalar mövcuddur və burada 80-dən çox bitki və 162 heyvan növü qeyd olunub. Eyni zamanda, İlisə qorunması da bu iqtisadi rayonun təbii sərvətlərinə aid olub, dağ çəmənlikləri və meşə torpaqlarının qorunmasına xidmət edir. Bu ərazilər təbii sərvətlərin davamlı istifadəsi və ekoturizm üçün əlverişlidir [5].

Şəki-Zaqatala iqtisadi rayonu, həmçinin sosial-iqtisadi və mədəni inkişaf baxımından da əhəmiyyətli bir yer tutur. Rayon, milli dəyərlərin qorunmasında və inkişafında mühüm rol oynayır və təbiətinin və ekoloji xüsusiyyətlərinin vurğulanması ilə Azərbaycan turizminin mərkəzlərindən birinə çevrilib. Regionda müxtəlif mədəniyyət evləri, kitabxanalar, muzeylər kimi mədəni infrastruktur obyektləri fəaliyyət göstərir. Şəki-Zaqatala əhalisi Azərbaycanın multikultural mühitini təmsil edən etnik müxtəlifliyi ilə xüsusilə fərqlənir. Bu da regionun mədəniyyətinin formalaşmasında əhəmiyyətli amillərdən biridir. Eyni zamanda, regionda informasiya təminatının sürətləndirilməsi, mədəniyyət və informasiya sahələrində aparılan islahatlar bu iqtisadi rayonun sosial-iqtisadi inkişafında mühüm yer tutur.

Nəticə

Şəki-Zaqatala iqtisadi rayonu Azərbaycanın şimal-qərb bölgəsində yerləşən və təbii resurslarla zəngin bir ərazidir. Bu bölgənin inkişafında təbii ehtiyatlar, əhalinin məşğulluq sahələri və turizm potensialı böyük rol oynayır. Ərazilərin dağlıq və çaylı strukturu, burada ekoloji turizm və kənd təsərrüfatı sahələrinin inkişafını dəstəkləyir.

Rayonun təbii resursları arasında mineral və termal su yataqları, şirin su mənbələri, zəngin meşə sahələri və məhsuldar torpaqlar mövcuddur. Bu resurslar həm yerli əhali, həm də xarici investorlar üçün əhəmiyyətli potensiala sahibdir. Rayonun iqtisadi inkişafında infrastrukturun inkişafı mühüm rol oynayır. Qax, Qəbələ və Oğuz rayonlarında infrastrukturun inkişafı, bu rayonların ərazi inkişaf indeksini artırmışdır. Şəki-Zaqatala iqtisadi rayonunda isə hələ də turizm və ətraf mühitin idarə olunması sahələrində inkişaf üçün böyük potensial mövcuddur. Davamlı inkişaf prinsipləri bu ərazinin gələcək inkişafında əsas meyar olmalıdır. Ətraf mühitin qorunması, yerli resurslardan səmərəli istifadə edilməsi və sosial rifahın artırılması kimi məsələlər prioritet təşkil etməlidir. Bu istiqamətdə həyata keçirilən dövlət siyasətləri, regionun davamlı inkişafını təmin edəcək və yeni iş yerlərinin yaranmasına şərait yaradacaqdır.

Şəki-Zaqatala iqtisadi rayonunun davamlı inkişafını təmin etmək istiqamətində aşağıdakı təkliflər verilmişdir:

1. Şəki-Zaqatala iqtisadi rayonunun zəngin turizm potensialı var, lakin bu potensial tam istifadə olunmur. Bu səbəbdən, turizm infrastrukturu daha da inkişaf etdirilməli, xüsusilə müalicəvi turizmin inkişafı üçün mineral su mənbələri və termal bulaqların istifadəsi artırılmalıdır. Bütün bu resurslarla bağlı müvafiq sanatoriya və kurort kompleksləri yaradılmalı, həmçinin ekologiyaya zərər verməyəcək şəkildə ekoturizm sahələri təşviq edilməlidir;

2. Şəki-Zaqatala iqtisadi rayonu kənd təsərrüfatı üçün əlverişli torpaqlara malikdir, lakin bu sahənin dayanıqlı inkişafı üçün müasir kənd təsərrüfatı texnologiyalarının tətbiqi və suvarma sistemlərinin optimallaşdırılması tələb olunur. Bu həm məhsuldarlığı artırar, həm də ətraf mühitə təsiri azaldar. Bu təşəbbüslər regionun iqtisadiyyatını diversifikasiya edəcək və dayanıqlı inkişafı dəstəkləyəcək;

3. Şəki-Zaqatala iqtisadi rayonunun inkişafında mühüm əhəmiyyət daşıyan digər bir sahə infrastrukturdur. Rayonlar arasında və xarici ticarət əlaqələrinin inkişafı üçün nəqliyyat və logistika infrastrukturunun yaxşılaşdırılması lazımdır. Bu, xüsusilə Qax, Qəbələ və Oğuz rayonlarında mövcud olan sənaye və turizm potensialının effektiv istifadə olunmasına imkan verəcək.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 11 fevral 2004.

2. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmani, 14 aprel 2009.

3. Allahverdiyev K.Ş. Şəki-Zaqatala iqtisadi rayonunun təbii şəraiti və təbii ehtiyatlarının iqtisadi cəhətdən qiymətləndirilməsi. Kooperasiya elmi-praktiki jurnal, № 3 (46)-2017 s.5-11.

4. Həsənov T.G., Babayev M.R. "Dayanıqlı ekoinkişaf modeli: Azərbaycanın milli iqtisadiyyatının həlledici inkişaf yolu". Regional idarəetmə: inovativ yanaşmalar və perspektiv imkanlar, respublika elmi-praktik konfransın materialları, Bakı, "Elm və Təhsil", 2015, 311 s.

5. Məhəmmədli D. Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionunun sosial-iqtisadi və mədəni infrastrukturu. https://www.anl.az/down/meqale/kitabxanashunasliq-biblioqrafiya/1_2017/568413.pdf, 2017, s.76-82.

6. Mamedov S.T. Şəki-Zaqatala iqtisadi rayonunun davamlı inkişaf potensialı. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı, 2024, 28 səh. s.3

7. İsmayılova Ü.T. Şəki – Zagatala iqtisadi rayonunda rekreasiya-turizm potensialından istifadənin əhali məşqulluğu problemlərinin həllinə təsiri istiqamətləri. International Scientific Journal. https://journals.indexcopernicus.com/api/file/viewByFileId/287728 2021

8. https://stat.gov.az/source/regions/

ABSTRACT
NATURAL RESOURCE POTENTİAL OF THE SHEKİ-ZAGATALA ECONOMİC REGİON AND PERSPECTİVES OF SUSTAİNABLE DEVELOPMENT

The article analyzes the development potential and strategic significance of the Sheki-Zagatala economic region. The key factors for economic development in the region, such as natural and geographical resources, infrastructure, and transportation opportunities, are the main focus. The article examines various natural resources in the economic region, including land and water resources, as well as mineral raw materials. Additionally, the tourism and recreation potential, climate conditions, and geographical location of the region are explored in terms of their impact on the region's socio-economic development.

In terms of infrastructure, the strategic transport network of the Sheki-Zagatala economic region, including republican and local roads and railways, is analyzed. The article discusses how these infrastructure opportunities affect the region's economy and the overall development of the country.

The purpose of the article is to identify the factors that will stimulate economic development in the region and create opportunities for more efficient use of resources, thus contributing to sustainable development and increasing the region's contribution to the national economy. A correct assessment of the strategic location and natural resources of the region is one of the key factors for strengthening its economy.

Keywords: *Sheki-Zagatala economic region, natural resource potential, sustainable development, economic strategy, state policy.*

РЕЗЮМЕ
ПРИРОДНЫЙ РЕСУРСНЫЙ ПОТЕНЦИАЛ ШЕКИ-ЗАГАТАЛИНСКОГО ЭКОНОМИЧЕСКОГО РЕГИОНА И ПЕРСПЕКТИВЫ УСТОЙЧИВОГО РАЗВИТИЯ

В статье анализируется потенциал развития и стратегическое значение Шекинско-Загатальского экономического района. Основными темами являются ключевые факторы экономического развития региона, такие как природные и географические ресурсы, инфраструктура и транспортные возможности. В статье рассматриваются различные природные ресурсы данного района, включая земельные и водные ресурсы, а также запасы минерального сырья. Кроме того, исследуется потенциал туризма и рекреации, климатические условия и географическое положение региона, а также их влияние на социально-экономическое развитие района.

Что касается инфраструктуры, то анализируется стратегическая транспортная сеть Шекинско-Загатальского района, включая республиканские и местные автомобильные дороги и железнодорожные линии. Обсуждается влияние этих инфраструктурных возможностей на экономику региона и общего развитие страны.

Цель статьи выявить факторы, стимулирующие экономическое развитие региона, а также создать условия для более эффективного использования ресурсов и обеспечения устойчивого развития, что способствует вклад в экономику страны. Правильная оценка стратегического по-

ложения и природных ресурсов региона является важным условием для укрепления его экономики.

Ключевые слова: *Шекинско-Загатальский экономический район, природно-ресурсный потенциал, устойчивое развитие, экономическая стратегия, государственная политика.*

XÜLASƏ

Məqalədə Şəki-Zaqatala iqtisadi rayonunun inkişaf potensialı və strateji əhəmiyyəti təhlil edilir. Regionun iqtisadi inkişafını təmin edəcək əsas amillər, təbii və coğrafi resurslar, infrastruktur və nəqliyyat imkanları əsas mövzu kimi çıxış edir. Məqalədə iqtisadi rayonun ərazisindəki müxtəlif təbii resurslar, o cümlədən torpaq və su ehtiyatları, həmçinin mineral-xammal ehtiyatları nəzərdən keçirilir. Bununla yanaşı, regionun turizm və rekreasiya potensialı, iqlim şəraiti və coğrafi mövqeyinin regionun sosial-iqtisadi inkişafına təsiri araşdırılır.

İnfrastruktur baxımından, Şəki-Zaqatala iqtisadi rayonunun strateji nəqliyyat və əlaqələr şəbəkəsi, o cümlədən respublika və yerli əhəmiyyətli avtomobil yolları və dəmir yolu xətləri təhlil olunur. Bu infrastruktur imkanlarının regionun iqtisadiyyatına və ölkənin ümumi inkişafına necə təsir etdiyi əsasən müzakirə edilir.

Məqalənin məqsədi regionun iqtisadi inkişafını stimullaşdıracaq amilləri müəyyən etmək, həmçinin bölgənin resurslarından səmərəli istifadə etməklə, davamlı inkişafına və ölkə iqtisadiyyatına daha çox töhfə verməsinə imkan yaratmaqdır. Regionun strateji mövqeyi və təbii sərvətlərinin düzgün qiymətləndirilməsi, onun iqtisadiyyatını gücləndirmək üçün vacib şərtlərdən biridir.

Açar sözlər: *Şəki-Zaqatala iqtisadi rayonu, təbii-resurs potensialı, davamlı inkişaf, iqtisadi strategiya, dövlət siyasəti.*

UOT 334.722.1
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.315

KİÇİK VƏ ORTA BİZNES (KOB) TƏRƏFİNDƏN MHBS-DƏ "ANLAYIŞLAR VƏ ƏSAS PRİNSİPLƏR"İN TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ

HÜLYA SƏMƏDOVA
Azərbaycan Dövlət İqtisad Universitetinin magistrantı
E-mail: hulyasamedova@gmail.com

Giriş

İqtisadi və maliyyə münasibətlərinin beynəlmiləlləşməsi sahəsində müasir tendensiyalar milli sərhədləri tanımayan dünya bazarının yaranmasına səbəb olmuşdur. Azərbaycanda müəssisələrin inkişafı ilə bağlı etibarlı məlumatların açıqlanması, mühasibat uçotu və maliyyə hesabatlarının açıqlanması üçün müasir tələblərə cavab verən informasiya bazasının yaradılması dəstəyi biznesin inkişafına töhfə verən investorların və kreditorların marağını cəlb etmək üçün əsas şərt olmuşdur. Kiçik və orta sahibkarlıq subyektlərinin (KOS) maliyyə vəziyyəti haqqında məlumatların maliyyə hesabatlarının təqdimatını tənzimləyən beynəlxalq standartlara uyğun şəkildə aşkara çıxarılması zərurəti Azərbaycanın təsərrüfat subyektləri ilə Avropa dövlətləri arasında əməkdaşlığın artması ilə daha da güclənmişdir.

Azərbaycan və digər ölkələrdən olan alimlər maliyyə hesabatlarının müqayisəliliyinin öyrənilməsinə və beynəlxalq standartlara uyğun hesabatların hazırlanmasına mühüm töhfələr vermişlər, lakin əlavə araşdırma tələb edən bir çox mübahisəli məsələlər hələ də qalmaqdadır. Azərbaycan müəssisələrinin maliyyə hesabatlarının beynəlxalq tələblərə uyğun tərtib edilməsində bir sıra maneələrin mövcudluğu ilə əlaqədar olaraq, KOS-ların müvafiq hesabatlar hazırlamasını çətinləşdirən amilləri müəyyən etmək, beynəlxalq standartlar və hesabatların keyfiyyətini və faydalılığını artırmaq üçün təkliflərin hazırlanması indiki tədqiqatın ehtiyacını müəyyənləşdirdi. KOB üçün MHBS-dəki "Anlayışlar və Əsas Prinsiplər" Azərbaycan praktikasının oxşar müddəaları ilə müqayisə edilməsinə, onun tətbiqi praktikasına, onun Azərbaycanda və dünyada nə qədər geniş yayıldığının müəyyənləşdirilməsinə zərurət yaranmışdır. Hesab edirik ki, bu araşdırma Azərbaycanda KOS-lar üçün MHBS-nin "Anlayışlar və Əsas Prinsiplər"in tanınmasının aktuallığını qiymətləndirməyə kömək edəcəkdir.

1. KOS-ların beynəlxalq standartlara keçidi üçün ilkin şərtlər və perspektivlər

Kiçik və orta sahibkarlıq istənilən ölkənin iqtisadiyyatında mühüm rol oynayır, məşğulluğun təmin edilməsinə, vergitutma bazasının artırılmasına, daxili bazarın doldurulmasına və ixrac potensialının artmasına kömək edir. Hər bir dövlət bu və ya digər inkişaf mərhələsində kiçik və orta sahibkarlığın fəaliyyəti üçün ən əlverişli şəraiti təmin etməyə çalışır.

Müxtəlif ölkələrdə hüquqi aktlarda orta və kiçik biznes təşkilatlarının müxtəlif adları nəzərdə tutulur: hesabat verməyən ictimai şirkətlər, özəl müəssisələr, kiçik və orta şirkətlər. Maliyyə Hesabatlarının Beynəlxalq Standartları Şurasının ekspertlərinin fikrincə, bazarda fəaliyyət göstərən belə şirkətlərin payı təxminən 95% təşkil edir. Müəyyən bir ölkənin iqtisadi fəaliyyətinə və bütövlükdə dünya iqtisadiyyatına böyük təsir göstərən bu cür şirkətlər bütün ölkələr üçün vahid qaydalara uyğun tərtib edilmiş müqayisəli hesabata ehtiyac duyurlar.

Kiçik və orta sahibkarlıq (KOS) üçün vahid standartların yaradılması zərurəti onların ölkələrin iqtisadiyyatında və bütövlükdə qlobal iqtisadiyyatda rolunun artması ilə əlaqədar idi. Beynəlxalq regional layihələrin icrasına bir sıra ölkələrin qoşulması və bununla əlaqədar MHBS-nın tətbiq sahəsinin genişləndirilməsi kiçik və orta sahibkarları da bu layihələrdə fəal iştiraka sövq etmişdir [1, s. 3-17].

Kiçik və orta biznes sektoru Azərbaycandakı iri müəssisələrə nisbətən öz mövqeyini genişləndirir, lakin bütün dünyada kiçik biznes də artan diqqəti cəlb edir [9, s.281-293]. Bu tendensiyalara cavab olaraq, IASB ayrıca bir standart yaratmağa qərar verdi ki, bu da Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün (KOS) üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (bundan sonra KOS üçün MHBS) adlanır. Hər hansı şirkət tərəfindən KOS-lar üçün MHBS-ni tətbiq etməyə qərar verərkən diskussiyaya səbəb olan baxışları qeyd etmək olar.

Birincisi, Ya.A. Nikitina hesab edir ki, beynəlxalq maliyyə hesabatı standartlarına uyğun hazırlanmış hesabatın bir sıra üstünlükləri var, o cümlədən:

- İnvestorların, tərəfdaşların və ya əlavə maliyyə mənbələrinin tapılması ilə bağlı şirkətin cəlbediciliyinin və rəqabət qabiliyyətinin artırılması;
- İstifadəçilər üçün daha informativ və faydalı

hesabatların təqdim edilməsi;

• Fəaliyyətin daha dəqiq qiymətləndirilməsini təmin etmək bacarığı, bunun əsasında rəhbərlik məlumatlı və effektiv idarəetmə qərarları qəbul edə bilər [8, s.15-19].

A.A. Valinurova və A.A. Quseva həmçinin kiçik və orta biznes üçün MHBS [4, s.19-26]-ə uyğun hesabat tələb edən xarici investisiyaları cəlb etmək üçün alternativ və gələcək imkan kimi seçilir.

İkincisi, standartın tələblərinə uyğun olaraq əgər şirkət gələcəkdə maliyyə hesabatlarını MHBS-a uyğun tərtib etməyi planlaşdırırsa, o zaman maliyyə hesabatlarının hazırlanması üçün MHBS-nin tətbiqinin sadələşdirilmiş variantı olan kiçik və orta biznes üçün beynəlxalq standart tam MHBS-nin tətbiqi ilə müqayisədə maliyyə hesabatlarının hazırlanması vaxtını azaltmağa kömək edəcəkdir.

Üçüncüsü, S.S.Yuretski hesab edir ki, maliyyə hesabatlarını MHBS-a uyğun təqdim edən şirkət onları beynəlxalq auditdən keçirə bilər ki, bu da öz növbəsində açıqlanan məlumatların keyfiyyətini artırır [10, 194-196]. Bununla yanaşı qeyd etməliyik ki, KOS-lar üçün MHBS-nin təkmilləşdirilməsi üçün onların da maliyyə hesabatlarını beynəlxalq auditdən keçirməsi önəmlidir.

Kiçik biznes sahəsində bir sıra tədqiqatçılar MHBS-nin tətbiqinin kiçik biznes üçün aktuallığı və bu prosesin üstünlükləri ilə bağlı öz fikirlərini bildirirlər. Cədvəl 1-də əsas fikirlər verilmişdir:

Cədvəl 1. KOM-lar üçün MHBS-dən istifadənin üstünlükləri

Tədqiqatçının tam soyadı, adı	Baxış nöqtəsi
E.O.Cəfərov N.Babayev	100-dən çox ölkədə müəssisələr öz maliyyə hesabatlarını MHBS əsasında hazırlamışlar ki, bu da müxtəlif ölkələrin şirkətlərinin maliyyə hesabatlarında əks olunan məlumatların müqayisəliliyini artırmaq üçün mühüm vasitədir
A.A. Valinurova A.A. Quseva S. S. Yuretsky	KOS üçün MHBS qlobal inteqrasiyanı və dövlətlərüstü səviyyədə kapital axınını, həmçinin kiçik və orta sahibkarlar üçün kapital bazarının genişlənməsini təşviq edir;
S. S. Yuretsky	KOS hesabatlarını dövlətlərüstü səviyyədə müqayisə etmək imkanı verir;
N.A.Mislavskaya D.P. Dzboyeva	Beynəlxalq ticarətin inkişafı və kiçik və orta biznesinin qlobal iqtisadiyyata inteqrasiyasının sürətləndirilməsi;
N.A.Mislavskaya D.P. Dzboyeva	IFRS for SMEs-in tətbiqi KOM-larda biznesin idarə edilməsi metodlarının modernləşdirilməsinə, eləcə də qlobal arenada rəqabət qabiliyyətini qorumaq üçün işçilərin bacarıq və vərdişlərinin təkmilləşdirilməsinə kömək edir.

Mənbə: *[3; 4; 6; 11] əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Yuxarıda göstərilənlərə əsasən, kiçik və orta sahibkarlıq subyektlərində maliyyə hesabatlarının beynəlxalq standartlarının tətbiqi ilə bağlı qərarın qəbul edilməsinə kömək edə biləcək əsas səbəbləri müəyyən etmək olar:

- MHBS-na uyğun maliyyə hesabatlarının müqayisəliliyinin və beynəlxalq səviyyədə təqdim olunan məlumatların keyfiyyətinin artırılması, xarici kapitalın, investisiyaların və əlavə kredit resurslarının cəlb edilməsi, xarici şirkətlərlə inteqrasiya və qarşılıqlı əlaqələrin qurulması.
- KOS-lar üçün uçot və hesabat sisteminin inkişafı üzrə dövlət strategiyasının işlənib hazırlanması;
- KOS-lar üçün MHBS-nin tətbiqinə nəzarətin təkmilləşdirilməsi və bu sahədə IASB ilə beynəlxalq əməkdaşlığın qurulması.

Beləliklə, səlahiyyətli orqanlar nəzəri aspektlərlə yanaşı, MHBS tələblərinə praktiki uyğunluğa diqqət yetirmək üçün normativ və qanunvericilik sənədlərində təkmilləşmələr aparmalıdırlar.

Kiçik və orta biznesin beynəlxalq standartlara keçidi üzrə müəyyən işlərin görülməsi zəruriliyi Azərbaycanda qaçılmaz olduğundan müvafiq olaraq, 04 may 2018-ci il tarixli düzəlişlərə əsasən "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır. Həmin Qanunun 10-cu maddəsinə uyğun olaraq, "Milli Mühasibat Uçotunun Standartları" qüvvədən düşmüş və onların əvəzinə KOS-lar "Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Standartı" əsasında maliyyə hesabatlarının müəyyən olunmuş uçot qaydaları ilə tərtib olunması tələb olunmuşdur.

Bu səbəbdən, N.A.Mislavskaya və D.P. Dzboevanın KOS-lar üçün MHBS-nin tətbiqini ləngidən əsas amil Azərbaycanda müəyyən edilmiş mühasibat uçotu standartları, yəni deklarativ xarakter daşıyır. ...hesabatlarda təqdim olunan məlumatların faydalılığını artırmaq, onları daha etibarlı və müqayisə edilə bilən etmək üçün mühasibləri Azərbaycanda mühasibat uçotu sistemini təkmilləşdirməyə və inkişaf etdirməyə sövq edə biləcək amillərin olmadığı barədə yeritdiyi mülahizələri və onların əsasında verdiyi təkliflər qəbul edilmir [6, s.29-34].

Hazırda, Azərbaycanda sözügedən Qanuna əsasən ölkəmizdə fəaliyyət göstərən istər yerli, istərsə də xarici kiçik biznes üçün təkcə milli bazarda deyil, həm də xarici bazarlarda daha yüksək rəqabət qabiliyyətinə çıxış yolunun müəyyən edilməsi, habelə sözügedən müəssisələr üçün MHBS-nı tətbiq edən İctimai Əhəmiyyətli Qurumlarla beynəlxalq regional layihələrlə birgə və ahəngdar işlərin həya-

ta keçirilməsinə münbit şərait yaradılmışdır. Lakin, qeyd olunanlar KOS üçün MHBS-nın tətbiq prosesində mövcud olan bütün məsələlərin həll olunması demək deyildir.

2. KOS-lar üçün Beynəlxalq Standartda (KOS üçün MHBS) "Anlayışlar və Əsas Prinsiplər"in ayrı-ayrı elementlərinin təhlili

ŞURA tərəfindən MUBS-dən MHBS-ə məqsədyönlü və ardıcıl keçid ilə səciyyələnən yeni maliyyə hesabatlarının tətbiqi üçün Konseptual Əsaslar 2001-ci ildə təkmilləşdirilmişdir.

Bu sahədə islahatların davam etdirilməsi ilə yanaşı, maliyyə məlumatlarının maliyyə hesabatlarında daha şəffaf əks olunmasına dair toplanan praktiki təcrübələr isə, müvafiq olaraq 2001-ci ildə qəbul olunmuş Konseptual Əsaslara yenidən baxılması ilə nəticələnmişdir.

2015-ci ildən sonra istifadəsi məcburi qaydada müəyyən olunmuş 5 adda yeni MHBS-da əks olunan tələblər maliyyə hesabatlarının beynəlxalq aləmdə təqdim olunmuş praktikasında köklü dəyişikliklərə səbəb olmuş və müvafiq olaraq 2018-ci ildə "Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə Konseptual Əsasları"nın təsdiq olunması ilə nəticələnmişdir.

KOS-lar üçün MHBS haqqında məlumatı Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının rəsmi internet saytında "Buraxılan standartlar" bölməsində "Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartı" ayrıca alt bölməsində tapa bilərik. O, standart haqqında əsas məlumatları, onun 27 dilə tərcüməsini və ən son xəbərləri ehtiva edir [5]. Azərbaycanda mühasibat uçotu sahəsində aparılmış islahatlar nəticəsində bu standartın Azərbaycan dilində tərcüməsi 2016-cı ildə "Mühasibat uçotu haqqında" Qanunun 4.3.1-ci maddəsinə əsasən aparılmışdır.

Hazırda Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq Qərarına əsasən KOS-lar müəyyən edilmiş meyarlar üzrə qeydə alınır. Onların həmin Standarta əsasən uçotunun aparılması və maliyyə hesabatlarının tərtib olunması Azərbaycan Respublikasının təsdiq etdiyi müvafiq uçot qaydaları ilə tənzimlənir.

Şura tərəfindən KOS üçün MHBS-nın MHBS-na uyğun qəbul olunmasını nəzərə alaraq, bu standartın II bölməsində verilmiş "Anlayışlar və Əsas Prinsiplər" ilə Şuranın 2018-ci ilin buraxılışı əsasında qəbul olunmuş "MHBS üçün Konseptual Əsaslar" arasında fərqli konseptual yanaşmalar mövcuddur. Bu baxımdan, kiçik müəssisələr üçün MHBS-nin daha dərindən tətbiqi şirkətlərə MHBS ilə müəyyən edilmiş aktivlərin dəyərinin müvafiq formada 2018-ci il buraxılışına uyğun qiymətləndirilməsindən istifadə etməyə və mühasiblərin peşəkar mülahizələrinə etibar etməyə imkan verəcəkdir.

Hazırda IFRS Foundation tərəfindən təqdim olunan Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının 2018-ci il buraxılışı mövcuddur, lakin bu standartların tərcümə olunmaması onun istifadəsini məhdudlaşdırır [12]. Bu baxımdan qanunvericiliyin 2018-ci il standartlarına uyğunlaşdırılması təmin olunmalıdır.

Nəticə

Aparılmış elmi tədqiqatlar göstərmişdir ki, KOS-ların maliyyə hesabatlarının beynəlxalq tələblərə uyğunluğu qlobal səviyyədə KOS-ların biznes nəticələrinin müqayisəliliyinin artırılmasının əsas şərtidir. Bu işdə KOS-ların maliyyə hesabatlarının hazırlanmasının müəyyən edilmiş məqsədi və təhlili bizə aşağıdakı təklifləri hazırlamağa imkan verdi:

1. Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları IFRS Foundation tərəfindən təqdim olunan 2018-ci il buraxılışına uyğun tərcümə olunmalı və bununla bağlı qanunvericiliyə düzəlişlər edilməlidir.

2. KOS-lar üçün MHBS-nin "Əsas Anlayışları və Əsas Prinsipləri"in "MHBS üzrə Konseptual Əsaslar"a uyğun müəyyənləşdirilməlidir.

3. Tədqiqat gedişində əldə edilmiş nəticələr və hazırlanmış təkliflər KOS-lar tərəfindən tərtib edilən maliyyə hesabatlarının keyfiyyət xüsusiyyətlərinin artırılması və onun MHBS-ları ilə müəyyən olunmuş yeni tələblərə uyğunlaşdırılmasına imkan verəcəkdir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Cəfərov E.O., Musayeva N.M. Kiçik və Orta sahibkarlıq Subyektlərinin Maliyyə Hesabatlarına dair bəzi məsələlər. // AUDİT 2022, 4 (38), səh.3-17.

2. "Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları", http://www.maliyye.gov.az.

3. Jafarov, E., & Babayev, N. (2024). Problems of preparing business financial statements according

to international standards. Economics of Development, 23(2), 47-56. doi: 110.57111/econ/2.2024.47.

4. Валинурова А.А., Гусева А.А. Оценка перспектив применения МСФО для малого и среднего бизнеса в России // Бухгалтерский учет в издательстве и полиграфии. – 2014. №1. – С. 19-26.

5. Международный стандарт финансовой отчетности для малых и средних предприятий. URL: https://www.ifrs.org/issued-standards/ifrs-for-smes/ (дата обращения 06.04.2025)

6. Миславская Н.А., Дзбоева Д.П. Развитие системы бухгалтерского учета субъектов малого предпринимательства: точка зрения // Международный бухгалтерский учет. – 2011. №21. – С. 29-34.

7. Мялкина А.Ф., Оводкова Т. А.Система РСБУ и МСФО для субъектов малого и среднего бизнеса: допущения, принципы и требования // Социально-экономические явления и процессы. – 2012. №12. – С. 231- 237.

8. Никитина Я.А. Проблемы и перспективы перехода малых и средних предприятий на международные стандарты финансовой отчетности // Российское предпринимательство. 2011. – №5-2. – С. 15-19.

9. Созонов А.С. Обзор, оценка и перспективы применения МСФО для малого и среднего бизнеса в мире // Международный бухгалтерский учет. – 2017. №5 (419). – С. 281-293.

10. Юрецкий С.С. МСФО для малых и средних предприятий - инструмент роста бизнеса или шаг к кризису? // Вестник ГУУ. – 2012.

№9-1. – С. 194-196.

11. Юрецкий С.С. Область применения МСФО для малых и средних предприятий // Вестник ГУУ. – 2012. №8. – С. 181-185.

12. https://www.ifrs.org/

XÜLASƏ

Tədqiqatın məqsədi – Azərbaycanın timsalında kiçik və orta biznes üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının (KOB-lar üçün MHBS) tətbiqini təhlil etmək, KOB üçün MHBS-dəki "Anlayışlar və Əsas Prinsiplər"in tətbiqi xüsusiyyətlərini müəyyən etmək, eləcə də bu keçid nəticəsində yarana bilən mümkün problemləri və perspektivləri araşdırmaq olmuşdur.

Tədqiqatın metodologiyası - KOS-lar üçün MHBS-də "Anlayışlar və Əsas Prinsiplər"in tətbiqi xüsusiyyətləri ilə bağlı tədqiqatın aparılması zamanı təhlil, sintez və müqayisə kimi metodlardan istifadə edilmişdir.

Tədqiqatın əhəmiyyəti - Azərbaycanda KOS-lar üçün MHBS-də "Anlayışlar və Əsas Prinsiplər"in beynəlxalq tələblər səviyyəsində tətbiqi yollarını müəyyənləşdirmək zərurətindən irəli gəlir.

Tədqiqatın tətbiqi nəticələri – KOS subyektlərinin fəaliyyətində "Anlayışlar və Əsas Prinsiplər"in tətbiqi xüsusiyyətlərinin aşkarlanmasını təmin edən araşdırmalar aparılmışdır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - KOS-lar üçün MHBS-də "Anlayışlar və Əsas Prinsiplər"in ayrı-ayrı elementlərinin tətbiqi xüsusiyyətləri ilə bağlı şərhlər və təkliflər verilmişdir.

Açar sözlər: *kiçik və orta biznes (KOB), kiçik və orta sahibkarlıq subyektləri, maliyyə hesabatlarının beynəlxalq standartları (MHBS), problemli aspektlər.*

Hulya Samedova,
graduate student of ADIU (UNEC)
E-mail: hulyasamedova@gmail.com

Features of the application of "Concepts and Fundamental Principles" in IFRS by small and medium-sized businesses (SMEs)

SUMMARY

The purpose of the study was to analyze the application of International Financial Reporting Standards (IFRS for SMEs) for small and medium-sized businesses in the example of Azerbaijan, to identify the features of the application of "Concepts and Fundamental Principles" in IFRS for SMEs, as well as to examine possible problems and prospects that may arise as a result of this transition.

Research methodology - During the study on the features of the application of "Concepts and Fundamental Principles" in IFRS for SMEs, methods such as analysis, synthesis and comparison were used.

The significance of the study - stems from the need to determine the ways of applying "Concepts and Fundamental Principles" in IFRS for SMEs in Azerbaijan at the level of international requirements.

Application results of the study – research was conducted to identify the features of the application of "Concepts and Fundamental Principles" in the

activities of SME entities.

Originality and scientific novelty of the study – comments and suggestions were given regarding the features of the application of individual elements of "Concepts and Fundamental Principles" in IFRS for SMEs.

Keywords: *small and medium-sized businesses (SMEs), small and medium-sized enterprises, international financial reporting standards (IFRS), problematic aspects.*

Хулия Самедова,
магистрантка АГЭУ (UNEC)
Эл. почта: hulyasamedova@gmail.com

Особенности применения «Концепций и основополагающих принципов» МСФО в отношении субъектов малого и среднего предпринимательства (МСП)

РЕЗЮМЕ

Целью исследования было проанализировать применение Международных стандартов финансовой отчетности для малых и средних предприятий (МСФО для МСП) на примере Азербайджана, установить бизнес-особенности применения «Концепций и основополагающих принципов» МСФО для МСП, а также изучить возможные проблемы и перспективы при осуществлении этого перехода.

Методология исследования - При реализации исследования особенностей применения «Концепций и основополагающих принципов» в МСФО для МСП использовались такие методы, как анализ, производство и выработка.

Исследовательская угроза - возникает из-за необходимости определения способов применения «Концепций и основных принципов» МСФО для МСП на уровне соответствующих требований.

Результаты применения исследования – исследование проводилось с целью выявления особенностей применения «Концепций и основных принципов» в деятельности субъектов МСП.

Оригинальность и научная новизна исследования - даны замечания и предложения относительно особенностей применения отдельных элементов «Концепций и основополагающих принципов» в МСФО для МСП.

Ключевые слова: *малый и средний бизнес (МСП), малые и средние предприятия, международные стандарты финансовой отчетности (МСФО), проблемные аспекты.*

UOT 005-027.21
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.318

KİÇİK BİZNESİN İDARƏEDİLMƏSİNDƏ İNFORMASİYA TƏMİNATININ VƏ DƏSTƏK FORMALARININ İNTEQRASİYASI

RƏNA QULİYEVA
Azərbaycan Dövlət İqtisad Universiteti, magistr

E-mail: ranaguliyeva44@gmail.com
ORCID: 0009-0006-2210-0581

Giriş

Kiçik biznes müasir bazar iqtisadiyyatının ən mühüm sektorudur, onun səmərəliliyi bütövlükdə iqtisadiyyatın vəziyyətini əhəmiyyətli dərəcədə müəyyən edir. Kiçik biznesin əsas iqtisadi funksiyası təkcə istehlak tələbinin sürətli differensasiyasına çevik reaksiya formalaşdırmaq və geniş çeşiddə mal və xidmətlərin yaradılması deyil. Dəyişən bazar şərtlərinə və dəyişən istehlakçı tələbatlarına tez uyğunlaşma qabiliyyəti ilə kiçik biznes iqtisadiyyatı daha rəqabətədavamlı etməklə yanaşı, innovasiya mənbəyi kimi iqtisadi töhfələr verə bilir. Kiçik biznesin sosial funksiyası milli iqtisadiyyatda böyük əhəmiyyət kəsb edir. Yeni iş yerlərini yaratmaqla məşğulluq problemi həll edilir. Dövlət tənzimlənməsinin ən aktual sferalarından biri olan əmək bazarında sosial gərginlik aradan qaldırılır, əhalinin sosial cəhətdən həssas qrupları fəal əmək fəaliyyətinə cəlb olunur, bacarıq və təcrübələrin tətbiqi genişlənir. Lakin kiçik biznesin iqtisadi böhranların öhdəsindən gəlmək üçün daha çox dəstəyə ehtiyacı var. Bu problemə yanaşmada zənnimizcə iki məqamı qeyd etmək olar.

Birincisi, UNCTAD-ın sahibkarlığın inkişafının rəhbəri Arlette Verploeghin sözləri ilə desək, "bugünkü iqtisadi böhranlar dünyasında kiçik müəssisələr biznes planlarını daim uyğunlaşdırmaq üçün yüksək təzyiq altındadırlar, onlara dəstəkləyici tənzimləyici mühit lazımdır" [1]. Bunun üçün qaydalar şəffaf, onlayn olaraq asanlıqla əlçatan olmalıdır. İkincisi, kiçik sahibkarlıq müəssisələri də öz növbəsində innovasiya fəaliyyətinin miqyasını genişləndirmək üçün investisiya yatırımına imkan verən aydın strategiyaya və uzunmüddətli baxışa malik olmalıdır.

Miqyas ölçülərinə baxmayaraq, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan iqtisadiyyatlar üçün kiçik biznes qurumlarının əhəmiyyəti danılmazdır. ÜTT-nın məlumatına görə, kiçik və orta sahibkarlıq inkişaf etmiş iqtisadiyyatlarda məşğulluğun 60-70%-ni və ÜDM-in 55%-ni təşkil edir [2]. İnkişaf etmiş ölkələrdə kiçik biznes müəssisələr hesabına yeni iş yerlərinin əhəmiyyətli hissəsi yaradılır. Statistik məlumatlara əsasən ABŞ və Yaponiyada kiçik biznes ümumi iş yerlərinin 50%-dən 70%-ə qədərini təmin edir. Kiçik firmaların səmərəlilik dərəcəsi onunla nümayiş etdirilir ki, onlar iri müəssisələrə nisbətən xərclərin 1 dollarına 17 dəfə çox innovasiya və təkmilləşdirmələr həyata keçirirlər [3]. Digər bir sıra üstünlüklər də kiçik biznesin həyat qabiliyyətini artırır. Hazırda əksər ölkələrdə kiçik müəssisələrin qeydiyyatının nisbi sadəliyi, təsisçinin təhsil səviyyəsinə, nəzərdə tutulan peşə fəaliyyəti sahəsində səriştələrə məhdudlaşdırıcı tələblərin olmaması onu geniş insanlar üçün əlçatan edir. Lakin bu amillər həm də mütəşəkkil biznesin mövcudluğu üçün yüksək riskləri istisna etmir. Mövcud statistikalar göstərir ki, dünyanın ayrı-ayrı ölkələrində hər il on minlərlə kiçik müəssisə yaradılır və bağlanır.

Kiçik biznesin həyat qabiliyyətinin artırılmasının mütləq amili idarəetmənin səmərəliliyini müasir informasiya texnologiyalarından istifadə etməklə artırmaqdır.

1. Kiçik biznesin idarəedilməsi prosesinin informasiya təminatına differensial yanaşma

Kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin kiçik miqyası heç də həyata keçirilən idarəetmə funksiyalarının proporsional azalmasına səbəb olmur. İnkişaf strategiyasının idarə edilməsi, kadrlar, maliyyə, mühasibat uçotu, marketinq, istehsal, satış, təchizat və hesabat sisteminin təşkili hər hansı bir müəssisənin fəaliyyəti üçün həyati vacib funksiyalardır. Kiçik müəssisələrdə idarəetmə vəzifələrinin geniş spektri az sayda işçi tərəfindən həll edilir: direktor, baş mühasib, menecer bütün idarəetmə funksiyalarını yerinə yetirir. Kiçik biznesin bu xüsusiyyəti, bir tərəfdən dünyagörüşünün genişliyi, təhsil səviyyəsi, qərar qəbul etməyə hazır olması baxımından kadrlara xüsusi tələblər qoyur. Digər tərəfdən isə idarəetmə funksiyalarının və informasiyanın avtomatlaşdırılmasına ehtiyac yaradır. Bu ehtiyacların təmin olunması differensial yanaşma tələb edir.

Sənaye, xidmət və ticarət müəssisələrinin idarəetmə funksiyaları, öz fəaliyyətlərinə müxtəlif

resursları cəlb etməsinə görə əhəmiyyətli dərəcədə fərqlənir. Kiçik bir istehsal müəssisəsini təşkil etmək üçün istehsal obyektlərinə və enerji potensialına əhəmiyyətli investisiyalar tələb olunur. Kiçik binesin sahə mənsubiyyəti üzrə informasiya təminatı fərqləri Cədvəl 1-də nəzərdən keçirilir.

Cədvəl 1. Kiçik biznesin sahə mənsubiyyəti əsasında informasiya təminatının spesifikası

Kişik binesin sahə mənsubiyyəti əlamətləri	İnformasiya təminatına ehtiyacın spesifikası
Sənaye istehsalı fəaliyyəti informasiya ilə zəngindir.	Idarəetmə sistemində çoxsaylı fərqlərə malik uçot, tənzimləyici və texnoloji məlumatlar dövr edir.
Tikinti sənayesindəki kiçik müəssisələr müasir tikinti texnologiyalarına, əl əməyini azaldan yüksək məhsuldar mexanizmlərdən istifadəyə yönəldilmişdir.	Tikinti sənayesində idarəetmə proseslərinin avtomatlaşdırılmasının aktual sahələri: avtomatlaşdırılmış layihələndirmə, planlaşdırma, təchizatçılar və müştərilərlə əlaqələrin idarə edilməsi, mühasibat uçotu fəaliyyəti və sənədləşdirmə dəstəyidir.
Pərakəndə ticarət müəssisələri üçün əsas tələb daha geniş çeşiddə məhsullar hesabına yüksək satış səmərəliliyinin və rəqabət qabiliyyətinin təmin edilməsidir.	Mal ehtiyatlarının vaxtında tamamlanması, satınalma şəraitinin yaxşılaşdırılması hesabına maya dəyərinin aşağı salınması, daşınma və satınalma xərclərinin, anbar sahəsinin və anbarlardakı inventarların azaldılması mühüm rol oynayır.
Digər xidmət müəssisələri	Kadrlar, informasiya texnologiyaları bu kateqoriya təsərrüfat subyektləri üçün əsas strateji resursdur.

Müəllifin yanaşması əsasında tərtib edilmişdir.

Kiçik biznesin sahə mənsubiyyəti əlamətlərinə müqayisəli nəzər saldıqda, ən çox sayda kiçik biznes pərakəndə satış və xidmət sektorlarında cəmləşməsi səbəbləri aydınlaşır. Bu sferada müəssisənin açılması və fəaliyyət göstərməsi üçün tələb olunan ilkin kapital nisbətən azdır, kapitalın dövriyyə sürəti yüksəkdir. Digər sahələrin müqayisəsinə keçdikcə informasiya təminatına ehtiyacın miqyası və xarakteri dəyişir. Göründüyü kimi, informasiya təminatı təkcə istehsal və xidmət proseslərinin birbaşa idarə edilməsi üçün vacib resurs deyil, həm də avadanlıqdan istifadənin səmərəliliyinin təhlili, əsas fəaliyyət göstəricilərinin hesablanması və istehsalda yaranan çətinliklərin müəyyən edilməsi üçün zəruri əsasdır.

2. Resurs məhdudiyyətləri və informasiya texnologiyalarını cəlb etmə imkanları

Kiçik biznesin nizamnamə kapitalı adətən kiçik olur və şəxsi vəsaitlər, qrantlar və dövlət subsidiyaları əsasında formalaşır. Əsas vəsaitlər və kreditlər müəssisənin vəsaitlərinin ümumi həcminin əhəmiyyətli hissəsini təşkil edir. Azərbaycan Respublikası qanunvericiliyinə görə, mikro müəssisələr illik gəlirləri 200 min manatdan (müqayisə üçün Aİ ölkələrində 2 mln avro, Rusiyada 60 milyon rubldan) çox olmayan şirkətlərdir. Təkcə bu kiçik biznes qurumlarının məhdud maliyyə imkanlarından xəbər verir (Cədvəl 2).

Cədvəl 2. Azərbaycanda və Avropa İttifaqı ölkələrində sahibkarlıq subyektlərinin bölgü meyarları [4],[5]

Azərbaycan		
Sahibkarlıq subyektlərinin kateqoriyaları	**İşçilərinin orta siyahı sayı (nəfər)**	**İllik gəliri (ig) (min manat)**
Mikro sahibkar	1 - 10	ig ≤ 200
Kiçik sahibkar	11 - 50	200 < ig ≤ 3 000
Orta sahibkar	51 - 250	3 000 < ig ≤ 30 000
İri sahibkar	251 və ondan yuxarı	30 000 < ig
Avropa İttifaqı ölkələri (ümumi illik balans mln avro)		
Orta müəssisə	< 250	≤ 50 (60)
Kiçik müəssisə	< 50	≤ 10 (12,5)
Mikro müəssisə	< 10	≤ 2 (2,5)

Cədvəl müəllif tərəfindən sistemləşdirilmişdir.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, Azərbaycanda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 99,6 faizini kiçik və orta biznes subyektləri təşkil edir [6]. Həmin qurumların innovativ inkişafının dəstəklənməsi strateji fəaliyyətin əsas elementlərindən biridir. Mikro, kiçik və orta sahibkarlıq fəaliyyətinin şaxələndirilməsi və innovasiyalar ölkənin əsas inkişaf göstəricilərindən biridir. Ayrı-ayrı inkişaf etməkdə olan ölkələrdə kifayət qədər maliyyə resursları olmadığından kiçik müəssisələr xarici maliyyələşməni əldə etməkdə çətinliklərlə üzləşirlər. Bir sıra ekspertlərin fikrincə, Rusiya kiçik müəssisələrinin kredit resurslarını cəlb etmək ehtiyacları yalnız 15-20% ödənilir [7]. Burada həmçinin qeyd olunur ki, banklar kredit vermə riskinin yüksək olması və likvid girovun olmaması, maliyyə resurslarının təqdim edilməsindən imtina etməsi və yüksək faiz dərəcələri təyin etməsi səbəbindən bu kateqoriyadan olan müştərilərlə işləməkdən çəkinirlər. Kreditlərin əksəriyyəti kiçik və orta sahibkarlara bir ilə qədər müddətə verilir.

Maliyyə resursları ilə bağlı çətinliklər kiçik müəssisələrin informasiya infrastrukturunun inkişafında və istifadəsində əsas maneələrdən biridir. Dəstək infrastrukturları da kiçik biznesə birbaşa təsir göstərir.

Deyə bilərik ki, biznesin təşkili, biznes sahibi üçün müxtəlif dəstək növlərinin mövcudluğu və əlçatanlığından birbaşa təsirlənir. Kiçik biznes layihəsi çərçivəsində maliyyə yardımı və ya investisiya tətbiqi üçün müəyyən edilmiş əsaslandırmalar tələb olunur. Məlumat və şəbəkələrə əlçatanlıq xidmət və məhsulların artımını üzvi şəkildə təmin etməyə imkan verər. Bununla belə, üç əsas dəstək infrastrukturu: maliyyə, informasiya və şəbəkə biznesinə çıxışın genişləndirilməsi biznes qərarının verilməsi üçün əhəmiyyətli dərəcədə zəruridir (Şəkil 1).

Şəkil 1. Kiçik biznes layihəsində informasiya təminatı strategiyası və dəstək formalarının inteqrasiyası: konseptual baxış (müəllif tərtibatında)

2024-cü ildə satış imkanlarını artırmaq və yeni bazarlara çıxışa dəstək məqsədilə İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) bu istiqamətdə təklif etdiyi xidmətlərdən 60-a yaxın mikro, kiçik və orta biznes (KOB) subyekti faydalanıb [8]. KOB mərkəzlərdən istifadə edən sahibkarlar "Android" ("GooglePlay") və ya "İOS" ("AppStore") əməliyyat sistemləri ilə çalışan mobil qurğuya "KOB növbə" tətbiqini yükləməklə şəxsiyyət vəsiqəsinin seriya nömrəsini və FİN kodunu daxil etməklə qeydiyyatdan keçə və şəxsi kabinetini yarada bilər.

Kiçik biznesə dəstəyin yeni rəqəmsal platformalarının yaradılması, eləcə də informasiya təminatı strategiyası və dəstək formalarının inteqrasiyası sahəsində Avropa İttifaqı ölkələrinin qabaqcıl təcrübələrindən istifadə edilməsi məqsədəuyğundur. Avropa İttifaqı ölkələrində kiçik bizneslərin sayında davamlı artım var və biznesin inkişafı sahəsində geniş sənaye sahələri ilə işləyən İsveç Elm Parkları misalında hər il şirkətlərin sayı artır. Uminova Elm Parkı beş il ərzində 900-dən çox biznes ideyası üzrə məsləhətlər vermiş və 160 kiçik şirkətin yaradılmasına kömək etmişdir [9]. Hətta ən inkişaf etmiş ölkələrdə vençur kapitalı zəruri olsa da, uyğun məlumat və şəbəkələrdən gələn tərəfdaşlıq dəstəyi olmadan kiçik biznes xarici bazarda tam uğur qazana bilməz. Digər problemlər ayrı-ayrı ölkələrdə kiçik sahibkarlıq sektorunun böyük bir firmaya nisbətən daha az cəlbediciliyi, stabil məşğulluğa inamın olmaması, aşağı əməkhaqqı səviyyəsi ilə bağlıdır. Bu da öz növbəsində daimi əsasda yüksəkixtisaslı kadrların cəlb edilməsi imkanlarını azaldır. Bunun nəticəsidir ki, ixtisaslı işçilərin cəlb edilməsi üçün imkanları xeyli çətinləşir. Bu problemin nəticələrindən təsirlənən aşağıdakı digər məsələləri də göstərmək olar:

- xüsusilə kiçik biznesin dar bazar ixtisaslaşması və marketinq strategiyalarının hazırlanmasındakı çətinliklər;
- kiçik müəssisə bir ərazidə iqtisadi fəaliyyətin ümumi həcmində olduqca kiçik bazar payını tutur. Bu səbəbdən o, bazar konyunkturasına təsir edə bilmir;
- müştərilərini daha yaxşı tanımağa və dəyişən bazar şərtlərinə daha operativ uyğunlaşmağa və uzunmüddətli əlaqələr qurmağa çalışır;
- bahalı marketinq araşdırmaları və bazar vəziyyətinin dərin təhlilinin olmaması bunu etməyə imkan vermir;
-biznes genişləndikcə informasiya təminatının həcmi əhəmiyyətli dərəcədə artır, idarəetmə qərarlarının işlənib hazırlanması və qəbul edilməsinin mürəkkəbliyi artır, analitik və marketinq tədqiqatları təcili ehtiyaca çevrilir.

Kiçik biznesi idarə etməyin yüksək riskləri informasiya təminatı imkanlarının genişləndirilməsini tələb edir. Bizneslə məşğul olmaq riskləri informasiya təminatı olmadıqda yüksək qiymətləndirilir və bütövlükdə iqtisadi mühit böyük qeyri-müəyyənlik, qanunvericilikdə tez-tez dəyişikliklər və bürokratik maneələrlə ilə də xarakterizə olunur. Tez-tez dəyişən "oyun qaydaları" kontekstində riskləri azaltmaq üçün kiçik bizneslər bir neçə fəaliyyət növünü birləşdirməyə çalışırlar. Beləliklə, xidmət şirkətləri çox vaxt bu fəaliyyəti əlaqəli malların pərakəndə satışı ilə birləşdirirlər. Bu şəraitdə kiçik biznesin yaşaması üçün əsas amil çeviklik, xarici mühitdəki dəyişikliklərə, bazar konyunkturasına çevik reaksiya vermək, minimal xərclərlə yenidən tez təşkil olunma qabiliyyətidir.

Dövlət dəstəkləmə siyasətinin əsas aləti xüsusi vergi rejimləri və layihə əməkdaşlığıdır. Kiçik müəssisələr, qanunvericiliyinə uyğun olaraq, sadələşdi-

rilmiş hesabat sistemi ilə xüsusi vergi rejimlərindən istifadə edə bilərlər. Tənzimləyici orqanların, vergi orqanlarının və sosial fondların fəaliyyətinin optimal əlaqələndirilməsi kiçik müəssisələrin inkişafında əhəmiyyət daşıyır. Xüsusilə biznes fəaliyyətində vergidən yayınma və kölgə iqtisadiyyatı hallarının aradan qaldırılması informasiya sistemlərinin tətbiqinə və təkmilləşdirilməsinə zərurəti artırır.

Bununla belə, maraqlı bir mülahizə kiçik biznesin fəaliyyətinə layihə yanaşması ilə bağlı olardı. Böyük bir şirkətin fəaliyyəti daha geniş miqyasda həyata keçirilir və daha geniş coğrafi bazarda cəmlənir və buna görə daim mövcud resursları ən səmərəli şəkildə paylamaq və idarə etmək kimi strategiyalara əsaslanırlar. Kiçik biznes üçün onların əsas fəaliyyətlərinin layihələr əsasında aydın şəkildə müəyyən edilməsi lazımdır. Digər tərəfdən, kiçik şirkətlər daha məhdud resurslara sahibdirlər və kiçik şirkətin həyat silsiləsinin müəyyən mərhələlərində daha az maraq kəsb edir. Bununla belə, hər hansı bir şirkətin mövcud bazarda qala bilməsi üçün müəyyən bir zaman çərçivəsində imkanlar əldə edilməlidir. Eləcə də onların təklif etdiyi məhsul və xidmətlərin yeni müştərilər üçün cəlbediciliyi üçün unikal xarakterə malik olması lazımdır. Bu məqsədləri reallaşdırmaq üçün kiçik şirkətlər iri müəssisələr və dövlət xidmətləri ilə birgə layihələrdə işləməlidir. Kiçik biznes bazar təminatı əldə etməklə gəlir əldə etmə yollarını daha da asanlaşdıra bilər.

3. Kiçik biznes və informasiya texnologiyalarının tətbiqi: problemlər və yanaşmalar

Biznes fəaliyyəti mühit dəyişikliklərinin güclü təsirinə məruz qalır. Texnoloji dəyişikliklər xarici mühit dəyişikliklərinin əsas sahəsi kimi idarəetmə proseslərinin daim təkmilləşdirilməsi zərurətini qarşıya qoyur. İT və əməliyyat liderləri üçün ən böyük problem texnologiya və əlaqəli həllərin heç vaxt yerində dayanmamasıdır: beş il əvvəlin ən qabaqcıl texnologiyası artıq tələblərə cavab verməyə bilər [10]. Hər bir menecerin və fərdin tələb olunan sürətlə böyük həcmdə məlumat toplamaq, saxlamaq, ötürmək və emal etmək qabiliyyəti məhduddur. Müəssisə meneceri artıqlıq, natamamlıq və alınan məlumatların ziddiyyətli olması şəraitində qərarlar qəbul etməlidir. Bu şəraitdə informasiyanın emalının səmərəliliyini və keyfiyyətini (dəqiqlik, tamlıq və aktuallıq) artırmaq üçün müxtəlif üsul və vasitələrdən istifadə etməyə, yəni kompüter məlumatlarının emalına əsaslanan müasir informasiya texnologiyalarından istifadə etməyə çalışmaq təbiidir.

İdarəetmə funksiyasının avtomatlaşdırılması müasir biznes fəaliyyətində aparıcı trend hesab olunur. Lakin biznes analitiklərinin qənaətinə görə, həyata keçirilən idarəetmə funksiyalarının həcmi müəssisənin fəaliyyətinin miqyası ilə heç də həmişə mütənasib deyil. Kiçik müəssisələr də böyük müəssisələrdə olduğu kimi bütün növ idarəetmə işlərini yerinə yetirirlər. Lakin bu funksiyaların həyata keçirilməsinin dərinliyi və emal olunan məlumatların həcmi haqqında birmənalı danışmaq olmaz. Böyük müəssisələrə yönəldilmiş proqram məhsulları iqtisadi cəhətdən və funksionallıq səbəbindən (mühasibat funksiyalarının dərin həyata keçirilməsi) kiçik biznes üçün uyğun deyildir. Nümunə kimi əmək haqqının böyük və kiçik müəssisədəki uçotuna baxmaq olar. Böyük müəssisələrdə əmək intensivliyi və hesablama alqoritmlərinin mürəkkəbliyi birbaşa işçilərin sayından və istifadə olunan əməkhaqqı növlərinin, əlavə ödənişlərin hesablamaların və əlavə haqların müxtəlifliyindən asılıdır. Kiçik müəssisələr əməkhaqqının hesablanmasının ən sadə üsullarından istifadə edirlər, burada çox vaxt məbləğ sabitdir və hissə-hissə ödənişlər edilir. Əlbəttə, kiçik biznesdə əməkhaqqının hesablanması funksiyasının avtomatlaşdırılması zərurəti aradan qalxmır, lakin bu funksiyanın həyata keçirilməsinin dərinliyinə dair tələblər xeyli dərəcədə aşağıdır.

Yuxarıda qeyd edildiyi kimi, kiçik biznes xüsusi həllər tələb edir, kiçik biznes müəssisəsində informasiya təminatı proseslərin miqyasına və funksionallığa adekvat olmalıdır. Onların hər birinin avtomatlaşdırılması üçün fərdi proqram məhsulundan istifadə edilərsə, məlumat ehtiyatı və proqramların aşağı inteqrasiyası problemi kəskinləşəcək. Funksiyaların həyata keçirilməsinin dərinliyi və idarəetmə işçilərinin sayının azlığı onu göstərir ki, "bir proqram çərçivəsində" prinsipi əsasında qurulmuş inteqrasiya olunmuş həllər kiçik biznesdə daha çox istifadə olunur. Biz bunu xüsusilə bir proqram çərçivəsində mühasibat uçotu və idarəetmə uçotu funksiyalarını həyata keçirən informasiya sistemləri seqmentində görürük. Son illərdə planlaşdırma funksiyalarını və müəssisənin vəziyyətinin maliyyə-iqtisadi təhlilini daxil etməklə funksionallığın genişləndirilməsi tendensiyası müşahidə olunur. Aydındır ki, məhdud maliyyə resursları səbəbindən kiçik biznes inkişaf etmiş İT infrastrukturunun yaradılmasına əhəmiy-

yətli investisiyalar yatıra bilmir. Texniki və proqram vasitələrinin yüksək qiyməti şəraitində onlar, bir qayda olaraq, sadə standart texniki həllərdən, pulsuz və ya MS Office (Word, Excel) kimi ucuz kütləvi proqram məhsullarından istifadə ilə kifayətlənmək məcburiyyətində qalırlar.

Fəaliyyəti tez dəyişdirmək meyli, tezliklə müəssisə üçün aktuallığını itirə biləcək texniki avadanlıq və xüsusi proqram təminatının əldə edilməsinə resursların investisiya edilməsinin yüksək risklərinə səbəb olur. Bu şəraitdə sahibkar məntiqi olaraq ümumi təyinatlı informasiya sistemlərindən və onların alətlərindən, elektron poçt və internet rabitəsindən istifadəyə, minimal xərclərlə ən həlledici biznes proseslərinin avtomatlaşdırılmasına üstünlük verir. Biznes proseslərinin reinjiniringi (BPR) təşkilatlara müştəri xidmətlərini əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq, əməliyyat xərclərini azaltmaq və özəl sektora daha rəqabətli olmaq üçün işlərini əsaslı şəkildə yenidən düşünməyə kömək metodu kimi tətbiq olunmağa başladı [11].

Data analitika kiçik biznesə onlayn marketinq nailiyyətlərini izləmək və daha çox istehlakçıya yönəlmiş strategiyalar vermək üçün daha sərfəli və effektiv alətlər və məlumatlar verir. Biznes analitika ilə böyük məlumat analitikası təşkilatların performansını, istehlakçı təcrübələrini və abunəçilərin sayını yaxşılaşdıra bilər [12].

İT infrastrukturunun yaradılması xərclərinin minimuma endirilməsi probleminin həllində sürətlə inkişaf edən sahələrdən biri bulud xidmətlərindən istifadədir. Əslində, bu, uzaqdan və paylanmış məlumatların emalı və saxlanmasının yeni paradiqmasıdır ki, İnternet xidməti kimi istifadəçiyə uzaq server resursları və imkanları təqdim edir. Bulud xidmətləri informasiya texnologiyaları, texniki dəstək və informasiya sistemlərinin saxlanması üçün xərclərin azaldılmasını, tələb olunan resurslara mümkün qədər tez çıxışı və ehtiyac aradan qalxdıqda onlardan imtina etməyi, sorğulara uyğun miqyaslılığı və xərclərin şəffaflığını təmin edir. Bulud xidmətlərindən istifadəni məhdudlaşdıran əsas amillər informasiya təhlükəsizliyi, məlumatların məxfiliyi və İnternetə çıxış imkanları ilə bağlı risklərdir.

Əmək ehtiyatlarını kiçik müəssisənin fəaliyyətində məhdudlaşdırıcı amil kimi nəzərə alsaq, bunun əsasən İT mütəxəssislərinə aid olduğunu söyləmək lazımdır. İri müəssisələrin təşkilati strukturunda İT şöbələri var. Son onillikdə davam edən meyillərə və mənbələrə nəzər salsaq, qeyd edə bilərik ki, "kiçik və orta müəssisələrdə az sayda İT işçiləri var, qalanlarına isə frilanserlər, İT xidmət təminatçıları, bu funksiyanı əsas vəzifələri ilə birləşdirən öz işçiləri və ya ümumiyyətlə İT dəstəyi olmayan işçilər xidmət göstərir" [13]. Kiçik biznesin informasiya texnologiyalarına həssaslığı məsələsi İT mütəxəssislərinin biznes fəaliyyətinin idarə olunması proseslərində iştirakını və rolunu günü-gündən artırır. Bu baxımdan onları şəxsi keyfiyyətlərini nəzərdən keçirən tədqiqatların nəticələri də maraqlıdır. Rahab Jogiyanto Hartono liderin şəxsi keyfiyyətlərini nəzərdən keçirərkən onları iki qrupa ayırır: adapterlər və yenilikçilər [14]. Adapterlər, artıq sınaqdan keçirilmiş və effektivliyi sübut edilmiş həllər üzərində fokuslanır, yenilikçilər isə yeniliyə və riskə daha çox meyllidirlər. İnnovativ lider şirkətlər İT-ni daha geniş tətbiq edirlər.

Müəssisənin fəaliyyətinin kiçik miqyası və satış bazarının darlığı menecerə bütün məsələlərdən xəbərdar olmağa imkan verir. Menecerin istehsal prosesində bilavasitə iştirakı ona operativ məlumat almaq və baş verən hadisələrə operativ reaksiya vermək imkanı da yaradır. Lakin menecerlərin informasiya texnologiyaları üzrə bilik və bacarıq səviyyəsini və dərinliyini təhlil edən müəlliflər bildirirlər ki, onların İT sahəsində hazırlıq səviyyəsi yetərli deyil. Menecerlərin İT sahəsində ixtisaslaşmış bilik və bacarıqlarının olmaması, İT-nin öz biznesi üçün əhəmiyyətini başa düşməsi aşağıdakı əsas fərqləri, problemləri və eyni zamanda, yanaşma fərziyyələrini aktuallaşdırır. Bu yanaşmalar aşağıdakı təsəvvürləri yaradır:

a) kiçik biznesdə bir çox rəhbər şəxslər İT-nin onların biznesi üçün faydalı ola bilməsi və yeni texnologiyaların potensialı haqqında geniş təsəvvürü yoxdur;

b) menecerləri informasiya texnologiyalarından daha çox məlumatlı olan müəssisələrdə onların tətbiqinə və istifadəsinə daha həssas yanaşması;

c) müəssisənin ölçüsü nə qədər kiçik olarsa, İT-dən istifadə üçün bir o qədər çox maneələr yaranır və İT daha az qəbul olunur;

d) müəssisə işçilərinin informasiya texnologiyaları sahəsində bilikləri təhsil səviyyəsi ilə bağlıdır. İşçiləri İT imkanlarından daha çox məlumatlı olan şirkətlər kompüter texnologiyalarını yeniləşdirməyə və tətbiq etməyə daha çox meyllidirlər;

e) biznesin informasiya ilə doyma dərəcəsi amili

– biznes nə qədər çox məlumatdan asılıdırsa və ya təmin olunmuşdursa, İT-dən istifadəni bir o qədər aktiv qəbul edir;

f) müəssisənin İT-yə rəğbəti böyük ölçüdə menecerin İT-dən istifadə imkanları və perspektivləri haqqında məlumatlılığından və müəssisənin ölçüsündən asılıdır. Müəssisə nə qədər böyükdürsə, o, yeni İT-ni bir o qədər fəal qəbul edir;

g) ətraf mühitdəki rəqabət səviyyəsi də İT-dən istifadə dərəcəsinə təsir göstərə bilər. Daha rəqabətli mühit İT tətbiqi ilə bağlı qərarların qəbul edilməsini şərtləndirir.

Qeyd olunan yanaşmaları və nəticələri təsdiq edən çoxsaylı biznes araşdırması sorğuları aparılmaqdadır. Bu məqalədə sorğuların metodikası və miqyasını əhatə etmək imkanlarımız məhduddur. Fərziyyələrin və nəticələrin etibarlılığının yüksək ehtimalla təsdiqi üçün, ABŞ-da maraqlı sorğu araşdırılması praktikasına qısa nəzər yetirməyi məqsədəuyğun hesab edirik. 2018-ci ildə ABŞ Ticarət Palatası tərəfindən aparılan iki biznes sorğusunun nəticələrinə baxa bilərik. ABŞ-da bütövlükdə rəqəmsal platformaların istifadəsini araşdıran milli sorğunun nəticələri göstərir ki, kiçik müəssisələr tərəfindən rəqəmsal platformalardan istifadə hər yerdə mövcuddur [15]:

- Kiçik müəssisələrin 84%-i müştərilərə məlumat vermək üçün ən azı bir əsas rəqəmsal platformadan istifadə edir;
- 80%-i məhsul və xidmətləri göstərmək, həmçinin reklam etmək üçün ən azı bir əsas platformadan istifadə edir;
- 79%-i müştərilər və təchizatçılarla ünsiyyət qurmaq üçün rəqəmsal vasitələrdən istifadə edir;
- 75%-i satış üçün texnoloji platformalardan istifadə edir.

Sorğuda iştirak edən kiçik müəssisələrin 57%-i mövcud rəqəmsal alətlərlə tanışlığın olmamasının problem olduğunu bildirib. Bu nəticə göstərir ki, biznes İnternetə çıxış əldə etsə belə, hansı alətlərdən istifadə edəcəyini bilməsi çətin ola bilər. Sahibkarlar öz bizneslərini uğurla başlada bilsələr də, əməliyyatları genişləndirmək üçün işçi tapmaqda çətinlik çəkirlər. Demək olar ki, sadalanan amillərdən kiçik biznes sektorunda səmərəli istifadə üçün ən vacib olanı maddi, maliyyə və insan resurslarıdır. Analoji nəticələri Çin şirkətlərinin biznes və rəqabət strategiyalarında da görmək mümkündür [16].

Kiçik və orta biznesə informasiya dəstəyi biznesə dəstək siyasətinin ən vacib sahəsinə çevrilir. Müəssisədə informasiya infrastrukturunun inkişafına kifayət qədər diqqət yetirilməməsi bir müddətdən sonra müəssisənin fəaliyyətinin tamamilə dayandırılmasına səbəb ola bilər. Yuxarıda aparılan sistemləşdirmənin nəticələri göstərdi ki, kiçik firmaların rəhbərləri isə heç də həmişə informasiya texnologiyalarından istifadə zərurətini görmürlər, bəzən bunu əsassız əlavə xərc hesab edirlər. Baxmayaraq ki, avtomatlaşdırma hər bir müəssisə üçün İT proseslərinin tətbiqinin fərdi olduğunu və şirkətin bütün mövcud resurslarını rasionallaşdırmağa yönəldilməsini nəzərdə tutur. Rəqəmsallaşma biznes arxitekturasını dəyişdirən əsas trendi təşkil edir. KOB biznes proseslərinin rəqəmsallaşdırılması inkişafın əsas vektorlarından biridir. İndi İT bazarı fəal şəkildə böyüyür və xidmət keyfiyyətinin yaxşılaşdırılması, yeni müştərilərin cəlb edilməsi, bazarların inkişafı, analitika, istehlakçı davranışının və tələbinin qiymətləndirilməsi, monitorinq, elektron satınalmaların avtomatlaşdırılması və satışın rəqəmsallaşdırılması üçün müxtəlif texnoloji həllər təklif edir.

Nəticə

Müasir beynəlxalq praktikada, o cümlədən Azərbaycanda kiçik və orta sahibkarlar xammalın, komponentlərin və xidmətlərin qiymətlərinin artması ilə üzləşirlər ki, bu da məhsulun, istehlakçının son dəyərinə və nəticədə təşkilatın inkişafına təsir göstərir. Ancaq rəqəmsallaşma və İT məhsullarının köməyi ilə bir çox problemləri həll etmək olar. Ticarət platformalarının, effektiv idarəetmə sisteminin yaradılması, onlayn iştirakın inkişafı və biznes proseslərinin avtomatlaşdırılması kiçik müəssisələrə məhdudiyyətləri aradan qaldırmağa və bazarları genişləndirməyə imkan verə bilir. Azərbaycanda sahibkarlığa dəstək kursunu və müasir proqram təminatı təklif etməyə hazır etibarlı təchizatçıların fəaliyyətinin inteqrasiyası və tənzimlənməsi biznes qərarlarına kömək edə bilər.

Bu tədqiqatda müxtəlif kiçik biznes proseslərinin informasiya təminatı və dəstəyinini əhatə edə bilən inteqrasiya çərçivəsi təqdim edildi. Burada təklif olunan inteqrasiya proseslərinin qurulması informasiya texnologiyalarından istifadə üçün praktiki yanaşmanı təmin edir. Həlledici uğur amillərinin monitorinqi də öz növbəsində bu tədbirlərin uğurunu qiymətləndirməyə kömək edə bilər. Buna görə də, zənnimizcə, kiçik bizneslər üçün İT strategiyasında əvvəlcə

avtomatlaşdırılmalı olan həlledici fəaliyyətlərə üstünlük verməli, sonra isə həmin biznes proseslərinin yenidən qurulmasının optimal yolları tapmalıdır. Bu sahədə gələcək işlər sahibkarlara və tədqiqatçılara ilk növbədə avtomatlaşdırılmalı olan potensial prioritet sahələri qeyd etməyə və həmçinin rəqəmsal transformasiyaya nail olmağa imkan verər. Bu cür yanaşma biznes prosesin yenidən qurulması haqqında daha yaxşı məlumat verməyə kömək edəcəkdir.

ƏDƏBİYYAT SİYAHISI:

1. How to make small businesses in developing countries more competitive, 27 June 2023, https://unctad.org/news/how-make-small-businesses-developing-countries-more-competitive

2. Christopher Arnold, Small- and Medium-sized Practices (SMPs), The Foundation for Economies Worldwide Is Small Business, | June 26, 2019, https://www.ifac.org/knowledge-gateway/discussion/foundation-economies-worldwide-small-business-0

3. Провалов В. С. Информационные технологии управления малым бизнесом, Программные системы и вычислительные методы – №3(8) 2014, doi: 10.7256/2305-6061.2014.3.13406, https://nbpublish.com/library_get_pdf.php?id=31230

4. "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI, Bakı şəhəri, 21 dekabr 2018-ci il, https://www.taxes.gov.az/az/page/mikro-kicik-orta-ve-iri-sahibkarliq-subyektlerinin-bolgusu-meyarlarinin-tesdiq-edilmesi

5. APEC BEST Awards: SMEs Internationalization Models and Practices, http://apec.org/Publications/2017/02/APEC-BESTAwards-SMEs-Internationalization-Models-and-Practices

6. Azərbaycanda sahibkarlıq, https://www.stat.gov.az/source/entrepreneurship/

7. Ильин И.Е. Малый бизнес в России: проблемы и перспективы [Текст] / И.Е. Ильин // Банковское кредитование. – 2008. – N 2

8. Kiçik və orta biznesə dövlət dəstəyi, Xalq qəzeti, 29.08.2024, https://xalqqazeti.az/az/iqtisadiyyat/191089-kicik-ve-orta-biznese-dovlet-desteyi

9. Uminova Innovation, available at http://uminovainnovation.se

10. Трансформация бизнеса, https://www2.deloitte.com/kz/ru/pages/strategy-operations/solutions/core-business-operations.html

11. Hari Lal Bhaskar, Business process reengineering framework and methodology: A critical study, January 2018 International Journal of Services and Operations Management 29(4):527, DOI:10.1504/IJSOM.2018.090456,

12. Oluwaseun Oladeji Olaniyi, Anthony Idoko Abalaka and Samuel Oladiipo Olabanji, Utilizing Big Data Analytics and Business Intelligence for Improved Decision-Making at Leading Fortune Company,Journal of Scientific Research and Reports, Volume 29, Issue 9, Page 64-72, 2023; Article no.JSRR.105812

13. Исследования Аналитического центра REAL-IT «ИТ-кадры 2010» [Электронный ресурс] // URL: http://www.nisse.ru/business/ article/ article_1873.html.

14. Adoption of Information Technology on Small Businesses: The Role of Environment, Organizational and Leader Determinant/ Rahab, Jogiyanto Hartono // International Journal of Business, Humanities and Technology Vol. 2 № 4; June 2012 – P. 60–66

15. Mysore Ramaswamy, Baton Rouge, Information Technology Strategies For Small Businesses , Issues in Information Systems Volume 20, Issue 2, pp. 216-225, 2019, https://iacis.org/iis/2019/2_iis_2019_216-225.pdf

16. Aliyev,M., Guliyev,M., Abdullaev,U., Huseynova,L., &Azizova,G.(2024). Strategies for improving the competitiveness of agricultural products and China's trade policy in the world market. Scientific Horizons, 27(11), 129-140. doi: 10.48077/scihor11.2024.129, https://sciencehorizon.com.ua/en/journals/tom-27-11-2024/strategiyi-pidvishchennya-konkurentospromozhnosti-agrarnoyi-produktsiyi-ta-torgovelna-politika-kitayu-na-svitovomu-rinku

XÜLASƏ

Məqalə kiçik biznesə informasiya dəstəyinin elmi və praktik məsələlərinə həsr olunur. Bu tədqiqatın məqsədi bazar iqtisadiyyatı subyektləri kimi kiçik biznes kateqoriyasının fəaliyyətində informasiya texnologiyalarından istifadə mühitini, informasiya təminatını və xüsusiyyətlərini araşdırmaqdır. Məqalədə kiçik biznesin informasiya təminatına dair məlumatların sistemləşdirilməsinin ümumi elmi metodlarından istifadə olunur. İnformasiya mühitinin tələb etdiyi tədbirlərin daha dəqiq müəyyən edilməsi üçün məqalədə biznes seqment-

lərinə differensial yanaşmaqla əsas bazar amilləri öyrənilmişdir. Tədqiqatın əsas töhfəsini müxtəlif dəstək növünün hər bir konkret kiçik biznes fəaliyyətində necə inteqrasiya olunması, onların idarəedilməsi və layihənin uğuruna necə təsir göstərməsi barədə sistemli baxışın formalaşdırılması təşkil edir. Məqalədə kiçik biznes proseslərinin təşkili və məlumat analitikası kimi sahələrdə rəqəmsal texnologiyaların tətbiqindəki çatışmazlıqlara nəzər salınır və qabaqcıl təcrübələr təhlil olunur. Təqdim olunan məqalə müvafiq İT strategiyasının seçilməsinə kömək edən konseptual çərçivə təklif edir.

Açar sözlər: *KOBİA, IT Strategiya, Business Data Analitika, kiçik biznesin informasiya təminatı, rəqəmsal transformasiya.*

Rana Guliyeva
Master, Azerbaijan State University of Economics
e-mail: ranaguliyeva44@gmail.com
ORCID: 0009-0006-2210-0581

INTEGRATION OF INFORMATION PROVISION AND SUPPORT FORMS IN SMALL BUSINESS MANAGEMENT

Abstract

The article is devoted to the scientific and practical issues of information support for small businesses. The purpose of this study is to investigate the environment, information provision and characteristics of the use of information technologies in the activities of the small business category as market economy entities. The article uses general scientific methods for systematizing data on the information provision of small businesses. In order to more accurately determine the measures required by the information environment, the article studies key market factors by taking a differential approach to business segments. The main contribution of the study is to develop a systematic view of how different types of support are integrated into each specific small business activity, how they are managed, and how they affect the success of the project. The article examines the shortcomings in the application of digital technologies in areas such as small business process organization and data analytics and analyzes best practices. The presented article offers a conceptual framework that helps in selecting an appropriate IT strategy.

Keywords: *KOBİA, IT Strategy, Business Data Analytics, small business information provision, digital transformation.*

Рена Гулиева
Магистр, Азербайджанский Государственный Экономический Университет
e-mail: ranaguliyeva44@gmail.com
ORCID: 0009-0006-2210-0581

ИНТЕГРАЦИЯ ФОРМ ИНФОРМАЦИОННОГО ОБЕСПЕЧЕНИЯ И ПОДДЕРЖКИ В УПРАВЛЕНИИ МАЛЫМ БИЗНЕСОМ

Резюме

Статья посвящена научным и практическим вопросам информационного обеспечения малого бизнеса. Целью данного исследования является изучение среды, информационного обеспечения и особенностей использования информационных технологий в деятельности субъектов малого бизнеса как субъектов рыночной экономики. В статье использованы общенаучные методы систематизации данных по информационному обеспечению субъектов малого предпринимательства. Для более точного определения мер, которые требует информационная среда, в статье изучаются ключевые факторы рынка с использованием дифференцированного подхода к сегментам бизнеса. Основной вклад исследования заключается в разработке системного представления о том, как различные типы поддержки интегрируются в каждую конкретную деятельность малого бизнеса, как они управляются и как они влияют на успех проекта. В статье рассматриваются недостатки применения цифровых технологий в таких областях, как организация процессов малого бизнеса и аналитика данных, а также анализируются передовые практики. Представленная статья предлагает концептуальную основу, которая поможет выбрать подходящую ИТ-стратегию.

Ключевые слова: *Агентство развития малого и среднего бизнеса (KOBİA), ИТ-стратегия, аналитика бизнес-данных, информационное обеспечение малого бизнеса, цифровая трансформация.*

Fəlsəfə və Sosiologiya

UOT 1
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.320

ALİ TƏHSİLİN QLOBALLAŞMASININ SOSİAL-MƏDƏNİ ASPEKTLƏRİ

MÜSLÜM NƏZƏROV
Fəlsəfə elmləri doktoru
E-mail: muslimnazarov@mail.ru

Qloballaşma prosesi müasir dünyanın səciyyəvi xüsusiyyətidir, onun əsas tendensiyası bütün dünya iqtisadiyyatının, siyasətinin, mədəniyyətinin, beynəlxalq inteqrasiyaya yönəlmiş münasibətlərin kursuna çevrilmişdir. Qloballaşma nəticəsində dünya bu sistemə daxil olan hər bir subyekt üçün vahid, birmənalı, başa düşülən və müəyyən bir bütövə çevrilir. Qloballaşmanın addımları cəmiyyət həyatının demək olar ki, bütün sahələrinə təsir göstərmişdir. Qloballaşma çərçivəsində təhsil sistemində də az əhəmiyyətli dəyişikliklər baş verməmişdir.

Qloballaşma dünya miqyasında iqtisadi, siyasi və mədəni inteqrasiya prosesi kimi qəbul edilir. Mədəni qloballaşma müxtəlif ölkələr arasında biznes və istehlak mədəniyyətinin yaxınlaşması, beynəlxalq ünsiyyət üçün xarici dillərin (xüsusilə ingilis dilinin) geniş yayılması, beynəlxalq turizmin inkişafı və təkcə universal ünsiyyət vasitəsinə deyil, həm də getdikcə daha çox tanınan təhsil və elmi fəaliyyət vasitəsinə çevrilən İnternetdən istifadənin artması ilə xarakterizə olunur.

Təhsilin qloballaşmasının iki aspektini ayırd etmək olar.

Bir tərəfdən, iqtisadiyyat və sənaye regionun, ölkənin və ya şəhərin intellektual resurslarını iqtisadi artıma və digər sosial məqsədlərə nail olmağa kömək edən amillərə çevirmək məqsədi ilə təhsillə birləşməyə çalışır.

Digər tərəfdən, müasir dünyanın iqtisadi, ictimai-siyasi, mədəni həyatının beynəlmiləlləşməsi təkcə əmtəə və kapital deyil, həm də bilik, indi isə ali təhsil müəssisələri və ölkələr arasında tələbə və müəllim mübadiləsini tələb edir. Beləliklə, təhsilin qloballaşması ümumi qloballaşmanın tamamilə məntiqi və təbii tərkib hissəsinə çevrilmişdir.

Təhsil sistemində qloballaşmanın əsas elementi elmi-texniki tərəqqinin kəskin və sürətli inkişaf mərhələsi ilə kompüter texnologiyasının inkişafı ilə birlikdə öz səyahətinə çıxan cəmiyyətin informasiyalaşdırılmasına çevrilmişdir. Cəmiyyətin kompüterləşdirilməsi və informasiyalaşdırılması texnologiyalarının insanların həyatının bütün sahələrinə geniş şəkildə daxil edilməsinə, real canlı ünsiyyətin tədricən minimuma endirilməsinə səbəb olmuşdur.

Müasir dünya dərk edir ki, informasiya qloballaşması bir tərəfdən insanın dünyagörüşünü genişləndirməyə, kainatın ətraf genişliklərini, planetimizin bütün müxtəlifliyini insanlardan, mədəniyyətlərdən, yaşayış yerlərindən tutmuş öyrənmək və görmək, dost və tanışlar dairəsini, əsasən virtual olsa da, artırmaq, elmin və texnologiyanın ən son nailiyyətləri ilə tanış olmaq imkanı verir.

Yeni iqtisadi şəraitdə humanist və humanitar komponent (qlobal bazar, İKT və s.) texnokratik, formal-bürokratik yanaşmanın təzyiqi altında arxa plana keçir, bu yanaşma təhsilin vəzifələrini son dərəcə praqmatikləşdirir, onu "müəyyən sahədə uyğunlaşma qabiliyyətinə" malik "fəaliyyət göstərən insan" formalaşdırmağa yönəldir [9]. Bu texnoloji yanaşma, şəxsiyyətin formalaşması üçün əhəmiyyətindən müasir təhsil sisteminin yaradıcıları tərəfindən müzakirə edilən mənəviyyatdan çox, ilk növbədə, zəkaya diqqət yetirilir.

Təhsil, "pedaqoji cəhətdən uyğunlaşdırılmış təcrübə"nin ötürülməsi şəklində təqdim olunan bir mədəniyyət kimi, ilk növbədə, şəxsiyyətin formalaşması üçün əsas olan mənəvi dəyərlər sistemi ilə müəyyən edilir. Lakin tədricən qloballaşma şəraitində ali təhsil müəssisəsinə yeni tələblər qoyan postindustrial cəmiyyətdə onlar tədricən ön plana çıxmağa başladılar. Təhsil sektoru getdikcə geosiyasi problemlərin həllində bazarlar uğrunda mübarizə alətinə çevrilir. Nəticədə, ali peşə təhsili beynəlmiləlləşir və təhsil sistemlərinin inkişafının qlobal tendensiyalarına və vahid fundamental fəaliyyət prinsiplərinə uyğun olaraq mütəxəssislər hazırlamağa çalışır. İqtisadi rasionallığın hökmranlığına misal olaraq "insanların, ideyaların və məlumatların sərhədləri aşdığı ümumi ssenarinin bir hissəsi" kimi çıxış edən və əslində "dünya bazarları və dünya mediası kimi qloballaşmanın formalarından biri" kimi çıxış edən Boloniya prosesini göstərmək olar.

Beynəlxalq birliyin aktiv üzvü kimi Azərbaycan Avropada bir çox inteqrasiya proseslərinin, o cüm-

lədən elm və təhsil sahəsində inteqrasiya proseslərinin iştirakçısıdır. 2005-ci ildə Azərbaycan Boloniya Konvensiyasını imzalamaqla və onun prinsiplərinin qəbulu ilə əlaqədar öz üzərinə müəyyən öhdəlikləri götürməklə rəsmi olaraq Boloniya prosesinə qoşuldu. Azərbaycan Respublikası təhsil sisteminin ümumAvropa standartlarına uyğunlaşdırılması istiqamətində bir sıra beynəlxalq müqavilələr imzaladı [5,s.237].

Qloballaşmanın əsas impulslarını iqtisadiyyat istehsal edir. Müasir qlobal iqtisadiyyatı bütün dünya üçün eyni qaydalarla oynamağa üstünlük verən bazar idarə edir. Bunun üçün o, vahid prinsiplərə əsaslanan və vahid mərkəzdən idarə olunan dünya yaratmağa çalışır.

Vahid dünya iqtisadi, mədəni məkanının yaradılması prosesində qloballaşan iqtisadiyyatın tələbləri, ilk növbədə, yüksək elmi tədqiqat potensialına malik olan universitetlərin ən səmərəli modellərinin bütün dünyada yayılması prosesini stimullaşdırır, çünki sonuncu ayrı-ayrı dövlətlərin yeni iqtisadi yüksəlişi üçün resurs yaradır. Buna görə də, konkret universitetin nüfuzlu beynəlxalq reytinqlərdə yüksək mövqeyi getdikcə daha çox dövlətlər üçün xüsusi narahatlıq doğurur, çünki o, təkcə milli təhsil sistemlərinin inkişaf səviyyəsinin deyil, həm də konkret ölkənin ümumi inkişafının mühüm göstəricisi hesab olunur.

Ali məktəblərin əksəriyyəti ilk növbədə cəmiyyətin iqtisadi və texnoloji sferasının infrastrukturuna xidmət edir. Bu, digər sosial funksiyaların həyata keçirilməsinə mane olur, çünki təhsil təkcə "iş və peşə fəaliyyəti üçün zəruri olan hər şeydə" bilik və məşq ötürmək deyil, həm də mədəni dəyərlərin ötürülməsidir, buna görə də "dünyaya öz gözləri ilə və öz kateqoriyaları ilə baxmağı öyrənməli" gənclərin yetişdirilməsi prosesidir ki, bu da onlara müstəqil şəkildə ətrafdakı reallıqla harmoniyaya gəlməyə imkan verəcəkdir [8].

Qloballaşma müxtəlif mədəniyyətlərə və təhsil müəssisələrinə malik regionları zəbt edir. Fikrimizcə, o, ən azı iki əsas yolla inkişaf edə bilər - "təbii" və "süni". Birincisi təkamül xarakteri daşıyır, o zaman ki, digər ənənələrin qavranılması könüllü və arzuolunan dərəcədə baş verir. İkincisi məcburidir, "xüsusi" olan hər şeyin ciddi nizam-intizamı ilə əldə edilir, məsələn, universal olduğunu iddia edən hansısa sosial-mədəni modelin tətbiqi şəklində. Bu, məsələn, təfəkkür tərzinin, dilin, dəyərlərin və uyğun ideologiyaların "tətbiq olunduğu" "Qərbləşmə" vəziyyətində baş verir, burada "liderlər" və "izləyicilər" arasında fərq qoyulur və onlara "tutma" rolu verilir. Amma hər iki halda hər bir milli mədəniyyət öz özünəməxsusluğunu və orijinallığını qoruyub saxlamağa çalışır [10]. Bu baxımdan, qloballaşma fenomeni çoxsaylı müzakirələrə səbəb olur, bu zaman aydın olur ki, müxtəlif dəyər sistemlərinin inteqrasiyası ilə bağlı bir sıra əsas məsələlər (bəzən o qədər radikal şəkildə əks olunur ki, "qapalı olmayan dəyər çatlaması" haqqında danışmaq olar) lazımi aydınlıq gətirilmədən qalır.

"Mədəni xüsusiyyətlərin" nəzərə alınması zərurəti dünyanın qlobal yenidən qurulmasının ideoloqları tərəfindən asanlıqla qəbul edilir. Bununla belə, məsələ adətən mədəniyyətlərin "ekvivalentliyi" haqqında ümumi müzakirələrlə və onların "xüsusi xüsusiyyətlərini" mümkün qədər qorumaq istəyində razılaşma ilə məhdudlaşır. Qloballaşma digər sosial-mədəni ənənələrin nailiyyətlərinin könüllü qavranılmasının baş verdiyi təbii sosial inteqrasiya prosesi kimi həyata keçirilmir, əksinə "qloballaşma" (yerlinin qlobala daxil edilməsi) kimi çıxış edir. Bu, başqa mədəniyyətin "özgəliyi"nə həmişə nəinki özünün adi ideyaları çərçivəsində "uyğunlaşa" bilən konkret məzmun komponentini, həm də biliklərin ötürülməsi üsulu ilə əlaqəli məntiqi və semantik komponenti və müxtəlif mədəniyyətlərin nümayəndələrinin düşüncə proseslərinin xüsusiyyətlərini ehtiva etdiyini nəzərə almır. Mədəniyyətlərin dialoqu zamanı substantiv "özgəliyi" (müxtəlifliyi) mahiyyətcə ümumi bir şey tapmaqla aradan qaldırmaq olarsa, onda "rasionallığın əsas prosedurlarının həyata keçirilməsinin nəticəsi olan" məntiqi-semantik bir çox vaxt bizə alternativlik və ziddiyyət nümayiş etdirir [7, s.141].

Qloballaşma kontekstində təhsil modellərini (müvafiq olaraq başqa mədəniyyətin məqsəd və dəyərlərini) qəbul etmək məsələsində müxtəlif ölkələrin "plastiklik" dərəcəsi məsələsi də aktuallaşır. Bu sual ondan irəli gəlir ki, təhsil təcrübələrində ötürülən sosial fəaliyyət nümunələrinin başqa mədəni kontekstə "köçürülməsi" çox vaxt ya gizli "materialın müqavimətinə" səbəb olur, ya da ilkin mənasını itirərək transformasiya olunur.

Cəmiyyətin siyasi və iqtisadi həyatında baş verən ən mühüm dəyişikliklərdən biri də biliyin iqtisadi inkişafın hərəkətverici qüvvəsi kimi əhəmiyyətinin artması, informasiya-kommunikasiya inqilabı,

qlobal əmək bazarının yaranması, qlobal miqyasda sosial-siyasi transformasiyalardır. Qloballaşma müxtəlif sahələrdə, o cümlədən ali təhsildə dövlət siyasətinin formalaşmasına böyük təsir göstərir. Qloballaşmanın əsas xüsusiyyətlərindən biri beynəlxalq mübadilənin beynəlmiləlləşməsi və intensivləşməsi və iqtisadi, siyasi və mədəni inteqrasiya və birləşmə nəzərə alınmaqla vahid beynəlxalq məkanın tədricən formalaşmasıdır. Qloballaşmanın əsas səbəbləri ali təhsildə bunlardır: beynəlxalq əmək bazarının formalaşması, informasiya texnologiyalarının sürətli inkişafı, biliklər iqtisadiyyatının inkişafı; əcnəbi tələbələrin ödənişli təhsilə cəlb edilməsi hesabına maliyyə gəlirlərinin artırılması; tədris proqramlarının genişləndirilməsi və tələbələrin xarici universitetlərdə hazırlanması; resurslarından səmərəli istifadə etmək üçün universitetin regional şəbəkəsinin genişləndirilməsi; tələbə və müəllimlərin beynəlxalq bilik mübadiləsi prosesində iştirakı vasitəsilə təhsilin keyfiyyətinin yüksəldilməsi və s..

Təhsildə qloballaşma meyilləri aşağıdakı aspektlərdə özünü göstərir:

1. Qlobal beynəlmiləlləşmə və təhsilin açıqlığı. Ali təhsilin beynəlmiləlləşməsi xarici universitetlərə tələbə axınının artması, eləcə də müəllim və tədqiqatçılar arasında qarşılıqlı mübadilə formasında özünü göstərir; xarici proqramlardan, dərsliklərdən, ədəbiyyatdan və telekommunikasiya məlumat mənbələrindən istifadə; beynəlxalq akkreditasiya prosedurlarının tətbiqi, universitetlərarası əməkdaşlığın beynəlxalq növləri.

Beynəlxalq rəqabətin artması nəticəsində qloballaşmanın təsiri sahibkarlıq təhsilinin yayılmasına gətirib çıxarır. Buna misal olaraq praktiki menecerlərin hazırlanmasına yönəlmiş MBA təhsilini göstərmək olar. Bu, biznesin qloballaşması ilə bağlıdır. Müasir şəraitdə şirkətlərin uğuru idarəetmə kadrlarının səviyyəsi, onların innovativ istehsal və idarəetmə metodlarına əsaslanan transsərhəd istehsal və paylama sistemini səmərəli təşkil etmək bacarığı ilə müəyyən edilir.

